*Azərbaycan Respublikasının*
*Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

*Azərbaycan*
*Respublikası Gənclər*
*Fondu*



**Azərbaycan Xalqının Ümummilli Lideri**

**HEYDƏR ƏLİYEVİN**

**anadan olmasının 100-cü ildönümünə həsr olunmuş**

# «HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR»

**mövzusunda**

**RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ**

**M A T E R İ A L L A R I**

**I I  c i l d**

**Bakı, 25 dekabr 2023**

**"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."**

**HEYDƏR ƏLİYEV**
**Ümummilli Lider**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |
| **Sədr müavini:** | |
| Qədir Xəlilov | Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən |
| **Üzvlər:** | |
| Ülvi Adgözəlov | Azərbaycan Respublikasının Gənclər Fondunun Proqram və layihələrin idarə olunması şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən |
| Ziyafət Həbibova | DİA, Tədris-metodiki və Analitika şöbəsinin müdiri, professor |
| Elvin Əzizbəyov | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent |
| Murtəza Həsənov | DİA, Siyasi idarəetmə fakültəsinin dekanı, dosent |
| Elnur Əliyev | DİA, İnzibati idarəetmə fakültəsinin dekanı, dosent |
| Yusif Ağayev | DİA, Rektorun ictimai əlaqələr üzrə müşaviri, dosent |
| Zaur Məmmədov | DİA, Rektorun sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşaviri |
| Kəramət Qənbərov | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Aygün Qurbanova | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Mirtalıb Qubadov | DİA, Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının doktorantı |
| Nihad Təhməzov | DİA, Tələbə Gənclər Təşkilatının sədri |



## KONFRANSIN PROQRAM KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| Əlikram Abdullayev | DİA, I (Tədris işləri üzrə) prorektor, professor |
| **Sədr müavini:** | |
| Hikmət Məmmədov | DİA, Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor |
| **Məsul katib:** | |
| Elçin Əhmədov | DİA, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru |
| **Üzvlər:** | |
| Əli Nuriyev | DİA, Regional iqtisadi və sosial araşdırmalar institutunun direktoru, professor |
| Elman Nəsirov | DİA, Siyasi araşdırmalar institutunun direktoru, professor |
| Gülnarə Qurbanova | DİA,Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması institutunun direktoru, professor |
| Namiq Əliyev | DİA, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, professor |
| Nigar Ələkbərova | DİA, Politologiya və siyasi idarəetmə kafedrasının müdiri, professor |
| İsaxan Vəliyev | DİA, Hüquq kafedrasının müdiri, professor |
| Xatirə Hüseynova | DİA, Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, professor |
| Azər Əmiraslanov | DİA, İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, dosent |
| Firdovsiyyə Əhmədova | DİA, Tarix kafedrasının müdiri, dosent |
| Elçin Abasov | DİA, Dövlət İdarəçiliyində İnformasiya Texnologiyaları kafedrasının müdiri, dosent |
| Ülkər Şəfiyeva | DİA, Dillər kafedrasının müdiri, dosent |
| Sevil Məmmədova | DİA, Politologiya və siyasi idarəetmə kafedrasının dosenti |
| Gülnar Mirzəyeva | DİA, İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti |

## PLENAR İCLAS
**25 dekabr 2023-cü il, saat 10:00**
**(DİA, Böyük akt zalı)**

| **Giriş sözü:** | |
|---|---|
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |
| Fərhad Hacıyev | Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini |
| Sadiq Qurbanov | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri |
| Qədir Xəlilov | Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən |

| **Çıxışlar:** | |
|---|---|
| Elman Nəsirov | DİA, Siyasi araşdırmalar institutunun direktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| Aydın Mirzəzadə | DİA, Dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| İsaxan Vəliyev | DİA, Hüquq kafedrasının müdiri, professor |



## M Ü N D Ə R İ C A T

***Ağayev Aqşin***
Siyəzən rayonunda davamlı inkişafın təmin olunmasında sosial-iqtisadi göstəriciləri....14
***Ağayev Bəhram***
Təbiət idman növlərinin turizmə təsiri....16
***Ağayev Emin***
Regional davamlı inkişafda maliyyə resurslarının idarə edilməsi (Salyan rayonu timsalında)....19
***Ağayeva Mehriban***
Ailə dəyərləri və onların dəyişmə dinamikası....20
***Allahquluzadə Təbriz***
Aqrar sahədə davamlı inkişafın təmin edilməsinin zəruriliyi....23
***Aslanlı Fərid***
Regional turizmin inkişafı perspektivləri (Masallı rayonu timsalında)....26
***Bağırov Hikmət***
Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin banisidir....28
***Bağırov Vüsal***
Davamlı inkişafın təmin edilməsində dövlətin sənaye siyasəti....36
***Cabbarov Orxan***
Regionların davamlı inkişafında prioritet istiqamətlər....40
***Jakbarova Nərgiza***
Qələbənin əldə edilməsində İlham Əliyevin liderlik siyasətinin xa-rici mətbuatda işıqlandırılması....43
***Cəbrayılov Anar***
Azərbaycan Respublikasının miqrasiya siyasəti və regional pro-seslər....61

*Əbilov Rəşid*
Davamlı inkişafın təmin edilməsində innovativ kənd təsərrüfatı (Beyləqan rayonu timsalında)..........................................................63
*Əhmədov Eldar*
Azərbaycanın davamlı inkişafında yaşıl enerjinin inkişaf perspektivləri.........................................................................................64
*Əliyev Anar*
Qobustan rayonunda alternativ enerji resurslarının idarə edilməsi...................................................................................................67
*Əliyev Aydın*
İnsan potensialının formalaşması kontekstində dövlət müəssisələ-rində iş vaxtının idarə edilməsi..................................................................69
*Əliyev Zaur*
Prokurorluğun hüquq-mühafizə orqanları sistemində yeri və rolu...................................................................................................70
*Əliyev Zəka*
Heydər Əliyev və Azərbaycan gəncliyi............................................72
*Əlizadə Yusif*
Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin banisidir...............74
*Ərəbova Fəxriyə*
Ümumilli lider Heydər Əliyev və Sumqayıtın transformasiyası: şəhərin davamlı inkişafına böyük töhfə.............................................78
*Əsgərov Fərhad*
Yerli ərazi idarəetmə orqanlarının inkişafa təsiri...............................80
*Əzimov Arif*
Davamlı inkişafa təsir edən ekoloji problemlər (cənub regionunun timsalında)..........................................................................................82
*Əzizov Nuran*
"Ümummilli lider Heydər Əliyev irsi-Azərbaycanda gənclər siyasətinin əsasıdır"..................................................................................85




*Həsənov Ariz*
Aqrar sahənin davamlı inkişafı(İsmayıllı rayonunun timsalın-da)....89
*Həsənzadə Turan*
Astara rayonunda əhalinin həssas qrupları ilə işin təşkili...................91
*Həsilov Elvin*
Vətəndaş məmnunluğu və iştirakçılıq səviyyəsinin yüksəldilməsi yolları: Qax rayonu timsalında..........................................................93
*Hümbətbəyli Fətəli*
Laçın rayonunun davamlı inkişaf perspektivləri.............................97
*Hümbətov Ziya*
Azərbaycan Respublikasının gənclər siyasətində Ulu öndər Heydər Əliyevin rolu......................................................................................102
*Hümmətova Günel (Pəniyeva)*
Mahirə Nağıqızı yaradıcılığında Qarabağ mövzusu.........................105
*Hüseynov Toğrul*
Azərbaycan dövlət idarəçiliyinin təkmilləşdirilməsində publik hüquqi şəxslərin yeri və rolu.......................................................................108
*Hüseynzadə Sahil*
Azərbaycanda vətəndaş cəmiyyətinin uğurları və problemləri.........111
*İbrahimov Xəlfə*
Sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi istiqamətləri............120
*İbrahimova Məmləkət*
Gənclərlə işin təşkilində innovativ idarəetmə metodları..................122
*İsazadə Nail*
İnkluziv inkişafda turizmin rolu (Qəbələ rayonu timsalında)...........125
*İsgəndərov Ceyhun*
Vətəndaş məmnunluğu və iştirakçılıq səviyyəsinin təmin olunması Xızı rayonu timsalında...................................................................128
*İsmayılov Nəzər*
Seçki prosessində gənclərin rolu və innovasiyaların tətbiqi.............135

*İsmayılzadə Şanel*
Dövlət qulluğunda motivasiya mexanizmləri..................................138
*Kərimov Sərxan*
Ümummilli lider və Azərbaycan Respublikasında müasir dövlət qulluğu sistemi..................................................................................142
*Qasımov Arzuman*
İnnovasiya anlayışı...........................................................................144
*Qədimquliyeva Günel*
İnzibati – hüquqi islahatların anlayışı və sistemi..............................147
*Qədirova Nərmin*
Vətəndaş məmnunluğunun təmin olunması:Suraxanı rayonu timsalında..........................................................................................152
*Qılıncxanova Fatma*
Ulu öndər Heydər Əliyev və Azərbaycan gəncliyi...........................155
*Qubadov Mirtalıb*
İnklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlar.........158
*Quluyeva Gülnar*
İnkluziv təhsilə cəlb olunan şəxslərlə işin aparılması......................165
*Məmmədli Əli*
Cəbrayıl rayonunun maddi mədəniyyət və təbii-resurs potensialı-nın təhlili..............................................................................................168
*Məmmədli Zahid*
Ulu öndər Heydər Əliyev və Azərbaycan turizmi.............................177
*Məmmədov Azər*
Ümummilli lider Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti..................................................................................................182
*Məmmədov Bəxtiyar*
Əhalinin həssas qruplarının müəyyənləşdirilməsinin meyarları və onların təsnifatı..................................................................................186



*Məmmədov Elmar*
Azərbaycanda gənclərlə işin institusional və hüquqi əsasları.......... 190
*Məmmədov Elvin*
Ümumilli lider Heydər Əliyevin nəqliyyat strategiyası ölkəni da-vamlı iqtisadi inkişafa aparan yol kimi....................................................201
*Məmmədov Emin*
Hacıqabul rayonunda əmək bazarının inkişaf dinamikası................204
*Məmmədov Namil*
Mərkəzi və yerli idarəetmə orqanları arasında səlahiyyət bölgüsü (Binəqədi rayonunun timsalında)....................................................207
**Məmmədov Nicat**
"Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam şəhərinin inkişaf perspektivləri...................................................................................209
*Məmmədov Orxan*
Cəbrayıl rayonunun nəqliyyat infrastrukturunun "şimal-cənub" və "şərq-qərb" beynəlxalq nəqliyyat dəhlizinin reallaşdırılmasında yeri...................................................................................................212
*Məmmədova Fatimə*
İqtisadiyyatın idarə olunmasında yeni yanaşmalar...........................217
*Məmmədova Nərminə*
Gənclərin dini radikallıqdan uzaqlaşdırılmasında maarifləndirmə tədbirlərinin rolu..............................................................................225
*Məmmədova Şahanə*
Azərbaycan Respublikasında dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsində innovasiyaların tətbiqi............227
*Mikayılov Cahid*
Azərbaycan,Çin və Koreyada bərpa olunan enerji siyasətinin müqayisəli təhlili: yaşıl inkişaf üçün yeni təkliflər...........................230
*Mirzəyev İsmət*
Laçın rayonunun iqtisadi potensialı.................................................235

*Muradxanlı Muradxan*
İşğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin aparılmasında gənclərin fəaliyyəti.........................................................................245
*Musayev Fuad*
Regional inkişafda kənd təsərrüfatının inkişaf perspektivləri...........248
*Musayeva Röya*
Dünyada təhsil idarəçiliyinin vəziyyəti...........................................250
*Mürsəlov Elşən*
Dövlət orqanlarında ictimaiyyətlə əlaqələr işinin təşkili(Tovuz rayonu timsalında).........................................................................254
*Nəsibov Emin*
Xəbərvermə institutunun yaranması və inkişaf tarixi, korrupsiyaya qarşı mübarizədə rolu......................................................................256
*Nəsirli Murad*
Əmək bazarlarının dəyişkənliyi......................................................260
*Orucov Novruz*
Azərbaycan Respublikasında elektron hüququn tətbiqində rəqəmsal inkişafın idarə olunmasının perspektivləri......................................264
*Rəhimov Aqil*
Azərbaycan Respublikasında gənclər siyasəti dövlət siyasətinin prioritet istiqaməti kimi.........................................................................267
*Rzayev Asim*
Azərbaycan Respublikasında yerli özünüidarəetmə sisteminin formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin rolu.............271
*Rzayev Tural*
Mütərəqqi sənaye quruluşları və onların xarakterik cəhətləri Nax-çıvan Muxtar Respublikasının davamlı inklüziv inkişafı (Şərur sənaye məhəlləsinin timsalında)...............................................................274
*Rza Gülmirə*
Texnologiyanın vətəndaş məmnunluğuna təsiri..............................282



*Sadıqlı Şahin*
Davamlı inkişafın sosial komponentlərinin statistik təhlili.............284
*Sadıqov Ayxan*
Müasir şəraitdə Azərbaycanda miqrasiya xidmətlərinin təkmilləşdirilməsi rolu.....................................................................................287
*Salmanova Gülnar*
Ümummilli lider Heydər Əliyevin gənclər siyasəti uğurla davam etdirilir...........................................................................................291
*Salamova Ayan*
İnklüziv inkişafın təmin edilməsində səmərəli iqtisadi idarəetmə-nin əhəmiyyəti.........................................................................................298
*Sarıyeva Aynel*
Dövlət idarəçiliyi üzərində nəzarətin prosessual formaları və metodları...............................................................................................303
*Süleymanov Ozal*
Azərbaycanda kənd təsərrüfatı sənayesinə innovativ yanaşmalar.....................................................................................................305
*Şeydayeva Gülşən*
Dövlət qulluğunun idarə olunmasında yeni texnologiyaların tətbiqi.....................................................................................................306
*Şıxcəfərli Cavid*
Yasamal rayonu üzrə təhsil və mədəniyyət müəssisələri ilə əlaqələrin təşkili...............................................................................................308
*Tahirov Tahir*
Azərbaycan Respublikasının dövlət qulluğu sistemində hüquqi islahatlar...............................................................................................310
*Vəliyev Samir*
Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin banisidir............313

***Yolçuyev Elşən***
Dövlət qulluqçularının motivasiyası dövlət qulluğunun səmərəliliyinin artırılması vasitəsi kimi...................................................................315
***Yoldaşov Samir***
Vətəndaş cəmiyyətinin formalaşmasında dini icmaların rolu...........319
***Yusifov Hüseyn***
Heydər Əliyev və Azərbaycan gəncliyi..........................................322
***Ahmedova Zeynab***
Priorities of strengthening the health insurance system in Azerbaijan…………………………………………………..……..329
***Асадова Ханум***
Государственная и политическая деятельность Гейдара Алиева в Нахчыванский период...................................................................332
***Асланов Эльгюн***
Внешняя политика Гейдара Алиева………………......………..334



# SİYƏZƏN RAYONUNDA DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASINDA SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏRİ

**Ağayev Aqşin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**
Davamlı inkişaf konsepsiyasının Azərbaycanda həyata keçirilməsi və onun dövlətin əsas strategiyası kimi qəbul edilərək sosial, iqtisadi, ekoloji, eyni zamanda ictimai həyatın digər sahələrinə tətbiqi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin çox mühüm istiqaməti kimi regionların sosial-iqtisadi inkişafı götürülür.

***Açar sözlər:*** *region, davamlı inkişaf, iqtisadiyyat, idarəetmə, islahatlar.*

Son illər respublikada aparılan uğurlu islahatlar nəticəsində regionların sosial-iqtisadi inkişafının təməli qoyularaq davamlı inkişafa keçidin əsas şərtlərinə nail olunmuşdur. Regionların iqtisadiyyatının daxili rəqabət qabiliyyətinin təmin edilməsi hər bir iqtisadi rayonun ərazisinin malik olduğu resurslar balansı və onlardan istifadə dərəcəsindən, bu sahədə dövlətin formalaşdırdığı və reallaşdırdığı iqtisadi siyasətin xarakterindən də çox asılı olur [1, 3].

Çünki, ölkənin, hər bir regionun dinamik və tarazlı inkişa-fının təmin olunması, onun malik olduğu mütləq və nisbi üstün-lüklərin reallaşdırılması öz növbəsində perspektiv dövrə nəzərən müvafiq investisiya, struktur, elmi-texniki, innovasiya, aqrar, sə-naye, məşğulluq, ekologiya sahələrində regional siyasətdə qarşılıqlı əlaqə və asılılıqda formalaşdırılaraq ümummilli iqtisadi inkişaf strategiyasının

işlənib hazırlanmasını və həyata keçiril-məsində əks olunur. Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlayaraq növbəti beş il üçün (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə)“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”ları hazırlanmışdır[2]. Qeyd edilən Dövlət Proqramlarının icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahib-kar-lıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlə-rinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldil-məsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaş-dırıl-masında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynamışdır [5].

Siyəzən rayonunun iqtisadi və sosial sferaları üzrə makro-iqtisadi göstəricilərinin təhlili bu bölgənin inkişafı ilə bağlı real mənzərəni müəyyənləşdirməyə imkan verir. Siyəzən rayonu Quba-Xaçmaz iqtisadi rayonuna daxildir. Rayonun iqtisadiy-yatında neft-qaz hasilatı və kənd təsərrüfatı üstünlük təşkil edir. Siyəzən rayonunda 1 şəhər, 1 qəsəbə və 32 kənd olmaqla 34 yaşayış məntəqəsi vardır [4]. Qeyd etmək lazımdır ki, ötən dövr ərzində rayonda əhəmiyyətli infrastruktur və sosial layihələr uğurla həyata keçirilmiş, geniş abadlıq və quruculuq işləri davam etdirilmiş, məhsul istehsalı və xidmət sahələrinin dinamik inkişafı təmin olunmuş, onlara mütənasib olaraq sosial məsələlər uğurla həll edilmişdir. Bütün bunlar, Siyəzən rayonu üzrə inkişaf göstəriciləri, uğurlar və perspektivlər dərin elmi təhlil tələb edir.



**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadiinkişafa dair Milli Prioritetlər”
2. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı ildə imzaladığı “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiqedilməsi ihaqqında” Fərmanı
3. https://www.stat.gov.az/menu/4/e-reports/
4. http://siyezen-ih.gov.az/az
5. www.economy.gov.az


## TƏBİƏT İDMAN NÖVLƏRİNİN TURİZMƏ TƏSİRİ


**Ağayev Bəhram**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


Təbiət idmanları əsasən açıq havada həyata keçirilən və təbiətlə qarşılıqlı əlaqəni ehtiva edən idman və istirahət fəaliyyətlərinə aiddir. Bu cür fəaliyyətlər fərdlərə bir sıra faydalar, o cümlədən fiziki sağlamlıq, əqli rifah və ətraf mühit haqqında məlumat verir. Bu cür təbiət idmanlarına aşağıdakıları aid edə bilərik:

- Gəzinti,
- Düşərgə,
- Alpinizm,
- Kano,
- Velosiped sürmə,

- Balıqçılıq,
- Fotoqrafiya və s.

Bu cür fəaliyyətlər fərdlərə təbiətlə harmoniyada yaşamağa kömək edir.

Təbiət idmanları çox vaxt turizmə və yerli iqtisadiyyata müxtəlif təsirlər göstərə bilər. Bu təsirlər əsasən aşağıdakı kimi qruplaşdırıla bilər [1-4]:

Turizm gəliri: Rafting tez-tez turistləri cəlb edən bir fəaliyyət ola bilər. Bu idman növünün inkişafı bölgəyə gələn turistlərin sayını artıracaq, yaşayış, yemək, içki və nəqliyyat kimi turizmlə əlaqəli sektorlarda gəlirlərin artmasını təşviq edəcəkdir.

Məşğulluq imkanları: Raftinq qurğuları, bələdçi xidmətləri, avadanlıqların icarəsi və təmiri kimi fəaliyyətlər yerli iqtisadiyyat üçün məşğulluq yaradacaqdır. Bu növ idman yerli vətəndaşıara iş imkanları yaradacaqdır.

İnfrastrukturun inkişafı: Raftinq destinasiyalarına turist axını regionda infrastrukturun inkişafına təkan verəcəkdir. Yolların, mehmanxanaların, restoranların və digər turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına investisiyaların qoyuluşu artacaqdır.

Təbii sərvətlərin mühafizəsi: Raftinq çox vaxt təbiətlə iç-içə olan bir fəaliyyət olduğundan, bu növ turizm fəaliyyəti təbii ehtiyatların qorunması və davamlı turizmin təşviqi potensialına malikdir.

Yerli mədəniyyət və sənətkarlıq: Turistlər bölgənin yerli mədəniyyətini və sənətkarlığını araşdırmağa meylli ola bilərlər. Bu, yerli əl işləri istehsal edən və satan müəssisələrin gəlirlərini artıracaqdır.

Beləliklə, təbiət idmanlarının genişlənməsi turizm sahəsində aparılan fəaliyyətin davamlılığını və uzunmüddətli iqtisadi fay-danın artmasına öz msbət təsirini göstərəcəkdir.



## Ədəbiyyat


1. Frumkin, H., Bratman, G.N., Breslow, S.J., Cochran, B., Kahn, P.H., Lawler, J.J., Levin, P.S., Tandon, P.S., Varanasi, U., Wolf, K.L. et al. Nature contact and human health: A research agenda. Environ. Health Perspect.2017, 125, 075001.
2. Trochtová, L. Pospíšil, J., Pospíšilová, H. The role and importance of outdoor leisure activities on the change of values: Impacts on personal development and education, Conference: 15th International Technology, Education and Development Conference, March 2021, pp.5334-5340
3. Sari, A., The Impacts of Outdoor Learning Activities on Children’s Self Development, November 2018, Academic Journal Perspective Education Language and Literature, 4(1), 1, pp.1-8.
4. Derrien, M.M., Cerveny, L.K., Wolf, K.L. The human health dimensions of sustainable tourism. In A ResearchAgenda for Sustainable Tourism; McCool, S.F., Bosak, K., Eds.; Edward Elgar Publishing: Cheltenham, UK,2019; pp. 140–158

## REGİONAL DAVAMLI İNKİŞAFDA MALİYYƏ RESURSLARININ İDARƏ EDİLMƏSİ (SALYAN RAYONU TİMSALINDA)

**Ağayev Emin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Regional davamlı inkişafa nail olmaq üçün maliyyə resurslarının səmərəli idarə edilməsi sosial-iqtisadi mənzərənin formalaşmasında mühüm rol oynayır. Bu tezis Salyan rayonuna xüsusi diqqət yetirməklə maliyyə resurslarının bölüşdürülməsi və regional davamlılıq arasındakı mürəkkəb qarşılıqlı əlaqəni araş-dırmaq məqsədi daşıyır. Şirvan-Salyan iqtisadi rayonunda yerləşən Salyan dayanıqlı inkişaf üçün maliyyə resurslarının idarə edilməsi ilə bağlı çətinlikləri və imkanları başa düşmək üçün nümunə kimi rol oynayır.

Maliyyə resurslarının idarə edilməsinin regional inkişaf təşəbbüsləri üçün əsas element kimi əhəmiyyəti çox böyükdür. Bu baxımdan, iqtisadi rifahı, ətraf mühitin qorunmasını və sosial bərabərliyi əhatə edən davamlı inkişafın çoxşaxəli xarakterini tədqiq etmək çox vacibdir. Tədqiqatlar Salyan rayonunun unikal xüsusiyyətlərini, o cümlədən iqtisadi strukturunu, demoqrafik tərkibini və ekoloji sərvətlərini öyrənməklə, davamlı inkişaf məq-sədlərinə nail olmaqda yerli hakimiyyət orqanlarının üzləşdiyi xüsusi çətinlikləri aydınlaşdırır.

Ən nümunəvi beynəlxalq təcrübələrə və uğurlu keys araşdırmalarına əsaslanaraq, Salyan rayonunun unikal ehtiyacla-rına uyğunlaşdırılmış strateji maliyyə idarəçiliyi çərçivələrini tək-lif edilə bilər. Bu baxımdan, investisiyaların cəlb edilməsi, dövlət-özəl



tərəfdaşlıqların təşviqi və davamlı təşəbbüslər üçün maliyyə bazasını gücləndirmək üçün beynəlxalq yardımdan istifadə imkanları mövcuddur.

## AİLƏ DƏYƏRLƏRİ VƏ ONLARIN DƏYİŞMƏ DİNAMİKASI

**Ağayeva Mehriban**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoru-yucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır. Önəmlidir ki, bir sıra toplumlardan fərqli olaraq, Azərbaycan cəmiyyətində ailə institutu özünün sosial təyinatını və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə qoruyub saxlamaqdadır.

Ailələrin sağlam, xoşbəxt yaşaması üçün onun üzvləri arasında səmimi, mədəni münasibət olmalı, valideyn-övlad müna-sibətləri düzgün qurulmalıdır. Azərbaycan ailəsi hər şeydən əvvəl, milli adət-ənənələrimizi özündə yaşatmalıdır. Övladlarımız dünyaya gəldikləri gündən milli-mənəvi dəyərlərimizlə tərbiyə olunmalıdırlar. Böyüyə hörmət, milli dəyərlərə bağlılıq bu tərbi-yənin əsasını təşkil edir. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən doğan davranış qaydaları ailə mənəviyyatının özülüdür. Ailəsini qoruyan torpağını qoruyacaq, ailəsinin sabitliyini istəyən Vətənin əmin-amanlığını istəyəcəkdir. Ailədən aşılanan müsbət mənəvi-psixoloji iqlim ictimai mühitə də nüfuz edir

Ailələrin sağlam, xoşbəxt yaşaması üçün onun üzvləri arasında səmimi, mədəni münasibət olmalı, valideyn-övlad münasibətləri

düzgün qurulmalıdır. Azərbaycan ailəsi hər şeydən əvvəl, milli adət-ənənələrimizi özündə yaşatmalıdır. Övladlarımız dünyaya gəldikləri gündən milli-mənəvi dəyərlərimizlə tərbiyə olunmalıdırlar. Böyüyə hörmət, milli dəyərlərə bağlılıq bu tərbiyənin əsasını təşkil edir. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən doğan davranış qaydaları ailə mənəviyyatının özülüdür. Ailəsini qoruyan torpağını qoruyacaq, ailəsinin sabitliyini istəyən Vətənin əmin-amanlığını istəyəcəkdir. Ailədən aşılanan müsbət mənəvi-psixoloji iqlim ictimai mühitə də nüfuz edir

Vaxtilə xaricdən gətirilən, dövrümüzdə isə əsasən də internet, yeni media, sosial şəbəkələr və KİV vasitəsilə hayatımıza yeridilən basqıların qarşısını almaq xeyli çətindir. Bu istiqamətdə araşdırmalarımızı cəmiyyətə təqdim etməklə milli ailə dəyər sistemimizin, ağsaqqallıq-ağbirçəklik institutunun, fəlsəfəsinin zəifləməsinin qarşısını almaq, ailələrdəki münaqişələrin, boşanmaların, nəsillərarası mənəvi-psixoloji toqquşmaların qarşısını, qismən də olsa, almaq üçün ictimai-virtual aksiyaların həyata keçirilməsi dəstəklənməlidir. Eyni zamanda, bu istiqamətdə güclü maarifçilik işləri aparılmalı, sadalanan problemin həllinə yönəli bir çox məsələlər vaxtında ictimailəşdirilməlidir. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ailə, qadın və uşaq hüquqları ilə bağlı fundamental hüquqi müddəalar əksini tapmış, hər bir vətəndaşın nikah hüququ təsbit edilmiş, dövlətin ailə ilə bağlı siyasətinin əsas konturları müəyyənləşmişdir. Ölkə Konstitusiyasının "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddəsində göstərilir ki: "I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək vali- deynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin



himayəsindədirlər". Azərbaycan Respublikası Konstitusiyasında nikah münasibətləri zamanı iradə azadlığını, ərlə arvadın hüquq bərabərliyini tənzimləyən 34-cü maddənin (Nikah hüququ) mövcudluğu da diqqətəlayiqdir. Həmin maddəyə əsasən: "I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

Bu gün ölkəmizdə ailə hüquq münasibətlərinin tənzimlənməsi sahəsində müəyyən obyektiv problemlərin mövcudluğunu da qeyd etmək lazımdır. Həyata keçirilən kompleks tədbirlərə baxmayaraq, cəmiyyətdə ailə institutunun bütövlüyünə və müqəddəsliyinə xələl gətirən neqativ məqamlara da rast gəlinir. Məişət zorakılığı, yetkinlik yaşına çatmayanların ailə qurmağa sövq edilməsi fonunda baş tutan erkən nikahlar, boşanmalar zamanı meydana çıxan ailədaxili münaqişələr, alimentin ödənilməməsi və sadalamadığımız başqa problemlərə Azərbaycanda da rast gəlinir.

Bütün bunlar, ilk növbədə, cəmiyyətdə ailə qanunvericiliyi ilə bağlı maarifləndirmə işinin keyfiyyətcə müasir dövrün tələblərinə uyğunlaşdırılmasını, bu sahədə hüquqi maarifləndirmə və təbliğatın gücləndirilməsini zəruri edir. Eyni zamanda, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar, yaxud digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, valideyn hima- əyəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir.

Saatlı rayonu və ya hər hansı digər bir ərazi üzrə ailəvi dəyərlər geniş spektrumda dəyişiklik göstərə bilər və mədəni fərqliliklər ola bilər. Lakin ümumi olaraq, bir ailədə dəyərlər, insanların bir-biri ilə və ictimaiyyətlə əlaqələrini təyin edir və tənzimləyir. Saatlı rayonu və ya hər hansı bir ərazi üzrə geniş yayılmış olan potensial ailəvi dəyərlər

aşağıdakıları əhatə edə bilər: Əhval-ruhiyyə Mənafeətləri: Ailə üzvləri arasında dəstək, anlayış və mənafeətlərə nail olmaq üçün əhval-ruhiyyə əlaqələri və dəyərlər. Əməkdaşlıq və Tərəfdaşlıq: Ailə üzvləri arasında əməkdaşlıq və tərəfdaşlıq prinsipləri ilə birlikdə həyat qurmağa dair dəyərlər. Tərbiyə və Ədəbiyyat: Uşaqların sağlam tərbiyə almasına və ədəbiyyatın təşviqinə dair dəyərlər. Hörmət və Dürüstlük: Ailə üzvləri arasında hörmət və dürüstlük prinsipləri. etmə prinsipləri və s. Bu dəyərlər, bir ailənin güclü və sağlam olmağa, müstəqil düşünməyə və müsbət bir ictimai təsir yaratmağa nail olmağını təmin edir. Ailəvi dəyərlər, bir ailənin sadəcə kiçik bir qrup deyil, həm də daha böyük ictimaiyyət və dünya üçün də müsbət bir təsir yaratmağında katalizator rolunu oynaya bilər.

## AQRAR SAHƏDƏ DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN ZƏRURİLİYİ

**Allahquluzadə Təbriz**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
allahquluzadetebriz@gmail.com

Aqrar sahənin davamlı inkişafı dövlət proqramının əsas məqsədi olmaqla bərarbər kənd yerlərində əlverişli infrastrukturun yaradılması ilə aqrar və emal sənayesinin inkişafında investisiya fəaliyyətinin stimullaşdırılması, kənd əhalisinin sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində iştirakının təmin edilməsi və artırılması, aqrar sahədə yüksək texnoloji iş yerlərinin yaradılmasının təşviqi olmalıdır. Kənd təsərrüfatı fəaliyyəti ilə insanlar qədim zamanlardan məşğul olsalar da, aqrar sahədə davamlı inkişafın təmin edilməsi məsələsi kifayət qədər yeni mövzudur. Aqrar sahədə davamlı inkişafın təmin



edilməsi kənd yerlərində yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinə nail olmaq və dayanıqlı iqtisadi inkişafa dəstək vermək vacib strateji məqsədlərin sırasında yer alır.

Ötən əsrin 80-ci illərinin əvvəllərinə qədər "davamlılıq" termini və konsepsiyası ancaq ətraf mühit iqtisadiyyatı mütəxəssislərin və ekoloqların müzakirə mövzusu idi. Ətraf mühitin çirklənməsi və təbii resursların tükənməsi ilə bağlı yaranan problemlərin aktuallaşması nəticəsində davamlı inkişafla bağlı müzakirələr də genişlənməyə başladı. Bu istiqamətdə məlumatlılığın artırılması məqsədilə BMT, daha dəqiq desək, Brundtland Komissiyası (Brundtland Commission) tərəfindən beynəlxalq siyasi gündəmə çıxarıldı. Brundtland Komissiyası tərəfindən nəşr olunan "Ümumi Gələcək" (Common Future) adlı hesabatda davamlı inkişaf cari dövrün ehtiyaclarının gələcək nəsillərin də ehtiyaclarının təmin edilməsi qabiliyyətinə zərər vurmadan qarşılanması kimi nəzərdən keçirilirdi. Qeyd olunan yanaşma hazırda da aktualdır. Beləliklə, davamlılıq hazırki ehtiyacların gələcək nəsillərin ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən təmin edilməsini ifadə edir [1].

Müasir şəraitdə aqrar sahənin davamlı inkişafının təmin edilməsi bu sahədə innovasiyaların mənimsənilməsi ilə bağlıdır. İnnovasiya yeni əsrdə dinamik və davamlı inkişafın həlledici amilinə çevrilmişdir. Bəşəriyyət üçün taleyüklü olan ərzaq probleminin həllində innovasiyalı inkişaf və onun investisiya təminatı məsələləri aqrar-sənaye sahələrinin funksional təyinatı baxımından səmərəliliyində aparıcı rola malikdir.

Kənd təsərrüfatında innovasiya məhsul istehsalından tutmuş, istehsal vasitələrinin idarəedilməsinə və bazara çıxışa qədər istehsal tsiklinin bütün mərhələlərini və bütün dəyər zəncirindəki prosesləri əhatə edir [2]. Aqrar sahədə yeni texnologiyaların tətbiqi istehsalın texniki, texnoloji və təşkilati əsaslarının yeniləşməsi bazasında

məhsuldarlığın artırılmasında, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsində mühüm rol oynayır. Kənd təsərrüfatının innovasiyalı inkişafı, həmçinin aqrar sahədə fəaliyyətlə bağlı davamlı inkişaf məsələlərinin həllinə, ilk növbədə torpaq və su resurslarının qorunması və səmərəli istifadəsinə əlverişli imkanlar yaradır. Bu baxımdan aqrar sektorda yeni texnologiyaların geniş yayılması ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı həm də ekoloji tarazlığın gözlənilməsinin mühüm amilləri sırasına daxil edilir.

Hazırda ölkəmizin kənd təsərrüfatında innovativ inkişaf prosesləri sürətləndirilir. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin 7.9.1 bəndində kənd yerlərinin sosial-iqtisadi inkişaf siyasəti üzrə potensialının gücləndirilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır. Burada kənd yerlərinin hər tərəfli öyrənilərək inkişaf planının (qısa, orta və uzunmüddətli) hazırlanmasının zəruriliyi göstərilmişdir [3]. Aqrar sahənin inkişaf strategiyaları çərçivəsində daha funksional kənd təsərrüfatı və mükəmməl ərzaq təhlükəsizliyi sisteminin yaradılması üçün bu sahə üzrə təhsil və tədqiqat sisteminin və innovasiyaların tətbiqinin genişləndirilməsi baxımından potensialın inkişaf etdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi, innovasiyaların yayım şəbəkəsinin inkişaf etdirilməsi, yeni texnoloji həllər və üsullardan istifadə haqqında kənd təsərrüfatı istehsalçılarının məlumatlılıq və istifadə səviyyəsinin artırılması mühüm vəzifə kimi qəbul olunur. Uzunmüddətli dövrdə isə aqrar sahənin inkişafı innovasiyaların tətbiq dairəsinin daha da genişləndirilməsi və bu istiqamətdə potensialın inkişaf etdirilməsi ilə bağlı olacaqdır. Bununla əlaqədar Azərbaycanın kənd təsərrüfatında innovasiya potensialının artırılması, innovasiya mühitinin yaxşılaşdırılması və innovasiyaların tətbiqinin stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi məsələlərinin araşdırılması elmi və praktiki cəhətdən aktualdır.



**Ədəbiyyat**


1. “Our Common Future: Report of the World Commission on Environment and Development”. UN Documents. n.d. Web. Retriev ed 27 June 2013.
2. FAO, Innovation at FAO. https://www.fao.org/innovation/en/
3. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, 177 s.


## REGİONAL TURİZMİN İNKİŞAFI PERSPEKTİVLƏRİ (MASALLI RAYONU TİMSALINDA)


**Aslanlı Fərid**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


“Regional turizmin inkişaf perspektivləri (Masallı rayonunun timsalında)” mövzusunda magistr dissertasiyası bir sıra əsaslı səbəblərə görə müasir tədqiqatda mühüm aktuallıq kəsb edir. Əvvəla, tədqiqat regional turizmin inkişafının iqtisadi əhəmiyyə-tinə toxunur. Gəlir axınlarının şaxələndirilməsinin regional iqtisa-diyyatlar üçün kritik əhəmiyyət kəsb etdiyi bir dövrdə turizm sektoru iqtisadi inkişafın potensial sürücüsü kimi seçilir. Nümunə kimi Masallıya diqqət yetirməklə, tədqiqat davamlı iqtisadi inkişaf üçün yerli resurslardan istifadənin daha geniş müzakirəsinə toxunur.

İkincisi, regional turizm məşğulluq və sahibkarlıq üçün yeni imkanlar təmin etməklə yerli icmaları gücləndirə bilər. Tədqiqat Masallıda inkişaf perspektivlərini araşdırmaqla, turizm sektorunun

aşağı səviyyədə sosial-iqtisadi imkanların gücləndirilməsi üçün katalizator ola biləcəyinə, yoxsulluğun azaldılmasına və cəmiy-yətin inkişafına töhfə verə biləcəyinə işıq salır.

Bununla yanaşı, tədqiqat turizmin inkişafı ilə mədəni irsin qorunması və ekoloji davamlılıq arasında balansı araşdırır. Bu, nadir mədəni və təbii sərvətləri ilə tanınan Masallıda xüsusilə aktualdır. Turizmin bu elementlərlə necə birgə mövcud ola biləcəyini başa düşmək regionun kimliyini qorumaq və onun ekosistemlərini qorumaq üçün çox vacibdir.

Üstəgəl tədqiqat regional inkişaf siyasətləri sahəsinə töhfə verir. Masallını bir nümunə kimi nəzərdən keçirməklə, yerli və milli səviyyədə siyasətçilər üçün dəyərli fikirlər təqdim edir. Masallıdakı problemlərin və imkanların başa düşülməsi oxşar şəraitlə üzləşən digər regionlara uyğunlaşdırıla bilən məqsədyönlü siyasətlərin formalaşdırılmasına imkan verir.

Tədqiqat turizmin inkişafı ilə bağlı akademik diskursu zənginləşdirir. Masallıya diqqət yetirməklə, dissertasiya bu sahədə daha geniş biliklər toplusuna empirik məlumatlar və konkret hal üzrə təhlillər verir. O, gələcək tədqiqatçılar, tələbələr və regional turizmin inkişafı ilə maraqlanan mütəxəssislər üçün mənbəyə çevrilir.

Tədqiqat Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (SDGs) kimi qlobal təşəbbüslərlə üst-üstə düşür. Turizm, davamlı şəkildə idarə edildikdə, iqtisadi artım, layiqli iş və ekoloji davamlılıq da daxil olmaqla bir çox DİM-lərə töhfə verə bilər. Masallıda perspektivləri dərk etmək regional turizmin bu qlobal məqsədlərlə necə uzlaşdığına dair nüanslı müzakirələrə imkan verir.

Tədqiqatın turizmin inkişafı ilə məşğul olan maraqlı tərəflər, o cümlədən yerli hakimiyyət orqanları, biznes qurumları və icma üzvləri üçün praktiki əhəmiyyəti var. Masallının işini tədqiq etməklə, dissertasiya turizmin davamlı inkişafını təşviq etmək üçün həyata keçirilə bilən icra edilə bilən tövsiyələr və strategiyalar təklif edə bilər ki, bu da onu inkişaf prosesində fəal iştirak edənlər üçün dəyərli bələdçiyə çevirir.



Başqa sözlə, Masallıda regional turizmin inkişafı perspek-tivlərinə həsr olunmuş bu araşdırma iqtisadiyyatın şaxələndiril-məsi, icmaların səlahiyyətlərinin artırılması, mədəni və ətraf mühitin mühafizəsi, siyasətin formalaşdırılması, akademik zəngin-ləşdirmə, qlobal məqsədlərə uyğunlaşma və maraqlı tərəflər üçün praktik tətbiqlər ilə bağlı aktual məsələlərə toxunur. Onun aktuallığı turizm vasitəsilə davamlı regional inkişaf haqqında daha geniş müzakirəyə töhfə vermək üçün xüsusi nümunə araşdırma-sından kənara çıxır.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

**Bağırov Hikmət**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiy-yətə ikinci dəfə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.Müxtəlif dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır. Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etmiş-dir.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra təhsilimizin ötən əsrin 70-80-ci illərində möv-cud olmuş bir çox ənənələri kimi, xarici ölkələrə tələbələrin göndərilməsi ənənəsi də davam və inkişaf etdirilməyə başlandı. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı. Dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumu daim Ulu Öndərin diqqət mərkəzində idi. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara “Prezident təqaüdü”nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəb-büsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin hər üç ildə bir dəfə forumları keçirilmişdir.

1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur:“ Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”.Ulu Öndər Heydər Əliyev tərəfindən 1996-cı il 22 iyun tarixində imzalanmış “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” Fərmanına əsasən istedadlı gənclərə dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedad-larının “Qızıl kitabı” və “Qızıl kitab”a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edildi.

Ulu Öndər tərəfindən 2 fevral 1997-ci il tarixində imzalan-mış Fərmana əsasən həmin tarix Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa



ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü təntənəli şəkildə qeyd edilməyə başlanıb. Ulu Öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı “Dövlət gənclər siyasəti haqqında” Fərmanla gənclərin inkişafı üçün daha əlverişli şərait yaradılmışdır. Fərmanla Azərbaycan Respublikasında dövlət gənc-lər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş, Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılmışdır.

2002-ci il 9 aprel tarixində “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi məsələsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının hər zaman mühüm istiqamətlərindən biri olmuş-dur. Heydər Əliyev deyirdi: “Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstər-məlidir.” Bu siyasətin davamı olaraq Prezident İlham Əliyev Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaş-masına şərait yaradıb. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.

2007-ci il Azərbaycanda gənclər ili elan edildi. Prezident İlham Əliyevin sözügedən mühüm təşəbbüsü gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlmə-sinə səbəb olmuşdur. Sərəncamla “2007-ci ilin “Gənclər ili” elan olunmasına dair

tədbirlər planı” təsdiq edilmiş, o cümlədən respublikanın şəhər və rayonlarında “Gənclər evi”nin yaradılması nəzərdə tutulmuşdur.Prezident İlham Əliyev tərəfindən imzalan-mış sərəncamlar əsasında reallaşan “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın, habelə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın nəticəsində 5000-dən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa müvəffəq olmuşlar. Dövlətin dəstəyi sayəsində gənclərin dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3558 təqaüd verilmiş və bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənmişdir. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” nı təsdiq etmişdir. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcəkdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. 2018-ci ildə Fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb.

Sayca 57-ci Avroviziya Mahnı Müsabiqəsi Bayraq meyda-nında inşa olunmuş “Baku Crystal Hall” da baş tutmuşdur. 43 ölkə təmsil olunan bu möhtəşəm tədbir zamanı Bakı Avropa musiqi-sinin



paytaxtına çevrilmiş, Avropa gənclərinin diqqəti Azərbaycana yönəlmişdir.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə “Gənclər üçün Prezident Mükafatı” nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir. Prezident İlham Əliyev 2016-cı il 24 fevral tarixində “Gəncə şəhərinin “2016-cı il Avropa gənclər paytaxtı” seçilməsi ilə əlaqədar tədbirlər haqqında” Sərəncam imzalamışdır.

Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə “Yüksəliş” müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və gənclərdən ibarət ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

GİKM 2018-ci ilin noyabr ayında Azərbaycan Respublikası Gənclər Fondunun nəzdində fəaliyyətə başlayıb. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il tarixli 1 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması məqsədilə ölkənin şəhər və rayonlarındakı Heydər Əliyev Mərkəzlərində GİKM-in nümayən-dəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi qərara alınıb. Respublikanın 55 şəhər və

rayonunda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri fəaliyyət göstərir.

Gənclərimiz könüllülər hərəkatının aparıcı gücüdür. Prezi-dent İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respub-likasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalayıb. Könüllülər hərəkatının cəmiyyətin inkişa-fında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir.

Tarixi missiyanı həyata keçirən bizim qəhrəman gənclərimiz tarix qarşısında, xalq qarşısında, Vətən qarısında misilsiz xidmətlər göstərmişlər. Rəşadətli Azərbaycan Ordusunun sırala-rındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Onların rəşadəti sayəsində əldə olunan Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur. Bu da Ulu Öndərin gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər edən siyasətinin nəticəsi idi. Vətən müharibəsində iştirak etmiş hər bir igid gəncinə Azərbaycan xalqı minnətdardır. Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Vətən müharibəsi dövründə bizim gənclərimiz sosial şəbəkələrdə çox fəal oldular və müharibə zamanı gedən informasiya müharibəsində də Azərbay-can qalib gəldi. İnformasiya müharibəsinə təkcə Azərbaycan vətəndaşları yox, dünya azərbaycanlıları da qoşuldular - könüllü olaraq, öz təşəbbüsləri ilə. Birgə səylərin nəticəsində Azərbaycan informasiya məkanında üstünlük əldə etdi. Əsasən gənclərdən ibarət sosial şəbəkə istifadəçiləri



şəbəkələrdə üstünlüyü əldə edərək paylaşılan məlumatın həqiqi və təsirliliyinə nail oldular.

Bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Azərbaycan gəncləri azad ölkədə yaşayır, sabitlik olan ölkədə yaşayır, özünə güvənən ölkədə yaşayır. Gənclər öz gələcək həyatını düzgün müəyyən etmək və dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar.

Gənc idmançılarımızın qələbələri və ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. 1997-ci ildən etibarən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilmiş dövlət başçısı İlham Əliyev gənclərin idmana cəlb olunması məsələsinə xüsusi diqqət ayırırdı. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılmışdır, bu proses davam etdirilir. Bakı şəhərində ən mötəbər idman yarışları təşkil olunub. Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir.

Bakıda keçirilmiş Birinci Avropa Oyunları dünya idman tarixində bir ilkdir. Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində keçirilən "Bakı-2015" Birinci Avropa Oyunlarının təqdimatları Azərbaycan reallıqlarının, eyni zamanda bu mühüm idman bayramının təbliğində əhəmiyyətli rol oynadı. Birinci Avropa Oyunları çərçivəsində 20 idman növü üzrə yarışlar paytaxtımızda 21 idman obyektində keçirilmişdir. Dünyanın idman tarixinə düşmüş bu Oyunlarda 50 ölkəni təmsil edən 6 mindən artıq idmançı sağlam rəqabət uğrunda mübarizəyə qatıl-mışdır.

Azərbaycan gənci haqlı olaraq fəxr edir ki, bu ölkənin-azərbaycanın vətəndaşıdır. Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin

borcudur. Gənclər bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə almalıdır.

Dövlət gənclər siyasətinin prioritet istiqamətlərindən biri istedadlı gənclərə dövlət qayğısıdır. Bu sahədə görülən iş yaradıcı və istedadlı gənclərin aşkar edilməsi, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin formalaşdırılması, eləcə də gənclərin asudə vaxtının səmərəli təşkil edilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsindən ibarət Azərbaycançılıq məfkurəsinin, dövlətçilik ənənələrinin və dövlət rəmzlərinin gənclər arasında geniş təbliğinə xidmət edən tədbirləri; "Azərbaycançılıq və gənclik" adlı təbliğat kampaniyaları; "Bayraq festivalları"; "Müstəqil dövlət quruculuğu və gənclik" adlı ənənəvi tədbirlər; Gənclərin çağırışaqədərki dövrdə mənəvi-psixoloji və hərbi-fiziki hazırlığının yüksəldilməsinə, onların hərbi xidmətə həvəsləndirilməsinə xidmət edən tədbirlərin keçirilməsi; Vətən Müharibəsi Qəhrəmanlarının və Azərbaycanın Milli Qəhrəman-larının, şəhid döyüşçülərin gənclər arasında təbliğinə xidmət edən tədbirlərin keçirilməsi; Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi istiqamətində fəaliyyət göstərən klubların, dərnəklərin, mərkəzlərin işinin əlaqələndirilməsi və stimullaşdırılması sahəsində tədbirlərin keçirilməsi; Yerlərdə yaradılmış "Gənclərin vətənpərvərlik tərbiyəsi klubları"nın fəaliyyətinin əlaqələndiril-məsi və stimullaşdırılması.

Paytaxt Bakı və bölgələrdə fəaliyyət göstərən Gənclər evi və mərkəzləri gənclərin vətənpərvər ruhda formalaşdırılması və onların sosiallaşmasında mühüm rola malikdirlər. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi bu cür dövlət təsisatların prioritet vəzifə-sidir. Gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili, gənclərə psixoloji reabilitasiya, hüquqi və



informasiya yardımlarının göstərilməsi məqsədi ilə yaradılan "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsi genişlənməkdədir.

Gənclərin dünyagörüşü fərqlidir, dünyada gedən bütün müasir proseslərə onlar daha yaxşı bələddir. Dördüncü Sənaye İnqilabı ilə bağlı olan yeniliklər, ilk növbədə, Azərbaycanda gənclər tərəfindən mənimsənilir və gənclər xətti ilə bu siyasət icra olunur.

Azərbaycan gənclərinin inkişafında Heydər Əliyev Fondunun misilsiz töhfələri var. Azərbaycanlı gənclərinin fərdi və peşəkar inkişafı naminə Heydər Əliyev Fondu müxtəlif istiqamətlər üzrə layihələri icra edir.

Bu gün Ümumilli Lider Heydər Əliyevin milli Azərbaycan-çılıq idealogiyası ilə silahlanmış, Müzəffər Ali Baş Komandanın müəsəlləh əsgəri olan gənclərin qarşısında daha bir müqəddəs missiya durur.Bu missiya işağdan azad edilmiş torpaqlarımızın yenidə bərpasında yaxından iştirak etmək, Qarabağımızın yenidən dirəcəlməsində dövlət başçımızın yanında olmaqdır.Biz əminik ki, Azərbaycan gəncliyi bu işində öhdəsindən layiqincə gələrək, hər zaman olduğu kimi bu dəfə də, öz rəhbərinin yanında olduğunu əməli işində göstərəcəkdir.

## DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏTİN SƏNAYE SİYASƏTİ

**Bağırov Vüsal**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

vusal.bagirov@economy.gov.az

Bir ölkədə davamlı inkişafının əsas elementlərindən biri dövlətin sənaye siyasətidir. Dövlətin sənaye siyasəti davamlı inkişafı təmin

etmək üçün sənaye sahəsində strateji hədəflərin hazırlanmasını, təşkil edilməsini və icrasını nəzərdə tutmalıdır. Bu halda sənaye sahəsi daha konkret və effektiv bir formada inkişaf edir və ölkə üçün daha çox fayda təşkil edir. Ölkələrin sənaye siyasəti müəyyən olunarkən təbii ki, iqtisadiyyatın inkişafı ilə yanaşı, həm də ekoloji dayanıqlılıq təmin edilməli, təbii sərvətlərdən səmərəli istifadə olunmalı, sosial ədalət məsələləri də nəzərə almalıdır.

Hər bir ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı qısa və uzunmüddətli proqramlar və strategiyalar hazırlanarkən sənaye məsələləri də mütləq şəkildə nəzərə alınır. Sənaye siyasəti hazırlanarkən ölkənin yerləşdiyi coğrafi mövqeyi, təbii sərvətləri, ixrac imkanları, mövcud iqtisadi göstəriciləri, eləcə də dünyada və regionda baş verən iqtisadi və siyasi proseslər və digər elementlər təhlil olunaraq yol xəritəsi hazırlanır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda sənayeləşmə siyasəti daha da inkişaf etdirilmiş, iqtisadiyyatın diversifikası-yasına və xüsusilə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə bir sıra dövlət proqramları, strateji yol xəritələri, inkişaf strategiyaları hazırlanmış, müxtəlif təşviq mexanizmləri tətbiq edilmişdir. Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, regionların sənaye potensialından daha səmərəli istifadə etmək məqsədilə ölkə başçısının müvafiq tapşırıqlarına əsasən Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri yaradılmış, sahibkarlara müasir infrastruktur və lazım olan dəstəklər təqdim edilmiş və həmin ərazilərdə müasir texnologiya və standartlara uyğun müəssisələr fəaliyyətə başlamışdır. Eyni zamanda, 2016-cı ildən  ölkədə investisiya fəaliyyətinin genişlən-dirilməsi,



biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə  investisiya təşviqi mexanizminin tətbiqinə başlanılmış 580-dən çox layihə təşviq edilmişdir *(Mənbə: ww.economy.gov.az*) Bundan başqa sahibkarlar üçün geniş güzəşt və azadolmaların tətbiq olunduğu Ələt Azad İqtisadi Zonası yaradılmışdır. Adıçəkilən təşviq alətləri ilə vasitəsi ilə sahibkarlara müxtəlif vergi və gömrük azadolmaları tətbiq olunur ki, bu da sahibkarlar tərəfindən əldə olunmuş güzəştlərin yenidən investi-siya kimi yeni istehsal sahələrinə yatırılmasına şərait yaradır.

Aparılmış uğurlu sənaye siyasətinin nəticələrinə nəzər salsaq görərik ki, Dövlət Statistika Komitəsinin məlumatlarına son 20 il ərzində sənayedə məhsul istehsalının həcmi 4,98 mlrd. manatdan 60,8 mlrd. çatmışdır (real artım 2,7 dəfə). Qeyri-neft-qaz sənayesi üzrə məhsul istehsalının həcmi 2,0 mlrd. manatdan 15,9 mlrd. manata çatmışdır (real artım 4,1 dəfə).




2023-cü ilin yanvar-noyabr aylarında istehsalın 91,3 faizi sənaye məhsullarının istehsalı, 8,7 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. Əhalinin məşğulluğunun təmin edilməsində də sənayeləşmə siyasəti mühüm rol oynamış, 2023-cü ilin yanvar-noyabr aylarında sənayedə çalışan muzdlu işçilərin orta siyahı sayı 221.5 min nəfər təşkil etmişdir *(Mənbə: Dövlət Statistika Komitəsi).*

Ölkə başçısının rəhbərliyi ilə müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində işğal altında olan torpaqlarımızın azad edilməsi bir sıra islahatların həyata keçirilməsinə zəmin yaratmışdır. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, inkişaf etmiş regiona çevrilməsi, iqtisadi fəallığın artırılması, məşğulluğun təmin olunması məqsədilə bu bölgəyə yerli və xarici investorların cəlb olunması istiqamətində sənayeyə dəstək tədbirlərinin həyata keçirilməsi əsas prioritetlərdəndir.

Qeyri-neft sənayesi sektorunun inkişafı istiqamətində yerli iqtisadiyyatda əlavə dəyər yaradan layihələrin həyata keçirilməsi, müasir və innovativ texnologiyaların tətbiqi ilə yerli xammala əsaslanan sənaye müəssisələrinin qurulması, habelə ixrac potensiallı məhsulların istehsalı baxımından yeni sənaye müəs-sisələrinin yaradılması istiqamətində dövlətin sənaye siyasəti davam etdirilməlidir.

Son dövrlərdə sənaye siyasətinin müxtəlif modelləri yaradılır və buna uyğun sənaye siyasəti paketləri hazırlanır. UNCTAD-ın sənaye siyasətinə dair qlobal araşdırması göstərir ki, təkcə son beş il ərzində inkişaf etmiş və inkişaf edən, qlobal ÜDM-nin 90 faizini təşkil edən ən azı 84 ölkə rəsmi sənayenin inkişafı strategiyalarını qəbul etmişdir *(Mənbə: World Investment Report, 2018).*

Son olaraq, dövlətin sənaye siyasətinin təkmilləşdirilməsi üçün, yuxarıda qeyd olunan dəstək alətləri ilə yanaşı, aşağıdakı təkliflərin də nəzərə alınması müstəsna əhəmiyyət kəsb edir.

- sənayedə klasterləşmənin və dəyər zəncirinin yaradılmasının təşviqi
- elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsinə dəstək gös-tərilməsi;
- müəssisələr tərəfindən araşdırma və inkişaf (R&D) mər-kəzlərin yaradılmasının təşviq edilməsi;



- qlobal dəyər və təchizat zəncirində olan məhsul və xidmətlərin istehsalının qurulmasının təşviqi;
- qlobal əlaqələrin qurulması, yüksək texnoloji və elmtutumlu sahələrin formalaşdırılması;
- sahibkarlıq birliklərinin (Assosiasiyaların) fəaliyyətinin güc-ləndirilməsi;
- ekoloji təmiz məhsulların istehsalına üstünlük verilməsi;
- “Yaşıl sənaye”-nin prioritet təşkil etməsi;
- dövlət-özəl tərəfdaşlığı çərçivəsində sənaye layihələrinin təşviq olunması;
- inklüziv və davamlı sənayeləşməni təşviq etmək və innova-siyalara dəstək verilməsi.

## REGİONLARIN DAVAMLI İNKİŞAFINDA PRİORİTET İSTİQAMƏTLƏR

**Cabbarov Orxan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
*orxan-rih@mail.ru*

Respublikamızda həyata keçirilən məqsədli proqramlar regionların davamlı inkişaf strategiyasının yaxşılaşdırılmasına xidmət göstərir. Bu istiqamətdə görülən tədbirlər sosial vəziyyətin, həyat şəraitinin ümumilikdə bütün sahələrdə inkişafın səmərəliliyinin artırılmasına səbəb olmuşdur. İqtisadiyyatda davamlı inkişaf həm taktiki, həm də strateji fəaliyyət göstərməlidir. Bu da regionların inkişafının tənzimlənməsində mühüm rol oynayır.

Ümumilikdə, regional istiqamətdə həyata keçirilən proqramlar proqnozlaşdırılır, layihə şəklinə salınır, planlaşdırılır, sonradan orta və uzunmüddətli dövr üzrə prioritetlər formalaşdırılır. Regional iqtisadiyyatda əhalinin rifahının yüksəldilməsi, bir sıra sahələrdə böyük xərc tələb edir ki, bu da elmi-texniki problemlərin kompleks həlli üçün müəyyənləşdirilir.

Davamlı inkişafın tənzimlənməsində regional inkişaf aşağıdakı prinsiplərə əsaslanır: - ekoloji, siyasi-hüquqi, innovasiyon, demokrafik və sair sahələrin sistemli tədbirlərinin həyata keçirilməsi; - regiondaxili subyektlərin bərabər hüquqlu qəbul edilməsi; - regionun məqsədyönlü tədbirlərini həyata keçirmək üçün istehsal təsərrüfat sisteminin mövcud vəziyyətini təhlil etmək; - əhalinin rəqabət qabiliyyətliliyinin sosial vəziyyətinin və digər sahələrin regional sistemdə sferaların seçilməsi; - regional idarəetmə sistemində ölkənin qeyri-mərkəzləşdirilmiş və razılaşdırılmış subardinasiyalılığını təmin etmək; - yeni tədbirlərin nəticəli istiqamətləndirilməsi; - vəzifə və motivlərə uyğun olaraq meylliliyi idarəetmək; - regionlarda təşkilati idarəetmə sisteminin innovasiya yönümlülüyünü təmin etmək - yeni səmərəlilik ölçüsünə görə müşahidə edilən indikatorların təyinatı.

Müasir dövrdə davamlı inkişafın regional yanaşmalarından biri innovasiya yönümlü iqtisadiyyatın transformasiya olunmasıdır. İnnovasiya prosesləri iqtisadiyyatın artıq dinamika-sının əsas hərəkətverici qüvvəsinə keçir ki, bu da mexanizm və templərinə görə dəyişdirilməyə səbəb olur. Belə bir prosesdə iqtisadiyyatda yeni meyllər yaranır. Tədqiqat və araşdırmalar nəticəsində yaranan meyllər texnoloji təşkilati innovasiyaların müddətindən, məhsulun keyfiyyətindən, xidmət dinamikasından asılıdır. Başqa bir səbəbi isə milli iqtisadiyyatın regional istiqamətində onların yaratdığı və istiqamətləndirdiyi aşağıdakı prioritetləri daxilində həyata keçirilir:



- Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün iqtisadi baxımdan bazar strukturuna uyğun inkişafı optimallaş-dırmaq və sosial iqtisadi siyasətdə regionların hər bir sahəsi üzrə iqtisadi artımının təmin edilməsi. Proqramın icrasının səmərəliliyi, dövlət mülkiyyətindən istifadə, sahibkarların müxtəlif sahələr üzrə köməyinin gücləndirilməsi regionlarda məqsədli siyasətin həyata keçirilməsini tələb edir. Bu da ilk növbədə hər bir regionda insan kapitalının genişləndirilməsini tələb edən prioritetlərdəndir.

- Dünyada baş vermiş böhran regionlarda anti-böhran inkişafının idarə edilməsinin qlobal təmin olunması üçün irəli sürülən prioritet istiqamətdir. Belə bir prioritet istiqamət dövlət tərəfindən sosial təminatın həcminin artırılmasına, korrupsiya, regional məşğulluq orqanlarının işinin genişləndirilməsinə, maliyyə sektoruna, dövlət sifarişləri tətbiqinə regionlar daxili böhran şəraitində dövlətin rolunu artırır.

- Regional proseslərin üçüncü prioritet istiqaməti innovativ sahələrin davamlı inkişafına yönəldilmiş və sahə strukturunda dəyişikliklər etməklə elm tutumlu sənaye sahələrinə istiqamət-lənməsidir.

Yuxarıda göstərilən hər üç istiqamətlə regionlarda davamlı inkişaf sahəsində reallaşdırıla bilən tədbirlərə təminat verilə bilər.

## QƏLƏBƏNİN ƏLDƏ EDİLMƏSİNDƏ İLHAM ƏLİYEVİN LİDERLİK SİYASƏTİNİN XARİCİ MƏTBUATDA İŞIQLANDIRILMASI

**Jakbarova Nərgiza**
*Bakı Dövlət Universiteti*
*Jakbarovanargiza77@gmail.com*

**Xülasə**

Azərbaycan hal-hazırda öz müstəqilliyini və ərazini bütövlüyünü tamamilə bərpa etmişdir və bu Ali Baş Komanda-nımız olan İlham Heydər oğlu Əliyevin uğurlu siyasəti nəticə-sində eyni zamanda Azərbaycanın gücünü daim ayaqda saxlayan Azərbaycanın mərd oğulları sayəsində həyata keçirilmişdir. Bu düşmənin vaxtilə bizə haqsız yerə etdikləri amansız müharibənin ədalətli cavabı olaraq verilmişdir. Bu gün Azərbaycan torpaqları tamamilə azaddır, bu gün Azərbaycan xalqı tamamilə azaddır, bu gün I və II Qarabağ müharibəsində ölən günahsız insanların, vətən uğrunda canlarını qoymuş Şəhidlərin ruhu şaddır.

**Annotasia. Məqsəd:** Döyüş meydanında olduğu kimi, informasiya müharibəsində də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurlu mübarizə gedirdi. Cənab Prezident müharibə dövrü boyunca 30-a yaxın media qurumuna müsahibə verərək yüksək diplomatik məharətlə münaqişənin tarixini, Ermənistan tərəfindən atılan addımlar səbəbindən danışıqlar prosesinin nəticəsiz qalmasını və Ermənistan rəhbərliyinin danışıqlar masasında əldə olunmuş bütün razılaşmalardan imtina edərək açıq şəkildə ifadə etdiyi Qarabağın Ermənistan ərazisi olması iddasının əsassızlığını dünya mediasına çatdırmışdır. Eyni zamanda ölkə başçısı Azərbaycanın hərbi əməliyyatları dayan-dırması üçün irəli sürdüyü tələblərin beynəlxalq



hüququn norma və prinsiplərinə, münaqişə ilə bağlı qəbul edilmiş qətnamələrə tam uyğunluğunu da öz müsahibələri zamanı dəfələrlə faktlarla sübuta etmişdir. Ölkə başçısı bununla da, Ermənistan və onu dəstəkləyən dövlətlərin Azərbaycana qarşı apardığı qarayaxma kompaniyalarını da ifşa etmişdir.

**Metod:** Müəllif məqalə üzərində işləyərkən təhlillər əsasında bütün mənbələri və məlumatları hərtərəfli sistemləş-dirməyə, mövzunun əhatəli mənzərəsini yaratmağa səy göstər-mişdir. Tədqiqat prosesində elmilik, proseslərə obyektiv müna-sibət, onların müqayisəli təhlili əsas tədqiqat metodları kimi seçilib.

**Nəticə:** Qarabağ qələbəsindən sonra Azərbaycan qalib ölkə kimi xarici siyasətində yeni prioritetlərə yer verdi. Bunlardan ən mühümləri müharibə mühitindən qurtulmaqla regionda iqtisadi canlılığın təmin edilməsi, Ermənistanla münasibətlərin normallaş-dırılması, Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsi, Türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi, Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin davam etdirilməsi, yenidən nəzərdən keçirilməsi və izlənilən balans siyasətinin davam etdi-rilməsi və xüsusilə enerji mövzusunda Aİ ilə işləmək, yeni əməkdaşlıq imkanlarının yaradılması kimi mövzulara yer verilib. Qarabağ qələbəsindən sonra yaranmış yeni geostrateji vəziyyətin yaratdığı imkanlardan yararlanmaq istəyən Azərbaycan bir tərəfdən Cənubi Qafqazın lider ölkəsinə çevrilməyə namizəddir, digər tərəfdən Türkiyə dövlətləri ilə əlaqələrini dərinləşdirməklə həm ikitərəfli, həm də Təşkilat daxilində fəal rol almağa nami-zəddir. Bundan əlavə, qlobal səviyyədə fəal oyunçu olmağa namizəd olan Azərbaycan BMT, Avropa Şurası və İslam Təşkilatı kimi qurumlarda nüfuzunu artırır, Aİ ilə münasibətlərini yaxşılaş-dırır.

***Açar sözlər:*** *qələbə, II Qarabağ müharibəsi, ordu, hərbi əməliyyat, informasiya*

**Giriş.** İkinci Qarabağ Müharibəsində Ermənistanla mübarizə yalnız hərbi üsulla getmirdi. Beləki, Rəşadətli Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatlarına döyüş meydanında qarşı gələ bilməyən Ermənistan tərəfindən dezinformasiyalar demək olar ki, hər gün yayılırdı. Ermənistan keçmişdə olduğu kimi beynəlxalq ictimaiyyətə təsir etmək və öz iddiaları ilə dünyanın ictimai rəyinin Azərbaycana qarşı çevrilməsi məqsədilə siyasi, hüquqi və dini təcrübələrdən istifadə edərək strategiyalar həyata keçirdi. Ermənistan dezinformasiya və təbliğat kimi psixoloji müharibə üsullarını da tətbiq edirdi.

**Əsas hissə.** Ermənistan hələ müharibənin əvvələrindən etibarən cəbhə-dəki məğlubiyyətlərini bir sıra əsassız iddalar səsləndirməklə ört-basdır etməyə çalışırdı. Bu iddalardan birincisi Azərbaycan ordu-sunda xarici muzdlu döyüşçülərin olması ilə bağlı idi. Ermənistan mediası bu dezinformasiyasında açıq şəkildə bildirirdi ki, Türkiyə Cümhuriyyətinin hərbi personalı, o cümlədən Türkiyənin nəzarəti altında olan Suriya ərazisindəki cihadçılar Qarabağa gətirilərək Azərbaycan ordusunda döyüşürlər. Ermənistan bu dezinformasiya ilə əsas iki məqsədə nail olmaq istəyirdi. Bunlardan birincisi öz daxili auditoriyasında “Azərbaycanlılar tək deyil, erməni ordusu həm Azərbaycan, həm də Türkiyənin hərbiçiləri və Suriyadan gətirilən cihadçılarla döyüşür” fikrini yayaraq döyüş meydanın-dakı uğursuzluqlarını bu iddia arxasında gizlətmək cəhdi idi. İkinci səbəb isə beynəlxalq ictimai rəyi öz xeyirinə dəyişərək Türkiyəni hədəf almaq idi. Ermənilər Türkiyənin bəzi Yaxın Şərq və Avropa ölkələri ilə həmin dövrdə elə də isti olmayan münasibətlərinin olmasını faktını öz xeyirlərinə çevirməyə çalışırdılar. Təbii ki, Türkiyə ilə dost olmayan ölkələr bu dezinformasiyaları müxtəlif başlıqlarla dərc edirdilər [1].

Bu qəbildən olan və xarici media qurumlarında dərc olunan xəbərlərə misal olaraq İtaliyanın “La Stampa” qəzetinin Vətən



Müharibəsi başlayandan bir gün sonra, yəni 28 sentyabr 2020-ci ildə dərc etdiyi “Məslədhətçilər, muzdlular və silahlar, Ərdoğan və Putinin vəkil müharibəsi” başlıqlı xəbər məqaləsini göstərmək olar. Xəbərdə açıq şəkildə iddia edilir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağdakı müharibədə Azərbaycana “hər cür yardım” etməyə hazırdı. Bu yardıma muzdlu döyüşçülərin Qarabağa göndərilməsi də daxildir [2].

Ermənistanın muzdlu döyüşçülərlə bağlı yaymış olduğu dezinformasiyalar heç bir halda öz təsdiqini tapa bilmədi. Erməni KİV-lər tərəfindən muzdlu döyüşçülərlə bağlı “təqdim olunan” video materialların sonradan səhnələşdirilmiş formada çəkildiyini sübuta yetirən faktlar Azərbaycan KİV-ləri tərəfindən araşdırılaraq dünya ictimaiyyətinə çatdırıldı.

Döyüş meydanında olduğu kimi, informasiya müharibəsində də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurlu mübarizə gedirdi. Cənab Prezident müharibə dövrü boyunca 30-a yaxın media qurumuna müsahibə verərək yüksək diplomatik məharətlə münaqişənin tarixini, Ermənistan tərəfindən atılan addımlar səbəbindən danışıqlar prosesinin nəticəsiz qalmasını və Ermənistan rəhbərliyinin danışıqlar masasında əldə olunmuş bütün razılaşmalardan imtina edərək açıq şəkildə ifadə etdiyi Qarabağın Ermənistan ərazisi olması iddasının əsassızlığını dünya mediasına çatdırmışdır. Eyni zamanda ölkə başçısı Azərbaycanın hərbi əməliyyatları dayandırması üçün irəli sürdüyü tələblərin beynəl-xalq hüququn norma və prinsiplərinə, münaqişə ilə bağlı qəbul edilmiş qətnamələrə tam uyğunluğunu da öz müsahibələri zamanı dəfələrlə faktlarla sübuta etmişdir. Ölkə başçısı bununla da, Ermənistan və onu dəstəkləyən dövlətlərin Azərbaycana qarşı apardığı qarayaxma kompaniyalarını da ifşa etmişdir.

Müharibənin başlanmasından cəmi 2 gün sonra, 29 sentyabr 2020-ci il tarixində “Rossiya-1” telekanalının “60 dəqiqə” proq-ramında Ermənistan Baş naziri Nikol Paşinyan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onlayn formatda aparıcı-ların suallarını cavablandırmışdır. Prezident ona ünvanlanmış Tür-kiyənin müharibədəki rolu ilə bağlı sualına cavab verərək bildirir ki, “*Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfi-qimizdir.... Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur”*. Veriliş gedişində aparıcı tərəfindən verilən bütün suallara Ali Baş Komandan tərəfindən verilən sərrast cavablar həm anti-Azərbaycan mövqeyindən çıxış edən verliş iştirakçılarını, həm də Ermənistan rəhbərliyini çətin vəziyyətə salır. Verlişdə ölkə başçısına Qarabağda muzdluların olması barəsində sual ünvanlanır. Qeyd edildiyi kimi Suriyadan gətirilmiş muzdluların Qarabağda Azərbaycan əsgəri kimi döyüşdürülməsi kimi saxta iddianı müharibənin ilk günündən ortaya atan Ermənistanın rəhbərliyinin iştirakı ilə keçirilən verlişdə bu sualın ünvanlanması gözlənilən idi. Aparıcının sualı sözbəsöz belə idi – “Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?” Prezident İlham Əliyevin cavabı isə həm Ermənistan üçün qorxulu, həm də ictimaiyyət üçün tam aydın olur - “*Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var,*



*çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.”* Göründüyü kimi İkinci Qarabağ Müharibəsinin ən əvvəlindən Prezident İlham Əliyev həm döyüş meydanında Dəmir Yumruq hərbi əməliyyatına, həm də bütün vasitələrdən istifadə etməsinə baxmayaraq, məğlubiyyətə düçar olmuş Ermənistanın ortaya atdığı dezinfor-masiyalarla mübarizə üçün informasiya cəbhəsində gedən döyüş-lərə rəhbərlik edirdi [3].

Müharibə gedişində Ermənistan dezinformasiyalarının miq-yası o qədər böyüyür ki, hətta xarici ölkələrin rəhbərləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək məlumatları dəqiqləşdirməyə çalışırdılar. Ölkə başçısının bir neçə dildə səlis şəkildə, tərcüməyə ehtiyac olmadan danışması, dünya siyasətindən və münaqişə tarixindən tam şəkildə məlumatlı olması informasiya mübarizəsindəki qələbəbimizin əsas faktorlarından biridir. Nəzərə almaq lazımdır ki, əksər hallarda xarici media qurumları həm Ermənistan Baş nazirindən, həm də Azərbaycan Prezidentin müsahibələr alırdılar. Bu xüsusda 4 oktyabr 2020-ci il tarixində ölkə başçısının “Əl-Ərəbiyə” televiziya kanalına verdiyi müsahibədə olduqca diqqət çəkən məqamlar vardır. “Əl-Ərəbiyə” televiziya kanalı ilk öncə Ermənistan rəhbərliyindən müsahibə almış, daha sonra ölkə başçısı ilə görüşmüşdür. Müsahibə zamanı aparıcının ünvanladığı sual sözbəsöz belə idi - “Rusiya və Fransa Türkiyə üzərindən Suriyadan gələn muzdlularla bağlı sizə qarşı ittihamlar irəli sürür. Siz buna necə cavab verərsiniz?” Bu sualının cavabında ölkə başçısı bildirir ki, “*Biz bunu tamamilə rədd edirik. Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə*

*dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur..... Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir....Beləliklə, bu ittihamlar tamamilə əsas-sızdır."* Veriliş boyunca ölkə başçısı həm də müharibənin dayandırılması üçün Azərbaycan tərəfindən irəli sürülən şərtə və Ermənistan rəhbərliyinin müharibənin başlanmasına gətirib çıxar-dan addımlarına da aydınlıq gətirir [4].

Hərbi əməliyyatlar gedişində ard-arda torpaqların işğaldan azad olunması Ermənistan dairələrindəki məğlubiyyət qorxusunu daha da artırırdı. Belə halda isə Ermənistan yeni dezinformasiyalar yaymağa, müharibədə Türkiyənin iştirakını iddia edərək, müna-qişənin tərəflərinin sayını artırmaqla öz müttəfiqlərini də tərəf kimi cəlb etməyə müharibəyə cəlb etməyə çalışırdı. Bu iddialar əsasında İtaliyanın yarı rəsmi gündəlik qəzeti olan "Agenzia Nova"da Forza Italia (FI) partiyasının senatoru və Xarici Əlaqələr Komissiyasının qrup rəhbəri, ermənipərəst Enriko Aiminin "Türkiyə və Azərbaycanın Ermənistana qarşı təcavüzü" başlıqlı bəyanatı dərc edildi. Bəyanatda Türkiyənin Azərbaycana olan hərbi dəstəyi nəticəsində, əslində heç bir zaman mövcud olmayan "Dağlıq Qarabağ xalqı"nın təhlükədə olması kimi əsassız fikirlər yer alırdı. Eyni dövrdə KİV-lərdə Ermənistan təyyarəsinin Azərbaycan tərəfindən Türkiyəyə məxsus F16 təyyarəsi ilə vurulması kimi iddia yayıldı. Bu iddialar əsasında Türkiyənin Azərbaycana F16 qırıcı təyyarələrini verməsi dezinformasiyası Ermənistan tərəfin-dən dünya ictimaiyyətinə yayıldı.

Fransanın məşhur "Le Monde" qəzeti 1 oktyabr 2020-ci il tarixli xəbərində "Dağlıq Qarabağ: Türkiyə Azərbaycan və Ermə-nistan



arasında münaqişəni şiddətləndirir" başlığı ilə verdiyi xəbərdə qeyd edirdi-"Bir gün əvvəl İrəvan Su-25 təyyarələrindən birinin pilotu ilə birlikdə Türkiyənin F 16 qırıcısı tərəfindən Ermənistan hava məkanında vurulduğunu elan etdikdən sonra mübahisəli Dağlıq Qarabağ bölgəsinə nəzarət uğrunda şiddətli toqquşmalar həyəcan verici dönüşə çevrildi. Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, Türkiyənin F 16 qırıcıları "Azər-baycanın Gəncə şəhərindəki hava limanından havaya qalxaraq Ermənistanın Vardenis, Mets Masrik və Sotk əyalətlərində mülki kəndləri bombalayan Azərbaycan pilotsuz təyyarələrinə dəstək verib" [5].

Ölkə başçısı bu dezinformasiyanın da cavabını verərək bildirmişdir ki "*Bu bir ay ərzində, demək olar ki, mən hər gün müsahibə verirəm. Mənə sual verilir ki, Türkiyənin F-16-ları nə gəzir sizdə? Mən cavab verməkdən yorulmuşam. Gedin açın, peykiniz var, görmürsünüz nə gəzir? Gedin baxın F-16 neyləyir, havadadır, yerdədir? Hər kəs bilir ki, yerdədir. Özü də təlimlər üçün gəlib və müharibə başlayanda qalıbdır. Türkiyəli qardaş-larımız onları bizə mənəvi dəstək vermək üçün saxlayıblar. Bir də ki, əgər bizə qarşı kənardan təcavüz olarsa, o F-16-ları görəcəklər onlar"* [6].

Azərbaycan ordusu tərəfindən müharibə müddətində yalnız legitim hərbi hədəflərə zərbələr endirilmişdir. Mülki əhalinin yaşadığı ərazilər, tarixi və dini abidələr heç bir halda Azərbaycan ordusunun hədəfi olmamışdır. Ermənistan F16 qırıcısı ilə bağlı dezinformasiyasını genişləndirmək və Azərbaycanın tarixi abi-dələri hədəf alan kimi göstərmək məqsədilə yeni bir iddiaya əl atdı. Bu dəfə erməni dairələr Şuşa şəhərindəki kilsənin F16 qırıcı ilə vurulması yalanını tirajlamağa başladılar. Ümumiyyətlə Ermə-nistanın informasiya müharibəsindəki ən böyük tərəfdaşı Fransa idi. Erməni KİV-in bütün dezinformasiyaları Fransa mətbuatında dərc olunurdu. Bu yalan xəbərdə ilk olaraq Fransa mətbuatında dərc edildi. Daha

sonra Almaniyanın DW nəşri 27 oktyabr tarixində yayımladığı "İrəvan: Dağlıq Qarabağda kilsə vurulub" başlıqlı xəbərdə müharibə gedişində Şuşa şəhərindəki kilsənin Azərbaycan tərəfindən vurulması iddiası qeyd etmişdir. DW nəşri dərc etdiyi məqalədə istinad kimi Fransanın AFP xəbər agentliyini göstərmişdir. bu Dezinformasiyanın yayılmasında yenədə xüsusi rolu Fransa KİV oynamışdır [7].

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin açıqlama verərək bildirdi ki, baş vermiş hadisənin Azərbaycan ordusunun hərbi əməliyyatları ilə heç bir əlaqəsi yoxdur. Nazirlik açıq-la-masında bir daha vurğuladı ki, Azərbaycan ordusu mülki əhalinin məskunlaşdığı əraziləri, habelə heç bir tarixi, mədəni və xüsusilə dini abidələri hədəfə almır.

Məsələ ilə bağlı Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev mətbuata açıqlamasında bildirmişdir ki, birincisi, Azərbaycan ordusu tərəfindən kilsə və digər mülki təyinatlı obyektlər hədəfə alınmır. Həmin dövrdə Azərbaycan silahlı qüvvələri tərəfindən o istiqamətdə hər hansı atəş həyata keçirilməyib. İkincisi, əgər raket zərbəsi olsaydı, kilsənin içəri-sindəki ikonalara ciddi zərər dəyərdi. Amma şəkillərdən görünür ki, ikonalara zərər yetirilməyib. Üçüncüsü, Ermənistan ilk dəfə bu zərbənin guya F-16 təyyarəsindən endirildiyini, avia bomba olduğunu, sonra isə raket zərbəsi olduğunu iddia etməyə başladı. Azərbaycan silahlı qüvvələrinin inventarında F-16 təyyarəsi yoxdur. Daha sonra isə Azərbaycanın dövlət xəbər agentliyi AZƏRTAC atəşin Ermənistandan gəldiyini əks etdirən fotolar dərc etdi. Beləliklə Ermənistanın növbəti dezinformasiya yaymaqla Azərbaycanı ittiham etmək cəhdi puça çıxdı.

Müharibə dövründə Azərbaycan cəmiyyətin informasiya tələbatını dolğun şəkildə ödəmək, habelə operativliyi və çevikliyi təmin etmək məqsədilə Hərbi İnformasiya Mərkəzində KİV-lər üçün müntəzəm mətbuat konfransları təşkil olunmuş, ən son hərbi



məlumatlar açıqlanmışdır. Bununla da həm xarici, həm də yerli media mütəmadi olaraq məlumatlandırılmışdır.

Hərbi əməliyyatlar dövründə dövlət sirlərini açan, yaxud milli maraqlara zidd olan, ictimaiyyətdə çaşqınlıq yaradan infor-masiya, foto, video yayımı edən şəxslərin qanunvericiliyə müvafiq qaydada cəzalandırılması istiqamətində də müəyyən tədbirlər görülmüş, ictimaiyyətə xəbərdarlıqlar edilmişdir.

Dünyanın aparıcı KİV-lərinin nümayəndələrinin cəbhə bölgəsinə səfərlərinin təşkili də informasiya cəbhəsində üstün-lüyün əldə olunması baxımından əhəmiyyətli olmuşdur. Eyni zamanda, sosial şəbəkələrdə auditoriyanın diqqəti informasiya savaşının aparılması zərurətinə yönəldilmiş, geniş əhatə dairəsinə nail olmaq üçün qabaqcadan hazırlanmış video və fotoların sosial şəbəkə istifadəçiləri arasında yayımlanması, geniş paylaşılması təmin edilmişdir. Erməni silahlı qüvvələrinin canlı qüvvə və texnika baxımından itkilərinin yalnız Müdafiə Nazirliyinin foto və videogörüntüləri əsasında ictimaiyyətə təqdim edilməsi də müsbət məqam kimi diqqəti çəkmişdir.

Türkiyənin "A Haber", ABŞ-ın "Fox News", İtaliyanın Rai-1, Almaniyanın ARD və s. televiziya kanallarına, Rusiyanın TASS və İnterfaks, İspaniyanın EFE informasiya agentliklərinə, Yaponiyanın "Nikkei", Fransanın "Figaro", İtaliyanın "La Repubblica" qəzetlərinə və s. müsahibələr zamanı dövlətimizin başçısı erməni faşizminin əsl simasını açıb-göstərmiş, erməni vandallığının ağlasığmaz cinayətlərini faktlarla sübut etmişdir. Müdrik Prezidentimiz bəzi xarici müxbirlərin bəzən ittiham xarakterli, böhtan səpkili, qərəzli mövqe nümayiş etdirən qeyri-obyektiv və dezinformasiya səciyyəli suallarını güclü məntiq, əsaslı fakt və dəlillərlə cavablandırmış, onları dəmir məntiqli arqumentləri əsasında susdurmuşdur. Müsahibələr zamanı jurnalistləri Azərbaycanın yalnız öz doğma və müqəddəs torpaqlarını azad etdiyinə

və hərb qayda-qanunlarını qətiyyən pozmadığına inandırmış, həqiqətin, haqqı-ədalətin kimin tərəfində olduğunu açıqlayaraq, beynəlxalq hüququn da bizim tərəfimizdə olduğunu söyləmişdir. Məsələn, Almaniyanın ARD telekanalının müxbirinin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına cənab İlham Əliyev belə gözəl və sərrast cavab vermişdir: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik". Ermənilərin guya etnik təmizləməyə məruz qalmasını iddia edən müxbirin fikirlərini təkzib edən Prezident qeyd etmişdir ki, əslində etnik təmizləyə məruz qalan biz olmuşuq. Ermənilər Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edəndə məhz azərbaycanlılar etnik təmizləməyə məruz qaldılar. Lakin Azərbaycan ermənilərə qarşı etnik təmizləmə aparmır və bunu planlaşdırmır: "Biz birlikdə yaşamalıyıq". "BBC News" müxbirinin də təxminən eyni məzmunlu sualını – Dağlıq Qarabağda yaşayan erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağı ilə bağlı zəmanət verilməsini Ali Baş Komandan qısa, lakin kəskin və tutarlı cavablandırmışdır: "Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranma-yacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni



bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq" [8].

Ermənistan dezinformasiyası o həddə çatmışdı ki, müharibə davam edərkən İrəvanda keçirilən bəzi nümayişlərdə Azərbaycan, iyulda ermənilərin hücumunda həyatını itirən "Zəhra körpə"nin fotolarından istifadə edilərək "mülki əhali"nin qətlində ittiham olunmuşdur.

Bütün bunlara baxmayaraq Azərbaycan döyüş meydanın da olduğu kimi informasiya cəbhəsində də qalib gəldi. Azərbaycanlı sosial media istifadəçiləri sosial şəbəkələrdə hesablar formalaş-dıraraq, Ermənistanın dezinformasiyalarını ifşa edən məlumatları müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırırdılar. Xüsusilə, Twitter sosial şəbəkəsi üzərindən Ermənistan dezinformasiyasına qarşı olduqca güclü təbliğat gedirdi.

Azərbaycan özünün "balans siyasəti" çərçivəsində formalaş-dırdığı xarici siyasətinə uyğun olaraq çoxtərəfli diplomatiya əsasında hərəkət edir, ölkənin hər hansı bloka daxil olması əvəzinə çoxölçülü münasibətlərə üstünlük verir. Bu siyasətin bəzi çatışmazlıqları olsa da, Azərbaycanın strateji mövqeyi, enerji resursları, Rusiya faktoru və postsovet ölkələrinin üzləşdiyi bir çox problemləri nəzərə alaraq balans siyasətinin rasional seçim olduğunu söyləmək olar. Bu kontekstdə Azərbaycan bir çox ölkə və təşkilatlarla yaxşı əlaqələr qurmağa çalışarkən, ortaq mədə-niyyət və sivilizasiya, multikulturalizm, etnik mənsubiyyət, coğrafiya, ortaq keçmiş (Çar Rusiyası və SSRİ-nin mirası), enerji təhlükəsizliyi, iqtisadiyyat, hüquq, demokratiya və s. Münasi-bətlərin qurulmasında insan haqlarından da istifadə edilir. Qərb dəyərləri, hüquqlar, ekologiya kimi elementlərdən bəhrələnir.

Azərbaycan bir tərəfdən Rusiya ilə yaxşı münasibətlərə üstünlük versə də, digər tərəfdən ABŞ və Qərb dünyası ilə ciddi dialoq aparır. Bir tərəfdən heç bir təhlükəsizlik təşkilatına daxil deyil, digər tərəfdən KTMT və NATO ilə müxtəlif əsaslarla əməkdaşlıq edir. O, bir tərəfdən Qoşulmama Hərəkatına sədrlik edir, digər tərəfdən isə Aİ ilə bir çox məsələlərdə, xüsusilə enerji sahəsində intensiv əməkdaşlıq edir. Bir tərəfdən Türkiyə və Türk Dövlətləri ilə ortaq tarix, mədəniyyət və etnik mənsubiyyətə əsaslanan əməkdaşlığa üstünlük verir, digər tərəfdən isə keçmiş SSRİ ölkələri ilə sovet mirası çərçivəsində dialoq qurur. Xülasə, Azərbaycan həm çoxtərəfli, həm də çoxkomponentli xarici siyasət yürüdür [9].

Qarabağ Qələbəsindən sonra Azərbaycan ənənəvi çoxölçülü xarici siyasətini yeni ölçülər əlavə etməklə davam etdirir. Bu ölçülərdən ən mühümü Qarabağ zəfərindən sonra işğal altındakı torpaqlarını azad edən Azərbaycanın regional, Türk Dünyası və qlobal proseslərə fəal töhfə verməsi idi. Bu kontekstdə Azərbaycan regional müstəvidə fəal siyasət apardığı halda, digər tərəfdən qlobal səviyyədə təşəbbüskarlıq nümayiş etdirir. Azərbaycan regional müstəvidə Cənubi Qafqazın sülhü və sabitliyi üçün səy göstərdiyi halda, digər tərəfdən Qarabağ münaqişəsi zamanı əldə etdiyi təcrübəni digər Türk Cümhuriyyətləri ilə bölüşərək münasibətlərini dərinləşdirməyə çalışır. Qlobal miqyasda IX Qlobal Bakı kimi yüksək səviyyəli, intensiv iştirakla forumlar vasitəsilə ölkəsinin xarici siyasət prioritetlərini izah edərək, dünyada baş verən problemlərin həlli yollarının tapılmasına töhfə verməklə dünya siyasətində layiqli yerini tutmağa çalışır. Forum və Qoşulmama Hərəkatının Parlamentarilər Şəbəkəsi.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsası 1996-cı il aprelin 22-də Lüksem-burqda imzalanmış və 1999-cu il iyulun 1-də qüvvəyə minmiş "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" ilə yaradılmışdır. Avropa Qonşuluq Siyasəti və bu



siyasət çərçivəsində həyata keçirilən fəaliyyət proqramları Azərbaycan-Avropa İttifaqı münasibət-lə-rinin institusional-laşdırılmasında səmərəli olmuşdur. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il iyunun 1-də "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" memorandumu imzalayaraq, bu proqramın daxili hüquqi bazasını yaradıb. Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 2006-cı ildə Brüsseldə keçirilən iclasında Fəaliyyət Planları imzalanıb. Azərbaycan Fəaliyyət Planında Aİ-Azərbaycan münasibətlərində prioritet sahələr aşağıdakı kimi göstərilmişdir.

- Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə töhfə vermək,
- Beynəlxalq standartlar çərçivəsində ədalətli və şəffaf seçkilər də daxil olmaqla demokratiyanın gücləndirilməsi
- İnsan hüquqlarını, əsas azadlıqlarını və qanunun aliliyini təmin etmək;
- Rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizəni gücləndirməklə biznes və investisiya mühitinin yaxşılaşdırılması;
- gömrük işinin təkmilləşdirilməsi;
- Davamlı və balanslaşdırılmış iqtisadi inkişaf, iqtisadiyyatın diversifikasiyası,
- 2004-cü ilin noyabrında Bakı Nazirlər Konfransının məqsədlərinə uyğun olaraq Avropa İttifaqı ilə Azərbaycan arasında enerji və nəqliyyat sahəsində əməkdaşlığı gücləndirmək;
- Sərhədlərin idarə edilməsi də daxil olmaqla ədalət, azadlıq və təhlükəsizlik sahələrində əməkdaşlıq etmək;
- Regional əməkdaşlığın gücləndirilməsi.

Aİ-Azərbaycan Fəaliyyət Planında yuxarıda qeyd olunan prioritetləri dörd qrup altında toplamaq mümkündür. Birincisi, Azərbaycanın milli işi olan Qarabağ məsələsini həll etmək, ikincisi,

Azərbaycanın bazar iqtisadiyyatına keçidini təmin etmək, üçüncüsü, ölkədə ümumbəşəri hüquqi prinsiplərin və demokratiyanın bərqərar olmasını təmin etmək, dördüncüsü, ölkədə ümumbəşəri hüquq prinsiplərinin və demokratiyanın bərqərar olmasını təmin etməkdir. enerji sahəsində əməkdaşlıq.

Avropa Qonşuluq Siyasətinin yenilənməsindən sonra Aİ Fəaliyyət Planını əvəz etmək üçün Azərbaycanla yeni Tərəfdaşlıq Prioritetləri Sənədi üzrə danışıqlar aparıb. Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 11 iyul 2018-ci il tarixində Brüsseldə keçirilmiş danışıqların yekunu olaraq, Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının tövsiyəsi ilə Sənəd 28 sentyabr 2018-ci il tarixində qəbul edilmiş və həmin tarixdən qüvvəyə minmişdir. Tarix. Hazırda sənədin müddətinin 2027-ci ilə qədər uzadılması istiqamətində səylər davam etdirilir. Sözügedən Sənədə aşağıdakı prioritetlər daxildir:

- İnstitusional gücləndirmə və yaxşı idarəetmə
- İqtisadi inkişaf və bazar imkanları
- Əlaqələr, enerji səmərəliliyi, ətraf mühit və iqlim fəaliyyəti,
- Miqrasiya və insan münasibətləri

Təəssüf ki, Aİ fəaliyyət planına daxil edilmiş Dağlıq Qarabağ probleminin həllinə ciddi töhfə vermədi. Bu problemi həll etmək üçün yaradılan ATƏT-Minsk qrupu Qarabağ problemini uzanmış vəziyyətdə qoyub, 30 il ərzində ciddi töhfə verməyib, əksinə, bəzən erməni tezislərinə üstüörtülü dəstək verib. İkinci Qarabağ müharibəsi başlayandan sonra qəbul edilən qərarda Ermənistanın işğalı və ya BMT Təhlükəsizlik Şurasının Qarabağın işğalı ilə bağlı qərarlarına heç bir istinad edilmədən münaqişə qətiyyətlə pislənilib, mülki əhalinin tələfatının qarşısının alın-masına çağırılıb, Türkiyə adını çəkmədən tənqid edilib. üçüncü tərəflərin müdaxiləsinin bölgədə sülhün bərqərar olmasına mane olduğunu şərh edib. Avropa Birliyi də bu şəkildə



hərəkət etdi. Müharibə dövründə heç bir konstruktiv addım atmadı, əksinə, Azərbaycanı günahlandırmaq mövqeyi tutdu. O, Ermənistanın mülki yaşayış məntəqələrinə hücumuna səssiz qalıb.

2022-ci il iyulun 15-də Azərbaycan Respublikasının Prezi-denti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh sazişinin imzalanması, nəqliyyat və kommunikasiya yolları, Azərbaycanın üzləşdiyi mina problemi və müharibədə itkilər.10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Azərbaycan və Ermənistanın mülki əhalisi Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar və Aİ bu məsələ ilə bağlı məlumatlandırılmasını istəyib.

Demək olar ki, Azərbaycan-Aİ münasibətlərinin əsas oxunu Aİ-nin enerji tələbatının təmin edilməsi və enerji təchizatının təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Vətən müharibəsi zamanı Aİ Azərbaycana konstruktiv münasibət bəsləməsə də, Azərbaycan Aİ-yə qarşı ehtiyatlı davrandı və münasibətlərin ciddi şəkildə korlanmasına imkan vermədi. Azərbaycan təbii qazı Rusiya-Ukrayna müharibəsindən sonra Aİ-nin Rusiyaya tətbiq etdiyi embarqo çərçivəsində Avropanın Rusiya təbii qazından asılılığını azaltmaq üçün alternativlərin axtarışında mühüm alternativ mənbə kimi görülüb. Bu kontekstdə Aİ ilə Azərbaycan arasında danışıqlara başlanılıb. İyulun 18-də Azərbaycan və Avropa İttifaqı arasında “Avropa Komissiyası və Azərbaycan Respublikası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memoran-dumu” imzalanıb [11].

Prezident İlham Əliyev enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasından sonra mətbuata açıqlamasında Azərbaycan ilə Aİ arasında enerji sahə-sində

fəal əməkdaşlığın on beş ildən artıq bir tarixə malik olduğunu bildirib və deyib: , "Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən və Avropa İttifaqı, o cümlədən tərəfdaşlarımız tərəfindən dəstəklənən enerji layihələri." Avropanın enerji xəritəsini tamamilə dəyişdi. Neft hasilatına başladıq. Sonra qaz istehsalına keçdik [10]

**Nəticə.** SSRİ-nin dağılması və Azərbaycanın yenidən müstəqilliyini elan etməsindən sonra Ermənistanın Dağlıq Qarabağı işğalı Rusiyanın dəstəyi ilə baş verdi. Bu işğal bir tərəfdən yeni cümhuriyyətin bir çox problemlərlə, xüsusən də miqrasiya problemi ilə üzləşməsinə, digər tərəfdən isə ərazisinin 20 faizini işğal edən Azərbaycan üçün ciddi sarsıntıya səbəb oldu. Bu vəziyyət Azərbaycanın xarici siyasətində də öz əksini tapmış, 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın azad edilməsinə qədərki dövrdə Qarabağın düşmən işğalından azad edilməsi Azərbaycanın xarici siyasətinin birinci prioritet sahəsinə çevril-mişdir.

## Ədəbiyyat


1. Aliyev, İlham (2019), "Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə İlham Əliyevin nitqi", 25 oktyabr 2019, 11:30, https://president.az/az/articles/view/34600,25.07.2022.
2. Aliyev, İlham (2022), "İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransda iştirak edib", 30 iyun 2022, 11:00, https://president.az/az/articles/view/ 56578, 25.07.2022.
3. Aslanlı, Araz (2011a), "Haydar Aliyev Döneminde Azerbaycan Dış Politikası: Genel Özellikler ve Karabağ Sorunu İlham Aliyev Döneminde Azerbaycan Dış Politikası", http://newsaze.com/araz_aslanli_haydar_aliyev_doneminde_azerbaycan_dis_politikasi_genel_ozellikler_vekarabag_sorunu-l-1-sayfa_id-676-y-116-id2-7224, E: 20.07.2022
4. Aslanlı, Araz (2011a), "İlham Aliyev Döneminde Azerbaycan Dış Politikası, https://ekoavrasya.net/duyuru.aspx?did=14&pid=10&lang=tr E: 20.07.2022
5. Elşen, Memmedli (2017), "Azerbaycan-Avrupa Birliği İlişkilerinde Enerji Faktörü", Akademik Bakış Dergisi, Sayı: 61 (Mayıs-Haziran, 2017), ss. 206-215.
6. Erarslan, Fatih, Özdemir, Fatma Nur (Kasım-Aralık, 2021), "Azerbaycan-Türkiye İlişkilerinde Önemli Bir Kavşak: İkinci Karabağ Savaşı", Türk Dünyası Araştırmaları, Cilt: 129 Sayı: 255, 315-334
7. Eyvazlı, Elşad (2017), "Türk Basınında Dağlık Karabağ Sorunu: Milliyet, Hürriyet, Sabah Gazeteleri Örneği", MUTAD, 2017; IV (1): 57-74.
8. Independet Türkçe, "Ermenistan, Azerbaycan'a sunduğu teklifin ayrıntılarını açıkladı", https://www.indyturk.com/node/510501/d%C3%BCnya/ermenistan-azerbaycana-
9. Kalkan, Duhan (2022), "Enerji Güvenliği Kapsamında Türkiye-Azerbaycan Arasındaki Enerji İlişkileri", Uluslararası Kriz ve Siyaset Araştırmaları Dergisi, Sayı: 6 (1) (May, 2022), ss.136-167.
10. Mehdiyev, Ramiz (2005), Azerbaycan: Globallaşma Dövrünün Talepleri, Bakü, Yeni Neşrler Evi
11. https://president.az/az/articles/view/56648, 22.07.2022

## AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA SİYASƏTİ VƏ REGİONAL PROSESLƏR

**Cəbrayılov Anar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Bəşər tarixinin bizə məlum olan dövründən, yəni ibtidai icma quruluşu zamanından başlayaraq, insanların daim yeni məskənlərə köç etməsi, daha yaxşı təbii şərait axtarması uğrunda çalışdıqları məlumdur. Əməyin meydana gəlməsi, digər sənət növlərinin yaranması, insan fəaliyyətinin getdikcə mürəkkəbləşməsi onun həyatında yeni imkanların açılmasına xidmət etdi. Amma dəyişilməz olan baza prinsiplər yenə də qaldı. Bunlardan biri də daha yaxşı şəraitin tapılması məqsədilə köç etmək idi.

Müasir dövrdə demokratiya prinsiplərinin bütün dünya üzrə yayılması, azad iqtisadi zonaların yaradılması, insan hüquq və azadlıqlarının genişlənməsi və müdafiəsi, qloballaşma və digər bu kimi tendensiyalar kontekstində insanların sərbəst yerdəyişmə imkanları da genişlənmişdir. Rəsmi şəkildə Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi universal bir qurumda 193 üzv ölkə və 2 müşahidəçi statuslu dövlət qurumu təmsil olunur. Davamlı inkişaf çərçivəsində BMT-nin 2015-ci ildə təqdim etdiyi statistikaya əsasən isə dünyada 7 milyarddan çox insan yaşayır. Lakin dünya iqtisadiyyatının əhəmiyyətli hissəsi, eləcə də təbii resursları əldə etmək imkanı elmi, texniki və texnoloji baxımdan yalnız inkişaf etmiş ölkələrə məxsusdur. Belə olan təqdirdə, insanların da yüksək inkişaf etmiş həmin məkanlara olan marağı artmış olur. Onu da əlavə etmək lazımdır ki, dünya əhalisinin də nisbətdə çox az hissəsi öz dövlətləri



daxilində bu maddi sərvətlərdən yararlanmaq imkanına malikdir. Qeyd olunan faktların fonunda insanların bir yerdən digər yerə köç etməsi nəinki qaçılmazdır, hətta həyat tərzidir desək, yanılmarıq.

Hazırda hər bir dövlət iqtisadi baxımdan daha çox inkişaf etmək və öz iqtisadiyyatını zənginləşdirməkdə maraqlıdır. İqtisadiyyatı formalaşdıran resurslardan olan əmək və intellektual kapitalın axtarışı və daha ucuz başa gəlməsi üçün böyük dövlətlərin xarici miqrantları öz ölkələrinə cəlb etmək siyasəti də vardır.

Azərbaycan da dünya dövlətləri sırasında möhkəmlənməyi və öz sözünü deməyi bacarmışdır. Müstəqilliyinin 27 yaşı olmasına baxmayaraq, regionda iri layihələrin həyata keçirilməsi, Şərqlə Qərb, Şimalla Cənub arasında nəqliyyat və logistika qovşağının üzərində yerləşməsi, dünya ölkələri ilə istər ikitərəfli, istərsə də çoxtərəfli əlaqələrin genişləndirilməsi, son illər ərzində miqyaslı layihələrə ev sahibliyi etməsi Azərbaycanın miqrasiya axınında dayanacaq nöqtəsi olmasına təsir edən amillərdəndir.

Müstəqilliyinin ilk illərində düçar olduğu münaqişə nəticəsində ölkə daxilində məcburi miqrasiyaya məruz qalmasına və hətta mənfi miqrasiya saldosuna sahib olmasına baxmayaraq, hazırda ölkəmiz xarici turistlər, əcnəbilər üçün kifayət qədər maraqlı bir ölkəyə çevrilib və ölkəyə gələnlərlə ölkədən gedənlər arasında müsbət dinamika müşahidə olunmaqdadır.

Bütün bu deyilənlərin fonunda ölkədə miqrasiyanın tarixi və bugünkü vəziyyəti, Azərbaycan Respublikasının miqrasiya siyasətinin formalaşması, təkmilləşdirilməsi və hazırda hansı durumda olmasını öyrənmək, tədqiq etmək olduqca maraqlıdır.

## DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ İNNOVATİV KƏND TƏSƏRRÜFATI (BEYLƏQAN RAYONU TİMSALINDA)

**Əbilov Rəşid**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Davamlı inkişafın təmin edilməsində innovativ kənd təsərrüfatının tədqiqinin aktuallığı, misal olaraq Beyləqan rayonunu göstərməklə, kənd təsərrüfatı təcrübələri ilə daha geniş davamlılıq məqsədlərinin kritik kəsişməsindən irəli gəlir. Kənd təsərrüfatı iqtisadi artım, ərzaq təhlükəsizliyi və kəndlərin dolanışıq vasitələri üçün dayaq rolunu oynayır. Kənd təsərrüfatının çox güman ki, mərkəzi iqtisadi fəaliyyət olduğu Beyləqan rayonu kontekstində innovativ kənd təsərrüfatı təcrübələrinin qəbulu müasir problemlərin həlli üçün mühüm əhəmiyyət kəsb edir.

Bu çərçivədə, iqlim dəyişikliyi, resursların tükənməsi və əhalinin artımı davamlı və dayanıqlı kənd təsərrüfatı üsullarına keçidi zəruri edir. İnnovativ yanaşmalar dəqiq əkinçilik, aqroekologiya və texnologiyanın inteqrasiyasını əhatə edir ki, bunların hamısı resurslardan səmərəli istifadəyə, ətraf mühitə təsirin azaldılmasına və məhsuldarlığın artırılmasına kömək edir. Beyləqan rayonu mikrokosmos kimi iqtisadi inkişafı və ətraf mühitin mühafizəsini tarazlaşdıran yerli həll yollarına ehtiyacı əks etdirir.

Bu rayonda innovativ kənd təsərrüfatının tədqiqi bir neçə səbəbə görə aktualdır. Birincisi, o, dəyişən iqlim şəraiti və artan əhalinin tələbləri fonunda ərzaq təhlükəsizliyinin təmin edilməsi imperativinə cavab verir. İkincisi, o, kənd təsərrüfatını həm ekoloji problemlərə töhfə verən, həm də davamlı təcrübələr vasitəsilə potensial həll yolu kimi qəbul edərək, davamlı inkişafın qlobal gündəliyinə uyğun gəlir. Üçüncüsü, Beyləqandan əldə edilən məlumatlar analoji problemlərlə üzləşən oxşar kənd təsərrüfatı icmaları üçün istifadə oluna bilən modellər təklif edə bilər.



Xülasə, Beyləqan rayonunda davamlı inkişafın təmin edilməsində innovativ kənd təsərrüfatının tədqiqi rayonun kənd təsərrüfatından asılılığı, ekoloji problemlərin həllinin aktuallığı və davamlı inkişafa daha geniş qlobal öhdəliyi ilə əlaqədardır. Bu kəşfiyyatın nəticələri Beyləqanda və onun hüdudlarından kənarda kənd təsərrüfatı məhsuldarlığı, iqtisadi artım və ekoloji davamlılıq arasında ahəngdar tarazlığı təşviq edən siyasətlər, təcrübələr və müdaxilələr haqqında məlumat vermək potensialına malikdir.

## AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFINDA YAŞIL ENERJİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Əhmədov Eldar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 26 940 MVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Dünya Bankının təşəbbüsü ilə günəş və külək enerjisindən istifadənin dəstəklənməsi üçün hazırlanmış Qlobal Günəş Atlası və Qlobal Külək Atlası tərəfindən təmin edilən xəritələrdə Azərbaycan Respublikası ərazisi üzrə birbaşa normal radiasiya, qlobal üfüqi radiasiya, eyni zamanda fotovoltaik potensial üzrə günəş radiasiyası və külək enerjisi potensialı haqqında məlumatlar əks olunmuşdur.

Dünya Bankı Qrupunun təşəbbüsü olan "Enerji Sektorunun İdarəedilməsində Yardım Proqramı" - ESMAP çərçivə-sində aparılan ilkin təhlillərə görə, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində dənizdə külək enerjisinin texniki potensialı, dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt olmaqla, ümumilikdə 157 QVt səviyyəsində qiymətləndirilmişdir.

Təhlillər göstərir ki, Vətən müharibəsində ölkəmizin qələbəsi işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarından digər məqsədlərlə yanaşı, enerji məqsədli istifadəyə şərait yaratmışdır. Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensialı mövcuddur.

İlkin müşahidələr göstərir ki, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda, ilkin araşdırmalara əsasən Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir.

Qarabağ və Şərqi Zəngəzurda 170 MVt gücündə olan hidroelektrik stansiyaları istismara verilmişdir. 2024-cü ilin sonuna qədər stansiyaların sayı 32-ə, ümumi güc 270 MVt-a çatacaq. Növbəti illər ərzində Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" stansiyaları da nəzərə alınmaqla su elektrik stansiyalarının gücünün 500 MVt-dan çox olacağı gözlənilir.



Digər bərpa olunan enerji mənbələrinə gəldikdə isə, Kəlbəcər və Şuşada geotermal enerji mənbələrinin olmasına dair müvafiq elmi araşdırmalar var. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı və digər sahələrin inkişafı nəticəsində gələcəkdə bioenerji potensialı qiymətləndiriləcəkdir.

İki dənizi birləşdirən marşrutlarla Xəzər dənizinin "yaşıl enerji" potensialını Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən strateji layihə olan Dəhliz Xəzər dənizindən başlamaqla Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstana qədər davam edəcəkdir.

Xəzər - Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi layihəsi üzrə TİƏ-nin hazırlanması ilə bağlı keçirilən tender proseduru dekabr ayında başa çatacaqdır. Gürcüstan - Rumıniya Qara dəniz sualtı elektrik kabel layihəsindən fərqli olaraq bu layihədə ilkin mərhələdə 4 QVt elektrik enerjisi ilə yanaşı, yaşıl hidrogenin ixracı da nəzərdə tutulur.

Azərbaycanın yüksək BOEM potensialı hidrogen istehsalı üçün əlverişli zəmin yaradır. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə hazırlanan hesabata əsasən Azərbaycanda istehsal olunan yaşıl hidrogen təbii qaz boru kəmərləri və ya müstəqil hidrogen kəməri vasitəsilə ixrac olunarsa Avropa İttifaqında istehsal olunan yaşıl hidrogenlə rəqabətədavamlı ola bilər.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioriteti üçün tədbirlərin həyata keçirilməsi ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifa-dəni təmin ediləcəkdir.

# QOBUSTAN RAYONUNDA ALTERNATİV ENERJİ RESURSLARININ İDARƏ EDİLMƏSİ

**Əliyev Anar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Zəngin təbii sərvətlərə malik ölkə kimi Azərbaycan enerji ehtiyaclarını ənənəvi olaraq qalıq yanacaqlara, xüsusilə də neft və qaza etibar etmişdir. Bununla belə, ekoloji problemlərin, enerji təhlükəsizliyi problemlərinin və iqtisadiyyatın şaxələndirilməsi potensialının artan tanınması alternativ enerjinin əhəmiyyətini ön plana çıxarıb. Azərbaycanın qalıq yanacaqlardan güclü asılılığı onun enerji təhlükəsizliyi üçün risklər yaradır. Əsasən neft və qaza arxalanmaq ölkəni qlobal enerji qiymətlərindəki dalğalanmalara və təchizatın pozulmasına qarşı həssas edir. Günəş, külək və geotermal kimi alternativ enerji mənbələrindən istifadə etməklə Azərbaycan öz enerji kompleksini şaxələndirə və qalıq yana-caqardan asılılığını azalda, daha davamlı və sabit enerji sistemi yarada bilər.

Beynəlxalq iqlim sazişlərini imzalayan Azərbaycan istixana qazları emissiyalarını azaltmaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq öhdəliyinə sadiqdir. İstismar zamanı az miqdarda istixana qazı emissiyası istehsal edən və ya heç olmayan alternativ enerjiyə keçidlə ölkə iqlim dəyişikliyini azaltmaq və onun ətraf mühitə təsirini minimuma endirmək üçün qlobal səylərə əhəmiyyətli dərəcədə töhfə verə bilər.

Alternativ enerji davamlı inkişaf prinsiplərinə uyğundur, iqtisadi artımı sosial və ekoloji mülahizələrlə balanslaşdırır. Bərpa olunan enerjinin tətbiqi enerji istehsalının ətraf mühitə daha az zərər vurduğu, sosial bərabərliyi təşviq etdiyi və texnoloji innovasiyalara təkan verdiyi yaşıl iqtisadiyyatı inkişaf etdirir. Bu davamlı yanaşma ölkə üçün uzunmüddətli iqtisadi fayda gətirə bilər.



Alternativ enerji mənbələrinin inkişafı Azərbaycanın enerji müstəqilliyini artırır. Ölkə daxilində bərpa olunan mənbələrdən elektrik enerjisi istehsal etməklə ölkə enerji idxalından asılılığını azalda və enerji təhlükəsizliyini gücləndirə bilər. Yerli enerji istehsalı beynəlxalq enerji qiymətlərindəki dalğalanmaların və geosiyasi qeyri-müəyyənliklərin təsirlərini azalda bilər.

Alternativ enerjiyə sərmayə qoymaq Azərbaycan üçün yeni iqtisadi imkanlar açır. Bərpa olunan enerji infrastrukturunun inkişafı, quraşdırılması və saxlanması iş yerləri yaradır və iqtisadi artımı stimullaşdırır. Bundan əlavə, qonşu ölkələrə elektrik enerjisi ixracı kimi bərpa olunan enerjinin ixrac potensialı Azərbaycanın enerji sektorunun gəlirlərini artıra bilər.

Azərbaycanda alternativ enerji ilə bağlı bir neçə sahə araşdırması aparılıb. Bu tədqiqatlar ölkənin bərpa olunan enerji potensialı, çağırışları və imkanları haqqında dəyərli fikirlər təqdim edir. Azərbaycanın günəş enerjisi potensialının qiymətlən-diril-məsi, günəş şüalanma səviyyəsi, günəş panellərinin səmərəliliyi və fotovoltaik sistemlərin mümkünlüyü kimi amillərin araşdırılması üçün tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar günəş elektrik stansiyaları üçün uyğun yerləri, günəş enerjisi istehsalı üçün potensial imkanları və günəş layihələrinin iqtisadi səmərəliliyini müəyyən etməyə kömək edir. Azərbaycanın külək enerjisi potensialı da tədqiqat obyekti olmuşdur. Küləyin sürəti model-lərini, küləyin istiqamətini və külək təsərrüfatları üçün potensial yerləri müəyyən etmək üçün külək ehtiyatlarının qiymətlən-dirilməsi aparılmışdır.

## İNSAN POTENSİALININ FORMALAŞMASI KONTEKSTİNDƏ DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ İŞ VAXTININ İDARƏ EDİLMƏSİ

**Əliyev Aydın**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Davamlı inkişafda insan potensialı, onun formalaşması, ixtisaslı kadrların yetişdirilməsi dövlətin və cəmiyyətin ən qiymətli xəzinəsidir. İnsan potensialının formalaşması davamlı inkişaf konsepsiyasının əsas sütunlarından birini təşkil edir. BMT-nin İnkişaf Proqramı tərəfindən hər il dünya ölkələrində əhalinin rifahını əks etdirən "İnsan İnkişafı Hesabatı" dərc olunması da bunu sübut etməkdədir.

Müasir dövrdə sosial - iqtisadi münasibətlərin getdikcə inkişafı istər dövlət, istərsə də özəl müəssisələrdə idarəetmə qərarlarının hazırlanmasında və qəbulunda daha çevik reaksiyalar tələb edir ki, buna da nail olmaq üçün insan potensialının formalaşması mühüm rol oynamaqdadır.

İnsan potensialının formalaşması və inkişafı prosesində iş vaxtının idarə edilməsi çox böyük iqtisadi və sosial əhəmiyyət daşıyır. İş vaxtından düzgün istifadə olunmaması zamanı yaranan nöqsanların və problemlərin aradan qaldırılması ilə əlaqədar müəssisələrdə iş vaxtından səmərəli istifadə olunmasının, iş vaxtı itkilərinin struktur və dinamikasının, itkilərin aradan qaldırılması yollarının elmi cəhətdən dərindən tədqiqinin əhəmiyyəti günü gündən artmaqdadır.

Bu nöqteyi-nəzərdən müəssisələrdə iş vaxtının idarə edilməsinin tədqiqi çox vacibdir. Aparılan tədqiqatlar zamanı dövlət müəssisələrində iş vaxtının idarə edilməsi ən nümunəvi beynəlxalq təcrübələrə, bir sıra ədəbiyyatlara və uğurlu keys araşdırmalarına



əsaslanaraq yaranan xüsusi çətinliklər aydınlaş-dırılır və həmin çətinliklərin aradan qaldırılmasına dair təkliflər təqdim olunur.

Sözügedən mövzunun davamlı inkişafda insan potensialının formalaşmasında yaranan aktual problemlərindən biri olması nəzərə alınaraq, iş vaxtı zamanı yaranan vaxt itkilərinin aradan qaldırılmasının və ya ən minimum həddə endirilməsinin vacibliyini bildirməkdədir.

İnsan potensialının formalaşması və meydana çıxması kontekstində davamlı inkişafa nail olmaq üçün iş vaxtından səmərəli istifadə edilməsinin incəliklərini və mühümlüyünü başa düşmək günümüz reallığında dövlət və ya özəl müəssisə rəhbərləri, həmçinin digər maraqlı tərəflər üçün mühüm əhəmiyyət kəsb etməkdədir.

## PROKURORLUĞUN HÜQUQ-MÜHAFİZƏ ORQANLARI SİSTEMİNDƏ YERİ VƏ ROLU

**Əliyev Zaur**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
zauraliyev450@gmail.com

Azərbaycan Respublikasının Prokurorluğu həm dövlət hakimiyyət orqanları sistemində, həm də hüquq-mühafizə orqanları sistemində özünəməxus cəciyyəvi keyfiyyət xüsusiy-yətləri ilə fərqləndirilən xüsusi yer tutur. Bu, onun hakimiyyət bölgüsünə uyğun olaraq hansı hakimiyyət sisteminə daxil olmasında yekdil yanaşmanın olmaması və yerinə yetirdiyi çoxşaxəli funksiyaları ilə bağlıdır.

Qanunçuluğun və qanunun aliliyinin təmin edilməsi hüquq-mühafizə orqanları sırasında, ilk növbədə, prokurorluğa həvalə olunur.

Məhz bu səbəbdən prokurorluğun hüquq-mühafizə orqanları sistemində hansı yeri tutması, onun bu orqanların qarşılıqlı əlaqəsinin təmin edilməsində rolu elmi tədqiqat baxımdan böyük maraq kəsb edir. Prokurorluğun funksiyalarının mahiyyəti prokurorluğun hakimiyyətin bütün qollarından nisbi müstəqilliyi, eyni zamanda onlarla fəal əməkdaşlığını nəzərdə tutur. Prokurorluq orqanları hakimiyyət bölgüsü nəzəriyyəsinə uyğun olaraq hakimiyyət qolları arasında tarazlıq vasitəsi rolunu oynayır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, prokurorluq məhkəmə hakimiyyətinə daxil olsa da, məhkəmə sisteminə daxil deyildir. Belə ki, Azərbay-can Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabe-liyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır. Azərbay-can Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istin-taq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkə-mədə iddia qaldırır və məhkəmə qərarlarından protest verir.

Göründüyü kimi, Azərbaycan Respublikasının Prokurorluğu orqanlarının məhkəmə və digər hüquq-mühafizə orqanları sistemində, eləcə də hakimiyyət bölgüsünə uyğun olaraq vahid dövlət hakimiyyətində yeri və rolunun akademik səviyyədə araşdırılması, bu sahədə qanunvericilikdə olan boşluqların və ziddiyyətlərin aradan qaldırılması barədə təkliflərin işlənib hazırlanması aktuallığı ilə qarşıda durur.



## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

**Əliyev Zəka**
*Bakı Dövlət Universiteti*
*zkaliyev683@gmail.com*

Cəmiyyətin aparıcı təbəqəsi sayılan gənclərimizin sağlam,bilikli,savadlı və tərbiyəli olması daim aktual olan məsələlərdən biridir.Daima uzaqgörən siyasəti nəticəsində bu məsələyə diqqət yetirən Ümumilli lider Heydər Əliyev dövlətin çətin zamanlarında belə gənclərin qayğısına qalmağı unutmamış, onları diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etdiyi dönəmdə gənclərin təhsil almasına şərait yaratmışdır.Bu zaman mövcud olduğu dövrün ən nəhəng dövlətlərindən sayılan SSRİ-nin 170-ə yaxın ali təhsil müəssisəsində 15 mindən çox azərbaycanlı gəncin təhsil almasına yardım etmişdir.[1]Təəssüf ki,XX əsrin 80-ci illərinin sonlarından başlayaraq baş verən hadisələr gənclərin ictimai-siyasi proseslərdən demək olar ki,kənarda qalmasına səbəb olmuşdur.Lakin 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev müstəqil Azərbaycanın müstəqil gəncinin hərtərəfli inkişafı üçün gördüyü tədbirlərə qaldığı yerdən davam etmişdir. Heydər Əliyevin gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən,müasir,sağlam düşüncəli,vətənpərlik ruhunda gənclərin yetişdirilməsi və onların dövlətin inkişafı naminə çalışmasıdır.[2]1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması gənclərin vahid bir mərkəzdən idarə olunmasına istiqamətlənmiş bir addım idi.[3] Heydər Əliyev gənclərlə keçirilən görüşlərə xüsusi önəm verirdi və bunun gənclərin fəallaşmasında böyük önəmi oldu.O,Azərbaycan Respublikasının prezidenti seçildikdən bir qədər sonra, 22 sentyabr 1993-cü ildə Azərbaycan gənclərinin nümayəndələri ilə görüşmüşdü.1996-cı il fevralın 2-də məhz onun təşəbbüsü ilə Azərbaycan Gənclərinin Birinci

Forumu keçirilmişdir. Növbəti il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərlə yenidən görüşən Heydər Əliyev "2 fevral-Azərbaycan Gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır.[4]O,gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla ölkənin sağlam təməlini inşa etmişdir.Ulu öndər 1999-cu ildə "Dövlət Gənclər Siyasəti haqqında" Fərman imzalamışdır. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 9 aprel 2002-ci il tarixində Heydər Əliyev tərəfindən təsdiqlənmişdir.[1]Heydər Əliyev ölkədə tarixən mövcud olmuş tolerant mühitin qorunmasına və gənclərin humanist,tolerant ruhda formalaşmasına da böyük diqqətlə yanaşırdı. 22 aprel 2001-ci ildə Bakı şəhərində keçirilən "Qafqazın Dağ Yəhudiləri" Beynəlxalq Elmi Simpoziumundakı çıxışında o qeyd edirdi: "Yüksək tolerantlıq,milli dözümlülük və humanizm ilə səciyyələnən azərbaycanlı mentalitetinə yad olan irqi,milli,dini ayrı-seçkilik,o cümlədən antisemitizm halları tarixən Azərbaycanda mövcud olmamış,burada məskunlaşan hər bir xalq etnik özünəməxsusluğunu,milli adət-ənənələrini qoruyub saxlamışdır."[5]

Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti özünü doğrultmuş və cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir."44 günlük Vətən müharibəsi" bunun əyani sübutu oldu.Belə ki,məhz Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətinin nəticəsində doğma Qarabağımız düşmən əsarətindən azad olundu.

**Ədəbiyyat**


1. https://www.yeniazerbaycan.com/Siyaset_e17345_az.html
2. Pedaqogika,psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal.Bakı Elm-Təhsil Mərkəzi. Bakı-2023
3. https://mod.gov.az/az/pre/25662.html
4. https://lib.aliyev-heritage.org/az/9476535.html
5. "Ümumilli Lider Heydər Əliyevin milli mənəvi dəyərlərimizlə bağlı fikirləri". Mənəvi Dəyərlərin Təbliği fondu.Bakı-2018




## HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR


**Əlizadə Yusif**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*ali_lahic@mail.ru*


Ümumilli lider Heydər Əliyev gənclərlə bağlı olan məsələləri hər zaman öz siyasətinin tərkib hissələrindən biri hesab edib. Azərbaycanın tərəqqisində, onun iqtisadi. siyasi, mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənc-lərin rolunun artırılması ümumilli liderimizin gənlər siyasə-tində əsas yer tuturdu.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir, Cəmiyyət təhsilsiz inkişaf vedə bilməz " . Bu dəyərli fikirlərin müəllifi ümumilli liderimiz Heydər Əliyevdir. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Heydər Əliyev 1969 -1982-ci illər republikaya rəhbərlik etdiyi dövrdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmışdır. Ümumilli lideri-mizin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəsis kimi hazırlanmasında

şərait yaratmışdır. Azərbaycan gənclərin I formunda bu barədə şəxsən özü bildirmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənc-lərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlan-masına səbəb old

Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiy-yət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli



istiqamətində görülən işlər, gənclər təşkilat-larının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Ulu öndərin dövlətçilik ənənələri layiqli davamçısı İlham Əliyev tərəfindən bu gün yaşadılır və böyük ardıcıllıqla davam etdirilir. Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhə-ləyə yol açan cənab Prezident “qara qızılı insan kapitalına çevirmək” deməklə, əslində insan potensialının bütün sahələrdə inkişafın aparıcı lokomativi kimi müəyyənləşdirib.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüd-rətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siya-sətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Bu gün Azərbaycanda yetərincə bilikli , istedadlı , vətənpər gənc var onların gələcək uğurlarına aparan yol biliklərinin artırıl-ması və bacarıqlarının təkminləşdirilməsindən keçir. Ölkə Prezi-denti cənab İlham Əliyevin “qara qızıl”-ın “insan qızılı”na trans-formasiyasına yönəlik konsepsiyası və bu istiqamətdə real-laş-dırı-lan siyasət məhz qeyd edilən məsələnin çözülməsinə xidmət edir.

Bu sahədə ən önəmli məsələlərdən biri də , müasir gəncliyin seçdiyi ixtisaslara əmək bazarında olan tələbatla bağlıdır. XXI əsrinəvvəllərində BMT ölkələrin inkişafının qiymətləndirilməsi üçün Texnoloji Nailiyyətlər İndeksini tətbiq etməyə başladı. Bu göstəriciyə

əsasən dünya ölkələri 4 qrupa bölünürdü: liderlər, potensial liderlər, müasir texnologiyalardan fəal istifadə edənlər  və geridəə qalanlar. Azərbaycan bu göstəriciyə görə potensial liderlər sırasında yer alıb. liderlər qrupunda cəmi 18 ölkənin olduğu nəzərə alınarsa bu çox yaxşı göstəricidir . Bu məqsədlə dövlət səviyyəsində çox iş görülür , amma ixtisası seçən gənclərin iradəsinində böyük önəmi var.

Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Banisi  ümumilli lider Heydər Əliyev olan və onu böyük uğurla həyata keçirən Prezidentimiz İlham Əliyevin gənlər  siyasətinin, gördüyü işlərin nəticəsi kimi tam əminliklə deyə bilərik ki,  bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq nüfuz qazanıb . Bu nüfuzun qorunması və inkişaf etdirilməsi hər bir Azərbaycan gəncinin  borcudur.

## Ədəbiyyat


1. Dövlət İdarəçiliyi.  Nəzəriyyə və təcrübə.
   Elmi-nəzəri jurnal 2012 № 4 (40) 2012. DİA-nın nəşriyyatı
2. Mübarək səfərlər, səmimi görüşlər, Bakı “ Lettapress” nəşriyyat evi , 2013.
3. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%c9%99r-%c9%99liyev-muasir-g%c9%99ncl%c9%99r-siyas%c9%99tinin-banisidir/




# ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ SUMQAYITIN TRANSFORMASİYASI: ŞƏHƏRİN DAVAMLI İNKİŞAFINA BÖYÜK TÖHFƏ


**Ərəbova Fəxriyə**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması  fakültəsinin magistrantı*


Azərbaycanın ümumilli lideri, görkəmli şəxsiyyət Heydər Əliyev ölkənin regional davamlı inkişafının təmin edilməsində mühüm rol oynamışdır. Müasir Azərbaycanın davamlı inkişaf məqsədləri naminə müasir nailiyyətləri ölkəmizin mühüm sənaye mərkəzi olan Sumqayıtın sosial-iqtisadi həyatına da yüksək sürət və keyfiyyət gətirib. Ulu öndərin apardığı və Prezident İlham Əliyevin daha da inkişaf etdirdiyi uğurlu iqtisadi və sosial siyasət nəticəsində regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası, sonuncu Dövlət Proqramı çərçivəsin-də qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıt şəhərinin davamlı inkişafında da yeni bir cığır açdı. Bu baxımdan, Heydər Əliyevin Sumqayıtın nəinki Azərbaycanın, eyni zamanda Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilməsinə səbəb olan təşəbbüsləri və strategiyalarını araşdırmaq vacibdir.

1990-cı illərin əvvəllərində Sumqayıt sovet dövrünün sənaye irsi və ətraf mühitin mühafizəsi ilə bağlı ciddi problemlərlə üzləşmişdi. Bir vaxtlar sənaye mərkəzi olan şəhərdə infrastruktur, ətraf mühitin deqradasiyası və sosial məsələlərdə tənəzzül yaşanmışdı. Bununla belə, ulu öndər Heydər Əliyev hərtərəfli canlanmanın zəruriliyini dərk

edərək Sumqayıtın müasir və davamlı şəhərə çevrilməsinə yönəlmiş silsilə layihələrin təşəbbüskarı oldu.

Heydər Əliyevin Sumqayıtın inkişaf strategiyasının əsasını mövcud sənaye sahələrinin müasirləşdirilməsi, yeni, ekoloji təmiz müəssisələrin yaradılması prioritet təşkil edirdi. Məqsədyönlü investisiyalar vasitəsilə H. Əliyev şəhərin sənaye bazasını təkmil-ləşdirməyə, onu daha səmərəli və ekoloji cəhətdən davamlı hala gətirməyə çalışırdı. Nəticədə, ekoloji problemlərin həlli, o cümlə-dən çirklənmiş ərazilərin bərpası, hava və suyun keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi üçün təşəb-büslər irəli sürüldü.

Heydər Əliyevin rəhbərliyi altında Sumqayıtın dirçəldilməsi sənayenin modernləşdirilməsindən əlavə, hərtərəfli infrastruktur inkişafını əhatə edirdi. Şəhərdə yol infrastukturu, kommunal xidmət və ictimai yerlərdə əhəmiyyətli yenidənqurma və abadlıq işləri aparıldı. Parklar, istirahət zonaları və mədəni məkanlar şəhərin sosial rifahını artırmaq və icma hissini təşviq etmək üçün yaradıldı.

Heydər Əliyevin Sumqayıtla bağlı baxışlarına sənaye sektorundan asılılığı azaltmaq üçün iqtisadiyyatın şaxələndirilməsi də daxil idi. Şəhər texnologiya, tədqiqat və innovasiya da daxil olmaqla, müxtəlif çeşidli biznes investisiyalarını cəlb etmək üçün mərkəzə çevrilməyə başladı. Burada daha geniş spektrli iqtisadi diversifikasiyanı təşviq etməklə, H. Əliyev dəyişən qlobal tendensiyalara uyğunlaşa bilən və davamlı inkişafa töhfə verə bilən dayanıqlı şəhər iqtisadiyyatı yaratmağı qarşısına məqsəd qoymuş-dur.

Sumqayıtlıların həyat keyfiyyətinin yaxşılaşdırılması Hey-dər Əliyevin şəhərin inkişafı strategiyasının əsas məqsədi idi. Hökumət həyat səviyyəsini yüksəltmək üçün sosial proqramlar, o cümlədən səhiyyə təşəbbüsləri, təhsil islahatları və mənzil layihələri həyata keçirdi.



Nəticədə, Heydər Əliyevin Sumqayıta transformativ baxışı onun davamlı şəhər inkişafına sadiqliyinin sübutuna çevrildi. Belə ki, şəhərdə fəaliyyət göstərən 50 məktəbdən 32-si, 71 məktəbəqədər tərbiyə müəssisəsindən 54-ü, o cümlədən, Şahmat və dama məktəbi, Uşaq və Yeniyetmələrin Yaradıcılıq Mərkəzi məhz ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə tikilib istifadəyə verilmişdir. Sənayenin modernləşdirilməsi, ətraf mühitin sağlamlaşdırılması, infrastrukturun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və sosial rifah sahəsində strateji təşəbbüslər vasitəsilə ulu öndər Sumqayıtı balanslaşdırılmış və davamlı şəhər inkişafı üçün bir modelə çevirdi. Müasir dövrdə onun strateji kursu şəhərin dirçəldilmiş infrastrukturunda, sakinlərinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında və Azərbaycanın davamlı inkişafa töhfəsinin simvolu rolunda çıxış edir.

## YERLİ ƏRAZİ İDARƏETMƏ ORQANLARININ İNKİŞAFA TƏSİRİ

**Əsgərov Fərhad**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*SOCAR Downstream MMC*

*farxad027@gmail.com*

Yerli ərazi idarəetmə orqanları ölkənin müxtəlif ərazi vahidlərinin idarə olunması və təşkilatlanması üçün istifadə olunur. Bu orqanlar, dövlətin müxtəlif sahələrdə funksiyalarını icra etməsi üçün müəyyən edilən təşkilat və strukturları əhatə edir. Bu orqanlar, ərazi daxilində işlərin effektiv idarə olunması, qanun-vericiliklərin icrası, ictimai xidmətlərin təminatı və digər sahələrdə fəaliyyət göstərir.

Yerli ərazi idarəetmə orqanları şəhər, qəsəbə və ya kənd ərazilərindəki yerli sahələrin idarə olunması üçün məsuliyyət daşıyan təşkilatlardır. Onlar ərazinin infrastrukturu, təmizlik, torpaq işləri, təhsil və sağlamlıq xidmətləri kimi yerli sahələrdə fəaliyyət göstərir. Ölkənin müxtəlif bölgələrini idarə etmək üçün müəyyən edilən orqanlar, yerli iqtisadiyyatın inkişafı, təhsil və sağlamlıq xidmətləri, ətraf mühitin qorunması kimi istiqamətlərdə fəaliyyət göstərirlər [1-3].

Beləliklə, qeyd edə bilərik ki, yerli ərazi idarəetmə orqan-larının inkişafa təsiri ölkənin sosial və iqtisadi inkişafında əhəmiy-yətli və pozitiv rolu əhatə edir. Onlar yerli ictimaiyyətin tələblərinə cavab verir və ərazidəki yaşayış məntəqələrinin inkişafına nail olmağa çalışırlar.

Yerli ərazi idarəetmə orqanlarının inkişafa təsiri əvvəlcə əsas infrastrukturun inkişafı ilə təmin edilir. Yerli ərazi idarəetmə orqanları şəhər planlaması, yol və körpülərin qurulması, su və kanalizasiya sistemlərinin idarə olunması kimi əsas infrastruktur layihələrini təşkil edir və onları idarə edir. Bu infrastrukturun inkişafı, ictimai və iqtisadi fəaliyyətin artmasına və yerli sahələrin cəlbediciliyinə təsir göstərir.

Sosial xidmətlərin təminatı yerli ərazi idarəetmə orqanları vasitəsilə gücləndirilir. Əhalinin sosial rifahını təmin etmək üçün çeşitli sosial xidmət və yardım proqramları təşkil edilir. Sosial yardım, tibbi xidmətlər və sosial layihələr, əhalinin yaşam keyfiyyətini yaxşılaşdırmağa və sosial rifahı artırmağa kömək edir [2, 3].

Eyni zamanda, yerli iqtisadiyyatın dəstəklənməsi istiqamə-tində ciddi addımlar atılır. Yerli ərazi idarəetmə orqanları yerli işgüzarlığın artması və sahibkarların inkişafını təmin etmək üçün çeşitli təşviqat və dəstək proqramlarını həyata keçirirlər. Bu addımlar yerli iqtisadiyyatın canlanmasına və yerli sahələrdə iş yaratmağa kömək edir.



**Ədəbiyyat**


1. Lima, P., Júnior, G.D., Santos, T.L., Furlan, M., Battistelle, R., Silva, G., Ferraz, D., Mariano, E.B. Sustainable Human Development at the Municipal Level: A Data Envelopment Analysis Index.Infrastructures 2022, 7, 12.
2. Beran, V., Teichmann, M., Kuda, F., Zdarilova, R. Dynamics of Regional Development in Regional and Municipal Economy. Sustainability, 2020, 12, 9234.
3. Karnitis E., Pukis M., Bicevskis J., Karnitis G., Turnis, R., Bicevska M., Action Lines of Municipalities to Improve the Sustainable Development of Small and Medium-Sized Cities in The Eu, Economy & Business Journal, International Scientific Publications, 2021, 15(1), 49-60.


## DAVAMLI İNKİŞAFA TƏSİR EDƏN EKOLOJİ PROBLEMLƏR (CƏNUB REGİONUNUN TİMSALINDA)

**Əzimov Arif**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Ötən əsrin 70-80-ci illərinə qədər tətbiq edilən iqtisadi inkişaf modelləri, eləcə də ətraf mühitə dəyən zərərlərin səviyyəsini artırmaqla beynəlxalq ekoloji təhlükəsizliyə təhdidləri artırırdı. Ötən əsrin 70-80-ci illərinə qədər mövcud olan iqtisadi model, bir qayda olaraq, yüksək inkişaf etmiş ölkələr üçün də səmərəli xarakter daşımırdı və demək olar ki, tam mənası ilə dayanıqsız səciyyəvi

xüsusiyyətlərə malik idi. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdə əhalinin hər nəfərinə düşən təbii resursların istehlak həcmi və eləcə də ətraf mühitin çirklənməsi həcmi inkişaf etməkdə olan ölkələrlə müqayisədə demək olar ki, 20-30 dəfədən çox yüksək idi. Odur ki, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində davamlı inkişafa keçilməsi əslində həm iqtisadi səmərəliliyinin təmin edilməsi, həm sosial ehtiyacları və həm də ekoloji təhlükəsizliyin təmin edilməsi zərurətindən irəli gəlir. Beləliklə, davamlı inkişaf nədir və onun yaranmasını şərtləndirən amillər, daha doğrusu davamlı inkişafın obyektiv zəruriliyini hansı faktorlar müəyyənləşdirir. Davamlı inkişaf cəmiyyətin mövcud ehtiyaclarını qarşılamaq iqtidarında olan və eləcə də cəmiyyətin, gələcək nəsillərin öz ehti-yaclarını ödəmək qabiliyyətini pozmayan iqtisadi inkişaf modelidir.

Davamlı inkişafı şərtləndirən ən mühüm amillərdən biri mövcud resurslardan səmərəli istifadə edilməsi və eləcə də həmin resursların gələcək nəsillərə də saxlanılması ilə bağlıdır. Gələcək nəsillər üçün əlavə xərclər tələb etməyən iqtisadi inkişafın qorunub saxlanması davamlı inkişafın ən mühüm parametrlərindən biridir. Davamlı inkişafın təmin edilməsini şərtləndirən mühüm amillər-dən biri də onu dəyişən və bir sıra hallarda destruktiv xarakter daşıyan təhdidləri neytrallaşdırmaq gücündə olmasıdır. Gələcək nəsil üçün iqtisadi imkanların təmin edilməsi ilk növbədə geniş təkrar istehsal prosesinin həyata keçirilməsindən və onun səmərəliliyinin təmin edilməsindən bilavasitə asılıdır.

Cəmiyyətdə davamlı inkişaf konsep-siyası ötən əsrin 70-ci illərindən etibarən sosial-iqtisadi inkişafın sürətləndirilməsi və ekoloji proseslərin ön plana keçirilməsi fonunda özünü büruzə vermişdir. Təbii resurslardan istifadə edilməsi, eləcə də ətraf mühitin çirklənməsi və insanların sosial-iqtisadi ehtiyaclarının ardıcıl şəkildə ödənilməsi davamlı inkişafın təmin edilməsinin əsas hədəflərindən biri hesab



edilir. Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən BMT-nin təşkilatçılığı ilə bağlı keçirilən konfranslarda ətraf mühitin qorunması, bütövlükdə ekoloji təhlükəsizliyin təmin edilməsi zərurəti davamlı olaraq ön plana çəkilmiş və demək olar ki, istər inkişaf etmiş və istərsə də inkişaf etməkdə olan dövlətlərin rəhbərliyinə və hökümətinə tövsiyə edilmişdir ki, ətraf mühi-tin qorunması bütün hallarda inkişafın başlıca məqsədlərindən birinə çevrilməlidir. Dünyanın mövcud təbii resurslarının gələcək nəsillərə effektiv şəkildə çatdırılması cəmiyyətin qarsısın-da duran ən mühüm vəzifələrdən biridir. Gələcək nəsillərin ehtiyaclarının ödənilməsi baxı-mından təbii resurslardan səmərəli istifadə edilməsi və daha çox bərpa olunan enerji mən-bələrindən və eləcə də resurslardan istifadə edilməsi biomüxtəlifliyin qorunub saxlanılması və insanların həyat keyfiyyətinin davamlı olaraq yaxşılaşdırılması əsas hədəf kimi qarşıya qo-yulmaqdadır.

Hazırda Azərbaycanda davamlı inkişaf prinsipləri ön planda yer alır. Dövlət qlobal miqyasda, BMT-nin öncüllük etdiyi davamlı inkişaf strategiyasına milli səviyyədə ciddi önəm verir. Azərbaycan davamlı inkişafla bağlı milli hesabatları vaxtlı vaxtında təqdim edən ölkələr sırasındadır. Bu isə onu deməyə əsas verir ki, ölkədə davamlı inkişafın mühüm komponentlərindən birini təşkil edən ekoloji siyasət mühüm prioritetlərdən birini təşkil edir. Bu, həm ümumölkə, həm də regional miqyasda özünü göstərir.

Lənkəran–Astara iqtisadi rayonunun davamlı inkişafına nəzər yetirilməsi zamanı da ölkədə regional inkişaf strategiyasında ekoloji amillərin diqqət mərkəzində saxlanıldığını müəyyən etmək mümkündür. Lakin məsələnin bu və ya digər aspektlərinin elmi təhlilinə ciddi ehtiyac vardır. Bu isə cənub regionunun timsalında davamlı inkişafa təsir edən ekoloji problemlərin təhlili və öyrənilməsi mövzusunun aktuallığını ortaya qoyur.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİ- AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN ƏSASIDIR

**Əzizov Nuran**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
*nuran.azizov@gmail.com*

Ümummilli Lider Heydər Əliyev ümumbəşəri müdrik şəxsiyyət olmaqla yanaşı, planetar düşüncəyə malik, öz xalqına və dövlətçiliyə illər boyu xidmət edəcək müasir idarəçilik və onun əsaslı bazasının təməllərini atmış bir lider olaraq qalacaqdır.

Azərbaycanda dövlətçiliyin modern inkişaf tezislərini quraraq həyata keçirən Ümummilli Liderin bu addımlarının əsası hələ gəncliyinin ilk dövrlərində Sovet Azərbaycanının Daxili işlər orqanlarında və sonradan Dövlət Təhlükəsizlik strukturlarında qazandığı və tətbiq etdiyi təcrübəyə əsaslanmışdır. Xüsusən 1949-1950-ci illərdə DTK-nın Leninqrad şəhərində yerləşən Rəhbər Kadrların Hazırlığı Məktəbində keçirilən tədris müddəti Ulu Öndərin sonrakı həyat fəaliyyətində mühüm yer tutan praktiki amillərdən biri olmuşdur.

1967-ci ildən Azərbaycan SSR-də DTK sədri postuna, 1969-cu ildən isə Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitənin 1-ci katib seçilməsi ilə zəngin və bacarıqlı idarəetmənin Heydər Əliyev erasının əsası qoyuldu ki, bu dövr fasilələrlə olsa da bugünədək davam etmiş və bundan sonra da uzunmüddətli generasiyanı əhatə edəcəyi şübhə doğurmur.

Böyük Öndərin Azərbaycan SSR rəhbərliyində olduğu müddətdə inzibati, sosial, mədəni və iqtisadi sahələrdə həyata keçirdiyi



sturuktur və idarəçlik islahatları bügünkü Azərbaycanın inkişaf dinamikasının bünövrəsi olmuş və perspektiv addımların atılması ilə nəticələnmişdir. Xüsusən götürdükdə 70-80-ci illərdə onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması, zəngin maddi-texniki bazanın qurulması, elmi-tədqiqat institutlarının yaradılması və peşəkar kadrların bu sahəyə cəlb olunması Azərbaycan dövlətçiliyinin SSRİ-nin dağılması fonunda müstəqil olaraq ayaqdaqalma potensialına malik olmasını şərtləndirən amilllərdən biri olmuşdur.

Azərbaycanda peşəkar kadr ehtiyatının yaradılmasının əsası Ümummili Liderin hakimiyyəti dövründə Sovet İttifaqının 50-dən artıq şəhərinin 170-dən artıq nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15000-dən artıq azərbaycanlı gəncin təhsil almağa göndərilməsi ilə qoyulmuş oldu. Məhz qeyd edilən zamanlarda SSRİ-nin qabaqcıl ali məktəblərində oxuyan gənclərin ölkəyə dönərək müxtəlif idarə, təşkilat və müəssisələrdə, dövlət idarəçiliyində gətirdiyi yeni yanaşma və metodlar Azərbaycanın bütün göstəricilər üzrə Sovet İttifaqının ön cərgələrində yer almasına səbəb olmuşdur. Yeniliklərlə dolu atılan addımlar nəticə olaraq dahi və fenomenal şəxsiyyət Heydər Əliyevə Sovet İttifaqının siyasi elitasında olan marağı artırmış və o, ittifaqın daha yüksək postlarında xidmət etməyə dəvət edilmişdir.

Ulu Öndərin hakimiyyəti dövründə Azərbaycanın daxilində də ixtisaslı peşəkar kadrların hazırlanması üçün kompleks işlər görülmüşdür. Qeyd edilən zamanlarda Ulu Öndərin şəxsən sərəncamı ilə bir sıra elmi müəssisələrin əsası qoyulmuşdur ki, bunlara nümunə olaraq İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universi-teti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası,

Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı, Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı, Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialı, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi və Heydər Əliyev adına Müasir Təhsil Kompleksigöstərilə bilər. Təhsil sistemində atılan addımların isə tək məqsədi qeyd olunan zaman arealında deyil, məhz bugünümüz və gələcəyimiz üçün parlaq inkişaf strategi-yasına zəmin hazırlamaqdan ibarət idi ki, bu isə yalnız uzaqgörən və müdrik bir siyasətçi zəkasına sahib olan Heydər Əliyev təfəkkürünün düşüncəsi ola bilərdi.

Müvafiq dövrdə Heydər Əliyevin siyasi fəhmi təkcə mülki ixtisaslı kadrların deyil, hərbi təyinatlı peşəkar zabit və digər rütbələrdə peşəkar ordu kontingentinin yaradılmasına şərait yaratdı. 70-ci illərdə açılan C.Naxçıvanski adına hərbi lisey Sovet dövrünün siyasətinə zidd olaraq hərbi strukturlarda azərbaycanlı əhaliyə daha çox tikinti və digər ehtiyat sahələrdə işçi qüvvə kimi yanaşılması məqsədlərinin üzərindən xətt çəkərək hərbi sahədə də azərbaycanlıların üstün və bacarıqlı olduqlarını sübut etmişdir. 90-cı illərdə dövlətimizin məruz qaldığı işğal siyasətinin isə qarşısında duran ən böyük maneələrdən biri də məhz Ulu Öndərin yetişdirdiyi Naxçıvanski məzunlarının şücaəti idi ki, məhz bu məzunların orduda və ordu rəhbərliyində göstərdikləri qəhrəmanlıqlar nəticə-sində Azərbaycanın bir dövlət kimi varlığının sual altında qalması təhlükəsi aradan qalxmış oldu.

Ulu Öndərin müdrik siyasəti 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıdışından sonra davam etdirildi. Minlərlə azərbaycanlı gənc



dünyanın tanınmış ali təhsil müəssisələrinə təhsil almağa göndərildi və bu prosesin uzunmüddətli strategiyası hazırlanaraq bu gündə cənab Prezident İlham Əliyev tərəfindən müvəffəqiy-yətlə davam etdirilir. 90-cı illərdə hərbi cəhətdən daha güclü və NATO standartlarına cavab verəcək ordunun hazırlanması üçün xaricdə və xüsusən Türkiyə Respublikasına göndərilən gənclər isə bugün artıq müzəffər Azərbaycan ordusunun generalitet və rəhbərliyində təmsil olunurlar. Bütün bunlar Ulu Öndərin zamanında verdiyi qərarların düzgün və rasionallığının sübutu sayıla bilər.

Artıq Ümummilli Liderin bazasını yaratdığı mükəmməl idarəçilik forması cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə son illərdə Vitse Prezidentlik, Səlahiyyətli və Xüsusi nümayəndəlik institutu yaradılmış, ASAN xidmət və DOST mərkəzləri kimi peşəkar və modern
idarəçilik sistemi qurulmuş, Dövlət İdarəçilik Akademiyası və digər Ali təhsil müəssislərinin yetişdirdikləri intellektual və bacarıqlı kadrların dövlət idarəetməsinin müxtəlif sahələrində fəaliyyət və iş təcrübələrini bölüşmək üçün ideal şərait yaradıl-mışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli Liderin əsasını qoyduğu, cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyi peşəkar kadr siyasəti əsrlər boyu Azərbaycanın inkişafına, dövlətin və dövlətçiliyin qorunub-saxlanmasına, Azər-baycanın region və dünya ölkələri arasında bütün sferalar üzrə müsbət inkişaf dinamikasına malik olacağının qarantiyasıdır. Əminliklə demək olar ki, ərazi bütövlüyü və suverenliyi bərpa edilmiş Azərbaycan dövləti cənab Prezident İlham Əliyev rəh-bərliyində Ulu Öndərin siyasi və ideoloji irsini hər zaman layiqincə davam etdirəcək və bu zəngin irs daima böyük hörmət və ehtiramla xatırlanacaqdır.

## AQRAR SAHƏNİN DAVAMLI İNKİŞAFI (İSMAYILLI RAYONUNUN TİMSALINDA)

**Həsənov Ariz**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Aqrar sahə ölkə iqtisadiyyatının bir çox istehsal və xidmət sahələrini özündə birləşdirən mürəkkəb sosial - iqtisadi sistem olmaqla əsas məqsədi - kənd təsərrüfatı üzrə xammalların istehsalı, onların emal edilməsi nəticəsində əldə edilən çoxçeşidli ərzaq məhsullarının istehlakçılara çatdırılmasından ibarətdir. Aqrar sahənin tərkibində kənd təsərrüfatı aparıcı rol oynayır. Kənd təsərrüfatı - bitki və heyvan mənşəli məhsulların istehsal olunması, bunların keyfiyyət və səmərəliliyinin yüksəldilməsi, bu məhsulların uyğun şərtlərdə mühafizəsi, işlənib qiymətlən-dirilməsi və satışa çıxarılmasına deyilir. Kənd təsərrüfatı, iki təməl istehsal əsasında formalaşır. Bunlar bitki mənşəli istehsal və heyvan mənşəli istehsaldır. Kənd təsərrüfatı insan fəaliyyətinin ən başlıca və qədim sahəsidir. Dünyada elə bir ölkə yoxdur ki, orada kənd təsərrüfatı və ona yaxın olan meşə təsərrüfatı, ovçuluq, balıqçılıqla məşğul olunmasıdır. Dünya əhalisinin 1 milyard nəfəri, yəni iqtisadi fəal əhalinin yarıya qədəri bu sahələrdə çalışır.

Kənd təsərrüfatında iki başlıca iqtisadi inkişaf forması olan intensiv və ekstensiv formalar mövcuddur. İntensiv kənd təsərrüfatı istehsalı mexanikləşdirmə və kimyalaşdırma, torpağın suvarılması, meliorasiya və s. üçün böyük vəsait tələb edir. Bu forma əsasən İnkişaf etmiş ölkələr üçün səciyyəvidir. Ekstensiv kənd təsərrüfatı istehsalında artım əsas etibarilə əkin və otlaq sahələrinin genişləndirilməsi hesabına həyaa keçirilir. Bu forma isə başlıca olaraq



inkişaf etməkdə olan ölkələr üçün səciyyəvidir. Əkinçilik sahəsində həyata keçirilən yaşıl inqilab (müasir aqrotexniki qaydalardan istifadə edilməsi) və heyvandarlıq sahəsinə tətbiq edilən sənaye texnologiyaları (quş fabrikləri, donuz fermaları və s.). Latın Amerikası və Asiya ölkələrində öz bəhrəsini vermişdir. Kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artmış və bu da aclığı aradan qaldırmağa imkan vermişdir. Bununla yanaşı "yaşıl inqilab" bir çox İnkişaf Etməkdə olan ölkələrə, xüsusilə xarakteri daşıyan kiçik kəndli təsərrüfatlarına toxunmamışdır.

Kənd təsərrüfatı maliyyə resurslarına daha çox ehtiyacı olan iqtisadi sahələrdən biridir. İstehsalın mövsümi xarakteri, istehsal müddəti ilə satış müddətinin bir-birinə uyğun gəlməməsi, istehsalın texnoloji amillərdən daha çox təbii amillərdən asılı olması və digər spesifik xüsusiyyətlər – aqrar sahənin maliyyə resurslarına ehtiyacını daha çox şərtləndirir. Başqa istehsal sahələrindən fərqli olaraq, kənd təsərrüfatı dövlətin maliyyə dəstəyi olmadan kifayət qədər səmərəli fəaliyyət göstərmək imkanına malik deyildir. Əksər kənd təsərrüfatı məhsullarına çəkilən xərclər, adətən bu məhsulların satışından daxil olan vəsaitlərdən yüksək olur. Həmin səbəbdən də inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalçılarının gəlirlərini tənzimləmək məqsədilə, dövlət müxtəlif dotasiya və subsidiyalar ödəyir.

# ASTARA RAYONUNDA ƏHALİNİN HƏSSAS QRUPLARI İLƏ İŞİN TƏŞKİLİ

**Həsənzadə Turan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
turan.hasan.94@mail.ru

Ölkəmizdə bütün sosial proqramların icrası, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarının dövlət qayğısı ilə əhatə olunması, əmək hüquqlarının müdafiəsi, aktiv məşğulluq tədbirlərinin təşkili, pensiya və sosial-təminat, tibbi-sosial ekspertiza sistemlərinin təkmilləşdirilməsi yönündə islahat tədbirlərin uğurlarını görməmək mümkün deyil. Astara rayonunda da cəmiyyətin həssas kateqoriyasına aid edilən qruplarının sosial xidmət və təminat hüquqları var. Onlara əsasən hər bir vətəndaş müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir. Son 30 ildə əhaliyə sosial xidmətlərin göstərilməsi sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər ölkənin sosial xidmət sisteminin inkişafının təmin edilməsi məqsədilə dövlət büdcəsindən davamlı maliyyə vəsaiti ayrılması, sosial xidmətlərlə bağlı münasibətləri tənzimləyən bir sıra normativ hüquqi aktlar qəbul edilməsi, ağır məişət şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində rəsmi siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi və bu sahədə yaranan münasibətlərinin tənzimlənməsi məqsədilə qəbul edilən "Sosial xidmət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Uşaq hüquqları



haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" "Şəhid ailələri haqqında" Azərbaycan Respublikasının digər qanunların nəticəsində minlərlə insanın sosial vəziyyəti qat-qat yaxşılaşmışdır. Buna baxmayaraq, bu gün də əhalinin həssas qruplarına daxil olanların cəmiyyətə inteqrasiyası və onların məşğulluq problemlərinin aradan qaldırılması üçün yeni layihələr hazırlanır, bu sahədə izləniləcək istiqamətlər müəyyənləşdirilir. Cənub bölgəsi- o cümlədən Astara da bu həssas işlərdə hec də geri qalmayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Lənkəran-Astara Regional Məşğulluq Filialının Astara xidmət şöbəsi rayonda yaşayan həssas qruplara diqqətlə yanaşır. Həssas əhali qruplarından olan şəxslərlə bağlı icra olunan sosial dəstək paketinin mühüm bir istiqaməti də şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlərlə, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillərlə təminatıdır.

Bu tədbirlər Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da icra olunur. Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində mənzil və fərdi evlə təminat proqramı 5 dəfə genişlənib.

Postmüharibə dövründə 5600, ümumilikdə ötən dövrdə 14,4 min mənzil və fərdi ev təqdim olunub. Dövlət başçısının tapşırığı ilə

bu kateqoriyadan olan vətəndaşlarımıza 2023-cü ildə ən azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub.

Ölkə Prezidentinin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur. Mühüm sosial proqramlardan biri də müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatıdır.

Hazırda təqdim edilən 50 avtomobil də daxil olmaqla postmüharibə dövründə 374, ümumən ötən dövrdə 7550 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən hərtərəfli qayğıya, yeni avtomobillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdardırlar.

## VƏTƏNDAŞ MƏMNUNLUĞU VƏ İŞTİRAKÇILIQ SƏVİYYƏSİNİN YÜKSƏLDİRLMƏSİ YOLLARI: QAX RAYONU TİMSALINDA

**Həsilov Elvin**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

elvinhesilov@gmail.com

**Xülasə**

Bütün dünyada vətəndaş məmnunluğu və iştirak hökumət-lərin effektivliyi və cəmiyyətlərin rifahı üçün əsas əhəmiyyət kəsb edir. Bu iki elementin artırılması daha davamlı və davamlı cəmiyyətlər qurmaq üçün açardır. Vətəndaş məmnunluğu cəmiyyətin xidmətlərdən, infrastrukturdan, təhsildən və səhiyyə-dən qəbul edilən məmnunluq səviyyəsinə aiddir. Məmnun olan vətəndaşlar öz icmalarına daha çox bağlı olduqlarını hiss edir və yerli hökumətlərə daha çox dəstək olurlar.



Bundan əlavə, vətəndaşların qərar qəbuletmə proseslərində iştirakı demokratik cəmiyyətin əsasını təşkil edir və sosial təbəqələri bir araya gətirərək həll yönümlü yanaşmaları təşviq edir. Ona görə də vətəndaş məmnunluğunun və iştirakının artırılması istiqamətində görülən işlər cəmiyyətin rifahı və ictimai harmoniya baxımından böyük əhəmiyyət kəsb edir. Vətəndaşlar öz təmsilçiliyi ilə məşğul olduqda və bununla kifayətləndikdə, bu, siyasi prosesə aidiyyət və sahiblik hissini gücləndirir. Qax rayonu, hər hansı digər bölgə kimi, artan vətəndaş məmnuniyyətindən və iştirakından böyük fayda əldə edə bilər.

***Açar sözlər***: *Vətəndaş məmnunluğu, İştirak, Nümayəndəlik, Qax rayonu, Demokratiya.*

Vətəndaş məmnunluğunun və iştirakının artırılmasının əsas sütunlarından biri şəffaf ünsiyyətdir. Seçilmiş nümayəndələr öz fəaliyyətləri, qərarları və onların arxasında duran əsaslar barədə seçiciləri məlumatlandırmaq üçün səy göstərməlidirlər. Müntəzəm xəbər bülletenləri, ictimai görüşlər və onlayn platformalar bu məqsədlə effektiv vasitə kimi xidmət edə bilər. Vətəndaşlar özlərini məlumatlı və bağlı hiss etdikdə onların siyasi prosesə inamı güclənir. Bələdiyyə iclasları və açıq dialoq sessiyaları vətəndaşlara öz narahatlıqlarını, ideyalarını və fikirlərini birbaşa öz nümayəndələrinə bildirmək imkanı verir. Bu forumlar mütəmadi olaraq təşkil edilməlidir, yerli problemlər və narahat-lıqlar həll edilməlidir. Bu, təkcə nümayəndələrin icmanın ehtiyac-larından xəbərdar olmasını təmin etmir, həm də vətəndaşlar arasında inklüzivlik və iştirak hissini gücləndirir [1, s. 7].

Yerli icmaların onlara birbaşa təsir edən müəyyən məsələlərdə qərar qəbul etmək səlahiyyətinin verilməsi vətəndaş-ların iştirakını və məmnunluğunu artırmaq üçün güclü bir yol ola bilər. Qərar qəbulunun məhəllə şuralarına və ya komitələrinə mərkəzsizləşdirilməsi vətəndaşlara yerli siyasətlərdə, layihələrdə və büdcələrdə birbaşa söz demək imkanı verir. Bu, cəmiyyətdə sahiblik və məsuliyyət hissini

artırır. Vətəndaş təhsili proqramları vətəndaşlara siyasi prosesi, onların hüquqlarını və icmalarının formalaşmasında oynadıqları rolu anlamağa kömək edə bilər. Məktəblər, icma mərkəzləri və onlayn resurslar hökumətin necə işlədiyi və fərdlərin bununla necə fəal məşğul ola biləcəyi barədə məlumat və təlim vermək üçün istifadə edilə bilər. Məlumatlı vətəndaş daha çox iştirak edir və öz nümayəndələrini məsuliyyətə cəlb edir.

Qax Rayonu daxilində təmsilçiliyin inklüziv olmasını və icmanın müxtəlifliyini əks etdirməsini təmin etmək üçün səylər göstərilməlidir. Vətəndaşlar özlərini hökumətdə təmsil olunduqları zaman daha çox məşğul və məmnun hiss edirlər. Müxtəlif namizədlər hovuzunun həvəsləndirilməsi və dəstəklənməsi və az təmsil olunan qruplar üçün giriş maneələrinin aradan qaldırılması bu məqsədə töhfə verə bilər Təklif qutuları, onlayn formalar və ya xüsusi telefon xətləri kimi səmərəli əks əlaqə mexanizmlərinin yaradılması vətəndaşlara öz narahatlıqlarını, ideyalarını və şikayətlərini ifadə etməyə imkan verir. Seçilmiş nümayəndələr bu rəyi fəal şəkildə axtarmalı və ondan öz siyasətlərini və qərarlarını formalaşdırmaq üçün istifadə etməlidirlər. Vətəndaşlar öz töhfə-lərinin qiymətləndirildiyini və hərəkətə keçdiyini görəndə daha çox iştirak edir və özlərini məmnun hiss edirlər.

Vətəndaş məmnunluğunu artırmaq üçün dövlət qurumları və seçilmiş məmurlar öz əməllərinə görə cavabdeh olmalıdırlar. Güclü etika, korrupsiyaya qarşı mübarizə tədbirləri və şikayətlərə baxılması üçün aydın prosedurlar etimadın yaradılmasına kömək edə bilər. Büdcənin bölüşdürülməsində və xərclənməsində şəffaflıq məsuliyyətli idarəetməni daha da nümayiş etdirə bilər. Müasir rəqəmsal əsrdə vətəndaşların cəlb edilməsi üçün texnologiyadan istifadə etmək vacibdir. İstifadəçi üçün əlverişli veb-saytların, sosial media kanallarının və mobil proqramların yaradılması vətəndaşlarla onların nümayəndələri arasında ünsiyyəti asanlaşdıra bilər. Onlayn sorğular və



sorğular vətəndaşların iştirakını asanlaşdıraraq aktual problemlərə dair tez rəy toplaya bilər [2].

Vətəndaş məmnunluğunun artırılması və Qax rayonunun təmsilçiliyində iştirak çoxşaxəli bir işdir. Bu, həm seçilmiş nümayəndələrdən, həm də vətəndaşların özlərindən öhdəlik tələb edir. Şəffaf ünsiyyəti, açıq dialoqu, icma əsaslı qərarların qəbulunu, vətəndaş təhsilini, inklüzivliyi, əks əlaqə mexanizmlərini, hökumətin hesabatlılığını və rəqəmsal əlaqəni inkişaf etdirməklə Qax Rayonu vətəndaşların fəal şəkildə iştirak etdiyi və öz təmsilçiliyindən məmnun olduğu mühit yarada bilər. Bunu etməklə, Qax Rayonu daha güclü, daha həssas və əhatəli demokratiyanın qurulması istiqamətində işləyə bilər.

**Ədəbiyyat**


1. Əliquliyev, R.M., Yusifov, F.F. Elektron dövlətin formalaş-masının bəzi aktual elmi-nəzəri problemləri və həll perspektivləri // İnformasiya cəmiyyəti problemləri, –2014, № 2, – s. 3-13.
2. Azərbaycan Respublikasının Prezdentinin işlər idarəsi. Prezident kitabxanası: inzibati ərazi vahidləri. Qax rayonu

# LAÇIN RAYONUNUN DAVAMLI İNKİŞAF PERSPEKTİVLƏRİ

**Hümbətbəyli Fətəli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
f_humbetli@mail.ru

**Xülasə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq. İşğaldan əvvəlki dövrdə Laçın rayonunda əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, rayonun iqtisadi-sosial sahələrdə böyük inkişaf potensialı vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət proqramları son 15 il ərzində sosial-iqtisadi baxımdan Azərbaycanı dünyada yüksək inkişaf nəticələri əldə edən ölkələr sırasında qərarlaşdırmışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşır və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradıl-mışdır. Məqalədə Laçın rayonun davamlı inkişaf proqramı, bir sıra uğurlu layihələrin icrası, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılma prosesinin təmin edilməsi, sosial rifahın yaxşılaşmasında görülmüş və görüləcək işlər və bu proseslərin davamlı inkişaf perspektivləri təhlil edilir.

***Açar sözlər:*** *Laçın rayonu, davamlı inkişaf, dövlət proq-ramı, sosial-iqtisadi təminat.*

Laçın rayonu Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildikdən (1992-ci il martın 2-si) 77 gün sonra - mayın 18-də işğal



edilmişdi. Azərbaycanda səngimək bilməyən daxili siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə bir tərəfdən erməni işğalçılarının cəbhədə yolunu açır, digər tərəfdən işğal faktlarını BMT-yə, dünyanın diqqətinə çatdırmaq imkanlarını məhdud-laşdırdı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində - 822, 853, 874 və 884 saylı qətnamələrdə bilavasitə Laçının adı çəkilməsə də, sənədlərdə yer alan "erməni silahlı dəstələrinin son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından", "digər rayonlardan geri çəkilməsi" tələbi birbaşa Laçına aid idi. Laçının azad olunması ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasının bütün qətnamələrini faktiki olaraq məhz özü hərbi-siyasi yolla yerinə yetirdi. Prezident İlham Əliyev: Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, təkcə Ermənistan üçün yox, bir çox başqaları üçün də, kağız parçası idi. Rayonda bir şəhər, bir qəsəbə (Qayğı qəsəbəsi), 125 kənd olmuşdur. Laçın şəhəri 1923-cü ildə Laçın və Abdallar kəndləri arasında salınıb və yazıçı Tağı Şahbazi Simurqun təşəbbüsü ilə şəhərə Laçın adı verilib. Laçın rayonu 1924-cü ildə təsis edilib. Ərazisi 1.84 min $km^2$-dir, işğaldan əvvəl əhalisi 65 430 nəfər olmuşdur. Birinci Qarabağ müharibəsində 264 nəfər laçınlı şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayonun 6 Milli Qəhrəmanı vardır. Rayon üzrə 1 yaşdan 16 yaşadək 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğaldan əvvəl 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisəsi, 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər müəssisəsi, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi və 1 rabitə müəssisəsi var idi. İşğal olunmuş rayonun yerli əhalisi son statistikaya görə 80 mindən çoxdur, laçınlılar respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşmışlar.

Azərbaycan Respublikasının Ali baş komandanı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2020-ci il Sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi. Azərbaycan Vətən müharibəsinin 44 günü (27 sentyabr - 9 noyabr) ərzində 4 rayonumuzu - Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlını, həmçinin Şuşa şəhəri, Hadrut qəsəbəsi və Dağlıq Qarabağdakı bir çox torpaqlarımızı hərbi yolla işğaldan azad etdi, düşməni darmadağın etdi və Ermənistanı dərin böhrana saldı. Vətənn müharibəsi üç tərəfli bəyanata əsasən atəşkəs elan edilməsi ilə sonlandı və siyasi yolla daha əvvəl Ağdam və Kəlbəcəri azad edildi, daha sonra isə Laçın rayonunu nəzarət altına alındı. Daha sonra qalıq erməni terrorist qruplar Qarabağın digər bölgələrindən xüsusi əməliyyat nəticəsində zərərsizləşdirilmişdir. Azərbaycan tərəfinə 17 il ərzində dəfələrlə müxtəlif xarici dairələrdən yalnız beş rayonun qaytarılmasına razılaşmaq üçün təzyiq edilsə də, Ali Baş Komandan iqtisadi, hərbi, diplomatik baxımdan güclənərək Vətən müharibəsi ilə Azərbaycan ərazisini işğaldan azad etdi. Azərbaycan yeni hərbi-siyasi reallıq yaratdı. Prezident İlham Əliyev vətən müharibəsindən əvvəl, öz çıxışlarında qeyd edirdi ki: “Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz. Laçın azad olduqdan sonra Azərbaycan Respublikasının Prezident İlham Əliyev öz çıxışlarında qeyd etmişdir ki, Laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq Azərbaycan dövlətinin əsa vəzifələrindən biri olacaqdır. Prezident İlham Əliyev qeyd etmişdir ki, keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytarılması üçün gərəkli addımlar atılacaq.

Laçın tarixi keçmişi zəngin olan bir ərazidir. Laçın rayonu şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəd olan rayon Azərbaycanın ən qədim insan məskənlərindən biri hesab olunur. Bu



tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir, Laçın Rayon İcra Hakimiyyətinin saytında da bildirilir. Laçının ərazisi bir vaxtlar Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olub. 1930-cu ildə isə müstəqil inzibati rayon yaradılıb. Əvvəllər Abdallar adlandırılan, 1924-cü ildən isə şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzi olub. XX əsrdə Azərbaycanın tanınmış yazıçılarından biri olmuş Tagı Şahbazi Simurq yaxınlıqdakı dağın adını şəhərə verib. Laçın sözü "məğrurluq" mənasındadır. 1 şəhər, 1 qəsəbə, 125 kəndidən ibarət olan rayonun ümumi sahəsi 1835 kvadrat kilometrdir.

Laçın abidələri hələ eramızdan əvvəl I–II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Səthi dağlıqdır və şimal hissəsi Qarabağ silsiləsinin cənub-qərb yamacında, şimalı Mıxtökən silsiləsinin cənub-şərq yamacında, cənub-qərbi Qarabağ yaylasındadır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594m). Çayları Həkəri və onun qollarıdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq), subalp və alp çəmənliklərindən ibarətdir. Laçında dünyanın nadir 300-400 illik qırmızı palıd ağacları var. Mineral suları tam tədqiq edilməyib.

Laçının tanınmış şəxsləri: XVIII əsr Pənahəli xan Sarıcalı-Cavanşirin sərkərdəsi Qara Murtuza bəy; XVII əsrdə yaşamış məşhur Azərbaycan aşığı Sarı Aşıq; Azərbaycan Demokratik Respublikasının ilk müdafiə naziri, Qarabağ general qubernatoru Xosrov bəy Sultanov; Azərbaycanda xalq təhsilinin yayılmasında müstəsna xidmətləri olan ziyalı, Şuşada açılan darülmüəlliminin (pedaqoji məktəbin) ilk təşkilatçı və müdiri Müseyib İlyasov; Azərbaycan Demokratik Respublikası dövründə təhsil naziri Nur-məmməd bəy Adilxan oğlu Şahsuvarov və b. Azərbaycan Respublikası Laçın dəhlizi üzərində

suveren haqlarını kimsəyə təslim etməyib, dəhlizdə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkəti rəsmi Bakının təhlükəsizlik zəmanəti altındadır. Laçın dəhlizi Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə verilən zəmanətə adekvatdır.

Sonuncu dəhliz Azərbaycanla Türkiyəni quru yolla birləş-dirir ki, bu da Vətən müharibəsində ikiqat Qələbənin nəticəsidir. İşğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq o bölgələr Azərbaycan dövlətinin vəsaiti, Prezidentin siyasi iradəsi ilə bərpa ediləcək, vətəndaş-larımızın normal həyatı üçün bütün addımlar atılacaq. Artıq müvafiq dövlət qurumu da yaradılıb və bu işlərin hamısı koordinasiya şəklində aparılacaqdır. Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Prezident İlham Əliyev qeyd edir ki, "biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirmə-liyik və əminəm ki, buna nail olacağıq. Prezident İlham Əliyev: Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq".

### Ədəbiyyat


1. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqi https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_Nazirler_Kabinetinin_ilin_birinci_rubunun_yekunlarina_ve_qarsida_duran_vezifelere_hesr_olunan_iclasi_kechirilib_YENILANIB_VIDEO-1276350





2. İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda çıxışı
3. 26 Oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti
4. Xalq Qazeti. Prezident İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltması və çıxışı
5. Azərbaycan Respublikası Laçın İcra Hakimiyyəti http://www.lachin-ih.gov.az/az
6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://www.economy.gov.az/
7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi https://sosial.gov.az/
8. Azərbaycan Respublikasinin Kənd Təsərrüfati Nazirliyi http://www.agro.gov.az/


## AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR SİYASƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU


**Hümbətov Ziya**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*Ağdam Rayon İcra Hakimiyyəti*

*ziyahumbetov3@gmail.com*


Ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyev tərəfindən gənclər siyasətinə və Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət yetirilirdi və ölkə rəhbərliyi səviyyəsində lazımi addımlar atılmağa başlanmışdır. Dövrün çətinliklərinə baxmayaraq yüzlərlə gəncin SSRİ-nin ən nüfuzlu ali təhsil ocaqlarında, elmi-

tədqiqat institutlarında, xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almağa göndərilməsi və oradan yüksək ixtisaslı mütəxəssis kimi qayıdaraq, ölkəmizin inkişafına mühüm töhfələr verməsi Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsi idi.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra müxtəlif sahələrdə olduğu kimi gənclər siyasətinin formalaşmasında da yeni bir mərhələ başlandı. Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə ölkədə gənclər siyasətinin həyata keçirilməsində yeni və müasir mərhələnin baş-lanmasına stimul verdi. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlər gəncliyin məişət, təhsil, mədəni, mənəvi inkişafla əlaqədar ehtiyaclarının təmin edilməsində böyük rol oynamışdır.

1996-cı ilin fevral ayında Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi, görülmüş işlərin və qarşıda duran vəzifələrin təhlil edilməsi gəncliyin ölkənin ictimai-siyasi həyatında mühüm yer tutduğunu bir daha sübut etmiş oldu. 1997-ci ildən başla-yaraq hər il 2 fevral ölkəmizdə gənclər gününün qeyd olunması ölkə rəhbərliyinin gənclərə göstərdiyi diqqət və qayğının ən bariz nümunəsi kimi qiymətləndirilməlidir. Azərbaycanda dövlət gənclər siyasətinin həyata keçirilməsi missiyası mərkəzi icra hakimiyyəti orqanı olaraq Gənclər və İdman Nazirliyinə tapşırılmışdır. Gənclər siyasətinin həyata keçirilməsində mərkəz-ləşmiş qurum olan Gənclər, İdman və Turizm Nazirliyinin 1994-cü ildə yaradılması bu sahədə ən əlamətdar hadisə idi.

XX əsrin sonlarında digər sosial təbəqələrdən olan insanlar kimi gənclər də mübarizədə fəal iştirak edərək, xalqımızın milli azadlığı və ölkəmizin ərazi bütövlüyü, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və öz dövlətinə layiq vətəndaş olmaq uğurunda canını və sağlamlığını əsirgəməmişdir. Bu mübarizədə ölkə gəncliyinin minlərlə nümayəndəsi canını fəda etmiş, sağlamlığını



itirmişdir. Onların göstərdiyi qəhrəmanlıqlar yüksək qiymətləndirilmiş, orden və medallarla, fəxri adlarla mükafatlandırılmışlar. 1993-cü ildə xalqın tələbi ilə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi fəaliyyətə başlamasından sonra gənclərin bütün problemləri daim dövlətin diqqət mərkə-zində saxlanılmışdır.

Azərbaycanda əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddət ərzində Azərbaycan gəncliyi 2005-2009 və 2011-2015-ci illəri əhatə edən iki dövlət proqramı qəbul edilib və uğurla icra olunub. Bu sahədə üçüncü proqram 15 sentyabr 2017-ci ildə qəbul edilmiş "Azər-baycan Gəncliyi 2017-2021-ci illər" Dövlət proqramının icrası isə uğurla başa çatıb.

2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan olunması ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə nə qədər önəm verməsinin, onun gələcəyinə olan inamının ən bariz nümunəsi idi. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nailiyyətlər əldə olunub. Azərbaycan gəncləri dünya miqyaslı beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar bütün güclərini səfərbər edərək Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırırlar.

## Ədəbiyyat

1. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı // Azərbaycan. 09 iyul 2011., s.1-2.
2. Eyyubova G. Heydər Əliyev və gənclər siyasəti // Iki sahil. 12 dekabr 2017., s.3.

3. Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının 5 may 2019-cu il tarixli Qanunu. http://astirk.org/gencler-siyasetinin-esas-istiqametleri.html
4."2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. 27 yanvar 2015., s.1-2.

## MAHİRƏ NAĞIQIZI YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**Hümmətova (Pəniyeva) Günel**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, fil.ü.f.doktoru*
*gunelpeniyeva@mail.ru*

I Qarabağ müharibəsindən sonra Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu daha çox öz əksini tapır. Əgər I Qarabağ müharibəsindəki ədəbi nümunələrdə nisgil ruh öz əksini tapırdı sa, II Vətən müharibəsindən sonra isə demək olar ki, nisgilli Qarabağ mövzusu sevincli, qalibiyyət əks etdirən, hər sətrindən qürur yağan nümunələr öz çoxluğunu təşkil etdi. Azərbaycan ədəbiyyatında, öz poeziyası ilə silinməz iz qoyan Mahirə Nağıqızının vətən-pərvərliyə, II Qarabağ müharibəsinə, tarixi qələbəmizə həsr edilmiş şeirləri xüsusi yer tutur. İstər vətənpərvərlik, istərsə də Qarabağ mövzusunda yazdığı şeirləri "Salam Olsun (Vətənpər-vərlik şeirləri)" kitabında toplanmışdır.

44 günlük Qarabağ müharibəsindən sonra hər bir vətən oğlunun ürəyində, dilində bir söz və gözlərində bir sevinc var idi – Zəfər, Qələbə, Uğur, Bütövlük.



Hərə bu sevinci bir çür yaşayırdı. Kimi öz işində, peşəsində, özünün düşüncəsində o sevincili hissləri əks etdirirdi. Kimi bu qalibiyyət dolu sevincini zümzümə ilə ifadə edir, kimi Zəfərə yaraşan, qalibiyyətimizi ifadə edən uğur boyaları ilə ağ kətan üzərinə köçürür, kimi də içinin hiss duyğularını qələmlə misralarda sözlərin vasitəsi ilə ifadə edir. Məhz müasir dövrün ən mahir şairəsi Mahirə Nağıqızı da qələbə sevincini, Qarabağ uğurunu misralara tökərək vətənpərvərlik ruhunu özündə daşıyan ədəbi əsərlər yaratdı. Bu şeirlər şairənin böyük Qələbəmizlə bağlı sevinc hislərinin ifadəsi idi. Bu sevincdən doğan şeirlərindən biri «Görünür» adlı şeiridir ki, II Qarabağ müharibəsi dövründə torpaqlarımızın azad olunması xəbəri gələrkən Vətənpərlik hissi ilə dolu olan şair qəlbi öz sevincini sözlərlə misralara tökdü:

*"Cəbrayılda qaldırdığın bayrağın,*
*Əsgər, sənin dörd bir yandan görünür.*
*Uzaq deyil can atdığın oylağın,*
*Beş addımda Zəngilandan görünür."* [1]

Bu şeir Cəbrayılın azad olması münasibəti ilə qələmə alınmışdır. Bu şeirin hər sətri titrək şair qəlbinin Vətən sevgisi ilə dolu olan kövrək hisslərinin ifadəsidir.

*"Ələm idi, qüssə idi hər çağımız,*
*Otuz ildən sonra güldü növrağımız.*
*Dalğalandı Şuşada al bayrağımız,*
*Qurban olum, hamınıza salam olsun...!"* [1]

Qarabağın azad olmamışdan öncə bir vətəndaş kimi hər gününü, çağının qüssə-kədərdə olduğunu, Otuz illik torpaq acısının, vətən həsrətinin sonlanmasının sevincini yaşamasının, Tarixi torpağımız olan, otuz illik qan yaddaşımız adlandırdığımız, mədəniyyət ocağımızın azad edilməsi və bayrağımızı al qanları bahasına, canları bahasına Şuşada asmaqlarının qürur verici qalbiyyətini əks etdirir. Hər

misrasında, hər sətrində vətən eşqi ilə döyünən ürəyinin sevinc dolu hisslərini görməmək mümkün deyil.

*“Ey tarixi sətir-sətir yaradanlar,*
*Nə şanlısız, şanınıza salam olsun!*
*Qalacaqdır bu tarixdə var olanlar,*
*Silinməz ad-sanınıza salam olsun!”* [1]

Mahirə Nağıqızı “Salam olsun” şeirinin bu misralarında öz qanları ilə tarix yazan şəhidlərimizin tarixi sətir-sətir yazdığnı və bunun qürur verici, şanslı olmaqlarının bədii təsvirini yaratmışdır. Eyni zamanda şairə şəhidlik zirvəsinə ucalanların ad-sanlarının silinməz olduğunu, tarixin qəhrəmanlıq səhifələrində qürurla yazıldıqlarının sevincini təsvir etmişdi.

Nəticə olaraq qey edək ki, Mahirə Nağıqızı əsil vətənpərvər vətəndaş, vətəni üçün, milləti üçün uğurlu işlərin həyata keçirilməsində imzası olan əsil ziyalıdır.

## Ədəbiyyat


1. Mahirə Nağıqızı. “Salam Olsun (Vətənpərvərlik şeirləri)”. Bakı, 2021 2. Mahirə Nağıqızı. Bayatılar və üç şeir. Bakı: “Apostroff” nəşriyyatı, 2015




# AZƏRBAYCAN DÖVLƏT İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ PUBLİK HÜQUQİ ŞƏXSLƏRİN YERİ VƏ ROLU


**Hüseynov Toğrul**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
togrul.huseynov@pa.az


Azərbaycan Respublikasında yeni tətbiq olunmuş publik hüquqi şəxslər institutu hüququn digər institutlardan fərqli olaraq daha gəncdir. Mülki hüququn digər anlayışları və institutları eramızdan əvvələ formalaşdığı halda, publik hüquqi şəxs institutu isə təxminən XIX əsrdə Avropada inzibati dövlət quruculuğu çərçivəsində yaranıb. Publik hüquqi şəxs konsepsiyası təxminən iki yüz il bundan əvvəl Fransa dövlət quruculuğunda formalaş-mışdır. Bu yeni konsepsiya XIX əsrin axırından bir çox Avropa ölkələrində tətbiq olunub və nəhayət 1900-cü ildə kontinental hüquq dövlətləri üçün nümunə sayılan Almaniyanın Mülki Məcəlləsində tətbiq edilmişdir (1).

Bu institutun ölkəmiz üçün əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 10-cu bəndinə uyğun olaraq, “Publik hüquqi şəxslər haqqında" Azərbaycan Res-publikasının Qanununu qəbul etmişdir. Bu Qanunla Azərbaycan Respublikasında publik hüquqi şəxslərin yaradılması üçün hüquqi əsas formalaşmışdır (2, s. 68).

Avropada əsasən 2 formada publik hüquqi şəxslərin möv-cudluğu tanınır:

1. Coğrafi baxımdan yerli özünüidarəetmələr (bələdiy-yələr). Bunlar da hüquqi şəxsdirlər. Lakin fərqlilikləri hakimiyyət səlahiyyətlərinin olmasındadır ki, bu da onları publik hüququn hüquq şəxsləri kimi xarakterizə edir.

2. Funksional qeyri-mərkəzi (paytaxtdakı hökumətə tabe olmayan) administrativ qurumlar. Bu vahidlər mərkəzi iyerar-xiyadan çıxarılmış, onlara müəyyən mənada müstəqillik veril-mişdir (3, s. 16).

Azərbaycan Respublikasında yeni bir institut kimi publik hüquqi şəxslər artıq dövlət idarəetməsinin müxtəlif sahələrində yaradılmışdır. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Res-publikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununa əsasən publik hüquqi şəxslər dövlət adından müvafiq icra hakimiyyəti orqanı, bələdiyyə adından isə müvafiq bələdiyyə orqanları tərəfindən yaradılır və ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olurlar. Bu təsisat həm pulsuz, həm də pullu xidmətlər göstərə, özünü maliyyələşdirə bilər, ya da zərurət olduqda büdcədən maliyyələşə bilər. Bununla yanaşı, publik hüquqi şəxsləri “Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə fərqli edən amillərdən biri də onun müflis elan oluna bilinməməsidir. Bu hüquqi şəxslərə mülki hüququn adi hüquqi şəxsləri üçün mövcud olan məhdu-diyyətlər yoxdur.

Azərbaycanda publik hüquqi şəxslərlə bağlı tənzimləmənin əsasları Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə deyil, məhz “Publik hüquqi şəxslər haqqında” Qanunla müəyyənləşir. Publik funksiyaların icrası ümumi dövlət əhəmiyyətli fəaliyyətin həyata keçirilməsi çərçivəsində mümkün olur və bu əsnada isə hakimiyyət səlahiyyətləri normativ və təşkilati-sərəncamverici xarakterli qərarların qəbul edilməsi ilə nəticələnir. Bundan əlavə, publik hüquqi şəxslər bəzi hallarda sahibkarlıq fəaliyyəti ilə də məşğul olurlar. Nəzərə alsaq ki, sahibkarlıq fəaliyyəti xüsusi hüquq çərçivəsində



mülki qanunvericiliklə tənzimlənir, o zaman publik hüquqi şəxslərin mülki hüquqda yeri və mülki hüququn onların fəaliyyətinə təsiri araşdırılmalıdır. Bu baxımdan mülki hüquqla, publik hüququn, o cümlədən xüsusi hüququn hüquqi şəxsləri ilə publik hüququn hüquqi şəxsləri arasındakı sərhədlər, fərqliliklər müəyyən edilməlidir (4, s. 2-3).

Bu mövzu sahəsində xarici təcrübəni və tətbiqdə mövcud olan problemləri araşdıraraq, “Publik hüquqi şəxslər haqqında” Qanunun praktikada məqsədlərinə nail olunması dərəcəsini müəyyənləşdirmək və bu sahədə boşluqları, qeyri-müəyyənlikləri aşkara çıxarmaq vacib amillərdəndir.

Bu tədqiqatın məqsədi Azərbaycan Respublikasının dövlət idarəçiliyində publik hüquqi şəxsin yeri və rolunu təhlil etməkdir. Bu çərçivədə publik hüquqi şəxslərin hüquqi tənzimləmədəki təsiri imkanları, digər hüquqi şəxslərdən fərqli olaraq publik hüquqi şəxslərin dövlətin ictimai əhəmiyyətli funksiyalarının icra edilməsi sahəsindəki effektivliyini araşdırmaqdır.

Bu məqsədlərə nail olmaq üçün xarici ölkələrin təcrü-bələrinin müqayisəli təhlili ilə publik hüquqi şəxslərin idarəçiliyə effektiv təsir imkanları, onların yaradılmasının hüquqi əsasları, fəaliyyəti mexanizmi, əmlak rejimi, onlar tərəfindən əqdlərin bağlanılması qaydası, idarəçilik qaydası, orqanlarının səlahiyyət və funksiyaları, işçilərinin statusu və vəziyyəti, yenidən təşkili və ləğvi qaydaları araşdırılacaqdır.

## Ədəbiyyat

1. https://1news.az/az/news/20160209035328042-SHahin-Eliyev-Publik-huquqi-shexs-dovlet-ve-cemiyyet-uchun-ehemiyyetli-funksiyalari-heyata-kechirir

2. Samir Seyidəhmədli. Publik hüquqi şəxslər haqqından qanun-vericiliyin praktiki aspektləri.//"Azərbaycanın vergi jurna-lı".Elmi jurnal.2018.İyul-sentyabr.səh.67-76
3. Mehdiyev F. (2010). İnzibati Hüquq. Dərslik. Bakı: Qafqaz Universiteti, s. 16.
4. Marcus Müller-Chen/Andreas Binder/Thomas Werlen, "Introduction to Private Law", St. Gallen, Swiss 2013, s.2-3

## AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİNİN UĞURLARI VƏ PROBLEMLƏRİ

**Hüseynzadə Sahil**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
*sahuseynzadeh@tabib.gov.az*

***Açar sözlər:*** *Azərbaycanda vətəndaş cəmiyyəti, vətəndaş cəmiyyətinin uğurları və problemləri, QHT, vətəndaş cəmiyyətinə dövlət dəstəyi, ictimai sektor.*

### Giriş

Vətəndaş cəmiyyəti dövlət strukturlarından kənarda yaranaraq ictimai həmrəyliyi idarə edir və könüllü, təmənnasız fəa-liyyət göstərir anlamını verir. Başqa sözlə, bu cəmiyyət həm öz üzvlərinin, həm də digərlərinin, bir qədər də dəqiq desək, heç bir siyasi qurumla bağlı olmayan insanların hüquq və azadlıqlarının müdafiəsində daya-nır. Bununla yanaşı, vətəndaş-ların maddi-mənəvi tələbatları-nın daha dolğun şəkildə ödənilmə-sinə yardım göstərən ictimai təsisatların məcmusu kimi çıxış edir. Ən başlıcası isə vətəndaş cəmiyyətinin əsasında, özəyində social ədalət, hüququn aliliyi kimi son dərəcə zəruri amillər dayanır.

Vətəndaş cəmiyyəti ideyasının yaranması, mahiyyəti, inkişaf yolu keçməsi ilə əlaqədar indiyə qədər müxtəlif fikirlər səsləndirilib, kitablar yazılıb. Vətəndaş cəmiyyəti anlayışı hə-lə antik dövrdə Aristotel tərəfindən yaradılmış, sonralar bu anlayış orta əsr Avropa alimlərinin də diqqətini cəlb etmişdir. Aristotelin fikrincə, dövlət vətəndaşların, vətəndaş cəmiyyətinin məcmusundan başqa bir şey deyil.

Bəzi mütəxəssislər belə düşünürlər ki, Azərbaycanda vətəndaş cəmiyyətinin tarixi çox da uzaq dövrə gedib çıxmır: vətəndaş cəmiy-yəti anlayışı respublikamız müstəqillik qazandıq-dan sonra ölkəmizə Qərbdən inteqrasiya edilib. Digərləri də bu qənaətdədirlər ki, vətəndaş cəmiyyətinin əsası XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər davam edən xeyriyyəçilik və maarifçilik hərəkatı ilə qoyulub. Bu düşüncənin tərəfdarlarının fikrincə, o dövrdə xeyriyyə cəmiyyətləri yaşadığımız indiki zamanın QHT-ləri ilə mahiyyət etibarı ilə fərqlənməyən məqsədlərə, strukturlara, fəaliyyət formalarına malik olmuşlar. Bu da təbiidir. Çünki vətəndaş cəmiyyəti əsasən liberal dəyərlərin mövcud olduğu cəmiyyətdə sürətlə inkişaf edir. Xatırladılan həmin dövrdə Azərbaycanda milli burjuaziyada, milli şüur-da sürətli inkişaf nəzərə çarpırdı [4].

Bir sıra ekspertlər hətta sovet dönəminin də ilk illərində vətəndaş cəmiyyəti institutlarının mövcudluğunu iddia edirlər. Onlar fikirlərini belə əsaslandırırlar ki, ötən əsrin 30-cu illərinədək Azərbaycanda fəaliyyət göstərən yazıçı qurumlarının cəmiyyət-dəki proseslərə təsiri vətəndaş cəmiyyətinin əsl ab-havasından xəbər verirdi. Lakin sovet dövrünün sonrakı mərhələlərində bu təsir xeyli dərəcədə zəifləsə də, ayrı-ayrı yaradıcılıq təşkilatlarının fəaliyyətlərində bu və ya digər formada, az da olsa, özünü göstə-rirdi.

Müstəqilliyimizin ilk illərində ölkədə ağır vəziyyət hökm sürürdü. Hakimiyyətdə olan naşı və səriştəsiz qüvvələr Azərbaycanın yeni mərhələdə üzləşdiyi problemlərin öhdəsindən gələ bilmirdilər. Nəticədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qayda-larının təminatında ciddi çətinliklər yaranmışdı. Belə bir şəraitdə təbii ki, respublikada QHT hərəkatı, vətəndaş cəmiyyəti quruculuğu prosesindən də söhbət gedə bilməz-di. Düzdür, o zaman ölkədə 4 QHT fəaliyyət göstərirdi və əsassız yoxlamalar, təzyiqlər üzündən onların işi də nəzərə çarpmırdı. Ölkə parlamentində də bu sahənin canlandırılmasına təsir göstərəcək qanunvericilik aktlarının hazırlanmasına, qəbul edilməsinə maraq göstərilmirdi. "Xeyriyyəçilik və xeyriyyə fəaliyyəti haqqında" Qanun layihəsi müzakirəyə çıxarılsada, birinci oxunuşdan keçməsinə imkan verilmədi. Sonradan sözügedən həmin layihə üzərində uzun müddət işlənildikdən və BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı və Avropa Şurasının müvafiq qurumlarının dəstəyilə "QHT haqqında" Qanun adı altında qəbul edildi.

Ulu öndərimiz xalqın təkidilə yenidən hakimiyyətə gəldikdən sonra siyasi və sosial-iqtisadi islahatların parallel şəkildə həyata keçirilməsinə mühüm əhəmiyyət verirdi. Belə ki, həmin dövrdə iqtisadi islahatlara özəlləşdirmə proqramlarının reallaşdırılması, iqtisadiyyatın liberallaşdırılması, əlverişli investisiya mühitinin, sahibkarlar təbəqəsinin formalaşdırılması və s. daxil idisə, siyasi islahatlara çoxpartiyalı systemin qurulması, onun əsasında dövlətin seçkili orqanlarının - prezident, parlament, QHT-lərin inkişafı və s. aid olunurdu. Bəli, təkrar edirik, hər iki istiqamətdə islahatların parallel şəkildə aparılması sadalanan sahələrdə mühüm uğurların əldə edilməsini şərtləndirdi.



Qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin canlanma-sında, şübhəsiz ki, onların səmərəli işləmələrinə müsbət təsir göstərən hüquqi bazanın formalaşması da az rol oynamamışdır. Azərbaycan Respublikası Konstitusiyasının, eyni zamanda, Mülki Məcəlləsinin və Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikası Qanununun və digər mühüm qanunvericilik aktlarının qəbul edilməsi respublikamız-da bu qurumların hərtərəfli fəaliyyətinə zəmin yaratmış, QHT-lərin beynəlxalq standartlara uyğun qurul-masını şərtləndirmişdir.

Yeri gəlmişkən, burada mühüm bir məqamı da xatırlatmaq istər-dik.1999-cu ilə qədər ölkəmizdə QHT-lərin yaradılması, fəaliyyətlərinin yüksək səviyyədə reallaşdırılması üçün hər cür hüquqi şərait yaradılmasına baxmayaraq, onlar bir sıra hallarda müxtəlif əngəllər və təzyiqlərlə üzləşirdilər. Məqamında bunları aradan qaldırmaq, QHT-ləri zəruri təlimat və informasiya ilə təmin etmək, onların hüquq və maraqlarını qorumaq məqsədilə 1999-cu ildə 95 təşkilat tərəfindən və uzun müddətli məsləhətləşmələrdən sonra Milli Qeyri-Hökumət Təşkilatları Forumu təsis edildi [3].

Forum qısa müddət ərzində səmərəli fəaliyyəti ilə özünü doğrultdu: yeni yaranan, yaxud fəaliyyət göstərən QHT-lərin qarşılaşdıqları problemlər kollegial qaydada həll edildi, təşkilatların fəaliyyət göstərmələrində maraqlı qüvvələrin qabiliyyət və bacarığından səmərəli şəkildə istifadə olundu.

Forumun təsis olunmasından sonra özünü qabarıq büruzə verən digər məqamlara da diqqət yetirək. 2000-ci ildə Azərbaycanın bütün rayon və şəhərlərində ilk dəfə olaraq QHT-lərin özəkləri yaradılmağa və Bakıdan onlara zəruri kömək göstərilməyə başlanıldı.

QHT-lərin fəaliyyətini daha səmərəli qurmaq məqsədilə bu təşkilatlarla iş üzrə Resurs və Təlim Mərkəzinin və Dünya Bankının maliyyə dəstəyilə aparılan tədqiqat və məlumatlandırma işləri

də mühüməhəmiyyət kəsb etmişdir. Azərbaycanın 5 region mərkəzində - Şirvan, Şəmkir, Mingəçevir, Qəbələ və Qubada yaradılan resurs və təlim mərkəzlərinin reallaşdırdıqları inkişaf proqramları əyalətlərdəki QHT-lərin güclənməsinə öz müsbət təsirini göstərmişdir. Milli Qeyri-Hökumət Təşkilatları Forumu da yarandığı vaxtdan, yuxarıda göstərdiyimiz kimi, QHT-lərin fəaliyyətini canlandırmağı, meydana çıxan çətinlikləri aradan qaldırmağı qarşıya mühüm məqsəd kimi qoymuşdur. Başqa sözlə, forum mövcud olduğu dövrdə QHT-lərin işinin düzgün tənzimlənməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində layihələr və təkliflər hazırlamış, QHT-lərin hüquq və mənafelərinin mü-dafiəsi məqsədilə qanunla qadağan olunmayan bütün vasitələrdən istifadə etmiş, dövlət və hakimiyyət orqanları, bələdiyyələr, habelə donorlarla QHT-lərin qarşılıqlı səmərəli əməkdaşlığının yaradılması zəminində tədbirlər reallaşdırmışdır.

QHT-lərin işinin canlanmasında, qarşıya qoyduqları vəzifələrin uğurla yerinə yetirilməsində Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının mühüm rolu da danılmazdır. Xatırladaq ki, adı çəkilən şura ölkə Prezidentinin 13 dekabr 2007-ci il tarixli sərəncamı ilə yaradılmışdır. Şura fəaliyyət göstərdiyi dövr ərzində QHT-lərin bu və ya digər təşəbbüslərinin reallaşdırılmasını, maliyyələş-dirilməsini həyata keçirmişdir. Bununla da Azərbaycan tarixində ilk dəfə olaraq QHT-lərin öz təşəbbüs və layihələrini həyata keçirmək üçün dövlətdən maliyyə dəstəyi almaları onların fəaliyyətində yeni mərhələnin əsasını qoymuş, ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar olunması prosesinə əhəmiyyətli töhfə-sini vermişdir [1].

Azərbaycan Prezidenti İlham Əliyev də dövlət başçısı kimi fəaliyyətinin ilk dövründən başlayaraq sosial-iqtisa-di, siyasi istiqamətlərdə ardıcıl siyasi iradə nümayiş etdirdi. Ölkə rəhbərinin dəstəyi, təşəbbüsü və tövsiyəsilə QHT-lərlə dövlət orqanları arasında təmasların qurulmasında, qarşılıqlı inam və etimadın yaradılmasında mühüm uğurlar əldə edildi, QHT-lərin fəaliyyət mexanizmləri beynəlxalq standartlara uyğun quruldu, təkmilləşdirildi. Bunun bariz nümunəsi kimi 2007-ci il iyulun 27-də ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nı göstərmək olar.Adı çəkilən konsepsiya ilə QHT-lərin fəaliyyətində və ümumilikdə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu prosesində yeni bir mərhələnin əsası, başlanğıcıqoyuldu. Eyni zamanda, həmin konsepsiya dövlət or-qanları ilə QHT-lər arasında səmərəli əməkdaşlığa təkan verdi, qarşılıqlı əlaqələrin inkişaf perspektivlərini müəyyənləşdirdi.

Bu gün ölkəmizdə QHT-lərin maliyyələşdirilməsi əsasən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən aparılır. Bu maliyyələşmənin mənbəyi dövlət büdcəsidir. QHT rəhbərləri, eləcə də bir sıra mütəxəssislər maliyyələşmənin ildən-ilə dinamik şəkildə artırıl-masının zəruriliyini vurğulayırlar. Bu halda isə QHT-lərin cəmiyyətə daha çox fayda gətirəcəyi, imkanlarının genişlənəcəyi şübhəsizdir.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi, habelə qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin

inkişaf etdirilməsi sahələrində (fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur. [5]

Bəzi mütəxəssislər QHT-lərin, başqa sözlə, vətəndaş cəmiyyətinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin fəa-liyyətində ictimai fəallığın artırılması üçün dünya təcrübəsindən bəhrələnməyin çoxdan vaxtı çatdığını bildirirlər. Onlar Mərkəzi, Şərqi Avropa ölkələrinin təcrübəsini Azərbaycan üçün daha əlverişli sayırlar. Göstərirlər ki, Macarıstanda vergi ödəyiciləri gəlir vergilərinin bir faizini vətəndaş cəmiyyəti institutlarına ödəyirlər. Slovakiyada isə korporasiyalar, habelə ayrı-ayrı şəxslər öz gəlirlərinin iki faizini qeyri-hökumət təşkilatlarının hesabına köçürürlər.

QHT-lərin inkişafının, vətəndaş cəmiyyətinin gücləndiril-məsinin qeyri-hökumət təşkilatlarının say artımı ilə əlaqələn-dirilməsinin əleyhinə olanlar da var. Onların qənaətincə, say çoxluğu heç də keyfiyyəti, inkişafı şərtləndirmir. Burada əsas cəhət həmin ictimai qurumların hansı məsələləri müzakirə etməsi və müsbət nəticəyə nail olunması ilə bağlıdır. Başqa sözlə, QHT-lərin ictimai müzakirəyə çıxardığı məsələlər ümumilikdə cəmiyyətə xeyir gətirsin, Azərbaycanın milli maraqlarına uyğun gəlsin və mövcud qanunlar çərçivəsində həllini tapsın.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının yaranması və ictimai sektorun möhkəmlənməsi bilavasitə müstəqil Azərbaycan dövlətçiliyinin inkişafını şərtləndirən amillərdəndir. Son illər bütün demokratik və inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan



Respublikasında da qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyətinin aparıcı qüvvəsi olaraq, demokratikləşmə, vətəndaş hüquqlarının müdafiəsi, hüquqi dövlət quruculuğu, social problemlərin həlli, maarifləndirmə, dünyaya inteqrasiya, Azər-baycan həqiqətlərinin dünyaya obyektiv çatdırılması və digər istiqmətlərdə fəaliyyətləri ilə böyüketimad və rəğbət qazanıblar.

Vətəndaş cəmiyyəti institutları dövlət, bazar və ailə ilə yanaşı, ortaq fəaliyyət sferalarında da mövcuddur. Vətəndaş cə-miyyəti təşkilatları fərqli funksiyalarla cəmiyyətin inkişa-fına öz əvəzsiz töhfələrini verir. Bu təşkilatların fəaliyyə-ti ictimai siyasətlərin yaxşılaşdırılması və ehtiyaclara uyğunlaş-dırılması, idarəetmədə və qərar vermədə əks mərkəzləşmə, yoxsulluğun azaldılması, ictimai iştirakçılığın təmin olunma-sı, insan hüquqlarının qorunması, azad və ədalətli seçkilər, sağlamlıq, təhlükəsiz qida və ətraf mühitin formalaşmasına yönəlib. [2]

Azərbaycanda vətəndaş cəmiyyəti instutlarının sərbəst və fəal fəaliyyəti üçün hər cür şərait yaradılıb. Müasir dövrdə qeyri-hökumət təşkilatları artıq vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrilib. Belə şəraitdə dövlət orqanları ilə qeyri-hökumət sektorunun sivil tərəfdaşlıq prinsipləri əsasında sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafı, demokratiyanın dərinləşməsi, qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və milli maraqların qorunması üçün böyük əhəmiyyət kəsb edir.

QHT-lərin inkişafına yönəlmiş islahat və dəyişikliklər Azərbaycanda üçüncü sektorun inkişafında yeni bir mərhələ oldu. Hazırda ölkə QHT-ləri cəmiyyətlə dövlət orqanları arısında eti-madlı münasibətlərin yaradılmasında körpü rolu-nu oynayan əsas institut və təsisatlara çevrilib.

Bu gün QHT fəaliyyətinin şəffaflıq, hesabatlılıq amilləri, onların həyata keçirdiyi layihələr haqqında cəmiyyət ətraflı məlumatlandırılır. Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti, uğruları ictimai və media müzakirələrinin predmetinə çevrilib. QHT-lərin fəaliyyətində şəffaflığın artırılması ilə bağlı məsələlər dövlət orqanları tərəfindən də vaxtaşırı qaldırılır və vurğulanır. Bu da üçüncü sektorun daha dainkişaf etməsinə yönəlib. Bunun nəticəsidir ki, günü-gündən ardı-cıl, sistemli səylərdən sonra dövlət orqanları ilə QHT-lər arasında tərəfdaşlıq münasibətləri və əməkdaşlığın inkişaf etdirilməsi sahəsində müsbət nəticələr artmaqda davam edir.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 13 dekabr 2007-ci il.
2. Əhməd Məcid. Vətəndaş cəmiyyəti institutlarının cəmiyyətin rifahı naminə fəaliyyəti. Ekspress.-2016.-18 noyabr.-S.10.
3. http://anl.az/el/a/amqhtf-0.pdf
4. http://www.anl.az/down/meqale/xalqqazeti/2010/iyun/124903.htm
5. https://president.az/az/articles/view/51178




## SOSİAL-İQTİSADİ İNKİŞAFIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ


**İbrahimov Xəlfə**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*khalifaibragim@gmail.com*


"Sosial-iqtisadi inkişaf" ifadəsi, bir ölkənin sosial və iqti-sadi sahələrdə təcrübə etdiyi müsbət dəyişiklikləri vəinkişafları əhatə edir. Bu inkişaf, ölkədə yaşayan əhalinin həyatkeyfiyyətini, sosial rifahını, iqtisadi səviyyəsini və ümumilikdə ictimai mövqeyini nəzərə alır.

Sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi, hər bir ölkədə mövcud olan məqamlar və məqsədlər əsasında fərqlilik göstərə bilər. Ancaq əsasən, bu tənzimlənmə cəmiyyətdə hökm sürən narahatçılıqları azaltmaq və sosial-iqtisadi göstəriciləri yaxşılaşdırmağa nail olmağı hədəfləyir. Bu məqsədlərə nailolmaq üçün bir çox əsas tənzimlənmə istiqaməti mövcuddur. Bunara aiddir [1-4]:

İqtisadiyyatın tənzimlənməsi zamanı beynəlxalq və yerli iqtisadi subyeklərin azad və qanunvericiliyə uyğun şəkildə fəaliyyətini icra etməsi üçün nəzarətin təmin edilməsi və tənzimləmələrin tətbiq nəzərdə tutula bilər. Müstəqil şirkətlərinvə ya sektorların fəaliyyətini qorumaq və sərbəst rəqabəti təmin etmək üçün tənzimləmələr vacibdir.

Sosial rifahın təminatı isə ölkədə müxtəlif sosial təminat proqramlarının həyata keçirilməsi ilə baş verir. Dövlət tərəfindən əhaliyə müstəqil sığorta, sağlamlıq xidmətləri,işsizlik yardımları və

digər sosial proqramlar təqdim edir.

Dövlət tərəfindən minimum əməkhaqqı müəyyən edilərək işçilərin minimum həyat səviyyəsini təmin etməsinə dəstək olur.

İnnovasiya və texnologiyaların təşviqinin icrası da sosial-iqtisdi inkişafın əsas göstəricilərindən biridir. Belə ki, dövlətelmi tədqiqat və texnologiya inkişafını təşvik edən proqramlarvə tədbirlər təşkil edərək araşdırma və innovasiyaların həcmini artırır.

Təhsil və sağlamlıq xidmətləri cəmiyyətdə ən mühim ictimai xidmətlərdən biridir. Dövlət əhaliyə pulsuz və keyfiyyətli əsas təhsil təmin etmək üçün proqramlar və layihələr hazırlayır və müvafiq qrupları cəlb edir.

Sağlıq xidmətlərinin təmin edilməsi isə cəmiyyətin davamlılığının əsas göstəricisidir. Buna görə də dövlət tərəfindən əhaliyə əlçatan və etibarlı sağlıq xidmətləri göstərilməsi üçün müxtəlif layihələr və proqramlar tərtib edilir.

Ətraf mühitin qorunması bu sahədə diqqət edilən əsas amillərdən biridir. Dövlət tərəfindən iqlim dəyişiklikləri iləmübarizə etmək və ətraf mühiti qorumaq üçün proqramlar tətbiq edilir.

Beləliklə, deyə bilərik ki, hər bir dövlətin öz prioritetlərinə bağlı olaraq sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi istiqamətində müxtəlif iqtisadi və sosial tənzimləmələr icra edilir. Bu tənzimləmələrin əhatə dairəsindən və keyfiyyətidən asılı olaraq əldə edilən nəticələr də müxtəlif olur.

## Ədəbiyyat


1. The World Bank. World Development Indicators 2014; International Bank for Deconstruction and Development: Washington, DC, USA, 2014; ISBN 978-1-4648-0164-8.
2. Kuzior, A., Kashcha, M., Kuzmenko, O., Lyeonov, S., Brożek, P. Public Health System Economic Efficiency and COVID-19 Resilience: Frontier DEA Analysis. Int. J. Environ. Res. Public Health 2022, 19, 14727
3. Choudhry, M.T., Marelli, E., Signorelli, M. Youth unemployment rate and impact of financial crises. Int. J.Manpow. 2012, 33, 76–95.
4. Palasca, S., Jaba, E. Leading and lagging indicators of the economic crisis. Rev. Rom. Stat. 2014, 62, 31–47




# GƏNCLƏRLƏ İŞİN TƏŞKİLİNDƏ İNNOVATİV İDARƏETMƏ METODLARI


**İbrahimova Məmləkət**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*



**Xülasə**

Müasir dinamik mühitdə gənclərlə işləmək üçün innovativ idarəetmə üsulları mühüm əhəmiyyət kəsb edir. Verilmiş tezisdə bu üsullara çevik idarəetmə, uzaqdan əməkdaşlıq, mentorluq və çevik iş kimi üsulların tənzimlənməsindən bəhs edilir. Scrum və ya kanban kimi çevik metodologiyalar komandaların dəyişməyə uyğunlaşmasına və ünsiyyətin təkmilləşdirilməsinə kömək edir. Layihə idarəetmə proqramı və video konfrans kimi uzaqdan əməkdaşlıq alətləri məhsuldarlığı artırır. Çevik iş tənzimləmələri iş-həyat balansını təşviq edir və gənclərin üstünlüklərini nəzərə alır. İşçilərin tanınması platformaları motivasiya və bağlılığı artırır. Mentorluq proqramları peşəkar və şəxsi inkişaf üçün rəhbərlik və dəstək verir. Davamlı

öyrənmə imkanları, nəticə-yönümlü performans idarəçiliyi, sağlamlıq təşəbbüsləri və birgə layihə idarəetməsi yaradıcılığı və problem həll etmə bacarıqlarını artıra bilər. Məlumatlı qərarlar, müntəzəm əks əlaqə dövrələri və müxtəlifliyi və inklüzivliyi təşviq edən siyasətlər gənclər üçün daha innovativ iş yeri yarada bilər. Bu üsulları daxil etməklə təşkilatlar gənc işçilərin ehtiyac və istəklərinə uyğun iş mühiti yarada, böyüməyə, yaradıcılığa və uğura kömək edə bilər.

***Açar sözlər:*** *idarəetmə, metodlar, peşəkar, mentorluq, yenilikçi.*

Xüsusilə müasir dinamik və daim dəyişən mühitdə gənclərlə işin təşkilində innovativ idarəetmə üsulları həlledici rol oynayır. Gənc fərdlərlə işləməkdə təsirli ola biləcək bəzi innovativ idarə-etmə üsulları mövcuddur. Bunlar çevik idaretmə (agile manag-ment), uzaqdan əməkdaşlıq metodları, mentorqluq və s. göstərmək olar.

Çevik sdarəetmə scrum və ya kanban kimi çevik metodologiyaların mənimsənilməsi komandalara dəyişikliklərə daha uyğunlaşa və həssas olmağa kömək edə bilər. Müntəzəm sprint baxışları və retrospektivlər davamlı təkmilləşdirmə və əks əlaqəni asanlaşdıraq bu sistemləri həyata keçirmək olar.

Uzaqdan əməkdaşlıq alətləri layihə idarəetmə proqramı, video konfrans və ani mesajlaşma kimi uzaqdan əməkdaşlıq üçün rəqəmsal vasitələrdən istifadə etmək ünsiyyəti və məhsuldarlığı artıra bilər.

Çevik iş tənzimləmələri çevik iş qrafiklərinin və uzaqdan iş variantlarının tətbiqi gənc fərdlərin üstünlüklərini və həyat tərzlərini uyğunlaşdıra, iş-həyat balansını təşviq edə bilər.

İşçilərin tanınması platformaları dedikdə həmyaşıdların tanınmasına, mükafatlandırılmasına və etirafına imkan verən platformalardan istifadə gənc işçilər arasında motivasiya və bağlılığının artırılması nəzərdə tutulur.Mentorluq proqramları mentorluq proqramlarının yaradılması gənc fərdlərə rəhbərlik və dəstək verə, onların peşəkar və şəxsi inkişafına kömək edə bilər.



İnklüziv qərar qəbuletmədə gənc işçilərin öz fikirlərinin dəyərli olduğunu hiss etdiyi inklüziv mədəniyyətin təşviq edilməsi daha innovativ həllər və aidiyyət hissinə səbəb ola bilər.Gənclərlə işin təşkilində innavativ metodlar öyrənmə və inkişaf imkanlarında da özünü biruzə verir. Bunlara seminarlar, təlim sessiyaları və onlayn kurslar kimi davamlı öyrənmə imkanlarının təklif edilməsi gənc fərdlərə yeni bacarıqlar əldə etməyə və öz sahələrində yenilənməyə kömək edə bilər. Nəticə yönümlü performans idarəetmə ənənəvi performans qiymətləndirmələrindən nəticəyönümlü yanaşmaya keçid, diqqəti nailiyyətlərə və töhfələrə yönəltmək gənc işçiləri həvəsləndirə bilər. Şəffaf və açıq ünsiyyəti vurğulamaq, xüsusən də daha gənc işçi qüvvəsi ilə işləyərkən etimad yarada və müsbət iş mühitini inkişaf etdirə bilər.

İş tapşırıqlarında və layihələrdə oyunlaşdırma elementlərinin tətbiqi işi gənc fərdlər üçün daha cəlbedici və zövqlü edə, motivasiya və məhsuldarlığı artıra bilər. Psixi sağlamlığa dəstək proqramları, fitnes dərsləri və zehinlilik seansları kimi rifah təşəbbüslərinin həyata keçirilməsi daha sağlam və daha məhsuldar iş mühitinə töhfə verə bilər. Komandaların çarpaz funksional layihələrdə birlikdə işlədiyi birgə layihə idarəetmə yanaşmalarının təşviq edilməsi gənc mütəxəssislər arasında yaradıcılıq və problem həll etmə bacarıqlarını artıra bilər.

Məlumata əsaslanan qərarların qəbulu gənclərlə işin əsas məsələlərindən biridi. Komanda performansı, fərdi töhfələr və ümumi təşkilati strategiyalar haqqında məlumatlı qərarlar qəbul etmək üçün məlumat analitikasından istifadə etmək daha effektiv idarəetməyə səbəb ola bilər. Həm rəsmi, həm də qeyri-rəsmi mütəmadi əks əlaqə dövrələrinin yaradılması gənc fərdlərə öz güclü tərəflərini, təkmilləşdirmə sahələrini və təşkilat daxilində irəliləyişləri anlamağa kömək edə bilər. Müxtəlifliyi və inklüzivliyi təşviq edən siyasət və

proqramların həyata keçirilməsi müxtəlif mənşəli gənclər üçün daha canlı və innovativ iş yeri yarada bilər.

Bu innovativ idarəetmə üsullarını özündə birləşdirərək, təşkilatlar gənc işçilərin ehtiyac və istəkləri ilə uyğunlaşan, böyüməyə, yaradıcılığa və uğura kömək edən iş mühiti yarada bilər.

## İNKLUZİV İNKİŞAFDA TURİZMİN ROLU (QƏBƏLƏ RAYONU TİMSALINDA)

**İsazadə Nail**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Dünyanın bir çox ölkələrində turizm insanların sağlam-lığında, asudə vaxtlarının səmərəli istifadəsində, iqtisadiy-yatda önəmli yer tutur, regionların sosial inkişafına təkan verir, büdcəyə əlavə vəsaitlərin cəlb edilməsinə əlverişli şərait yara-dır. Bu gün dünya milli məhsulunun, dünya investisiyalarının, iş yerlərinin və dünya istehlak xərclərinin 10%-i turizmin payına düşür. Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişa-fın təmin edilməsi müasir dövrdə ölkədə qarşıda duran mü-hüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz pers-pektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur.

Ümumiyyətlə turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadəsinin genişlənməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmunu müəyyənləşdirən milli iqtisadiyyatın



müstəqil sahəsidir. Turizmdə əmək məhsuldar-lığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizmin sosial-mədəni servis xidmətlərinin təşkili zəruridir.

Müasirliyi ilə tarixi özündə birləşdirən, Azərbaycanın İsveç-rəsi sayılan Qəbələ ölkəmizin turizm potensialına hər zaman öz töhfəsini verib. Burada turizm-istirahət mərkəzləri dağ, çay və meşə zolaqları ilə əhatə olunub. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri hər bir turisti maraq-landırır. Prezident İlham Əliyev Qəbələ rayonuna səfərləri zamanı yeni beşulduzlu otel və istirahət mərkəzlərinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli tövsiyələrini verir. Dövlət başçısı çıxışlarının birində belə deyib: "İndi Bakıdan sonra otellərin sayına görə Qəbələ ikinci yerdədir. Bu, məni çox sevindirir. Çünki bu bölgənin çox gözəl turizm imkanları var. Şadam ki, son illərdə biz bu imkanlardan maksimum dərəcədə istifadə edirik."

Rayonda turizmin inkişaf dinamikasına nəzərə salsaq görərik ki, bu yerlərə turist axını yüksələn templə davam edir. Onların arasında mədəniyyətimizlə, tarixi abidələrimizlə maraqlananların sayının çox olması sevindirici haldır. Nadir təbii iqlim şəraiti, mineral bulaqları, laciverd landşaftı ilə seçilən, tarixi İpək Yolunun üstündə yerləşən, qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ şəhərinin qalıqları ilə şöhrət tapmış rayonda həm də böyük turizm imkanlarından bacarıqla istifadə edilməsi özəl sektorda turizm-istirahət komplekslərinin sayının sürətlə artmasına səbəb olmuşdur.

Turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addım-lardan Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kom-pleksi oldu. Bu iri kompleksin inşası göstərir ki, Azərbay-can-da turizmin

inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksində insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən, mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlər yaradılıb. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılıb. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkan verir. Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlə-rinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək tras-sası süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Bütün-lükdə, “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi gün ərzin-də üç min nəfərə xidmət göstərmək imkanına malikdir. Yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qəbələyə səfər edə bilirlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkan qışda da turistləri ən gözəl istirahət mərkəzinə çevrilib.

Rayonda turizm sektorunun inkişafı üçün ixtisaslı kadrlar hazırlayan Qəbələ Peşə Tədris Mərkəzi respublikamızın müxtəlif bölgələrindəki turizm obyektlərinin də kadrla təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərir. Qədim Qəbələnin tarixi məkanları, gözəl təbiəti və müasir istirahət mərkəzləri turistləri heyran edir. Bu gün Qəbələyə gələn turistlərin sayı artmaqdadır. Mövcud turizm obyektlərində gün ərzində minlərlə qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkün-dür.

Turizm yalnız insanların asudə vaxtının səmərəli və faydalı keçirilməsini deyil, eyni zamanda inkişaf etdiyi bölgənin iqtisa-diyyatının da inkişafını təmin edir. Bu baxımdan turizminin ölkə iqtisadiyyatına verdiyi aşağıdakı faydaları qeyd etmək müm-kün-dür:



- İqtisadi cəhətdən inkişaf etməyən və inkişaf etmək imkanı olmayan bölgələrin və regionların inkişafına yardım edir;
- Xalqın həyat səviyyəsinin artmasına kömək edir;
- Mövsümilik problemi olan müəssisələrin azad edilməsinə yol açır;
- Çevrəsində olan yerli müəssisələrə maliyyə dəstəyi təmin edir;
- İnkişaf etdiyi bölgəyə insanların miqrasiya etməsinə səbəb olur.

Turizmin faydaları ilə yanaşı ümumi təsirlərini də qeyd etmək olar:

- Əsasən dağlıq bölgələrdə həyata keçirildiyinə görə turistlərin təmiz hava qəbul etməsi və ərazinin digər yerlərinə ziyarətlərin artmasına səbəb olur;
- Bölgə sakinlərinin sosiallaşmasına gətirib çıxarır;
- Bölgədə iqtisadi inkişafın olmasını təmin edir;
- İdman növləri üçün hər mövsüm düşərgə və kampların yaranmasını mümkün edir.

## VƏTƏNDAŞ MƏMNUNLUĞU VƏ İŞTİRAKÇILIQ SƏVİYYƏSİNİN TƏMİN OLUNMASI XIZI RAYONU TİMSALINDA

**İsgəndərov Ceyhun**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və sosial sahədə ildən-ilə geniş miqyas alan islahatlar, rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlar, əldə olunan böyük sosial uğurlar da bunu bir daha təsdiq edir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları əsasında sosial islahatlar proqramı davam etdirilib, sosial müdafiə və aktiv məşğulluq proqramlarının icrası və daha da genişləndirilməsi təmin edilib. Həssas qrupların sosial təminatı və sosial ödənişlərin artırılması, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkili və digər müvafiq fəaliyyət sahələrində ardıcıl və məqsədəuyğun işlər görülüb.Şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin mütəmadi olaraq Azərbaycanda idarəetmə mexanizminin, ictimai həmrəyliyin güclənməsi, insana, vətəndaşa və xalqa xidmətin yeni çağırışlar - müasir trendlər əsasında təkmilləşməsi, cəmiyyətin intibahı üçün çox mühüm təşəbbüslər irəli sürür, yeni standartlar müəyyənləşdirir. Məram isə aydındır: insanların rahatlığının təmin olunması. Bu isə vətəndaş məmnunluğunun yüksəldilməsi deməkdir.

Azərbaycan Prezidentinin güclü dövlət konsepsiyasının əsas prinsiplərindən biri siyasi təkamüldür. Siyasi təkamülə nail olmaq üçün isə yenilənən islahat kursu ilə yeniləşmək, ictimai münasibətlərdə keyfiyyət dəyişikliklərinə nail olmaq, idarəetmə standartlarını yüksəltmək və digər innovativ metodlardan istifadə etmək lazımdır.

İslahat-reforma təkcə formanı deyil, həm də mahiyyəti dəyişməklə, keyfiyyətcə yeni dəyişikliklərə nail olmaqla təkamülü, tərəqqini təmin etmək vasitəsidir. Prezident İlham Əliyevin islahatlar kursu da bu reallığı ifadə edir. İslahatların önəmli bir hissəsi ictimai



xidmətlər sektorunu, şəffaflığın artırılmasını, İKT texnologiyalarının tətbiqi sahələrinin genişləndirilməsini, vətəndaş-məmur təmaslarının minimuma endirilməsini və bu kimi digər mühüm istiqamətləri əhatə edir. Paralel olaraq müxtəlif mərkəzlərin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradır. Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılması da bu baxımdan xüsusi qeyd edilməlidir. Vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait var.

"ASAN xidmət" mərkəzlərinin şəbəkəsinin genişlən-dirilməsi də vətəndaş məmnunluğunun yüksəldilməsi üçün önəmli və faydalıdır. Bu təsisat dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli, rahat həyata keçirilməsi məqsədi ilə yaradılıb. Amma bu qurumun missiyası funksiyasından daha genişdir. Çünki "ASAN xidmət" təkcə vətəndaşa hüquqi prosedurlar vasitəsilə xidmət göstərilməsi funksiyası ilə çıxış etmir. Təsisatın fəaliyyətinin sosial-mənəvi məzmunu-mahiyyəti ictimai münasibətlərdə tamamilə yeni fəls-əfənin tətbiq edilməsidir. İctimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Mərkəzlər yaradılanda əsas niyyət insanlar üçün asan, rahat və şəffaf xidmət təşkil etmək olub. Görünən odur ki, sosial inqilab və ictimai intibah xarakteri daşıyan bu təşəbbüs real nəticəsini verib və hədəfə çatmaq mümkün olub. Vətəndaşların xidmətdən razı qalmaq dərəcəsi 99 faizdən çoxdur. Bu, olduqca yüksək göstərici - ideal səviyyədir, yaxud idealın reallığa çevrilməsidir.

Reallıq isə budur ki, İlham Əliyevin siyasəti vətəndaş məmnunluğunun artması ilə müşayiət olunur. Bu, dövlət başçısının

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" tezisinin əyani-əməli ifadəsidir. Vətəndaş fərdi, cəmiyyət isə ictimai anlam daşıyır. Dolayısıyla, siyasətin mərkəzində dayanan vətəndaşın rifahının yüksəldilməsi, mənafeyinin təmin olunması milli dövlətçilik məsələsidir. Bu, bürokratik maneələri və stereotipləri də istisna edir, dövlət-vətəndaş ahəngdarlığını yaradır, dövlətçiliyin ictimai dayaqlarını möhkəmləndirir. Nəticə isə vətəndaş məmnunluğudur!

Bir neçə dövlət orqanının xidmətlərini vahid məkanda, əlaqələndirilmiş şəkildə vətəndaşlara təqdim edən "Asan xidmət"-in yaradılması ilə dövlət idarəetmə sistemində yeni prinsipin – "rəqabət" prinsipinin tətbiqinə başlandı, vəzifəli şəxslə vətəndaş arasındakı münasibətlərdə keyfiyyətcə yeni müstəviyə keçid başlandı. Dövlət orqanlarının yeni fəaliyyət üslübü, səmərəli xidmətin zəruri şərtləri formalaşdırıldı, vətəndaş məmnunluğu mühüm qiymətləndirmə mexanizmi kimi qəbul olundu.

İdarəetmədə rəqabət dövlət orqanları arasında fəaliyyətin səmərəsinin, əmək məhsuldarlığının, şəffaflığın və çevikliyin artırılması vasitəsilə vətəndaş məmnunluğunu ən yüksək səviyyədə təmin etməyə yönəlir. İdarəetmədə rəqabət prinsipi aparılan institusional islahatlar nəticəsində vətəndaş məmnun-luğunun təmin olunması, korrupsiyanın qarşısının alınması, səmərənin və çevikliyin artırılmasına yönələn mexanizmlərlə orqanlar arasında sağlam rəqabətin yaradılması vasitəsilə ümumilikdə idarəetmənin səmərəsini qaldırmağa, rifah səviyyə-sinin yüksəldilməsinə xidmət edir. Belə ki, əgər eyni xidmətləri göstərmək hüququna bir-neçə dövlət orqanı eyni zamanda malik olarsa dövlət orqanları arasında sağlam rəqabət mühiti yaranar ki, bu da korrupsiya hallarının qarşısını almaqla yanaşı, onların fəaliyyətində çevikliyin, şəffaflığın təmin olunmasının təzahürü kimi vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsinə və büdcə vəsaitlərinə qənaət olunmasına zəmin ola bilər.



Səmərəli idarəetmə üçün sağlam rəqabət mühüm şərtdir. Əgər vətəndaş ona xidmət göstərən dövlət qurumunu seçmək imkanına malik olarsa təbii ki, məmnun qaldığı qurumu seçəcəkdir. Onun məmnunluğuna təsir edən faktorlar isə çox genişdir. Əvvəla, təbii olaraq artan tələbatların ödənilməsi forması və müddəti, xidmət prosesinin şəffaflığı və çevikliyi, tətbiq olunan texnologiyalar və ən əsası isə insan faktoru.

Azərbaycan innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Bu xidmətlərin göstərilməsi sayəsində dövlət qulluqçuları ilə vətəndaşlar arasın-dakı məsafə qısaldılıb, ünsiyyət şəffaflaşdırılıb. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət", ABAD, DOST kimi layihələr idarəetmə sistemində təkmilləşmənin, şəffaflığın qorun-masının aydın mənzərəsini yaradır.

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosialyönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlərin bir çoxu sosial təminatın yüksək pilləsi kimi sosial rifah dövləti qurmağı qarşısına məqsəd qoymuş, öz konstitusiyalarında, qanunlarında təsbit etmişdir.

Azərbaycan da güclü iqtisadi inkişafa əsaslanan sosial dövlət modelini prioritet seçib. Bu, dəfələrlə Prezident İlham Əliyevin nitqlərində də vurğulanıb, hakimiyyət komandasının açıqlama-larında da öz əksini tapıb.

Ölkəmizin qısa zaman kəsiyində sosial dövlət quruculuğu sahəsində əldə etdiyi təcrübə oxşar inkişaf yolu seçmiş başqa ölkələr üçün də model rolunda çıxış edir. Bu, heç də gəlişigözəl sözlər kimi qəbul edilməməlidir, çünki Azərbaycanın unikal sosial dövlət modeli sahibkarlığın daha sürətli inkişafına xidmət edir, yeni mülkiyyət

formalarının yaranmasına istiqamətlənmiş kom-pleks tədbirlər əhalinin sosial baxımdan həssas təbəqəsinin mənafelərini qoruyur. Bazar iqtisadiyyatının inkişafı üçün atılan bütün addımlar da bu təbəqənin maraqları ilə uzlaşdırılır.

Yuxarıda qeyd edildiyi kimi Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəra-nının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımlar atılmasında real ifadəsini tapır. Bu baxımdan, dövlət başçısının təsdiqlədiyi sosial islahat paketləri vətəndaş rifahı naminə atılan mühüm yeni addım oldu.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu bildirən Prezident İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Vətəndaşların rifahının davamlı şəkildə artırılması, əhalinin həssas təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi müstəvisində Prezident İlham Əliyevin imzaladığı növbəti Fərman və sərəncamlar bu yolda aparılan ardıcıl sosial islahatların növbəti mərhələsinin vacib məqamları kimi tarixə düşdü. Belə ki ardıcıl qəbul olunan sosial paketlər vətəndaşların daim dövlətin qayğısı ilə əhatə edildiyinin sübutudur.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən sosial siyasət nəticəsində ölkəmiz dünya miqyasında sürətli inkişafı və sabitliyi ilə yanaşı, özünü sosial dövlət kimi təs-diq edib. Bütün bunlar bir daha onu göstərir ki, vətəndaş-larımızın sosial rifahının yaxşılaşdırılması hər zaman dövlətin diqqət mərkəzindədir.



Digər bölgələrdə olduğu kimi Xızı rayonunda da vətəndaş məmnunluğunun təmin edlməsi istiqamətində müəyyən addımlar atılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s nömrəli Sərəncamına uyğun olaraq Xızı Rayonu İcra hakimyyətinin sifarişi əsasında “Xızı şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 16 mənzilli yaşayış evi inşa edilmişdir.

Rayon ərazisində son illər vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə mövcud olan çox mənzilli yaşayış binalarının dam örtüylərinin yenilənməsi, həmçinin binaların giriş hissələrinin əsaslı təmir edilməsi oşləri aparılmışdır, bundan əlavə küçələrin işıqlandırılması, yaşıllıqların artırılması, suvarma arxlarının qazılması, avtomobil və piyada yollarının əsaslı və cari təmiri üzrə əsaslı işlər aparılır. Görülən işlər şəhər ərazisi ilə yanaşı kəndlərdə də davam etdirilir.

Vətəndaş amili Xızı rayonunda da hər zaman əsas götürülür. Şəhər və kəndlərdə sakinlərlə keçirilən görüşlər zamanı səslənən müraciətlərə operativ şəkildə baxılması, vətəndaşların yaşadığı ünvandan asılı olmayaraq istəyinə əsasən yerində baxılması, qaldırılan məsələlərin həlli istiqamətində yerindəcə tapşırıq verilməsi, vətəndaşların ərizə və şifahi müraciətlərinə əsasən keçirilən qəbullar vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edir. Vətəndaşlara göstərilən diqqət və qayğını hər an hiss edən hər bir rayon sakini dövlət qurumlarına ünvanlanmış müraciətə, yazılan məktuba, görüşdə səslənən fikirə həssaslıqla yanaşılacağını yaxşı bilir.

# SEÇKİ PROSESSİNDƏ GƏNCLƏRİN ROLU VƏ İNNOVASİYALARIN TƏTBİQİ

**İsmayılov Nəzər**
*Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası*
voen.nezer@gmail.com

**Xülasə**

Tezisdə qeyd olunur ki, seçki hakimiyyətin səlahiyyətliliyi və legitimliyi əsasında ölkə vətəndaşlarına məxsus olan suveren hüquqların ifadəsidir. Seçkilərdə gənclərin iştirakının vacibliyi daha çoxdur, belə ki, dinamik düşüncəyə malik təbəqə olan gənclər bu prosessin əsas tərkib hissəsi olmalıdırlar. Seçki prosessində daim informasiya kommunikasiya texnologiyalarının tətbiqi vacibdir və bu prosess daim inkişaf etməlidir.

***Açar sözlər:*** *gənclər, seçki, innovasiya, texnologiyalar.*

Seçkilər – hakimiyyətin səlahiyyətliliyi və legitimliyi əsasında ölkə vətəndaşlarına məxsus olan suveren hüquqların ifadəsidir. Daimi şəkildə keçirilən seçkilər zamanı cəmiyyət nümayəndələrinin seçib-seçilmək hüquqları beynəlxalq formada qəbul olunmuş əsas insan hüquqlarındandır.

XX əsrin sonlarına qədər elmdə istisnasız qəbul edilən insana xas olan immanent keyfiyyətlərin – hər bir insanın yaşamaq, azadlıq və mülkiyyətə sahib olmaq hüquqlarının sırasına artıq, seçmək və seçilmək hüququ da daxil edilmişdir. Bu o deməkdir ki, əvvəla, dünyaya gəlmiş hər bir insan, onun üçün müəyyən-ləşdirilmiş ömür kəsiyində hansı səviyyədə olmasından asılı olmayaraq yaşamalıdır – məhz buna görə də, demokratik inkişaf yolunu seçmiş əksər cəmiyyətlərdə ölüm hökmü ləğv olunmaqdadır. İkincisi, yaranmış hər



bir insan azaddır, özünün istəmədiyi təqdirdə kimsəyə tabe deyildir. Üçüncüsü, xəlq edilmiş hər kəsin var olması və yaşaması üçün mütləq şəkildə müəyyən mülkiyyətə sahib olması çox vacib məsələdir. Qısa şəkildə ifadə etsək, yuxarıda sadalananlar insanlara yazılmış deyil, yazılmamış qanunlarla verilən hüquqlardır. Təsadüfi deyildir ki, məşhur “11 sentyabr” (2001) hadisələrindən sonra ABŞ Prezidenti televiziya vasitəsilə hadisələri dəyərləndirərkən, insan hüuqlarının demokratiyadan öncə gəldiyini, daha vacib və əhəmiyyətli məsələ olduğunu dünya ictimaiyyətinə elan etmişdir.

Seçki prosesində aşkarlıq institutlarının tətbiqi insan hüquqlarına hörmət və qanunun aliliyi də daxil olmaqla, demokratiyanın inkişafının bir hissəsi kimi seçkilərin azad və ədalətli keçirilməsində beynəlxalq və yerli ictimaiyyətin maraqlarını əks etdirir. Vətəndaş hüquqlarını və siyasi hüquqları nəzərdə tutan seçki müşahidəsi beynəlxalq insan hüquqları monitorinqinin bir hissəsi olub, siyasi rəqabət iştirakçıları tərəfindən ədalətli şəkildə, ən yüksək standartlara uyğun həyata keçirilməli və ədalətə xələl gətirən ikitərəfli, yaxud çoxtərəfli fikirlərdən uzaq olmalıdır.

Seçki prosessində gənclərin rolunu xüsusi ifadə etmək lazımdır. Əsas da, bu prosessdə ilk dəfə səs verən seçicilərlə bağlı aparılan tədbirləri ifadə etmək olar. Belə ki, bütün seçkilərdə, seçki prosessini idarə edən qurumlar ilk dəfə səs verən seçicilər arasında bəzi təbliğat və həvəsləndirici prosessləri aparır. Gənclərin və ilk dəfə səs verən seçicilərin maarifləndirilməsi, seçkilərdə fəallıqlarının daha da artırılması məqsədilə Bakı şəhəri və respublikanın digər rayonlarında seminar və görüşlər keçirilir. Bu layihələri Mərkəzi Seçki Komissiyası ilə birgə Gənclər və İdman Nazirliyi, Bakı şəhər gənclər və İdman Baş İdarəsi və s adiyyati qurumlar birgə həyata keçirirlər. Tədbirlər çərçivəsində mütəmmadi həyata keçirilən "Mən ilk dəfə səs veririəm" layihəsini də, xüsusi vurğulamaq lazımdır. Bu layihə çərçivəsində

seçki günü 18 yaşı tamam olan və ilk dəfə səsvermə hüququndan istifadə edənlərə xüsusi yanaşma tətbiq edilir (onlara həvəsləndirici ilk dəfə səsverməsi haqqında təbrik kartı və s təqdim oluna bilər).

Əlbətdə ki, seçkilər prosessini rəqəmsal avtomatlaşma alətləri olmadan keçirilməsini təsəvvür etmək mümkün deyildir. Belə ki, Azərbaycan Respublikasında seçki sisteminin təkmilləşdirilməsi, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulması, seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2000-ci il tarixli sərəncamına əsasən Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sistemi yaradılıb. Bu sistemin köməkliyi ilə məhz seçkilər prosessinin tərkib hissələri olan seçici siyahılarının tərtibi, yığılması, dəyişikliklərin aparılması, oxşarların və təkrarların analizi, seçki komissiyalarının üzvlərin haqqında məlumatların toplanması və idarə olunması, ən əsasın referendum və digər seçkilərin nəticələrinin mərkəzdə toplanaraq emalı və analizi prosesslərinin qısa müddətdə və dəqiqliklə aparılması həyata keçirilir. Həmçinin avtomatlaşmanın tətbiqi ilə, seçki prosessi haqqında informasiyalar qısa müddətdə ictimaiyyətə çatdırılır.

Məhz sistemin tətbiqi ilə hər seçki günü 18 yaşı tamam olan və digər gənclərin siyahısı hazırlanır və müvafiq tədbirlər həyata keçirilir.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995.
2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. 2003.
3. Universal Declaration on Human Rights. 1948.
4. International Covenant on Civil and Political Rights. 1976
5. European Convention on Human Rights and Fundamental Freedoms. 1953





6. Declaration of Prinsiples for International Election Observation. 2005
7. OSCE. Code of Conduct on International Election Observers.
8. OSCE/ODIHR. Election Observation Handbooks. I-VI editions.

www.cec.gov.az, www.osce.org, www.coe.int


## DÖVLƏT QULLUĞUNDA MOTİVASİYA MEXANİZMLƏRİ


**İsmayılzadə Şanel**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


Dövlət qulluğunda ən vacib məqamlardan biri motivasiyadır. Dövlət qulluqçularının peşəkarlığının artırılması üçün motivasiya tədbirləri vacibdir və mükafatlandırılma maddi-mənəvi qruplaş-dırılır. Dövlət qulluqçularının motivasiyasına təsir edən maddi amillərdən biri əmək haqqıdır. Azərbaycan Respublikası "Dövlət qulluğu" haqqında qanuna əsasən, dövlət qulluqçularına verilən dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, vəzifədə qulluq stajından asılıdır. Ümumimiyyətlə*, m*otivasiya prosesinin əsasında insan ehtiyacları dayanır. Ehtiyac şəxsiyyətin və ya sosial qrupun həyati fəaliyyəti və inkişafı üçün obyektiv olaraq lazım olan bir dəyərə olan tələbatdır. Ehtiyaclar təbii və sosial; əvvəldən və əldə olunan; şüurlu və şüursuz olmaqla maddi, mənəvi və sosial ehtiyaclara bölünür.

Bir şəxsin motivasiya quruluşu onun hərəkətlərinin əsası kimi qəbul edilməlidir. Bu müəyyən bir sabitlik ilə xarakterizə olunur, ancaq təhsilin inkişafı və digər şərtlər ilə bir insanın maarifləndirilməsi prosesində dəyişə bilər. Fərdin motivasiya davranışı motivlərin strukturunda fərdi fərqlərdən və konkret vəziyyətdən gəlir. İşçinin

davranışının motivasiyasını dəyişdirmək yalnız müvafiq seçilmiş təşviqlər vasitəsi ilə ola bilər.

Əmək motivi işçinin yüksək məhsuldar işi yerinə yetirməsi üçün lazım olan səbəbdir. Əmək motivi yalnız əmək fəaliyyətinin ümumi nəticə əldə etmək üçün əsas şərt olduğu halda formalaşır. Məqsədlərə nail olma ehtimalının qiymətləndirilməsi əmək üçün motivlərin formalaşdırılması üçün böyük əhəmiyyət kəsb edir. Müsbət nəticənin alınması xüsusi səylər tələb etmirsə və ya yaxşı nəticə əldə etmək çətindirsə, əməyin motivi çox vaxt meydana çıxmır. Əmək üçün motivasiyanın formalaşması, inzibati subyektin sosial cəhətdən şərtlənmiş ehtiyaclarına uyğun olaraq zəruri kompensasiyaya malik olduqda baş verir. Əməyin motivasiyası işin səmərəliliyinin ən vacib amilidir və bu baxımdan işçinin əmək potensialının əsasını təşkil edir, yəni istehsal fəaliyyətinə təsir edən bütün xüsusiyyətlərdən ibarətdir.

İşçilərin əsas motivasiya amili zəmanətli əmək haqqının tətbiq edilməsidir. Buna görə, bir qayda olaraq, menecerlər motivasiya sistemini işçinin şəxsi ödəmələrinə əsaslanan bir vasitə kimi nəzərdən keçirirlər, yəni motivasiya prosesi yalnız maddi metodların köməyi ilə həyata keçirilir. Eyni zamanda, menecerlər bu elementin əsas olduğunu düşünürlər və bütün işçilərin motivasiya üçün ehtiyaclarını təmin etməli olduqlarını qəbul etmişdirlər. Yeni iqtisadi şəraitdə beynəlxalq təcrübədə tətbiq edilən maddi motivasiyanın praktiki istifadəsi real əhəmiyyətə malikdir.

Qərbi Avropa ölkələrindəki işçilərin qeyri-maddi motiva-siyası ABŞ təcrübəsinə olduqca bənzəyir, lakin öz xüsusiyyətlərinə malikdir. Burada idarəetmə personalı ilə işçilər arasında tərəfdaşlıq əlaqələri daha geniş yayılmışdır. Bu, işçilərin mənfəətə dair qərarların qəbul olunmasında fəal iştirakına səbəb olur. Beləliklə, Avstriya, Danimarka, Hollandiya, Lüksemburq, İsveçdə işçilərin şirkətin idarə heyətlərində səsvermə hüququna malik olması qanuni olaraq müəyyən



edilmişdir. Fransa şirkətlərinin işçiləri idarə heyətində öz nümayəndələri ilə təmsil olunurlar, lakin qərar qəbul etməkdə səs vermək hüququna malik deyildir. Almaniyada istehsal şuraları yaradılır və burada istehsalın təşkili, iş saatları, bayramların planlaşdırılması, əmək məhsuldarlığının monitorinqi, texniki vasitələrinin tətbiqi və sosial təminat məsələləri rəhbərlik ilə birgə təsdiq edilir.

Motivlər müxtəlif olduğu üçün insanları motivasiya etməyin də fərqli üsulları vardır. Motivləri bilmək üçün müvafiq diaqnostik sorğular və testlər keçirmək lazımdır. Lazımi iş şəraiti, texniki avadanlıqla təminat, şəxsiyyətə hörmət, adekvat ünsiyyət üslubu, düzgün rəhbərlik üslubunun seçilməsi, obyektiv qiymətləndirmə, komanda hissinin formalaşdırılması, iş stresinin və təşkilatdaxili münaqişələrin yaranmasına yol verməmək kimi meyarlar isə səmərəli motivasiya mexanizminin hər kəs üçün vacib olan universal amillərindəndir.

Dövlət qulluqçusunun peşə fəaliyyətindəki əsas motivlərin-dən biri sosial motivlərdir. Özünün cəmiyyətin, dövlətin inkişafı və sosial rifah üçün yararlı ola biləcəyini, dövlət işlərinin idarə olunmasında iştirak etmək imkanına malik olmasını anlaması dövlət qulluqçusunun sosial motivləri kimi çıxış edir.

Kadrları daha yaxşı fəaliyyətə sövq edən, onları hərəkətə gətirən, davranışlarını arzuolunan istiqamətə yönəldən motivasiya metodlarını düzgün müəyyənləşdirmək üçün, ilk növbədə, onların tələbatlarını bilmək və motivasiya mühitinin yaradılması kimi, qorunub saxlanılması üçün də tətbiq edilməli olan tədbirləri düzgün seçmək lazımdır.

Dövlət qulluqçularının peşəkarlığı onların vəzifə səlahiyyət-lərini və öhdəliklərini yerinə yetirmələri üçün optimal həll imkanlarının tapılması, öz işini yüksək səviyyədə bilmək, dövlət

qulluğu vəzifələrinin effektiv və keyfiyyətli şəkildə həyata keçirilməsi bacarıqlarının olmasını nəzərdə tutur. Peşəkarlıq səviyyəsi vəziyyətdən irəli gələn müxtəlif həll yollarının, vasitələri və metodlarının tapılması və tətbiq etmə qabiliyyətinin reallaşdırılması fonunda özünü göstərir. Kadrların peşəkarlığı idarəetmənin səmərəliliyini şərtləndirən əhəmiyyətli amillərdən biridir. Peşəkarlıq hər hansısa bir peşənin yüksək dərəcədə mənimsənilməsini ifadə edir. Bu dərəcə özündə ustalıq, məharət və yüksək səriştəni ehtiva edir. Yüksək peşəkarlığa nail olma iliklərin əldə edilməsi və idarəetmə vərdişləri və bacarıqlarına yiyələnməni nəzərdə tutur. Peşə səriştəliliyi idarəetmə prosesində meydana çıxan problemlərin və vəzifələrin əldə edilmiş biliklər və bacarıqlar, həyat və peşə təcrübəsi əsasında həll edilməsi ilə bağlı idarəetmə fəaliyyətinin səmərəli həyata heçirilməsi qabiliyyətidir. Dövlət qulluqçusunun peşə səriştəliliyi onun təsil səviyyəsi, xüsusi peşə bilikləri, vərdiş və bacarıqları, malik olduğu bu potensialdan səmərəli şəkildə istifadə edərək peşə fəaliyyətini yüksək səviyyədə və keyfiyyətlə həyata keçirə bilmək qabiliyyətidir.

Azərbaycanda dövlət qurumlarında həvəsləndirmə metodlarından istifadə olunması dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyində əhəmiyyətli rol oynayır. Həvəsləndirmə mexani-zmi o halda hərəkətə gəlir ki, şəxsiyyətin aktual tələblərinə toxunur, onun yaradıcılıq fəallığının və əmək məhsuldarlığının artırılmasına, vəzifə borclarının dəqiq və vicdanla yerinə yetirilməsinə imkan verir. Bu baxımdan, dövlət qorqanlarında müxtəlif motivasiya mexanizmlərinin tətbiqi məqsəduyğundur.



# ÜMUMMİLLİ LİDER VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MÜASİR DÖVLƏT QULLUĞU SİSTEMİ

**Kərimov Sərxan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
serxan.kerimov85@gmail.com

Azərbaycanda Respublikasında müasir dövlət qulluğu sisteminin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanın düşdüyü yeni tarixi şəraitdə demokratik dəyərlər üzərində müstəqil dövlət quruculuğu prosesinə start verildi. 1995-ci ildə ümumxalq referendumunda ölkə Prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev zəkasının məhsulu olan Azərbaycan respublikasının Konstitusiyası qəbul edildi və beləliklə, ölkənin gələcək inkişafı üçün müasir tələblərə cavab verən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin əsası qoyuldu.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və müdrik tövsiyələri ilə 21 iyul 2000-ci il tarixində qəbul edilmiş “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu yeni əsrdə Azərbaycanın idarə olunmasını, onun müstəqilliyininin möhkəmləndirilməsini, insanların, sıravi vətəndaşın rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin həyata keçirilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir və ümumilikdə dövlət qulluğu ilə bağlı bir çox məsələləri tənzimləyir. Respublikamızın müstəqilliyinin bərpa olunmasından

keçən dövr ərzində dövlət qulluğu sahəsində çox mühüm islahatlar həyata keçirilmiş, bütövlükdə, ölkəmizdə bu sistemin, eləcə də onun kadr potensialının formalaşmasında fundamental dəyişikliklər, inkişaf prosesləri həyata keçmişdir. Bu proseslər fonunda Azərbaycanın beynəlxalq təcrübəyə və milli xüsusiyyətlərə əsaslanan özünəməxsus dövlət qulluğu sistemi formalaşmışdır.

Ulu Öndərin bütün sahələr üzrə siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev tərəfindən ölkəmizdə müasir dövlət qulluğu sisteminin təşkili və idarə olunmasının yeni texnologiyaları tətbiq edilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti ölkəmizin yeni inkişaf mərhələsinə keçməsi, yeni demokratik mexanizmlərin yaradılması və xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelinin, vətəndaş - dövlət qulluqçusu münasibətlərində yeni düşüncə tərzinin, kadr potensialının formalaşdırılması üçün zəmin olmuşdur.

"Dövlət qulluğu haqqında" Qanunun qəbulundan ötən 23 il ərzində dövlət qulluğu sahəsində geniş qanunvericilik bazası yaradılmış, həyata keçirilmiş islahatlar nəticəsində ölkədə dövlət qulluqçularının peşəkarlığının və sosial müdafiəsinin gücləndi-rilməsi məqsədilə zəruri addımlar atılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cü il tarixində "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Sərəncamı intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasına zəmin yaratmışdır. Çoxpilləli kompleks qiymətləndirilmə nəticəsində seçilən bu şəxslər müxtəlif dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsi üçün öz töhfələrini verəcəkdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra "Neft kapitalının insan kapitalına çevrilməsi" prosesində ölkə



kontekstində bir sıra layihələr və proqramlara imza atılmışdır. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" bu sahədə atılan addımların kiçik bir nümunəsidir. Bu proqram gənc mütəxəssislərin yetişdirilməsi, kadr potensialının cavanlaş-dırılması və müasirləşdirilməsi istiqamətində məqsədyönlü işlərin aparılması, istedadlı və perspektivli gənclərin xarici ölkələrin aparıcı universitetlərində təhsilini təşkil etmək məqsədi ilə təsis edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixində imzaladığı "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in Sərəncamında "insan kapitalının inkişaf etdirilməsi", "insan kapitalının müasirləşdirilməsi, rəqabətli insan kapitalı" növbəti illər üçün ölkəmizdə reallaşdırılması nəzərdə tutulan prioritetlərdir. Bunları nəzərə alaraq bir daha qeyd edə bilərik ki, müasir dövlət qulluğu sistemi formalaşması istiqamətində görülən işlər hər zaman olduğu kimi bugündə öz aktuallığını qoruyub saxlamaqdadır.

## İNNOVASİYA ANLAYIŞI

**Qasımov Arzuman**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

"İnnovasiya" anlayışı "innovation" ingilis sözündən yaranmışdır. Bu sözün mənası isə "yeniliklərin həyata keçirilməsi", "yeni qayda" deməkdir. "İnnovasiya" anlayışı daxilində yeni qayda, yeni üsul, yeni məhsul və ya texnologiya, yeni hadisə nəzərdə tutulur. İnnovasiyanın əldə edilməsi, onun cəmiyyətin maddi mühitində təkrar

istehsalı və reallaşdırılması ilə bağlı olan innovasiyadan istifadə prosesi innovasiya prosesini təşkil edir. İnnovasiya prosesləri elmin ayrı-ayrı sahələrində yaranıb istehsal sahəsində tamamlanaraq, onun daxilində mütərəqqi, keyfiyyətcə yeni dəyişiklərə səbəb olur. İnnovasiyalar həm texnika və texnologiyaya, həm də istehsalatın və idarəetmənin təşkili formalarına aid edilə bilər.Onların hamısının arasında sıx qarşılıqlı əlaqə var və onlar istehsaledici qüvvələrin inkişafının və istehsalatın səmərəliliyinin artırılmasının keyfiyyət pilləlәridir. [1]

İqtisadi ədəbiyyatlarda «innovasiya» anlayışına dair müxtəlif fikirlərə rast gəlmək olar. A.Abbasov qeyd edir ki, «innovasiya anlayışı ilk dəfə XIX əsrdə mədəniyyətşünaslıq üzrə elmi tədqiqatlarda bir mədəniyyətin bəzi elementlərinin digər mədəniyyətlərə daxil olmasını ifadə edirdi. Söhbət Avropa mədəniyyətinə Afrika və Asiya cəmiyyətlərinin ənənələrinin daxil olmasından gedirdi» (1, səh.67).

Hal-hazırda innovasiya fəaliyyəti sahəsində ümumi qəbul olunmuş terminologiya yoxdur.Tədqiqat obyektindən və predmetindən asılı olaraq, iqtisadi ədəbiyyatda innovasiyanı proses, sistem, dəyişiklik və nəticə kimi nəzərdən keçirirlər. XX əsrin 30-cu illərində innovasiya haqqında tədqiqatların əsasını qoyan Avstriya iqtisadçısı I.Şumpeter özünün «İqtisadi inkişaf nəzəriyyəsi» əsərində innovasiyaya texniki dəyişikliyin iqtisadi təsiri kimi baxmışdır. O, istehsal funksiyası çərçivəsində inno-vasiya sahibkarlığının mahiyyətini tapmağa cəhd etmiş və innovasiya prosesləri nəzəriyyəsinin əsaslarını tədqiq etmişdir. Yeniliyə texnologiyanın və idarəetmənin dəyişməsi kimi baxan alim, innovasiya prosesində sahibkarın rolunu qeyd etmiş və onu ixtira ilə yenilik arasında əlaqələndirici adlandırmışdır.

Dünya iqtisadi ədəbiyyatında «innovasiya» termini potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda öz əksini



tapması kimi şərh olunur. Müxtəlif alimlər «innovasiya» anlayışını öz tədqiqat obyekti və predmetlərindən asılı olaraq təhlil edirlər:

T.Ə.Quliyev göstərir ki, innovasiya yenilikdir, yeni fikrin məhsuludur (3, səh.438) A.Abbasova görə innovasiya idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloji, elmi-texniki və digər növ effektin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsidir (1, səh.88). M.C.Atakişiyev, Q.S.Süleymanovun fik-rincə, innovasiya bazar iqtisadiyyatına uyğun elm və texnikanın nailiyyətləri əsasında istehlakçıların tələbatını ödəmək məqsədilə yeni əmək məhsullarını təklif etmək üzrə tədbirlər olub, investisiyanın keyfiyyət tərəfini xarakterizə edir (2, səh.8) T.Q.Evdokimova, Q.A. Maxovikova, N.F.Efimovaya görə innovasiya prosesini elmi biliyin innovasiya şəklinə düşməsi kimi yaxud ideyanın məhsul, texnologiya və ya xidmətə çevrilməsi prosesi kimi müəyyən etmək olar (4, səh.12-13). V.Q.Medinskiy innovasiya dedikdə, aparılmış elmi tədqiqat yaxud edilmiş kəşf nəticəsində istehsalata tətbiq olunun və özündən əvvəlki analoqundan keyfiyyətcə daha yaxşı olan obyekti nəzərdə tutur (6, səh 5). V.A.Svandaraya və V.A.Qorfinkelyaya görə innovasiya praktiki fəaliyyətdə istifadə olunan yeni və ya mütərəqqi texnoloji proses, bazarda realizə edilən yeni və ya təkmilləşdirilmiş məhsul formasını almış innovasiya fəaliyyətinin son nəticəsidir (5, səh.5).

Fraskati rəhbərliyinə əsaslanaraq, (OESP 1993-cü ildə İtaliya şəhəri Fraskatidə qəbul olunub) innovasiya – bazara daxil edilmiş, praktiki fəaliyyətdə istifadə olunan yeni və ya təkmilləşdirilmiş proses və yaxud da ki, sosial xidmətlərə yeni yanaşma, həmçinin yeni və ya mütərəqqiləşdirilmiş məhsul şəklini alan fəaliyyətin son nəticəsi kimi müəyyən olunur.

«Elmi-Texniki Tərəqqi» lüğətində innovasiya yeni məmulat növlərinin, texnologiyaların, yeni təşkilati formaların tətbiqinə və işlənib hazırlanmasına, yaradılmasına yönəldilmiş yaradıcılıq

fəaliyyətini ifadə edir. Beləliklə, innovasiyanın dərk edilməsinə müxtəlif yanaşmaların təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, innovasiyanın məxsusi məzmunu dəyişikliklərdən ibarətdir, innovasiya fəaliyyətinin və innovasiya menecmentinin əsas funksiyası dəyişiklikləri optimal idarə etməkdir

**Ədəbiyyat**


1. Abbasov A.B. Biznesin əsasları, Bakı-2005
2. Atakişiyev M.C., Q.Süleymanov. İnnovasiya menecmenti, 2004
3. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları, Bakı-2001
4. Евдокимова Т.Г., Маховикова Г.А., Ефимова Н.Ф. Инновационный менеджмент, Санкт-Петербург – 2005
5. Инновационный меменджмент. Учебник. Под редакцией В.А.Свандара, В.А.Горфинкеля Москва – 2005
6. Мединский В.Г. Инновационный менеджмент, Москва - 2004


## İNZİBATİ – HÜQUQİ İSLAHATLARIN ANLAYIŞI VƏ SİSTEMİ


**Qədimquliyeva Günel**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


XX əsrin sonu - XXI əsrin əvvəllərində baş vermiş siyasi hadisələr və onların hüquqi nəticələri cəmiyyətin əsas sosial-siyasi və iqtisadi institutlarında islahat proseslərinə təkan verdi. “İslahat” anlayışı “sosial-siyasi modernləşmə”, “sosial transformasiya” anlayışları ilə birlikdə istifadə edilməyə başladı. Son iyirmi səkkiz il ərzində iqtisadi, siyasi, sosial və hüquqi sahələrdə eyni anda baş verən



köklü dəyişikliklər bu dəyişmələrin səbəblərini və hərəkətverici qüvvələrini dərk etmək sahəsində tədqiqatçılar arasında fərqli fikirlər və nöqteyi-nəzərlər formalaşdırmışdır.

Tarixi və müasir hadisələri tədqiq edərək görmək olar ki, tarixi əhəmiyyətə malik hadisələrin inkişaf etməyə başladığı müəyyənedici nöqtəni sadəcə insan ideyası deyil, həm də obyektiv ilkin şərtlər, cəmiyyətin inkişafı və onun mütərəqqi vəzifələrinin həyata keçirilməsinin zəruriliyi təşkil edir.

Siyasi sistemlərin belə daim irəliləyən inkişafını müəyyən etmək üçün ona yönəldilmiş dəyişdirici fəaliyyətin predmeti haqqında müəyyən informasiyaya və konkret elmi biliklərə ehtiyac duyulur. Çünki ətraf gerçəkliyin dəyişdirilməsi ideyası “dəyişmək istəyirəm” və “necə dəyişməyi bilirəm və ya edə bilərəm” düsturlarına birbaşa mütənasibdir. Bəşəriyyətin tarixi inkişaf yollarında ictimai quruluşun daha mükəmməl formalarının axtarışına dair çoxsaylı nümunələr mövcuddur. Bununla yanaşı, biz cəmiyyətin sosial təşkilatlanmasının müasir ruhunu özündə cəmləşdirən fərqli ideyaları, konsepsiyaları, nəzəriyyələri müəyyənləşdirən bu və ya digər sivilizasiya dövrünün mənasını daim müşahidə edirik və tədqiq etməyə çalışırıq.

Postsovet ölkələrində, o cümlədən də Azərbaycanda XX əsrin sonlarında baş vermiş müxtəlif sosial dəyişikliklər cəmiyyətin böhran vəziyyətində inkişaf etdirilməsi istiqamətində xüsusi yolların mümkünlüyünü göstərdi. Azərbaycan da hüquqi dövlət quruculuğunu, insan hüquq və azadlıqlarının qorunmasını, cəmiyyətdə qanunun aliliyinin təmin olunmasını dövlət müstəqilliyinin ilk illərindən özünün əsas hədəfləri kimi müəyyənləşdirmişdir [1, s. 5]. Bu, cəmiyyətdə baş verən islahat proseslərinin qavranılmasının qeyri-müəyyənliyinə bir çox cəhətdən təsir göstərmişdir. Müasir fənlərarası diskurslar çərçivə-sində onların təhlilinin metodoloji çətinlikləri “islahat”, “islahatçı” və “islahatçılıq” anlayışlarının məzmununun

müəyyən-ləşdiril-məsində olan uyğunsuzluqdan və birmənalı olmamasından irəli gəlir. Onların mühüm əlamətləri ilə islahedici dəyişikliklər hallarının mədəni-tarixi müxtəlifliyinin eyniləşdirilməsi tədqiqat işində islahatların real təcrübəsinin tam dəyərli şəkildə əks etdirilməsinə imkan verən metodoloji əsasın seçilməsi problemini təşkil edir.

Marksizm üçün ənənəvi olan və sosial inqilabın baş verməsini təxirə salmaq məqsədi güdən islahatın fəlsəfi bir şəkildə hakim təbəqənin öz rəqibinə güzəşti kimi qiymətləndirilməsi bir çox cəhətdən sovet cəmiyyətşünasları tərəfindən ictimai institut-ların, təsisatların və ya əlaqələrin islah olunması proseslərinə maraq göstərilməməsi ilə şərtləndirilmişdir.

Elmi ədəbiyyatda ictimai istəklərin təsiri altında köklü surətdə baş verən dəyişikliklər dövrü islahatçı tərpənişlər adlandırılır. Tədqiqatçıların fikrinə əsasən, belə sosial hadisənin mahiyyəti onun tarixi dinamikasında ictimai inkişaf determi-nantlarının biri kimi çıxış edən mənəvi-nəzəri və mənəvi-praktiki fəaliyyətdə özünü büruzə verir. Buna görə də tədqiqatımızın seçilmiş ümumi predmetində bu yarımfəslin aktuallığı bütövlükdə islahat proseslərinin ontologiyası, qnoseologiyası və aksiologiyası, xüsusən bir kateqoriya kimi islahat haqqında biliyə ehtiyacın yaranması ilə müəyyən edilir. Biliyin belə aspektlərinə tələbat demokratik, hüquqi, sosial və unitar dövlət kimi əsas konstitusiya məqsəd və prinsiplərinə nail olmağa yönəlmiş milli dövlətçiliyin inkişafı, ictimai münasibətlər sisteminin təkamülü şərtlərində Azərbaycanda islahatların həyata keçirilməsinin obyektiv ehtiyaclarından yaranmışdır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, “Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır” [3, s. 53]. Azərbaycan dövlətçiliyinin müasir ictimai-siyasi və hüquqi



inkişafı islahat proseslərinin öyrənilmə-sinin xüsusi parametrlərini formalaşdırır.

Bu gün tarixi inkişafın və dəyişikliklərin zəngin təcrübəsinə baxmayaraq, “islahat” və ya “islahatlar” kateqoriyası zəif öyrənilib. Belə ki, cəmiyyətin dəyişiklik proseslərində özəlliklər və islahatların yerinin müəyyənləşdirilməsi, struktur komponent-lərin ayrılması, islahat prosesinin mənbəyinin müəyyən edilməsi, cəmiyyətin islahatının dinamikası və texnologiyasının öyrənilməsi nəzərə alınmır, üstəlik, islahatların normativ-konseptual tərəfləri də araşdırılmamışdır. Cəmiyyətşünaslıqda bu cür boşluqlar diqqətimizi təkcə islahatların ontoloji, qnoseoloji və aksioloji mahiyyətinin aşkara çıxarılmasına deyil, həm də cəmiyyətin islah olunmasının praktiki modelini təsvir etmək zərurətinə yönəldir. Bu, bizə islahatlar və islahat aparma kimi bir fenomenin məzmu-nuna daha dərindən nüfuz etməkdə kömək edəcəkdir.

Elmi ədəbiyyatda siyasi islahat, bir qayda olaraq, öz məzmununa görə konstitusiya islahatının sinonimi kimi çıxış edir. Yəni məzmun, idarəetmə formasının dəyişdirilməsi (məsələn, pre-zident idarəetmə formasından parlament idarəetmə formasına və ya qarışıq modelə və s.), siyasi və ya dövlət hakimiyyətinin həyata keçirilməsi mexanizmində dəyişikliklər. Bununla yanaşı, alimlər təkamül, inqilab, sosial-sistem və s. bu kimi islahatların mexa-nizmlərini vurğulayırlar.

İslahatın mahiyyətini və mümkünlüyünü düzgün anlamaqla bağlı yaranan ən vacib və mürəkkəb sual onun inqilabla nisbətidir. Bu problemin həll edilməsində metafizik hədd mövcuddur: bir tərəfdən islahatın rolunun mütləqləşdirilməsi əsasında inqilabın reformist inkarı, digər tərəfdən köklü sosial problemlərin həllinin yeganə üsulu kimi inqilabdan yayındıran islahatların solçu inkarı. Müasir, bir çox hallarda qarşılıqlı əlaqəli, ziddiyyətli bir dünyada islahatın və inqilabın nisbəti yeni xüsusiyyətlər əldə edir [4, s. 389]. Müasir sivilizasiyanın

qlobal problemləri, mahiyyətcə, kəskin sosial kolliziyaların həllində zorakı formalardan əl çəkməyin zəruriliyini diktə edir və labüd struktur dəyişikliklərin həyata keçirilməsi üçün yeni vasitələr tələb edir.

Hüquq ədəbiyyatında olduğu kimi müasir iqtisadi ədəbiy-yatda da iqtisadi islahatların dəqiq təsnifatı yoxdur, hər bir müəllif müəyyən bir vəziyyət üçün fərdi tipoloji sxemi və onun əsasında iqtisadi proseslərin dəyərləndirməsini təklif edir.

Dəfələrlə aparılan müşahidələr əsasında keçid dövrünün ictimai-siyasi və iqtisadi modelinin islah olunmasının həyata keçirilməsi, toplanılmış dünya təcrübəsini tədqiq etmək üçün möhkəm nəzəri bazanın yaradılması zərurəti obyektiv olaraq for-malaşmışdır. Cəmiyyətin və ictimai həyatın inkişafı tarixi-sosial tənzimləmə sistemində baş verən dəyişikliklərlə müşahidə olunur. Bu prosesi sosial normaların yaranması və qüvvədən düşməsi, sosial tənzimləmə (dini, mənəvi, estetik, hüquqi, siyasi və s.) sistemində onların nisbətinin, qarşılıqlı fəaliyyət formalarının, əhəmiyyətinin və rollarının dəyişməsi müşayiət edir.

## Ədəbiyyat


1. Cəbrayılov, R.K. Azərbaycan Respublikasında hüquq islahatları / R.K. Cəbrayılov. - Bakı: 2014. – 304 s.
2. Cəfərov, İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi / İ.M.Cəfərov. -Bakı: Hüquq ədəbiyyatı, - 2010. - 724 s.
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, 1997- 2013.
4. *Кравченко И.И. Реформа: Новая философская энциклопедия.* [Электронный ресурс] / *Электронная библиотека ИФ РАН.* URL: https://iphlib.ru/greenstone3/library/collection/newphilenc/document/HASH0155bae06c519c326889cb55.




## VƏTƏNDAŞ MƏMNUNLUĞUNUN TƏMİN OLUNMASI: SURAXANI RAYONU TİMSALINDA


**Qədirova Nərmin**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


Vətəndaş məmnunluğu dövlət üçün çox vacibdir, çünki bu, vətəndaşların ümumi rifahının və xoşbəxtliyinin göstəricisidir. Vətəndaşlar öz hökumətlərinin təqdim etdiyi xidmətlərdən və imkanlardan razı olduqda, onların daha məhsuldar, məşğul və öz icmalarına müsbət töhfə verənlər olma ehtimalı daha yüksəkdir. Üstəlik, vətəndaş məmnunluğu həm də hökumətin siyasət və proqramlarının effektivliyinin təzahürüdür. Vətəndaşlar hökumətin fəaliyyətindən razı olduqda, bu, hökumətin öz vətəndaşlarının ehtiyaclarını ödədiyini və onların qayğılarına və prioritetlərinə cavab verdiyini göstərir.

Bundan əlavə, vətəndaş məmnunluğu vətəndaşlarla hökumət arasında etimadın yaradılması üçün vacibdir. Vətəndaşlar hökumətə etimad göstərdikdə, demokratik proseslərdə iştirak etmək, qayda-qanunlara əməl etmək, böhran zamanı hökuməti dəstəkləmək ehtimalı daha yüksəkdir. Bütövlükdə vətəndaş məmnunluğu dövlət üçün çox vacibdir, çünki o, sosial sabitliyə, iqtisadi artıma və siyasi legitimliyə kömək edir. Vətəndaşlarının məmnunluğunu ön planda tutan hökumət öz məqsədlərinə nail olmaqda və bütün sakinlərinin həyat keyfiyyətini yaxşılaşdırmaq-da daha uğurlu olacaq.

Vətəndaş məmnunluğu Azərbaycan üçün bir neçə səbəbə görə vacibdir. Birincisi, Azərbaycan iqtisadiyyatını modernləş-dirməyə, daha sabit, firavan cəmiyyət qurmağa çalışan inkişaf edən ölkədir. Bu məqsədə çatmaq üçün onun vətəndaşlarının dəstəyinə və iştirakına

ehtiyacı var. Vətəndaşlar hökumətin fəaliyyətindən razı olduqda, onun siyasət və proqramlarını daha çox dəstəkləyəcəklər ki, bu da inkişaf tempini sürətləndirməyə kömək edə bilər.

İkincisi, Azərbaycan müxtəlif etnik, dil və dini qruplara malik müxtəlif ölkədir. Sosial birliyi və harmoniyanı qorumaq onun uzunmüddətli sabitliyi və uğuru üçün çox vacibdir. Vətəndaş məmnunluğu bütün qrupların özlərini daxil edilmiş, dəyərli və eşitdiklərini hiss etmələrini təmin etməklə bu birliyin gücləndirilməsində mühüm rol oynayır.

Üçüncüsü, Azərbaycan geosiyasi baxımdan mühüm regionda yerləşən ölkədir. O, ərazi mübahisələri, regional münaqişələr və xarici təzyiqlər də daxil olmaqla çoxsaylı problemlərlə üzləşir. Vətəndaş məmnunluğu bu kontekstdə mühüm əhəmiyyət kəsb edir, çünki o, bu çağırışlar qarşısında dayanıqlılığı artırmağa və birliyi təşviq etməyə kömək edir.

Nəhayət, Azərbaycan hələ də öz demokratik institutlarını və təcrübələrini qurmaqda olan gənc demokratiyadır. Vətəndaş məmnunluğu bu qurumların gücləndirilməsi və onların hesabatlı, şəffaf və insanların ehtiyaclarına cavabdeh olmalarını təmin etmək üçün vacibdir. Ümumiyyətlə, vətəndaş məmnunluğu Azərbaycanın inkişafı, sabitliyi və demokratiyası üçün çox vacibdir. Bu, 21-ci əsrin çağırışlarına cavab verə biləcək daha birləşmiş, firavan və möhkəm cəmiyyətin qurulmasına kömək edə bilər.

Azərbaycan müxtəlif sektorlar üzrə vətəndaş məmnunluğunu təmin etmək üçün müxtəlif tədbirlər həyata keçirib. Misal üçün, təhsil sahəsində Azərbaycan ibtidai və orta təhsilə çıxış imkanlarının genişləndirilməsi, tədrisin keyfiyyətinin yüksəldil-məsi və ali təhsilin maliyyələşdirilməsinin artırılması daxil olmaqla, təhsilə əhəmiyyətli investisiyalar yatırıb. Bu tədbirlər təhsilin nəticələrini yaxşılaşdırmaq



və vətəndaşların müasir iqtisadiyyatda uğur qazanmaq üçün lazım olan bacarıq və biliklərə malik olmasını təmin etmək məqsədi daşıyır.

Səhiyyə sahəsində isə Azərbaycan səhiyyə xidmətlərinin keyfiyyətini və əlçatanlığını yaxşılaşdırmaq üçün səylər göstərmişdir. Bura tibbi infrastruktura sərmayə qoyuluşu, tibb mütəxəssislərinin sayının artırılması və tibbi xidmətlərin əlçatanlığının genişləndirilməsi daxildir. Bundan əlavə, hökumət bütün vətəndaşların münasib qiymətə tibbi xidmətə çıxışını təmin etmək üçün universal tibbi sığorta sistemi tətbiq etmişdir.

İnfrastruktura gəlincə isə Azərbaycan infrastruktura, o cümlədən nəqliyyat şəbəkələrinə, telekommunikasiya və enerji sistemlərinə böyük sərmayə qoyub. Bu investisiyalar əlaqəni yaxşılaşdırmaq, səyahət vaxtlarını azaltmaq və əsas xidmətlərə çıxışı artırmaq məqsədi daşıyır.

İctimai xidmətlər sahəsində Azərbaycan ictimai xidmətlərin, o cümlədən ictimai nəqliyyat, tullantıların idarə edilməsi və su təchizatının keyfiyyətini və əlçatanlığını yaxşılaşdırmaq üçün səylər göstərmişdir. Bu tədbirlər vətəndaşların gündəlik həyatını asanlaşdırmaq və onların ümumi həyat keyfiyyətini yaxşılaşdır-maq məqsədi daşıyır.

Sosial rifaha gəlincə Azərbaycanda pensiya, sosial sığorta və qocalar, uşaqlar və əlillər kimi həssas qruplara yardım daxil olmaqla müxtəlif sosial rifah proqramları həyata keçirilib. Bu proqramlar ehtiyacı olanlara dəstək olmaq və bütün vətəndaşların əsas tələbat mallarına çıxışını təmin etmək məqsədi daşıyır. Bütövlükdə, bu tədbirlər Azərbaycanda vətəndaşların həyat səviyyəsini və rifahını yaxşılaşdırmaq, bununla da onların hökumətdən məmnunluğunu artırmaq, sosial birlik və sabitliyi təşviq etmək məqsədi daşıyır.

Suraxanı rayonunda da dövlət tərəfindən müxtəlif sahələrdə vətəndaş məmnunluğunun təmin edilməsi üçün bir sıra tədbirlər həyata

keçirilib. Məsələn, təhsil sahəsində hökumət məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılmasına, ixtisaslı müəllimlərin sayının artırılmasına sərmayə qoyub. Bundan əlavə, səhiyyə sektorunda hökumət yeni klinikaların və xəstəxanaların tikintisi də daxil olmaqla, tibbi xidmətlərə çıxışı yaxşılaşdırmaq üçün çalışmışdır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

**Qılıncxanova Fatma**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
*Şuşa Rayon İcra Hakimiyyəti*
*fatima9116@mail.ru*

Gənclər, hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Gənc nəslə qoyulan investisiya dövlətin parlaq gələcəyinin təminatıdır. Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Dövlət Gənclər siyasəti dövlətin “Gənclik kapitalı”na xüsusi yanaşmasının təcəssümüdür. 1997-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 2 fevral Gənclər günü kimi təsis olunmuşdur. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunmuşdur. Qəbul edilən proqramlara uyğun olaraq keçirilən tədbirlər, müxtəlif sahələrdə gəncləri maraqlandıran məsələlərin həllinə dair verilən sərəncamlar, qəbul edilən qərarlar, dövlət orqanlarının və ictimai təşkilatların fəaliyyəti, gənc nəslə təhsil, elm, incəsənət, səhiyyə, iqtisadiyyat və digər sferalarda dəstək, gənclərin problemlərinin həllinə yönəlmiş hərəkətlər Azərbaycan dövlətinin gənclərə diqqətinin bariz nümunəsidir. Ulu Öndər Heydər



Əliyev gənclərin tərbiyəsini, onların problemlərinin həllinə dəstək və gənc vətəndaşlara dövlət qayğısını yeni və müstəqil Azərbaycan dövlətinin daxili siyasətinin mühüm vəzifələrindən hesab etmişdir.

XX əsrdə Azərbaycan gəncliyinin nəinki ədəbiyyat və incəsənət, həmçinin bir çox digər sahələrdə nailiyyətlərin qazanılmasında böyük rolu olmuşdur. Ümummilli lideri H. Əliyev tərəfindən müəyyən olunan və həyata keçirilən gənclər siyasəti özündə beş mühüm istiqaməti ehtiva edirdi: - milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi; - gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi; - gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi; - dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması; - gənclərin Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası ilə təmin olunan imkanlardan maksimum istifadə etmələri üçün möhkəm əsasın yaradılması.

Dünyada, o cümlədən Azərbaycanda ictimai-siyasi hadisələr baş verdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişirdi. Azərbaycan xalqının problemlərinin müasir dünya kontekstində həlli üçün Azərbaycan gənclər hərəkatının yenidən qurulması vacib idi. Bununla əlaqədar olaraq müstəqil Azərbaycan Respublikasında gənclər hərəkatının əlaqələndirilməsi məqsədilə 1994-cü il iyulun 26-da Azərbaycan Prezidentinin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı (2001-2006-cı illərdə Gənclər, İdman və Turizm Nazirliyi). Bu nazirliyin meydana gəlməsi ilə dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirildi, nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı,

onların hüquqlarının müdafiəsi, beynəlxalq strukturlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramları hazırlandı. Azərbaycan Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan xalqının mənafeyinə əsaslanan Gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının apardığı siyasət nəticəsində Azərbaycanın dinamik inkişafını təmin edən fundamental faktorlardan biri cəmiyyətin ən fəal təbəqəsini təşkil edən gənclərin potensialından səmərəli istifadəsi təşkil edildi. Ölkədə gənclər hərəkatı yüksəliş mərhələsinə qədəm qoydu, Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçildi və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynamağa başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bugünkü gənc sabah ölkəni idarə edəcəkdir. İlham Əliyevin rəhbərliyi ilə ökə əhalisinin 31%-dən çox hissəsini təşkil edən gənclərin hərtərəfli inkişafı məqsədilə gənc nəslin nümayəndələrinin dövlət idarəçiliyi sistemində iştirakının həyata keçirilməsi, onların səmərəli məşğulluğunun təmin edilməsi, gənclərin potensialından dövlətimizin rifahı naminə istifadə olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir.

### Ədəbiyyat


1. https://youthfoundation.az/
2. https://www.mys.gov.az/
3. https://heydaraliyev.preslib.az/
4. 2.Bayramov Azər. Heydər Əliyevin gənclər siyasəti müasir elitologiya kontekstində. // Dirçəliş. – XXI əsr. № 126-127. s.70-86.





5. 3.Davamlı inkişaf naminə kadr potensialının təkmilləş-dirilməsi: Azərbaycan modeli. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. - 252 s.


## İNKLÜZİV İNKİŞAFIN DAVAMLILIĞINI SƏCİYYƏLƏNDİRƏN İNDİKATORLAR


**Qubadov Mirtalıb**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Doktorantı*


Beynəlxalq standartlara əsasən, inklüziv inkişaf vəziyyətinin qiymətləndirilməsi, bu sahədə ölkələrarası müqayisələr üç əsas göstəricilərlə (indikatorlarla) müəyyən edilir. Bu indikatorlara

- *iqtisadi artım və inkişaf göstəriciləri,*
- *sosial siyasətin indikatorları,*
- *inklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlar* aiddir.

Qeyd olunan indikatorların hər biri inklüziv inkişafın təmin olunması baxımından vacib hesab olunur.

İqtisadi artım dedikdə, ölkənin və ya bölgənin iqtisadi inkişafı nəticəsində əldə olunan maddi və maliyyə resursları nəzərdə tutulur.

Sosial siyasət indikatoru dedikdə iqtisadi inkişafda əldə olunmuş imkanlar hesabına uğurlu sosial siyasətin həyata keçirilməsi başa düşülür. Bura ölkədə olan yoxsulluğun,aclığın və digər məhrumiyyətlərin aradan qaldırılması, gəlirlərdə, istehlakda kəskin-qeyri bərabərliyin qarşısının alınması aiddir.

İnklüziv inkişafın təminatçısı kimi çıxış edən üçüncü qrup göstəricilər prosesin davamlı olması, gələcək nəsillər üçün də qorunub saxlanması ilə əlaqədardır.

Bu üç əsas indikatorların təmin olunması şəraitində inklüziv cəmiyyətə keçidi formalaşdırmaq mümkündür.




***Şəkil 1.*** *İnklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlar [4 ]*

Ölkənin xarici borcunun həcmi davamlı inklüziv inkişafı səciyyələndirən indikatorlardan biridir. Bu indikator inklüziv inkişafın davamlı olması üçün çox önəmlidir. Məlumdur ki, dövlətin xarici borcu daimi xidmət tələb edir. Bu o deməkdir ki, alınan borca görə borc alan, borc verən təşkilata müqavilədə nəzərdə tutulmuş faizlər ödəməlidir. Bu ödəmələrin həcmi alınan borcun həcmindən asılıdır. [4, s 84]

Aydındır ki, borcun həcmi yüksək olduqda, ödəniləcək faizlər də yüksək olur. Dövlətin xarici borcu yüksək olarsa, bu gələcək nəsillərin inklüziv inkişafı üçün risk yarada bilər. Çünki hazırkı nəsillərin aldığı borcların ağırlığı gələcək nəsillərin probleminə çevrilə bilər.

Bu səbəbdən, qəbul olunmuş standartlara görə, xarici borcun həcmi davamlı inklüziv inkişafın indikatorlarındandır.

Əgər xarici borc ölkənin iqtisadi potensialının az hissəsinə bərabərdirsə, o halda inklüziv inkişaf davamlı hesab edilə bilər. Əgər xarici borc böyükdürsə və ÜDM-nin əhəmiyyətli hissəsini təşkil edirsə, o halda bu borc gələcək nəsillər və inklüziv inkişaf üçün risk törədir.



Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının xarici borcunun həcmi yüksək deyil.

Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə ölkə başçısı qeyd etmişdir ki, 2021-ci ilin aprel ayında xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdisə, hazırda 12.5 faiz təşkil edir. Yəni ölkəmiz bir il ərzində xarici dövlət borcunu 600 milyon dollardan çox bir səviyyədə aşağı salmağa nail olmuşdur.

Ölkə başçısı qeyd etmişdir ki, bu da xarici borcun idarə edilməsi strategiyasının icrası nəticəsində mümkün olmuşdur. [1]

Verilmiş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikasının xarici borcunun həcmi yüksək deyil və inklüziv inkişaf üçün risk yaratmır.

Məlumdur ki, inklüziv inkişaf indeksinin hesablanması zamanı istifadə edilən indikatorlar arasında demoqrafik göstəricilər də mövcuddur. İnklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlardan biridə əhalinin demoqrafik asılılığ səviyyəsidir.




***Şəkil 2.*** *Müxtəlif ölkələrdə əhalinin asılılıq səviyyəsi [6 ]*

Əhalinin asılılıq dərəcəsi davamlı inklüziv inkişaf üçün risk yaradan amillərdəndir.
Demoqrafiyada asılılıq göstəricisinin hesablanması zamanı hər yüz əməkqabiliyyətli şəxsin payına düşən asılı yaşda olanların sayı nəzərə alınır.
Beynəlxalq standartlara görə, asılı yaşda olan qrupa 0-14 və 65-dən yuxarı yaşlılar, əməkqabiliyyətli əhaliyə isə 15-64 yaşında olanlar aiddir. [4, s 87 ]
Qeyd etmək lazımdır ki, əhalinin asılı qrupunda uşaq və yaşlıların sayından və nisbətindən asılı olaraq, demoqrafik yük müxtəlif cür qiymətləndirilir. Əgər asılılar qrupunda uşaqların sayı yaşlılardan əhəmiyyətli dərəcədə çoxdursa, bu, proqressiv demoqrafik struktur kimi qiymətləndirilir. Asılı qrupda yaşlıların sayı çox olduqda isə bu, reqressiv demoqrafik struktur adlanır. [4, s 88]
Azərbaycan Respublikasında demoqrafik yük yüksək deyil və əhalinin demoqrafik strukturu proqressiv tip kimi səciyyələndirilir. Azərbaycanda hər 100 əməkqabiliyyətli şəxsin payına 38 asılı yaşda olan düşür. Nəzərə alsaq ki, onlardan 30-u 0-14 yaş qrupundan olan insanlardır, aydın olacaqdır ki, ölkədə demoqrafik vəziyyət proqressivdir. [4, s 137]
Ölkəmizdə əhalinin demoqrafik strukturu inklüziv inkişafın davamlılığı baxımından əlverişli kimi qiymətləndirilir. Bu xüsusiyyət həm də ölkənin inklüziv inkişaf əmsalına müsbət təsir göstərir.

Müasir dövrdə dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Qeyri-sabit hava şəraiti dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir.



Qlobal iqlim dəyişmələrinin başvermə səbəbləri kimi müxtəlif hadisələr göstərilir. Lakin aydındır ki, bu proseslərin baş verməsində insan fəaliyyətinin xüsusi rolu var. İnsanın təsərrüfat fəaliyyəti qlobal iqlim dəyişmələrinə müxtəlif yolla təsir edə bilir. Məsələn, meşələrin qırılması  və bunun nəticəsi kimi meşəsizləşmə prosesi, sənaye, nəqliyyat, kənd təsərrüfatında fəaliyyət nəticəsində atmosferə istixana qazlarının toplanması, ozon qatının dağılması və s. qlobal iqlim dəyişmələrinə təsir göstərən amillər kimi qəbul edilir. [4, s 90]

Qeyd olunduğu kimi, qlobal iqlim dəyişmələri atmosferə atılan istixana qazları ilə də əlaqədardır. Bu səbəbdən karbon qazının atmosferə atılması,tullanan qazın miqdarı davamlı inklüziv inkişafın təmin edilməsinin vacib şərtidir. Bu təsirin qiymətləndirilməsi iki üsulla həyata keçirilir. Bu üsulların biri il ərzində ölkədə adambaşına atmosferə atılan karbon qazının ($CO_2$ ) miqdarıdır və tonla ifadə olunur. İkinci üsulun tətbiqi zamanı 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan $CO_2$ miqdarı götürülür. Bu halda atmosferə atılan karbon qazının miqdarı kiloqram və ya qramla, ABŞ dollar ilə alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla göstərilir. [4, s 164]
İqlim dəyişmələrinə təsirlərin dəyərləndirilməsi prosesində ikinci üsuldan daha çox istifadə olunmaqdadır.



***Şəkil 3.** Xəzəryanı ölkələrdə atmosferə atılan istixana qazları: 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı, kq-la, AQP nəzərə alınmaqla*

*Məlumat mənbəyi: Dünya bankı, 2018 [4, s 165]*

Şəkil 3-dən aydın görünür ki, Azərbaycan Respublikası inklüziv inkişafın bu göstəricisinə görə, Xəzəryanı ölkələr arasında lider sırasındadır.

Qeyd etmək lazımdır ki, bizim ölkə son on beş ildə 1 ABŞ dolları dəyərində ÜDM istehsal edərkən, atmosferə istixana qazlarının atılmasını 5 dəfə azaltmışdır.

Azərbaycan atmosferin çirklənməsi ilə mübarizə tədbirləri çərçivəsində ölkəmiz Paris İqlim Sazışinin tələblərinə uyğun olaraq, 2030-cu ilə qədər istixana qazlarının emissiyalarının səviyyəsinin 35 faiz azaldılmasını hədəf kimi götürüb. Bu hədəfə nail olmaq üçün ekoloji cəhətdən təmiz nəqliyyat növlərinin istifadəsi, yaşıllıq sahələrinin artırılması vacibdir. Həmin istiqamətlərdə ölkəmizdə bir çox addımlar atılmışdır.

Görülən tədbirlər arasında bir təşəbbüsü xüsusi fərqləndirmək lazımdır. 2019-cu ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkənin bütün ərazisində bir gündə 650 min ağac əkilməsi təşəbbüsü ölkəmizdə ətraf mühitin sağlamlaşdırılmasına verilən ən böyük töhfələrdən biri olmuşdur. Yaşıllıqların salınması atmosfer havasının çirklənməsi ilə mübarizədə xüsusi rola malik olduğunu nəzərə alsaq, bir gündə 650 min ağac əkmək təşəbbüsünün təkcə Azərbaycan üçün deyil, planetimiz üçün nə qədər əhəmiyyətli olduğunu təxmin edə bilərik. [10]

Verilmiş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikası inklüziv inkişaf sahəsində yüksək nəticələr əldə etmişdir. Bu



nailiyyətin əsasında məqsədyönlü siyasət durur.Siyasət ona yönəldilib ki, inklüziv inkişafın bütün indikatorlarının təkmilləşdirilməsinə nail olunsun.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədəki nitqi. Bakı şəhəri, 12 aprel 2022-ci il
2. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
   Bakı şəhəri 2 fevral 2021-ci il
3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirliyinin rəsmi saytında dərc olunmuş qlobal iqlim dəyişikliyi ilə bağlı məlumatı.
4. Ələkbərov U.K. “İnklüziv İnkişafın İdarə Edilməsinin Əsasları”. Bakı şəhəri, 2018-ci il.
5. Ələkbərov U.K. “Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları”. Bakı şəhəri, 2017-ci il.
6. Ələkbərov U.K. “Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi”, 2018-ci il.
7. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 1(61) 2018, səhifə 133-143
8. https://president.az/az/articles/view/50474
9. http://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri
10. https://special.azertag.az/az/xeber/1365722
11. https://mehriban-aliyeva.az/news/node/848201
12. https://marja.az/83907/azerbaycanin-dovlet-borcu-aciqlandi

13. https://azertag.az/xeber/Azerbaycanin_Inkluziv_Inkisaf_Indeksi_2018_hesabatinda_irelilemesi_ugurlu_islahatlarin_neticesidir-1130930

## İNKLUZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRLƏ İŞİN APARILMASI

**Quluyeva Gülnar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**

Tezis inklüziv təhsil, qabiliyyətlərindən, əlilliyindən və ya fərqliliyindən asılı olmayaraq bütün tələbələr üçün keyfiyyətli təhsil təmin etməyi araşdırmaq məqsədi daşıyır. Əsas aspektlərə birgə planlaşdırma, peşəkar inkişaf, aydın ünsiyyət, fərdi dəstək və valideynlərin iştirakı daxildir. Birgə planlaşdırma inklüziv dərs planlarının və fəaliyyətlərinin hazırlanmasını nəzərdə tutur, peşəkar inkişaf isə davamlı öyrənmə və inklüziv təcrübələrdən xəbərdar olmağı təşviq edir. Aydın ünsiyyət hər kəsin eyni səhifədə olmasını təmin edir və fərdi dəstək əlilliyi olan tələbələr üçün planlar hazırlamaq və həyata keçirmək üçün xüsusi təhsil mütəxəssisləri ilə işləməyi nəzərdə tutur. Valideynlərin iştirakı çox vacibdir və məktəblər və icmalar daxilində inklüziv təcrübələrin təbliği vacibdir. Mədəni səriştə və öyrənmə üçün universal dizayn inklüziv mühiti təşviq edir. Davamlı təkmilləşdirmə üçün inklüziv təcrübələrin müntəzəm qiymətləndirilməsi və qiymətləndirilməsi zəruridir. İcma resursları ilə əməkdaşlıq müxtəlif ehtiyacları olan tələbələr üçün dəstək şəbəkəsini artırır.

***Açar sözlər***: *inkluziv, təhsil, məşğulluq, iştirak, təcrübə, peşəkar.*



İnklüziv təhsillə məşğul olan insanlarla işləmək pedaqoqlar, idarəçilər, yardımçı heyət, valideynlər və icma üzvləri də daxil olmaqla müxtəlif peşəkarlar qrupu ilə əməkdaşlığı nəzərdə tutulur. İnklüziv təhsil, qabiliyyətlərindən, əlilliyindən və ya fərqliliyindən asılı olmayaraq bütün tələbələr üçün keyfiyyətli təhsil təmin etmək məqsədi daşıyır. İnklüziv təhsillə məşğul olan şəxslərlə işləyərkən nəzərə alınmalı olan bəzi əsas aspektlər bmövcuddur. Bu aspetlər birgə planlaşdırma, peşəkar inkişaf, aydın ünsiyyət, fərdi dəstək, valideynlərin iştirakı və s. kimini misal göstərmək olar.

Birgə planlaşdırma zamanı inklüziv dərs planları və fəaliyyətləri hazırlamaq üçün müəllimlər və dəstək işçiləri ilə birgə planlaşdırma sessiyalarında iştirak etməkdən ibarətdir. Bu da hər kəsin təcrübəsinin qiymətləndirildiyi və töhfələrinin qəbul edildiyi komanda yanaşmasını inkişaf etdirir.

Peşəkar İnkişaf pedaqoqlar və işçi heyətin inklüziv təcrübə-lər haqqında biliklərini artırmaq üçün davamlı peşəkar inkişaf imkanlarında iştirak edir və onları təşviq edir. İnklüziv təhsillə bağlı ən son araşdırmalar, strategiyalar və texnologiyalar haqqında məlumatlı olmaqları da mütləqdir.

Qeyd olunduğu kimi aspektlərdən biri də aydın ünsiyyət müəllimlər, valideynlər, idarəçilər və yardımçı heyət daxil olmaqla, bütün maraqlı tərəflərlə açıq ünsiyyət xətləri yaratmaq-dan ibarətdir. hər kəsin eyni səhifədə olmasını təmin etmək üçün gözləntiləri, məqsədləri və planları açıq şəkildə bildiriləsi də bura daxıldir.

Fərdi dəstək əlilliyi olan tələbələr üçün fərdi təhsil planlarını hazırlamaq və həyata keçirmək üçün xüsusi təhsil mütəxəssisləri ilə sıx əməkdaşlıq edilməsi və fərqli təlimat və yerləşdirmə strategiyalarını dəstəkləmək üçün təlim və resurslar təmin edilməsi kimi proseslər aparılmalıdı.

Valideynlərin təhsil prosesinə cəlb edilməsini təşviq etmək və asanlaşdırmaq inkluziv təhsilə aspektlərinə daxil olan əsas məsələlərdən biridi. Valideynlər üçün pedaqoqlarla əməkdaşlıq etmək və övladlarının güclü tərəfləri, ehtiyacları və üstünlükləri haqqında fikirləri bölüşmək üçün imkanlar yaradılması da vacib-dir.

Məktəb və icma daxilində inklüziv təcrübələri müdafiə edilməsi, bütün tələbələr üçün inklüziv öyrənmə mühitini təşviq edən siyasətləri dəstəkləyin və təşviq edinlməsi hüquqi aspektlər vəkillik kimi məsələləri də gözdən qaşırmaq olmaz.

Mədəni səriştə müxtəlif mənşəli tələbələr üçün inklüziv və hörmətli mühit yaratmaq üçün pedaqoqlar və işçilər arasında mədəni səriştəni inkişaf etdirmək aiddir. Öyrənmə üçün universal dizayn dedikdə  müxtəlif öyrənmə üslubları və qabiliyyətlərini özündə cəmləşdirən dərsləri tərtib etmək üçün inkluziv təhsil prinsiplərindən istifadəni təşviq edir.

Monitorinq və qiymətləndirmə inklüziv təcrübələrin effektivliyini mütəmadi olaraq qiymətləndirin və lazım gəldikdə düzəlişlər edilir və bu vasitə ilə inkişaf etdirilir. İnklüziv təhsil mühitini davamlı olaraq təkmilləşdirmək üçün məlumat və rəydən istifadə edin.

İcma resursları ilə əməkdaşlığa əsasən müxtəlif ehtiyacları olan tələbələr üçün ümumi dəstək şəbəkəsini artırmaq üçün icma təşkilatları, dəstək xidmətləri və agentliklərlə tərəfdaş nəzərdə tutulur.Unutmayaq  ki, uğurlu inklüziv təhsil davamlı ünsiyyət, çeviklik və bütün tələbələrin ehtiyaclarını ödəmək öhdəliyi tələb edən birgə səydir.

Ortaq bir vizyonla birlikdə işləyərək, hamı üçün inklüziv və dəstəkləyici öyrənmə mühitinin yaradılmasına töhfə verə bilərik.



# CƏBRAYIL RAYONUNUN MADDİ MƏDƏNİYYƏT VƏ TƏBİİ-RESURS POTENSİALININ TƏHLİLİ

**Məmmədli Əli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Açar sözlər:** *Qarabağ, erməni işğalı, qayıdış, Cəbrayıl, təbii resurslar, maddi mədəniyyət.*

**Xülasə**

Məqalədə Cəbrayıl rayonunun təbii resurs potensialı öyrənilmişdir. Qeyd edilmişdir ki, rayonun ərazisi maddi və mədəni abidələrlə zəngindir. Rayon, xüsusilə sement, mərmər, mişar daşı və digər qiymətli tikinti materialların məskəni kimi tanınmışdır. Dəmir filizi, hətta neft yataqlarının olduğu da məlumdur.

Cəbrayıl rayonu 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal edilmişdir. Bu işğal nəticəsində rayonun bütün tarixi mədə-niyyət abidələri, məscidlər, infrastruktur, təbii resursları məhv edilmiş və ya talan edilmişdir.

Rayonun ərazisi 105 min hektardır. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi.Ermənilər Cəbrayıl  rayonun mühüm əhəmiyyətə malik tarixi memarlıq abidələrini, yeraltı sərvətlərini, zəngin su mənbələrini dağıdaraq məhv edib, meşələri yandırıb, bu yurdun rəmzinə çevrilən Xan çinarları kəsiblər.

2020-ci ildə baş vermiş Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş rayonun təbii resurs potensialından səmərəli istifadə edilməsi üçün geniş imkanlar açılmışdır.

Cəbrayıl rayonu Azərbaycan Respublikasının cənubunda Kiçik Qafqaz dağlarının qoynunda yerləşir. Cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Cəbrayıl rayonu ilə Bakı arasında olan məsafə 338 kilometrdir.

Cəbrayıl 08. 08. 1930-cu ildə inzibati rayon statusu almışdır. Ərazisi 1. 05 min km2, əhalisi 74,5 min (01. 04. 2013) nəfərdir. Rayon 1 şəhər (Cəbrayıl), 4 qəsəbə (Xələfli, Xudafərin, Qumlaq, Mahmudlu) və 92 kənddən ibarət idi.

Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülmüşdür. Cəbrayıl kəndinin əsasını qoy-muş Cəbrayıl ata VIII əsrdə yaşamış Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından biri olmuş və Ziyarət dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus olub.

Cəbrayıl rayonunun ərazisi sement, mərmər, mişar daşı və digər qiymətli tikinti materialları ilə zəngindir. Dəmir filizi, hətta neft yataqlarının olduğu da məlumdur. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olurdu. Elmin, mədəniyyətin, maarifin inkişafı yüksək səviyyəyə çatmışdı. Rayonda 510 çarpayılıq xəstəxanalarda 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi çalışırdı. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, Kökəltmə birliyi, Quşçuluq fabriki fəaliyyət göstərirdi.

Azərbaycanda eramızın I əsrindən yaradılmış kəhriz şəbəkəsindən Cəbrayılda daha geniş şəkildə istifadə olunurdu. Respublikamızda olan 813 kəhrizin 118-i Cəbrayılın payına düşür. O cümlədən rayonda 360-dan çox dişgöynədən, təbii minerallarla zəngin



bulaqlar vardır. Rayon ərazisindəki iki böyük suvarma kanalı – “Teymur Quliyev” və “Maralyan” kanalları kənd təsərrüfatının intensiv inkişafını təmin edirdi. Rayonda 4039 hektar meşə zolağı, 58585 hektar əkin sahəsi, 1079 hektar bağ sahəsi var idi.

Cəbrayılda xalçaçılıq (ayrıca Cəbrayıl xalça məktəbi var), xüsusi "Qasımuşağı", "Kürd", "Qaraqoyunlu", "Bəhmənli" adlı xovlu, zili, çuval, çul, məfrəc, heybə, xurcun, vərni, asmalıq, palaz, kilim, cecim kimi xovsuz xalçaları ilə məşhur olmuşdur.

Cəbrayıl rayonunun ərazisi maddi və mədəni abidələrlə zəngindir. Bunlardan Dağ-Tumas kəndi yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Tatar kəndi yaxınlığındakı Qızılqaya dağındakı Sigeon tikintisi, ģıxlar kəndi yaxınlığında "ġəhərcik qalıqlar", "Qışlaq yerləri", Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri kimi arxeoloji, Doğtumas kəndindəki "Başıkəsik Gümbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüləri, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki "Sultan Məcid hamamı", şıxlar kəndindəki "Dairəvi Türbə", Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələr və məqbərələr, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri nəsildən-nəsilə ötürülmüş canlı tarixdir. Rayonun ərazisində çoxlu yazılı abidələr vardır ki, bunlardan da Ağoğlandakı Orxan yazılı abidəsi xüsusilə qiymətlidir.

Cəbrayil rayonu 1993-cü il avqust ayının 23-də əzəli və əbədi düşmənlərimizin tapdağı altına keçdi. 1050 kv km-i əhatə edən 52000 nəfər əhalisi olan rayon ərazisi və bu ərazilərdə birlikdə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd büsbütün ermənilərin işğalına məruz qaldı, vəhşicəsinə dağıdıldı. Qarabağ müharibəsində 362 nəfər şəhid olmuş, 191 nəfər əlil

olmuşdu. 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Bundan başqa vaxtilə Cəbrayıldan 7 nəfər Sosialist Əməyi Qəhrəmanı, 1 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Cəbrayıl rayonu 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal edilmişdir. Bu işğal nəticəsində rayonun bütün tarixi mədəniyyət abidələri, məscidlər, infrastruktur, təbii resursları məhv edilmiş və ya talan edilmişdir.

Rayonun ərazisi 105 min hektardır. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq-ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir. Cəbrayılın Ermənistan silahlı qüvvələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı 27 il ərzində işğal altında qalıb. Birinci Qarabağ müharibəsinin nəticəsi olaraq Cəbrayıl üzrə 351 nəfər şəhid ailəsi olmuşdur. 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik Cəbrayıl rayonunda mişardaşı istehsalına yararlı və istismara cəlb edilmiş ehtiyatları – Tulus tuf, Çaxmaqçay, Soltanlı tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, Minbaşlı gəc, Ağtəpə əhəngdaşı, Cəfərabad qum-çınqıl qarışığı, Sahverdi yəşəm və Çaxmaqqaya xalsedon yataqları var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi 23 avqust 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuş Cəbrayıl rayonunun təbii sərvətləri ilə bağlı məlumat yayıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, zəngin



yeraltı sərvətlərə və əsrarəngiz təbii gözəlliyə malik, sahəsi 104 min 980 hektar olan Cəbrayıl rayonu 1930-cu ildə yaradılıb.

Cəbrayıl rayonunda mişar daşı istehsalına yararlı və istismara cəlb edilmiş ehtiyatları 2937 min m3 olan Tulus tuf; ümumi ehtiyatları 5434 min m3 olan Çaxmaqçay, Soltanlı tikinti qumu; ehtiyatları 296 min m3 olan kərpic istehsalına yararlı Qaracallı gil; ehtiyatları 6644 min ton olan sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, ehtiyatları 1325 min ton olan Minbaşlı gəc, ehtiyatları 5226 min ton olan əhəng istehsalına yararlı Ağtəpə əhəngdaşı, ehtiyatları 4130 min m3 olan Cəfərabad qum-çınqıl qarışığı, ehtiyatları 504 ton olan Sahverdi yəşəm və ehtiyatları 1348 ton olan Çaxmaqqaya xalsedon yataqları var.

Rayonda yaşı 200-1600 illər arasında olan 14 ədəd iri diametrli şərq çinarı və digər qiymətli ağaclar, o cümlədən Dağtumas kəndində "Divlər sarayı" adlanan mağara təbiət abidəsi kimi qorunub. Cəbrayıl rayonunda qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, özünün qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus əsrarəngiz təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılıb və məhv edilib. 2006-2007-ci illər ərzində ermənilər tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilib.

Ümumilikdə 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 1,7 milyon hektar ərazisi işğal olunub. Ermənistanın həyata keçirdiyi işğalçı siyasəti Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə, bütövlükdə regionun ekoloji durumuna ciddi ziyan vurur, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarır. 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını işğal ediblər. Hər iki rayonun işğalı Azərbaycan iqtisadiyyatına 9 milyard dollara yaxın ziyan vurub. İşğal nəticəsində insanlar öz ata-baba yurdlarından

didərgin düşüblər, onların şəxsi mülkləri talan olunub, Azərbaycanın tarixi memarlıq abidələri məhv edilib.

Füzuli rayonu ərazisində yerləşən, qədim dövrün mədəni abidələri kimi UNESCO-nun dünya irsi siyahısına düşən Azıx və Tağlar mağaraları ermənilər tərəfindən dağıdılıb. Azıxda aşkar olunan maddi-mədəniyyət nümunələri 1981-ci ildə Parisin İnsan Muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilib.

Düşmən tərəfindən Füzuli rayonundakı uzunömürlü təbiət abidələri - Şərq çinarları da tamamilə məhv edilib, Ərgünəş meşəsində 500 hektar ərazi yandırılıb Füzuli aqrar rayonu olduğundan işğalnəticəsində dəyən ziyan milyardlarla manat ölçülür.

Cəbrayılda da üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq inkişaf etmiş sahələr olduğuna görə dəyən ziyanın həcmi böyükdür. Bu rayonda 14 mindən çox daşınmaz əmlak, 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altına düşmüşdür. Ermənilər Cəbrayıl rayonunun da mühüm əhəmiyyətə malik tarixi memarlıq abidələrini, yeraltı sərvətlərini, zəngin su mənbələrini dağıdaraq məhv edib,meşələri yandırıb, bu yurdun rəmzinə
çevrilən Xan çinarları kəsiblər. Hər iki rayon ağır döyüşlərdə minlərlə şəhid verib. Füzuli rayonundan 8, Cəbrayıl rayonundan isə 6 nəfər erməni işğalçılarına qarşı döyüşlərdə göstərdikləri igidliyə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Hazırda Füzuli və Cəbrayıldan olan məcburi köçkün soydaşlarımız Azərbaycanın 50-dən çox şəhər və rayonunda məskunlaşıblar. Onlar dövlətin tam qayğısı ilə əhatə olunublar.
Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər,özünün qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus əsrarəngiz



təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılıb və məhv edilib.

Karxulu kəndindəki yaşıllıqlardan əsər-əlamət qalmayıb, yol kənarlarında olan qoz və digər qiymətli ağaclar, eləcə də Cəbrayıl şəhərindəki 800 il yaşı olan və təbiət abidəsi kimi qorunan və "Xan çinarı" adlandırılan şərq çinarı ağacı kəsilərək məhv edilib.
Araz çayı vadisindəki bütün ağaclar yandırılıb. Həmçinin çoxyaşlı iridiametrli qoz ağacları material kimi doğranaraq müxtəlif məqsədlər üçün Ermənistana daşınmış və xaricə satılmışdır.
1993-cü ildə Cəbrayıl rayonunun demək olar ki, bütün ərazisi Ermənistan tərəfindən işğal edilmişdi.

1994-cü il yanvarın 5-də rayonun 1993-cü ilin oktyabr ayında işğal edilmiş Cocuq Mərcanlı kəndi Horadiz əməliyyatı zamanı azad edilib. Amma bununla belə, kəndin ətrafındakı əsas yüksəkliklər Ermənistan silahlı qüvvələrinin nəzarətində qaldığı üçün təhlükəsizlik nöqteyi-nəzərdən əhalini geri qaytarmaq mümkün olmayıb. Ordumuzun şanlı qələbəsi Aprel zəfərində Lələtəpə yüksəkliyi başda olmaqla, erməni ordusu həmin ərazilərdən tam qovulub və Cocuq Mərcanlı kəndi, bütünlüklə, Silahlı Qüvvələrimizin nəzarətindədir. Ölkə Prezidentinin sərəncamları ilə Cocuq Mərcanlıda birinci mərhələdə 50 evin, məktəb binasının, məscidin, elektrik yarımstansiyasının tikintisi həyata keçirilib, qaz, elektrik, rabitə, içməli su xətləri, uzunluğu 9 kilometr olan avtomobil yolu çəkilib. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 ev, uşaq bağçası, tibb məntəqəsi, poçt, klub-icma mərkəzi üçün binalar və digər zəruri infrastruktur obyektləri, “Qayıdış” parkı inşa edilib. Dövlətimizin diqqət və qayğısı sayəsində Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Sakinlər məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərində, abad ev-eşiklərində yeni həyata başlayıblar. Bu gün onların da sevincinin həddi-hüdudu yoxdur. Görürlər ki, bu günə

kimi torpaq uğrunda fəda olunan canlar hədər getməyib. Bütün bunlar – ordumuzun addım-addım qarış-qarış irəliləməsi bu gün təkcə cəbrayıllıların deyil, Azərbaycanın müxtəlif rayonlarında məskunlaşan məcburi köçkünlərin öz ata-baba ocaqlarına, şəhidlərin narahat ruhları dolaşan o müqəddəs yerlərə qayıdacaqları günün çatdığından xəbər verirdi.

Bu, belə də oldu. 20020-ci ilin 27 sentyabrında Ermənistanın təxribatlarına cavab olaraq, başlanan əks-hücum əməmiyyatları zamanı ilk işğaldan azad olunan məhz Cəbrayıl şəhəri oldu. Belə ki, Ali Baş Komandan xalqımızı Cəbrayıl şəhərinin və rayonun kəndlərinin düşməndən azad edildiyi xəbəri ilə müjdələdi.

Qeyd edək ki, Qarabağın işğalından keçən illərdən sonra ilk dəfə 2016-cı ildə bir yaz səhərində ilk qələbə xəbəri almışdıq. Cocuq Mərcanlı, Lələtəpə azadlığın ilk addımı idi. Cəbrayıl isə işğaldan azad edilən ilk şəhər oldu. Zəfər şəhəri adını aldı. Azərbaycan əsgəri üçrəngli ay-ulduzlu bayrağımızı dalğalandırdı ən yüksək zirvədə. Qarabağın açarı sayılan Cəbrayıl igid əsgərlərimizin şücaəti ilə rahat nəfəs almağa başladı. Onun sakinlərinin adının yanına yazılan məcburi köçkün sözləri tarixə qovuşdu. Tarixi ədalət bərpa olundu .

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa müraciəti xalqımızın və ordumuzun qətiyyətini, iradəsini bir daha dünyaya göstərdi: “Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun



illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!” Müraciətdə o da deyilir: “Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır”.

Beləliklə də, 27 il davam edən erməni işğalına son qoyuldu. Bu isə digər ərazilərimizin olduğu kimi, Cəbrayılın da təbii resurs potensialından ölkəmizin mənafeyinə uyğun şəkildə istifadə imkanları yaratmış oldu. Həmçinin rayon ərazisində olan tarixi-mədəniyyət abidələrinin yenidən bərpa edilərək gələcək nəsillərə ötürülməsi üçün də fürsət verdi.

## Ədəbiyyat


1.virtualkarabakh.az/az/posttem/27/109/cebrayil.htm

2.azertag.az/xeber/CABRAYIL_RAYONUNUN_TABII_SARVATLARI_ERMANISGALCHILARI_TARAFINDAN_DAGIDILIR-490547

3.http://www.anl.az/down/meqale/palitra/2017/avqust/554490.htm

4.http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/27292-zhaelaebae-sorazhl-shaehaer-dzadsebray-l.html

5.https://president.az/articles/41713

6.www.cabrail-ih.gov.az/page/11.html

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TURİZMİ

**Məmmədli Zahid**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
zahidmammadli@gmail.com

**Xülasə**

Ümummilli lider Heydər Əliyevin həm, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdə, həm də müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə ölkəmizin zəngin turizm potensialından istifadə edilərək bu sahənin inkişafı üçün bir sıra strateji addımlar atılmış və turizm sahəsində çeşitli layihələr həyata keçirilmişdir. Bu layihələr arasında turizm infrastrukturunun inkişafı, turizm sahəsində sahibkarlıq subyektlərinin dəstəklənməsi, beynəlxalq turistlərin ölkəyə cəlb edilməsi üçün tədbirlər kimi öndə gəlmişdir.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, turizm, dövlət dəstəyi, işğaldan azad olunmuş ərazilərə qayıdış.*

Ümummilli lider, Ulu öndər Heydər Əliyevin həm Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrlərdə, həm də 1993-cü ildə Azərbaycanı məhv olma təhlükəsindən, vətəndaş müharibəsinin caynağından qurtararaq, xalqın yekdilliklə istəyi ilə müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə, görkəmli dövlət xadimi və mahir siyasətçi kimi Azərbaycanın iqtisadiyyatını möhkəmlədib, onun şöhrətini artırıb, nüfuzunu genişləndirib, milli mənafeyini, mədəniyyət və mənəviyyatını qoruyub və inkişaf etdirmişdir.



Ölkə iqtisadiyyatın davamlılığında xüsusi çəkisi olan turizm sahəsinin inkişafı üçün tədbirlər Ulu öndərin nəzərində daima olmuşdur. Azərbaycanda turizmin inkişafı, turizm və turistik marşurutların coğrafiyasının genişlənməsi məhz Ulu öndərin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu illərə - 1970-1980-ci illərə təsadüf edir. Bu, ümummilli lider Heydər Əliyevin həmin sahəyə bilavasitə diqqətinin və qayğısının nəticəsində mümkün olmuşdur. Turizm işinin təşkili üçün Azərbaycan əlverişli coğrafi şəraiti, tarixi-memarlıq və mədəniyyət abidələri, qonaqpərvərliyi, milli adət və ənənələri, zəngin, ləziz mətbəxi və digər amilləri seçilməsinə baxmayaraq, 1950-1960-cı illərdə SSRİ məkanında turizm infrastrukturunun ən zəif inkişaf etdiyi bölgələrdən biri idi. İkinci Dünya müharibəsi illərində və müharibədən sonrakı onilliklərdə sovetlər birliyini neft və neft məhsulları ilə təmin edən respublika kimi tanınan Azərbaycan haqqında SSRİ-nin televiziya və mətbuatında hazırlanan verilişlərdə və yazılarda əsas etibarilə neft sənayesindən danışılır, ictimaiyyətdə Bakı şəhərinin neft qoxulu, cansıxıcı, maraqsız bir məkan olduğu haqqında rəy formalaşmışdı. Azərbaycanın turizm bölgələri haqqında isə məlumatlar yox dərəcəsində idi. Həmin dövrlərdə məzuniyyət və istirahətlərini Qafqazda keçirmək istəyən xarici turistlər və SSRİ-nin müxtəlif regionlarından, iri sənaye şəhərlərindən olan insanlar əsasən, Gürcüstana, Qara dəniz sahilində yerləşən kurort şəhərlərinə və Şimali Qafqaz kurortlarına üstünlük verirdilər.

1969-cu ildə Azərbaycan KP MK, Azərbaycan Respublikası Nazirlər Soveti və Azərbaycan Həmkarlar İttifaqları Şurası "Ölkədə turizmin və ekskursiyaların inkişafı tədbirləri haqqında" qərar qəbul

etdi. Respublikamızda turizmin inkişafına təkan verən bir qərarın qəbul olunmasının və həyata keçirilməsinin əsas təşəbbüskarı isə həmin il Azərbaycan KP MK-nın birinci katibi seçilmiş Heydər Əliyev idi. Bu qərarda respublikada turizm və ekskursiya işinin inkişafı, kütləvi turizmin təşkili, turist-ekskursiya təşkilatlarının işinin yaxşılaşdırılması və şəbəkəsinin genişlən-dirilməsi, turist-ekskursiya işinin zəhmətkeşlərə iri xidmət sahəsinə çevrilməsi yönümündə tədbirlər görülməsi haqqında əlaqədar nazirliklərə, komitələrə və təşkilatlara göstərişlər verildi. Həmin qərarda 1971-1975-ci illərdə bir sıra turist bazalarının, mehmanxanaların, kempinqlərin, turist-sağlamlıq çadır düşərgələrinin yaradılması nəzərdə tutulurdu. Qərarın yerinə yetirilməsi istiqamətində respublikamızda yeni turist bazalarının və mehmanxanaların tikintisinə başlanıldı. Bu turizm infrastruk-turlarına misal olaraq 1970-ci ildə Zaqatalada və Şuşada hərəsi 100 yerlik olan turist bazaları, 1973-cü ildə Bakıda 1040 yerlik "Azərbaycan" mehmanxanası, 1975-ci ildə Qəbələdə 342 yerlik "Qafqaz" turist bazası, Nabranda 400 yerlik "Dostluq" turist bazası və Bakıda 342 yerlik "Qarabağ" turist mehmanxanası tikilərək istifadəyə verilməsini göstərmək olar.

Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən özünün bilavasitə təşəbbüsü və iştirakı ilə, 28 aprel 1983-cü ildə SSRİ Nazirlər Soveti 375 saylı "Azərbaycan SSR-in Xəzər dənizi sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması tədbirləri haqqında" qərar qəbul etdi. Ulu öndərimiz tərəfindən görülən bu işlərin məntiqi nəticəli olaraq ötən əsrin 80-ci illərində Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə çatmışdı. Həmin il respublikaya xarici ölkələrdən 50 min, SSRİ-nin müxtəlif bölgə-lərindən isə 250 minə yaxın turist gəlmişdir. Turist-ekskursiya bürolarının təşkil etdikləri ekskursiyalarda 2,5 milyon nəfərdən artıq adam iştirak etmişdi.



1993-cü ildə ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycan tarixində yeni mərhələ başlandı. Ölkədəki ağır siyasi vəziyyət tədricən sabitləşməyə, iqtisadi-sosial həyatın bütün sahələri, o cümlədən turizm sahəsi yüksəlişə başladı. Azərbaycanın turizm regionları hesab edilən və 1990-cı illərin əvvəllərində ən narahat bölgələr olan Qusar-Quba-Xaçmaz, Zaqatala-Qax-Şəki, Masallı-Lənkəran zonalarında ulu öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində sabitllik bərpa olundu, qonşu dövlətlərlə sərhədlərimiz möhkəmləndirildi. Həmin ərazilərdə turizm inkişaf etməyə və yeni infrastruktur yaradılmağa başlanıldı.

1995-ci ildə "Əsrin müqaviləsi" imzalandı. Həmin ərəfədə ulu öndər Heydər Əliyevin xarici və yerli iş adamlarını Azərbay-canda hotelçilik və turizm biznesinə sərmayə qoyuluşuna çağırışı tezliklə öz bəhrəsini verdi. Müasir tələblərə cavab verən hotellərin tikintisi genişlənməyə başladı.

Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. 27 iyul 1999-cu ildə ulu öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assamble-yasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv oldu. Bu isə, öz

növbəsində, respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki kömək edilməsinə imkan yaratdı.

Azərbaycanda iqtisadiyyatın ən gəlirli sahələrindən olan turizmin inkişafı son illərdə diqqət mərkəzindədir və bu sahədə böyük uğurlar əldə edilib. Turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Bu gün möhtərəm Prezidentimiz İlham Əliyev Ulu Öndərin bütün dünyaya açıq olan müdrik siyasətini, o cümlədən turizm siyasətini layiqincə davam etdirir. Turizmin inkişafı ölkə iqtisadiyyatının prioritet sahələrindən hesab edilir. Ölkə Prezidenti İlham Əliyev turizm sektorunun inkişafını qeyd edərək bildirib ki, Azərbaycanda turizm sektorunun inkişafına böyük diqqət göstərilir: "Hesab edirəm ki, növbəti illərdə turizm sektoru Azərbaycanın iqtisadi potensialında mühüm yer tutacaq. İnkişaf etmiş, xüsusən də zəngin təbiətə malik olan ölkələrin iqtisadiyyatında turizm mühüm yer tutur. Azərbaycan zəngin ölkədir, turizmin inkişafı üçün gözəl yerlər vardır və biz bu imkanlardan istifadə etməliyik". Azərbaycanda turizmin inkişafı üçün siyasi birlik, iqtisadi, psixoloji,mədəni,tarixi,təbii-coğrafi potensialı vardır.

44 günlük Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərin bərpasında turizm infrastrukturunun yaradılması da ən prioritet işlərdəndir. Qədim tarixi abidələr (təəssüf ki, əksəriyyəti erməni vandalizminin qurbanı olmuşdur ancaq hər biri qısa müddətdə bərpa edilir), füsünkar təbiət bu bölgədə turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar yaradır. Azərbaycan Respublikasında turizm sahəsində dövlət siyasətini və tənzim-ləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqan olan Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazi-lərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Yüksək turizm potensialına malik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bir çox layihələrin icrasına başlanılmış və qısa müddət ərzində icra edilmişdir. Şuşada Qarabağ" və "Xarıbülbül" otellərinin istifadəyə verilməsi, Suqovuşan qəsəbə-sində istirahət parkının və müşahidə məntəqəsinin yaradılması bu istiqamətdə aparılan dövlət siyasətinin ilk pöhrələridir. "Böyük Qayı-dış" siyasətinin davamı olaraq Azərbaycan vətəndaşlarının və xari-ci turistlərin işğaldan azad edilmiş ərazilərə turist gəzintilərinin asanlaşdırılması üçün qeyd edilən ərazilərə səfər edəcək şəxslərin fərdi şəkildə "Yolumuz Qarabağa" (www.yolumuzqarabaga.az) portalı ilə qeydiyyatdan keçməsi mümkun olacaqdır.



Laçın, Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Qubadlı, Cəbrayıl, Xocalı, Xocavənd, Ağdərədə olan tarixi memarlıq abidələri də turistlərin cəlb edilməsi baxımından çox əlverişlidir. Qarabağın mövcud turizm potensialının tanıdılması üçün zəruri turizm infrastrukturunun yaradılması istiqamətində gərgin işlər davam edir.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ

**Məmmədov Azər**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*Azer.memmedov91@mail.ru*

Hər bir dövlətin müstəqilliyinin möhkəmləndirilməsi və gələcəyin təminatı intellektual gənclərin yetişdirilməsindən asılıdır. Gəncliyin sağlam ruhlu, savadlı, yüksək tərbiyəyə malik olması çox

önəmlidir. Hər bir xalqın gəncləri onun həm bu günü, həm də sabaha ümididir.

Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri vardır. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutmuşdur. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin Moskva da daxil olmaqla bir çox şəhərlərin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatə olunmuşdu. 1971-ci ildə Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratdı. Bu gün gənclərin təhsil aldıqları xüsusi təyinatlı təhsil müəsissəsinin əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyuldu. Bu tədris ocağı fəaliyyətdə olduğu müddətdə burada ordu üçün yüzlərlə, minlərlə peşəkar hərbçi kadrlar hazırlanmışdır. Sovet rejiminin hökmran olduğu bir vaxtda milli zabit kadrların hazırlanmasına yönəldilmiş təşəbbüs böyük hünər tələb edirdi. Heç kim kommunist ideologiyasının hakim olduğu bir məmləkətdə bu məsuliyyəti öhdəsinə götürməyə risk etməzdi. Bu təşəbbüs yalnız xalqının gələcəyini düşünən, xalqına, millətinə qəlbən bağlı olan, həyatını Vətəninin çiçəklənməsinə həsr edə bilən Heydər Əliyev kimi dahi şəxsiyyətlər tərəfindən edilə bilərdi.

1970-1985-ci illərdə Sovet İttifaqının tanınmış 170 ali təhsil ocağında oxuyan azərbaycanlı gənclərin sayı 3500-ə çatdırıldı. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəssis kimi ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə



yola salınırdı. Gənclər keçmiş SSRİ-nin aparıcı təhsil müəssisələrində təhsil alırdılar.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da gənclərin dövlət idarəçiliyində irəli çəkilməsi prioritet məsələ oldu. Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətimizin rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Prezident Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi. Bu məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. 1995-ci ildə isə o, Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev şəxsən iştirak etmişdir. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ümummilli Lider Heydər Əliyev 2 Fevral – Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzaladı.

Ulu Öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”.

Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın

təmin olunmasında yaxından iştirak edirlər. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasət nəticəsində Azərbaycan gəncliyi yüksək inkişaf mərhələsini yaşayır. Ulu Öndərin müəyyənləşdirdiyi gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq mahiyyət və keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir. Gənclərin ailə-məişət problemlərinin həllini daim diqqətdə saxlayan Ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət ölkə gəncləri tərəfindən yüksək dəyərləndirilir. Ölkə başçısı cənab İlham Əliyevin gənclərlə keçirdiyi görüşlərdə irəli sürülən təklif və təşəbbüslərin dəstəklənməsi, real həyatda həllini tapması gənclərə dövlət qayğısının ifadəsidir.

Sözsüz ki, aparılan bu siyasətin ən parlaq nümunəsini biz 44 günlük Vətən müharibəsində gördük. Belə ki, Ordumuzun böyük qismini təşkil edən Azərbaycan gəncləri Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və Müzəffər Azərbaycan Ordusunun əsgərlərinin, zabitlərinin, bir sözlə, bütün şəxsi heyətinin qəhrəmanlığı, şücaəti nəticəsində 44 günlük Vətən müharibəsi bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini bir daha nümayiş etdirdi. Ordunun böyük bir qismini təşkil edən gənclərimiz Ali Baş Komandanın rəhbərliyi altında sözün həqiqi mənasında möhtəşəm bir tarix yazdı.

Beləliklə, əminliklə söyləmək olar ki, Azərbaycan gəncliyi bundan sonrakı dövrdə də ölkəmizin inkişafı üçün əlindən gələni edəcək və Ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında daha sıx birləşəcəkdir.



## ƏHALİNİN HƏSSAS QRUPLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİN MEYARLARI VƏ ONLARIN TƏSNİFATI

**Məmmədov Bəxtiyar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
bextiyar@agsu-ih.gov.az

**Xülasə**

Bu tezisdə əhalinin həssas qruplarının meyarları və onların təsnifatı haqqında məlumat verilmişdir.Əsasən əhali daxilində həssas qrupların müəyyən edilməsi onların xüsusi ehtiyaclarını qarşılamaq üçün məqsədyönlü müdaxilələrin və siyasətlərin işlənib hazırlanması üçün çox vacibdir. Zəiflik müxtəlif amillərdən, o cümlədən sosial-iqtisadi statusdan, yaşdan, cinsdən, sağlamlıq vəziyyətindən, coğrafi mövqedən, etnik mənsubiyyət-dən və psixososial amillərdən yarana bilər. Ağır sosial-iqtisadi vəziyyətə aşağı gəlir, təhsil və məşğulluq imkanlarının olmaması, əsas xidmətlərə məhdud çıxış daxildir. Yaş meyarlarına uşaqlar, yeniyetmələr, yaşlılar, sağlamlıq və ya maliyyə problemləri olanlar daxildir. Gender normaları qadınlara aiddir, xüsusən də mühafizəkar İran, Əfqanıstan və bəzi ölkələrdə. Sağlamlıq vəziyyətinə xroniki xəstəlikləri, zəif immun sistemi olan insanlar, hamilə qadınlar və körpələr daxildir. Coğrafi yer ucqar və ya təcrid olunmuş ərazilərin sakinlərinə, etnik mənsubiyyətə və irqçiliyə aiddir.

Təhsil nailiyyətləri, peşə meyarları, sosial amillər, hüquqi status, ətraf mühit faktorları, psixososial amillər də vacibdir.

***Açar sözlər:*** *həssas qruplar, müxtəlif amillər, sosial-iqtisadi, spesifik ehtiyaclar, əhali.*

Əhali daxilində həssas qrupların müəyyən edilməsi, onların xüsusi ehtiyaclarını qarşılamaq üçün məqsədyönlü müdaxilələr və siyasətlər hazırlamaq üçün çox vacibdir. Həssaslıq müxtəlif amillərdən yarana bilər və həssas qrupların müəyyən edilməsi üçün meyarlar kontekstdən və məqsəddən asılı olaraq dəyişə bilər.

Əhalinin həssas qruplarının müəyyənləşdirilməsi üçün xüsusi meyarlar mövcuddur. Bu meyarlar sosial-iqtisadi vəziyyət, yaş, cins, sağlamlıq vəzıyyəti, xroniki xəstəliklikləri və əlilliyi olanlar, coğrafi yer, etnik mənsubiyyət, psixososial amillər və s.

Sosial iqtisadi vəziyyəti ağır olanlara aşağı gəlir və ya yoxsulluq, təhsil və məşğulluq imkanlarının olmaması, səhiyyə, mənzil və sanitariya kimi əsas xidmətlərə məhdud çıxış və bir çox xüsusiyyətləri daxil etmək olar. Yaş meyarlarına uşaqlar və yeniyetmələr, yaşlılar, xüsusən də sağlamlıq və ya maliyyə problemləri ilə üzləşə bilənlər daxildir. Cins meyarlarına qadınlar, xüsusən də ayrı-seçkiliklə üzləşə biləcəkləri cəmiyyətlərdə olan qadınlara aiddi. Buna daha çox mühafizəkar İran, Əfqənıstan və bir sıra ölkələrdə rast gəlinir. Bir sıra ölkələrdə ayrı-seçkilik və sosial stiqma ilə üzləşə bilən LGBTQ+ fərdlərini də cins meyarlarına daxil etmək olar.

Əhalinin həssas qruplarının müəyyənləşdirilməsində meyarlardan biri də sağlamlıq vəziyyətidir. Bura xroniki xəstəlikləri və ya əlilliyi olan şəxslər,immunitet sistemi zəif olan insanlar, hamilə qadınlar və körpələr kimi təsnifatı göstərmək olar.

Coğrafi yer meyarı uzaq və ya təcrid olunmuş ərazilərin sakinləri, təbii fəlakətlərə və ya münaqişələrə meylli ərazilərdə yaşayanlar, etnik mənsubiyyət və irqçilik kimi xüsusiyyətləri aid



etmək olar. Bu kimi hallar daha çox qonşu Türkiyədə rast gəlmək olar. Ayrı-seçkiliklə üzləşən etnik və ya irqi azlıqlar, yerli əhali, miqrant və köçkün əhali, qaçqınlar və məcburi köçkünlər, hüquqi və ya sosial problemlərlə üzləşən miqrantlar kimi hallar da coğrafi yer meyarına aiddi.

Digər bir meyar isə təhsil nailiyyətinə təhsil almaq imkanı məhdud olan şəxslər, savadlılıq səviyyəsi aşağı olanlar aiddi. Bununla bağlı olan peşə meyarına isə qeyri-rəsmi və təhlükəli işçilər, müvəqqəti işsiz və ya tam işsiz şəxslər kimi hallar aiddi. Bir biri ilə bağlı olan meyarlardan biri də sosial faktorlardı. Bunlara sosial təcrid olunan şəxslər, sui-istifadə, zorakılıq və ya istismar qurbanları aiddi.

Həssas qruplara aid olan müəyyənləşdirilmiş meyarlardan biri də hüquqi vəziyyətdir. Bunlara sənədsiz immiqrantlar və ya təhlükəli hüquqi statusu olan şəxslər, cinayət mühakiməsi sistemində iştirak edən şəxslər, ətraf mühit faktorlarına isə ekoloji cəhətdən təhlükəli ərazilərdə yaşayanlar, iqlim dəyişikliyindən və ya ətraf mühitin pozulmasından təsirlənən icmalar, təmiz suya, qidaya və kanalizasiyaya çıxışın olmaması, texnologiya və informasiyaya məhdud çıxışı olanları aid etmək olar.

Digər və əsas amillərdən biri də psixososial amillərdir. Bura əsasən psixi sağlamlıq problemləri olan şəxslər, travma və ya zorakılıqdan sağ qalanları və s. Aid etmək olar.

Ümumiyyətlə həssas qrupları müəyyən edərkən, bu meyarların kəsişməsini nəzərə almaq vacibdir, çünki fərdlər eyni vaxtda bir neçə həssas kateqoriyaya aid ola bilər. Bundan əlavə, davamlı qiymətləndirmə və meyarlarda çeviklik vacibdir, çünki zəiflik zamanla və müxtəlif vəziyyətlərə cavab olaraq dəyişə bilər.

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, cəmiyyətin həyatında vətəndaşlara bərabər imkanlar yaradılmasını nəzərdə tutan iqtisadi, sosial və hüquqi dövlət təminatı sistemi olaraq sosial cəhətdən

həssas əhali qruplarının – I və II Qarabağ müharibəsi iştirakçılarının, şəhid və qazi ailələrinin üzvlərinin maraq və mənafelərinə cavab verən, onların sosial problemlərinin aradan qaldırılması, həmçinin, ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarını yaradılmasını təmin edən rəsmi xidmətlərin sosial müdafi ə sisteminin tərkib hissəsi olaraq geniş kütlələrə tanıdılmalıdır. Hər bir vətəndaş kimi, həssas qruplara aid edilən şəxslər də öz arxalarında güclü sosial təminatlar verən dövlətin olduğunu, onun geniş imkanlarını tanımalı, onlardan yararlanmalıdır. Sosial yönümlü siyasət həyata keçirən Azərbaycan Respublikasının əsas humanist prinsiplərindən biri də budur. Son üç ildə Covid-19 koronavirus pandemiyasının yayıl-dığı, dünyada iqtisadi-sosial problemlərn, geohumanitar böhran-ların dərinləşməsinə rəğmən, respublikamızda əksər istiqamətlər üzrə inkişaf dinamikasının artmasını, eləcə də 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəff ər Ordumuzun qazandığı tarixi qələbədən sonra, ölkəmizdə bütün sosial proqramların icrası, əhalinin sosial müdafi əsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarının dövlət qayğısı ilə əhatə olunması, əmək hüquqlarının müdafiəsi, aktiv məşğulluq tədbirlərinin təşkili, pensiya və sosial-təminat, tibbi-sosial ekspertiza sistemlərinin təkmilləşdirilməsi yönündə islahat tədbirlərin uğurlarını geniş əhali qruplarına tanıtmaq vacibdir.



# AZƏRBAYCANDA GƏNCLƏRLƏ İŞİN İNSTİTUSİONAL VƏ HÜQUQİ ƏSASLARI

**Məmmədov Elmar**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**

Məqalədə Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsas istiqamətləri təhlil edilir. İlk növbədə Azərbaycan Respublikasının dövlət gənclər siyasətinin təməlinin qoyul-masında Ümummilli Lider Heydər Əliyevin xidmətləri öyrənil-mişdir. Göstərilmişdir ki, dövlət gənclər siyasətinin ilkin mərhə-ləsində qəbul edilmiş mühüm strateji qərarlar bu siyasətin sonrakı uğularında başlıca rol oynamışdır. Belə ki, 1994-cü ildə Gənclər və idman Nazirliyinin yaradılması, Gənclər forumlarının keçi-rilməsi ənənəsinin əsasının qoyulması, gənclər siyasəti haqqında qanunun qəbul edilməsi və s. addımlar gənclər siyasətinin ilkin mərhələsində vacib addımlar kimi qeyd olunmuşdur.

Azərbaycanda gənclərlə bağlı dövlət siyasətinin daha da təkmilləşdirilməsi, yeni çalarla zənginləşdirilməsi istiqamətində prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu strategiya məqalədə geniş tədqiq edilmişdir. Gənclərin yüksək keyfiyyətli təhsil almaları, onların sosial problemlərinin həlli, bədən tərbiyəsi və idmanın inkişafı sahəsində atılan addımlar və s. istiqamətdə görülən işlər məqalədə ətraflı təhlil olunmuşdur.

Nəticə hissədə bir sıra vacib qənaətlər hasil edilmişdir. Göstərilmişdir ki, ölkədə həyata keçirilən gənclər siyasəti davamlı

xarakter kəsb etməklə gənclərin cəmiyyət həyatının avanqard qüvvəsinə çevrilməsinə gətirib çıxarmışdır.

***Açar sözlər:*** *Azərbaycan gəncliyi, gənclik, gənclər siyasəti, gənclərin inkişafı, gənclərin sosial müdafiəsi, bədən tərbiyəsi və idmanın inkişafı, gənclər və dövlət idarəetməsi, könüllülük, gənclər və milli dəyərlər.*

**Giriş.** Ölkənin və cəmiyyətin gələcəyi istisnasız olaraq gənclərlə bağlıdır. Gənc nəslin problemlərinin öyrənilməsi, onun düzgün istiqamətləndirilməsi, yüksək səviyyəli sağlam və intellektual inkişafının təmin edilməsi və s. dövlətin qarşısında duran vacib məsələlərdən biridir. Bu mənada gənclərlə bağlı işin sistemli qurulması, düşünülmüş dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi olduqca əhəmiyyətlidir. Müstəqil Azərbay-canda gənclərlə iş, vahid gənclər siyasətinin hazırlanması və reallaşdırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sonrakı mərhələdə isə gənclərlə bağlı siyasət Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilmiş və şaxələndirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda gənclər ölkə həyatının bütün sahələrində aktiv iştirak edirlər. Azərbaycan dövlətinin həyata keçirdiyi gənclər siyasətinin prioritetliyi onun bu və ya digər aspektlərinin elmi cəhətdən təhlili və tədiqini zəruri edir. Bu isə problemin aktuallığını şərtləndirir.

Gənclik ən dinamik təbəqə olaraq cəmiyyət həyatının bütün sferalarında baş verən proseslərdə fəal iştirak edir. Gəncliyin hərtərəfli inkişafını təmin etmək, yeri gəldikcə, onun enerjisindən səmərəli istifadə etmək, ölkə həyatının inkişafında gəncliyin potensialını düzgün dəyərləndirmək dövlətin qarşısında dayanan başlıca vəzifələrdəndir. Bu mənada hər bir normal inkişaf edən cəmiyyətlərdə gənclərlə əlaqədar vahid dövlət siyasəti həyata keçirilir.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün digər sahələrində



olduğu kimi, gənclər siyasəti sahəsində də həyati əhəmiyyət kəsb edən qərarlar qəbul edilmişdir. Ümummilli Lider tərəfindən təməli qoyulan gənclər siyasətinin ilkin mərhələsində həm normativ-hüquqi bazanın yaradılması, həm də institusional tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Ümummilli liderin gənclər siyasətində ilk mühüm addım kimi, 26 iyul 1994-cü il tarixli fərmanı ilə Azərbaycan Res-publikasının Gənclər, İdman və Turizm Nazirliyini təsis edilməsini göstərmək olar. Bunun ardınca, 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumdakı çıxışında ümummilli lider gənclərin müstəqil Azərbaycan dövləti qarşısın-dakı vəzifələrini bu cür ifadə etmişdir: "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır"[7].

Forumun keçirildiyi 2 fevral tarixi Ümummilli liderin 1 fevral 1997-ci il sərəncamı ilə Azərbaycan Gənclər Günü elan edilmişdir. Ölkədə aparılan gənclər siyasətinin əsas fundamental istiqamətləri isə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmış oldu:

1. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
2. İstedadlı gənclərə dövlət qayğısı;
3. Gənclərin sağlamlığının qorunması və fizik inkişafı;
4. Gənclərin məşğulluğunun təmin edilməsi;
5. Gənc ailələrə dövlət yardımı;
6. Gənclər təşkilatlarına dövlət yardımı.

Qanunda göstərilir ki, gənclər siyasəti – gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən müvafiq ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş

tədbirlər sistemidir. Gənclər siyasətinin əsas məqsədi yaşı 29-dək olan insanların fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına kömək etməkdir [1].

Dövlətin gənclər siyasətinin çox geniş bir spektri – gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, şəxsi problemlərinin həlli, hüquqlarının müdafiəsi, ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakı, gənclər təşkilatlarının fəaliyyəti, beynəlxalq əlaqələri və s. ilə bağlı məsələləri əhatə edir [8].

Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən islahatlar, qəbul edilmiş qanun və dövlət proqramları ölkənin sosial-iqtisadi inkişafını təmin etməklə bərabər, gənclərin inkişafı üçün də münbit zəmin yaratmışdır. Həmçinin görülmüş tədbirlər nəticəsində gənclər cəmiyyət həyatında aktiv iştirak hüquqları əldə etmiş oldular. Gəncliyin sosial-iqtisadi inkişafına isə qəbul edilmiş dövlət proqramları əhəmiyyətli təsir göstərmiş oldu.

Hazırkı dövrdə Azərbaycanda gəncliyin uğurları, gəncliyin hazırkı hərtərəfli inkişafı məhz prezident İlham Əliyevin həyata keçiridiyi uğurlu gənclər siyasəti ilə bağlıdır. İlham Əliyev prezidentliyinin ilk dövrlərindən ölkə gəncliyinin inkişafı, onların problemlərinin həll olunması, cəmiyyət və ölkə həyatında layiqli yerinin təmin edilməsi istiqamətində davamlı siyasət həyata keçirmişdir. Prezident İlham Əliyevin uğurlu gənclər siyasətində onun tərəfindən təsdiq edilmiş 2005-2009; 2011-2015 və 2017-2021-ci illər illər üçün “Azərbaycan gəncliyi” Dövlət Proqramları xüsusi qeyd edilməlidir.

19 dekabr 2011-ci il tarixli 542 nömrəli Prezident fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu isə gənclər siyasətində yeni mərhələ hesab oluna bilər. Çünki Gənclər Fondu tərəfindən ayrılan vəsaitlərlə ölkə gəncliyinin həyata



keçirməyə çalışdıqları yenilikçi ideyaların yer aldığı layihələr dövlət tərəfindən maliyyələşdirilməyə başlanmışdır.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin mühüm aspektlərindən biri də gənclərə müxtəlif sahələrdə etimad göstərilməsi, məsul vəzifələrə, idarəetmə işlərinə cəlb edilməsi, onların bacarıq və potensiallarından, enerjilərindən cəmiyyətin, ölkənin inkişafı naminə faydalanmaq, həmçinin ictimai-siyasi proseslərdə gəncliyin fəal iştirakına nail olunmaqdan ibarətdir.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Dövlət gənclər siyasətində istedadlı gənclərin müəyyən edilməsi, dəstəklənməsi və inkişafına böyük diqqət ayrılır. Təhsilli, yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda dövlətin oynadığı rol bu gün daha aktualdır. Gənclərin intellektual inkişafının dəstəklənməsi istiqamətinə xüsusi diqqət ayrılmışdır. Azərbaycan gənclərinin beynəlxalq səviyyədə tanıdılması və onların inkişafının stimullaşdırılması məqsədilə istedadlı tələbə, gənc alim, yaradıcı gənclərin beynəlxalq mübadiləsi dəstəklənmiş, xaricdə keçirilən yarış, müsabiqə layihə təqdimatında iştirakı təmin edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə imzaladığı Azərbaycan Gəncliyi Dövlət Proqramlarının təsdiq edilməsi haqqında sərəncamları da gənclərə dövlət qayğısının artırılmasına xidmət edir. Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Proqrama uyğun olaraq, gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim- tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin

gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində çoxsaylı tədbirlər həyata keçirilməkdədir [6, 236].

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsep-siyasında ölkədə gəncliyin inkişafı ilə bağlı konkret məqsədlər müəyyənləşdirilmiş və onlar hal-hazırda həyata keçirilməkdədir. Konsepsiyada göstərilir ki, Azərbaycan gənclərinin sağlam və fəal həyat tərzini təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədi ilə 2013-2023-cü illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyası və 2016-2020-ci illər üçün Dövlət Proqramı, bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2012-2020-ci illəri əhatə edən Milli Strategiya və 2013-2016-cı illər üçün Dövlət Proqramı hazırlanaraq həyata keçiriləcəkdir[3].

Həmçinin Konsepsiyada gənclərin və gənc ailələrin mənzil ehtiyaclarının ödənilməsi məqsədi ilə social ipotekanın şərtlərinin daha da təkmilləşdirilməsi, gənclər, o cümlədən sağlamlıq imkanları məhdud olan gənclər üçün istirahət və təlim mərkəzləri istifadəyə verilməsi ilə bağlı müddəalar da hazırda reallaş-dırılmaqdadır.

Göründüyü kimi, Azərbaycanda həyata keçirilən gənclər siyasətində gənclərin sosial müdafiəsi ilə bağlı məsələ xüsusui aktuallıq kəsb edir. Xüsusilə gənc ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin diqqət mərkəzindədir.

"Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 sentyabr tarixli 299 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu yaradıldığı dövrdən gənc ailələrin sərfəli şərtlərlə ipoteka kreditlərindən yararlanması təmin edilmişdir. Belə ki, gənc ailələr digər vətəndaşlardan fərqli olaraq mənzil üçün krediti 4 faizlə əldə etmək imkanınan malikdirlər.



Hazırda İpoteka sisteminin daha da təkmilləşdirilməsi, o cümlədən gənclərin mənzil-məişət problemlərinin həlli istiqamətində işlərin daha da təkmilləşdiirlməsi istiqamətində addımlar atılmaqdadır.

Gəncliyin hərtərəfli inkişafı dövlətin sosial siyasətinin vacib tərkib hissələrindən biridir. Gənclər siyasəti gənclərin dinamik inkişafı üçün həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər kompleksidir. Dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar, həmçinin ölkənin yeni inkişaf imkanları Azərbaycanda gənclər siyasəti sahəsində yeni istiqamətlərin əksini tapdığı strateji "yol xəritələri"nin qəbulunu şərtləndirir. Bunlardan biri də "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"dır. Strate-giya Azərbaycanda gənclər siyasətin müasir dövrün tələbləri səviyyəsində qurulmasına xidmət edir. Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır[4].

Azərbaycan dövlətinin gənclərlə bağlı siyasətinin mühüm tərkib hissələrindən biri də onlar üçün müasir dünya səviyyəsində təhsil alma imkanları yaradılmasından ibarət olmuşdur. Bu mənada Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə həyata keçirilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın mühüm əhəmiyyəti olmuşdur. Bu proqram əsasında minlərlə gəncin nüfuzlu xarici ali məktəblərdə təhsil alması nəzərədə tutulmuşdur.

Bu gün inamla qeyd etmək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati – hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi

fəallığının artmasına kömək edib. Hazırda Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Cənab Prezident tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə geniş spektrlıdır. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir[9].

Azərbaycanda həyata keçirilən gənclər siyasətinin uğurlarından biri kimi gənclər arasında könüllülük hərakatının geniş populyarlıq qazanması qeyd edilə bilər. Könüllülük öz iradəsi və müstəqil seçimi əsasında əvəzi ödənilməyən fəaliyyət növüdür. Hazırda Azərbaycanda könüllük hərəkatı geniş sahələri əhatə etməklə gənclərin cəmiyyət həyatında aktiv işirakında mühüm rol oynayır.

9 iyun 2009-cu il tarixdə imzalanmış "Könüllü fəaliyyət haqqında" Qanun [2] Azərbaycanda könüllülər hərəkatının konkret istiqamətlərini müəyyənləşdirmişdir. Məhz bu qanunun qəbulu ölkəmizdə keçirilən kütləvi idman, siyasi, mədəni tədbirlərin idarə edilməsi proseslərinə könüllü qismində gənclərin fəal iştirakına imkan vermişdir. "Könüllü fəaliyyət haqqında" qanun qanun sayəsində dövlət orqanı olaraq, Azərbaycan Respublika-sı-nın



Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" könüllüləri öz fəaliyyətinə cəlb edən ilk dövlət orqanlarından biri kimi tarixə düşmüşdür [5, 22].

Ölkədə həyata keçirilən gənclər siyasəti idman siyasəti ilə birbaşa bağlıdır. Ölkə gəncliyinin sağlam inkişafı məqsədilə dövlət tərəfindən uğurlu idman siyasəti həyata keçirilir. Məhz 2005-ci il 10 oktyabr tarixli "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı" haqqında Azərbaycan Respublikasının Prezidentinin imzaladığı sərəncam bu istiqamətdə mühüm addım hesab edilməlidir. Həmçinin 27 avqust 2009-cu il tarixdə "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladğı fərman isə bu istiqamətdə dövlət siyasətinin əsasını təşkil etməkdədir.

İdman siyasəti gənc nəslin sağlam inkişafını təmin etməklə yanaşı, gəncliyin ölkəmizi beynəlxalq səviyyədə uğurla təmsil etməsi üçün də imkanlar yaradır. Belə ki, müxtəlif idman növləri üzrə beynəlxalq və qitə miqyaslı yarışlarda, olimpiadalarda gənc idmançılar mühüm uğurlara imza atırlar ki, bu da Azərbaycanın qlobal səviyyədə nüfuzunun artması ilə nəticələnir. Əlbəttə ki, bütün bunlar Azərbaycanda gəncliyin inkişafına yönəlmiş məqsədyönlü siyasətin uğurlarıdır.

Son illərdə Azərbaycan gənclərinin idman sahəsində qazandıqları nailiyyətlərin xüsusilə diqqətəlayiqdir. XXX London Yay Olimpiya Oyunlarında Azərbaycanın 200 ölkə arasında 30-cu yerdə qərarlaşması ölkəmizdə idmanın inkişafının bariz göstəricisidir. I Avropa və IV İslam Həmrəyliyi Oyunlarında ölkəmizin daha çox medal qazanan ölkə kimi ilk sıralarda yer alması da gənclər və idman siyasətinin uğurları hesab edilməlidir.

Hazırkı şəraitdə Azərbaycanda həyata keçirilən gənclər siyasətinin yuxarıda qeyd olunan istiqamətləri ilə yanaşı, gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişdirilməsi də vacib məsələlərdəndir. Məlum olduğu kimi, müasir dövrdə, qloballaşma şəraitində hər bir cəmiyyətin qarşısında duran başlıca vəzifələrdən biri milli-mənəvi dəyərlərin qorunub saxlanması və müasir dəyərlərlə sintez olunmasıdır. Belə olan halda, milli dəyərlərin qorunması və bunun əsasında gənclərin inkişafı və tərbiyəsinin təmin edilməsi strateji bir zərurətə çevrilir. Bu məsələnin Azərbaycan təcrübəsinə gəlincə, dövlətin yüksək səviyyəli diqqət və qayğısının fonunda mütəmadi olaraq inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin mənimsənilməsində, həm də təbliğində aktiv - dinamik təbəqə kimi çıxış edir [10].

Beləliklə də qeyd etmək olar ki, Azərbaycanda əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdiriliməklə bir çox uğurlu nəticələr verməkdədir. Hazırda gənclər ölkə həyatının müxtəlif sferalarında layiqincə təmsil olunurlar.

Bu gün Azərbaycan dövləti ölkədə həyata keçirilən islahatlar strategiyasında gəncliyin enerjisindən uğurla bəhrələnməkdədirlər. Artıq gənclər cəmiyyətin müxtəlif sahələrində avanqard qüvvəyə çevrilmişdir. Bütün bunlar Azərbaycan dövlətinin gənclərin soisal problemlərinin həlli, o cümlədən onların yüksək səviyyəli təhsillə təmin edilməsi, sağlam və səmərəli həyat tərzinə sahib olması, innovativ ideyalarının reallaşdırılmasına yönəlmiş məqsədyönlü siyasətinin nəticəsində mümkün olmuşdur. Danılmaz həqiqətdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən gənclər siyasəti bu gün yeni-yeni uğulara imza atır. Bu gün gənclərlə bağlı dövlət siyasətində məqsədli dövlət proqramlarının mühüm rolu vardır.



Ölkədə həyata keçirilən gənclər siyasəti müxtəlif sferaları əhatə etməklə davamlı xarakter kəsb edir.

**Ədəbiyyat**


1. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.
2. “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012
4. “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”. Bakı, 2015.
5. Adilov N., Paşayev E. Könüllülük: uğur formulu. Bakı, 2017. 99 s.
6. Hacıyev F. Azərbaycan dövlət gənclər siyasəti: məqsəd və nailiyyətlər. //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. 3 (59)2017. S. 233-238.
7. lib.aliyevheritage.org/az/1228447.html
8. www.aak.gov.az/avtoref_to_mudaf/pdf_to_mudaf/tar/tar_n_hrb_07_12_12.pd
9. http://sesqazeti.az/news/interview/218359.html
10. http://www.yap.org.az/az/view/interview/497/dovletin-genclere-destek-ve-diqqeti-azerbaycan-gencliyinde-ozune-oz-gucune-istedadina-inam-hissini-daha-da-artirib

# ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NƏQLİYYAT STRATEGİYASI ÖLKƏNİ DAVAMLI İQTİSADİ İNKİŞAFA APARAN YOL KİMİ

**Məmmədov Elvin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Nəqliyyat bir ölkənin iqtisadi inkişafında və geosiyasi mövqeyində mühüm rol oynayır. Azərbaycan timsalında ulu öndər Heydər Əliyevin strateji baxışı ölkənin nəqliyyat sektorunu əhə-miyyətli dərəcədə formalaşdırmışdır. 1993-2003-cü illərdə Heydər Əliyevin nəqliyyat infrastrukturun modernləşdirilməsi, regional əlaqələrin möhkəmlənməsi və iqtisadi artımın gücləndirilməsi məqsədi daşıyan hərtərəfli nəqliyyat strategiyasını həyata keçirmişdir. Bu baxımdan, dahi lider Heydər Əliyevin nəqliyyat strategiyasının əsas elementlərini və onun Azərbaycanın davamlı iqtisadi inkişafına təsirini araşdırmaq olduqca vacibdir.

Heydər Əliyevin nəqliyyat strategiyasının təməl daşlarından biri infrastrukturun müasirləşdirilməsi idi. Güclü nəqliyyat şəbəkəsinin vacibliyini dərk edən H. Əliyev əsas diqqəti həm paytaxt, həm də regionlarda avtomobil yollarının, dəmir yollarının, hava limanlarının və dəniz limanlarının təkmilləşdirilməsinə yönəltmişdir. Mövcud infrastrukturun təkmilləşdirilməsi və yeni əlaqələrin qurulması, mal və xidmətlərin, o cümlədən insanların ölkə daxilində və onun hüdudlarından kənarda səmərəli hərəkətini təmin etmək üçün bu sektora külli miqdarda investisiyalar qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin “Yol iqtisadiyyat, mədə-niyyət, bir sözlə, həyat deməkdir” fikri Azərbaycanın dövlət başçısının



yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRASECA proqramı çərçivəsində Qərb-Şərq nəqliyyat dəhlizinin Azərbaycanın ərazisindən keçməsində ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti əvəzsiz rol oynamışdır. 1998-ci ilin sentyabr ayında Heydər Əliyevin təşəbbüsü ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxaq konfransın məhz Bakıda keçirilməsi də bunun bariz nümunəsidir. Yeri gəlmişkən, 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayən-dələrinin iştirak etdikləri konfransda Avropa-Qafqaz-Asiya nəq-liyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çox mühüm sənədin imzalanması əlverişli geosiyasi mövqedə yerləşən Azərbaycanın regionda etibarlı tərəfdaş kimi mövqeyini daha da artırdı. 2001-ci il iyulun 4-də “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezi-dentinin fərmanı imzalandı. Məhz həmin fərmana əsasən, ölkəmizdə respublika və yerli əhəmiyyətli avtomobil yollarının təmiri və tikintisinə bilavasitə cavabdehlik daşıyan təşkilatlar və onların üzərinə düşən vəzifələr müəyyənləşdirildi.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Ulu öndərin layiqli davamçısı bu strategiyaya sadiq qalmış, beləliklə də, 2006-cı ildə açılışı olan Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin tikintisi və istifadəyə verilməsi məhz həmin strategiyanın mühüm nailiyyətlərindən biri olmuşdur. BTC boru kəməri Xəzər dənizindən

neftin beynəlxalq bazarlara nəqlini asanlaşdırdı, Azərbaycanın iqtisadi mövqeyini artırdı və qonşu ölkələrlə enerji əməkdaşlığını gücləndirdi.

Heydər Əliyev Azərbaycanın strateji mövqeyindən istifadə etməklə nəqliyyat təşəbbüsləri vasitəsilə regional əlaqələri gücləndirməyə çalışırdı. Əsası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Bakı-Tbilisi-Qars və Şimal-Cənub beynəlxalq və regional nəqliyyat dəhlizləri reallaşdırılandan sonra, ölkə iqtisadiyyatı inkişafında yeni səhifə açmışdır. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək, yüklərin daşınması üçün birbaşa marşrut təmin edir və bu xalqlar arasında iqtisadi əlaqələri gücləndirir. Bundan əlavə, Rusiya, Azərbaycan və İranı birləşdirən Şimal-Cənub Nəqliyyat Dəhlizinin tikintisi H. Əliyevin regional əlaqələrin genişləndirilməsinə dair baxışının daha bir bariz nümunəsidir.

Beləliklə də, böyük şəxsiyyət Heydər Əliyevin nəqliyyat strategiyası Azərbaycanda davamlı iqtisadi artımın təmin edilməsində həlledici rol oynamışdır. Təkmilləşdirilmiş infrastruktur və gücləndirilmiş beynəlxalq əlaqələr xarici investisiyaları cəlb etdi, ticarəti stimullaşdırdı və iqtisadi inkişafa təkan verdi. Səmərəli nəqliyyat şəbəkələri yüklərin daşınma xərclərini və vaxtını azaldaraq Azərbaycanı qlobal bazarda daha rəqabətqabiliyyətli etmişdir.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda nəqliyyat strategiyası ölkənin davamlı təsir inkişafına göstərmişdir. İnfrastrukturun modernləşdirilməsi, regional əlaqənin asanlaşdırılması və iqtisadi artımın gücləndirilməsi vasitəsilə H. Əliyev Azərbaycanın tərəqqisinə əhəmiyyətli töhfə verməkdə davamlı inkişaf edən nəqliyyat sektorunun əsasını qoyub. Onun prezidentliyi dövründə başlanmış strateji layihələr Azərbaycanı regional və qlobal nəqliyyat şəbəkəsində əsas oyunçulardan birinə çevirmişdir.



**Ədəbiyyat**


1. Atakişiyev M. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. Bakı: Təhsil, 2005 İqtisadiyyat və neft (Heydər Əliyevin yeni neft strategiyasının reallaşmasında İlham Əliyevin xidmətləri). Nazim Süleymanovun redaktəsi ilə. Bakı: Nurlan,2003
2. H.N.Məmmədov, Z.Ə.Rüstəmov, "Əhaliyə nəqliyyat xidmətinin təşkili", 2014.
3. M.Məmmədov, "Nəqliyyatın dinamik inkişaf strategiyası", 2015.
4. Regional nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin rolu. Azərbaycanın vergi jurnalı. Bakı: № 3, 2014.


## HACIQABUL RAYONUNDA ƏMƏK BAZARININ İNKİŞAF DİNAMİKASI


**Məmmədov Emin**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*Hacıqabul Rayon İcra Hakimiyyəti*

emin.memmedov.8888@mail.ru


Əmək bazarı işverənlər və iş axtaranlar arasında ortaq mühit yaradaraq onları bir-biri ilə qovuşdurur. Əmək bazarının bir neçə əsas komponentləri vardır. Bunlara aiddir [1-4]:

*İş axtaranlar* əmək bazarının əsas təklif tərəfini təşkil edir. Onlar müxtəlif sahələrdə və bacarıqlarda iş tapmağa çalışan fərdlər və ya işsiz olan şəxslərdir. *İşverənlər* əmək bazarının tələb tərəfini təşkil edir. Onlar müxtəlif sahələrdə iş təklif edən şirkətlər, korporasiyalar və

sahibkarlar ola bilər. İşverənlər, işə götürdükləri işçilər üçün əmək haqqı və səmərəli iş şərtləri təklif etməlidirlər. *Əmək haqqı və mükafatlar* işverən tərəfindən işçiyə verilən maliyyə təklifidir. Bu məbləğ əsasən işin əhəmiyyətindən, təcrübədən, bacarıqlardan və ixtisaslaşdığı sahədəki təklif həcmindən asılı olaraq dəyişə bilir.

Hacıqabul rayonunda iqtisadi fəal əhalinin sayı 2015-ci ildə 35,4 min nəfərdən 2021-ci ildə 38,1 min nəfərə yüksəlmişdir. Muzdlu işçilərin sayı da müvafiq olaraq məşğul əhalinin sayında artmışdır. Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ildə 510,8 manata yüksəlmişdir [4]:

**Cədvəl 1. Hacıqabul rayonunda əmək bazarı göstəriciləri**

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 35.4 | 36.5 | 36.6 | 37.0 | 37.4 | 38.1 |
| Məşğul əhalinin sayı, min nəfər | 33.8 | 34.7 | 34.8 | 35.2 | 34.7 | 35.8 |
| Muzdlu işçilərin sayı, min nəfər | 6.5 | 7.6 | 7.5 | 7.5 | 7.5 | 7.7 |
| Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manat | 292.9 | 312.7 | 334.3 | 429.3 | 486.0 | 510.8 |

Mənbə: https://stat.gov.az/source/regions/

Hacıqabul rayonunda yeni açılmış iş yerlərinin sayında illər üzrə, xüsusilə kovid pandemiyasından sonra kəskin azalma müşahidə edilmişdir. Belə ki, 2015-ci ildə 632 sayda yeni iş yeri açıldığı halda, 2021-ci ildə bu rəqəm 126 olmuşdur.

**Qrafik 1. Hacıqabulda açılan yeni iş yerlərinin sayı**






Mənbə: https://stat.gov.az/source/regions/

01.01.2022-ci ilə təsərrüfat subyektlərinin sayı da Şirvan-Salyan iqtisadi rayonu üzrə müxtəlif olmuşdur. Belə ki, Şirvan-Salyan iqtisadi rayonu üzrə bu güstərici hüquqi şəxslər üçün 4731 ədəd, fiziki şəxslər üçün isə 64137 ədəd təşkil etmişdir. Hacıqabul rayonunda bu göstərici digər rayonlarla isbətdə daha az, hüquqi şəxslər üzrə 664, fiziki şəxslər üzrə isə 7033 ədəd olmuşdur. Şirvan-Salyan iqtisadi rayonu üzrə 2021-ci ildə muzdlu işçilərin sayı 54.5 min nəfər təşkil etmişdir. Bu göstərici Şirvan şəhəri üzrə 15.6 min nəfər, Biləsuvar rayonu üzrə 8.8 min nəfər, Hacıqabul rayonu üzrə 7.7 min nəfər, Neftçala rayonu üzrə 8.5 min nəfər, Salyan rayonu 13.9 min nəfər olmuşdur. Hacıqabul rayonunda əmək resurslarının daha effektiv istifadə edilməsi və inkişaf etdirilməsi üçün həyata keçirilən təlim proqramlarının sayı artırıla bilər. Bu proqramlar işçilərin bacarıqlarını və biliklərini artıraraq onların peşəkar inkişafını dəstəkləyəcəkdir. Eyni zamanda sahibkarlıq sahəsindəki dəyişikliklər və texnologiyanın inkişafı nəticəsində, işçilərin öyrənmə və bacarıqlarını yeniləmə ehtiyacı artmaqdadır. Ömürboyu təhsil imkanları və təşviqlər işçilərin yeni bacarıqlar əldə etməsinə və müasir iqtisadi tələblərə cavab verə bilməsinə kömək edəcəkdir.

**Ədəbiyyat**

1. Mehdiyev, X.O. Azərbaycanin sosial-iqtisadi inkişafına retrospektiv baxış: müqayisəli təhlil, Bakı, 2015
2. Deviren, V, Yıldız, O. Bölgesel Kalkınma Teorileri ve Yeni Bölgeselcilik Yaklaşımının Türkiye'deki Bölgesel Kalkınma Politikalarına Etkileri, Akademik Bakış Uluslararası Hakemli Sosyal Bilimler Dergisi, 2014, 44.
3. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət və bələdiyyə idarəçiliyinin müasir problemləri, Bakı, 2022.
4. https://stat.gov.az/source/regions/

## MƏRKƏZİ VƏ YERLİ İDARƏETMƏ ORQANLARI ARASINDA SƏLAHİYYƏT BÖLGÜSÜ (BİNƏQƏDİ RAYONUNUN TİMSALINDA)

**Məmmədov Namil**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
mrmemmedli@gmail.com

Müasir idarəetmə modelində mərkəzi və yerli idarəetmə orqanları arasında səlahiyyət bölgüsü konkret şəkildə, mövcud qanunvericiliyə əsasən müəyyən edilir. İdarəetmənin mühüm qanadlarını təşkil edən mərkəzi və yerli idarəetmə orqanları arasında düzgün səlahiyyət bölgüsü idarəetmənin səmərəliliyini təmin edən mühüm faktorlardandır.



Reallıqda mərkəzi icra orqanları ilə yerli idarəetmə orqanları, həmçinin özünüidarəetmə orqanları qarşılıqlı əməkdaşlıq şəklində fəaliyyət göstərirlər. Lakin əlbəttə ki, onlar arasında səlahiyyət bölgüsü münasibətlərin xarakterini təşkil etməklə yanaşı, bəzən iyerarxik, bəzən isə üfüqi səciyyəsini də ortaya qoyur.

Bu səlahiyyət bölgüsü qanunlarla tənzimlənir. Belə ki, həm mərkəzi və həm də yerli icra orqanlarının səlahiyyət bölgüsü konkret olaraq müəyyən edilmişdir. Bu isə onların fəaliyyətində öz əksini tapır. Həmçinin mərkəzi, yerli icra orqanları ilə yerli özünüidarəetmə orqanlarının fəaliyyət obyekti eyni olsa da, predmeti sahəsi fərqlənir.

Yerli özünüidarəetmənin və dövlət hakimiyyətinin qarşılıqlı fəaliyyəti nəticəsində bələdiyyə orqanlarının sosial-iqtisadi inkişafda rolu nəticə etibarilə dövlət və yerli özünüidarəetmə orqanları arasında mexanizmlərin formalaşdırılmasını tələb edir. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı fəaliyyəti, ümumilikdə ölkədə gedən proseslərə ciddi şəkildə təsir göstərir. Buna görə də dövlət tərəfindən idarəetmə zamanı yerinə yetirilən müxtəlif prinsiplər və həyata keçirilən tənzimləmə və təsərrüfatçılıq funksiyaları bələdiyyələr tərəfindən tətbiq edilir. Sadaladığımız bu 2 funksiyadan təsərrüfatçılıq funksiyası bələdiyyələrin fəaliyyətinin fasiləsiz formada təmin olunmasında və ümumilikdə yerli idarəetmədən idarəetmə mexanizmi üzrə effektiviyin əldə olunmasında çox mühüm əhəmiyyət kəsb edir.

Burada Binəqədi rayonu üzrə həm yerli icra hakimiyyətinin fəaliyyətini, gördüyü işləri müəyyən dövr üçün təhlil etmək niyyətindəyik. Eyni zamanda rayonda fəaliyyət göstərən yerli özünüidarəetmə orqanlarının da fəaliyyət sahələri, konkret görmüş olduqları işləri nəzərdən keçirməklə həm icra orqanları, həm də bələdiyyələrin fəaliyyət sahələrini müəyyən etmiş olacağıq. Bununla da həm yerli icra qurumları, həm də bələdiyyələrin qanunvericiliklə öz

üzərlərinə düşən vəzifələri səlahiyyət bölgüsü çərçivəsində icra etməklə ümumilikdə Binəqədi rayonunun inkişafına vermiş olduğu töhfəni aydınlaşdıra biləcəyik.

## “BÖYÜK QAYIDIŞ” PROQRAMI ÇƏRÇİVƏSİNDƏ AĞDAM ŞƏHƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Məmmədov Nicat**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
mammadovnicat002@gmail.com

2020-ci ildə İkinci Qarabağ müharibəsində şəhər və ətraf rayonların işğaldan azad edilməsindən sonra Ağdam iqtisadi rayonunun inkişafı Azərbaycan hökuməti üçün mühüm işdir. Bölgənin kifayət qədər potensialı var və onun inkişafı bir çox aspektləri əhatə edir. Ağdam və ətrafı münbit kənd təsərrüfatı torpaqlarına malikdir. Regionda kənd təsərrüfatı və aqrobiznesin təşviqi iqtisadi artımı stimullaşdırmağa və yerli əhalinin dolanışıq vasitələrini təmin etməyə kömək edə bilər. Bu, fermerlərə dəstək, avadanlıq və bazarlara çıxışı təmin edə bilər. Ağdam rayonunda və onun ətrafında kənd təsərrüfatının və aqrobiznesin inkişaf etdirilməsi iqtisadi inkişaf planının mühüm tərkib hissəsidir. Kənd təsərrüfatı məhsullarının bazarlara daşınmasını asanlaşdırmaq üçün suvarma sistemlərinin, yolların və nəqliyyat infrastruk-turunun təkmilləşdirilməsinə sərmayə qoyulmalıdır. Bu, təkcə kənd təsərrüfatı məhsuldarlığını artırmayacaq, həm də bazarlara çıxışı yaxşılaşdıracaq. Yerli fermerlər üçün əlverişli şərtlərlə kredit və kreditlərə çıxış da daxil olmaqla maliyyə dəstəyi mexanizm-lərinin yaradılması və ya genişləndirilməsi lazımdır. Bu,



fermer-lərə məhsuldarlığını artırmaq üçün avadanlıq, toxum və texnologiyaya sərmayə qoymağa kömək edə bilər. Fermerlərə müasir kənd təsərrüfatı təcrübələri, məhsul seçimi və heyvandarlığın idarə edilməsində texniki təlim və yardım göstərmək lazımdır. Bu, məhsuldarlığı və kənd təsərrüfatı məhsullarının ümumi keyfiyyətini yaxşılaşdıra bilər. Fermerləri ən yaxşı təcrübələr, zərərvericilərə qarşı mübarizə və digər kənd təsərrüfatı problemlərinə dair təlimat təklif edə bilən kənd təsərrüfatı mütəxəssisləri ilə birləşdirən genişlənmə xidmətləri yaradılmalıdır. Yerli fermerlər üçün həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə daha böyük bazarlara çıxış imkanları yaradılmalıdır. Bu, paylama və marketinq üçün daha böyük kənd təsərrüfatı müəssisələri ilə kooperativlərin və ya tərəfdaşlıqların yaradılmasını əhatə edə bilər. Tək bir məhsul və ya heyvandarlıq növlərindən asılılığı azaltmaq üçün kənd təsərrüfatı məhsullarının şaxələndirilməsini təşviq edilməlidir. Bu, bazar dalğalanmalarına və iqlimlə bağlı risklərə davamlılığı artıra bilər.

Bu strategiyaları həyata keçirməklə və kənd təsərrüfatı və aqrobiznes üçün dəstəkləyici ekosistem yaratmaqla Ağdam rayonu öz kənd təsərrüfatı potensialını üzə çıxara, iqtisadi artımı stimullaşdıra və yerli əhalinin güzəranını yaxşılaşdıra bilər. Bundan əlavə, canlı kənd təsərrüfatı sektoru ərzaq təhlükəsizliyinə töhfə verə və xarici ərzaq idxalından asılılığı azalda bilər.

Ağdamın iqtisadi inkişafı üçün həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi vacibdir. Azərbaycan hökuməti biznesi regionda fəaliyyət göstərməyə həvəsləndirmək üçün investisiyaya uyğun siyasət və stimullar həyata keçirə bilər. Daxili və xarici investisiyaların cəlb edilməsi Ağdamın və daha geniş regionun iqtisadi inkişafı üçün çox vacibdir. Müəssisələri ərazidə fəaliyyət göstərməyə həvəsləndirmək üçün Azərbaycan hökuməti bir sıra investisiya təşviqi strategiyaları və təşviqləri həyata keçirə bilər. Hökumət sabit və

proqnozlaşdırıla bilən biznes mühitini təmin edən aydın və ardıcıl investisiya siyasətlərini işləyib hazırlamalı və çatdırmalıdır. Bura mülkiyyət hüquqlarının qorunmasının təmin edilməsi, müqavilələrin icrası, ədalətli və şəffaf hüquqi bazanın təmin edilməsi daxildir. Biznes və investorları cəlb etmək üçün əlverişli vergi güzəştləri, azaldılmış tənzimləmə maneələri və sadələşdirilmiş inzibati proseslərlə Ağdam daxilində xüsusi əraziləri Xüsusi İqtisadi Zonalar kimi təyin edilməlidir. XİZ-lər istehsal, texnologiya və ya kənd təsərrüfatı kimi xüsusi sektorlara diqqət yetirə bilər. Ağdamda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün vergi güzəştləri, korporativ gəlir vergisi dərəcələrinin aşağı salınması və gömrük rüsumlarından azadolmalar kimi vergi güzəştləri təklif etmək lazımdır. Bu təşviqlər müxtəlif növ investorları cəlb etmək üçün uyğunlaşdırıla bilər. Azərbaycan hökuməti bu tədbirləri həyata keçirməklə Ağdamda əlverişli investisiya mühiti yarada, həm yerli, həm də xarici investorları cəlb edə, iqtisadi artıma təkan verə, regionun uzunmüddətli inkişafına töhfə verə bilər.



## CƏBRAYIL RAYONUNUN NƏQLİYYAT İNFRASTRUKTURUNUN "ŞİMAL-CƏNUB" VƏ "ŞƏRQ-QƏRB" BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN REALLAŞDIRILMASINDA YERİ

**Məmmədov Orxan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
orkhan.mammadow@gmail.com

Azərbaycan Respublikası üçün nəqliyyat sisteminin inkişafı böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil və səhiyyə ilə yanaşı, nəqliyyat sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinin həyata keçirilməsində, cəmiyyətin əsas tələbatlarının ödənilməsində mühüm rol oynayır.

Son illər ölkəmizdə sosial həyatın bütün sahələrinin əldə edilmiş dinamik inkişafı respublikamızın geosiyasi əhəmiyyətini xeyli artırmışdır. Eyni zamanda, dünya iqtisadi məkanında baş verən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış əldə etmək, rəqabətqabiliyyətli milli sənayeyə malik olmaq zərurəti yarandı. Ölkəmiz üçün bu gün dünya gündəmində olan qloballaşma, sürətli inteqrasiya, davamlı inkişaf və s.

Bu gün ölkə iqtisadiyyatının sürətli və hərtərəfli inkişafında nəqliyyat sektoru xüsusi yer tutur. Bu sektor mal və xidmətlərin istehsalı, bölüşdürülməsi və istehlakı sahəsində fəaliyyətləri əhatə edir və iqtisadi fəaliyyətin bütün sahələrində danılmaz rol oynayır.

Dünya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsi, inteqrasiya proseslərinin sürətlənməsi nəqliyyat sisteminin hər bir

ölkənin milli iqtisadiyyatının əsas sütunlarından biri olduğunu təsdiqlədi. Tədqiqatçılar nəqliyyat xidmətlərinin sosial-iqtisadi mahiyyətini konkretləşdirərək, bu sistemin geniş təkrar istehsalın vacib şərti olduğunu çoxdan sübut etmişlər. Bu baxımdan, iqtisadiyyatda genişmiqyaslı köklü islahatların aparıldığı indiki şəraitdə nəqliyyatın xüsusiyyətlərini, onun iqtisadi və sosial proseslərdə rolunu nəzərə alan siyasətin formalaşdırılması və həyata keçirilməsi çox vacibdir. Buna görə də nəqliyyat sisteminin davamlı inkişafı üçün irimiqyaslı kapital qoyuluşları, çoxlu sayda iri nəqliyyat qovşaqlarının tikintisi və yenidən qurulması tələb olunur.

Hazırda ölkə həyatının bütün sahələri ilə yanaşı, yol təsərrüfatının da sistemli və hərtərəfli inkişafına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, bu gün respublikamızın yol təsərrüfatının yeniləşməsi və müasirləşməsi daha da dərinləşir, dövlətimizin qüdrətinin və qüdrətinin artırılmasına, xalqımızın rifah halının yüksəldilməsinə yönəlmiş quruculuq proqramları uğurla həyata keçirilir.

Son illər Azərbaycanda nəzərdə tutulan bütün infrastruktur layihələri və sosial proqramlar yüksək səviyyədə həyata keçirilib, o cümlədən sosial infrastrukturun mühüm istiqamətləri olan yol təsərrüfatının yenidən qurulması, yeni yolların tikintisi və mövcud yolların əsaslı təmiri həyata keçirilib. Paytaxtda və bölgələrdə çoxlu sayda yol ötürücüləri, körpülər, tunellər, yerüstü və yerüstü keçidlər tikilib.

Hazırda Azərbaycanda Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması üçün infrastruktur layihələri həyata keçirilir. Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün aşağıdakı mühüm layihələrin həyata keçirilməsi istiqamətində işlər aparılır. Dünya İqtisadi Forumunun yolların vəziyyətinə dair hesabatında Azərbaycan MDB məkanında birinci yeri tutaraq ən



yüksək nəticə göstərib. Asiya qitəsində 10-cu, 141 ölkə arasında isə 24-cü yerdədir (2021).

Hazırda işğaldan azad edilmiş ərazilərdə yol infrastruk-turunun yaradılması istiqamətində işlər aparılır. Əsası 2020-ci il noyabrın 16-da qoyulan Qələbəyə gedən yol dəhlizi Hacıqabul-Mincivan-Zəngəzur dəhlizindən Şuşa şəhərinə qədər uzanır. Layihələndirilən yolun uzunluğu 101 kilometrdir. Digər strateji əhəmiyyətli layihə Zəngilan-Horadiz avtomobil yolunun tikinti-sidir. Yolun ümumi uzunluğu 124 kilometr, 4-6 zolaqdan ibarətdir. Xocavənd rayonunun Hadrut kəndindən başlanan və Hacıqabul-Mincivan-Zəngəzur dəhlizinin Şükürbəyli kəndinin Cəbrayıl rayonu ərazisindən keçən avtomobil yolu ilə birləşdirilən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun tikintisinə də başlanılıb. Layihələndirilən yolun uzunluğu 43 kilometrdir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yol infrastrukturu layihə-lərin-dən biri də Bərdə-Ağdam avtomobil yoludur. Bərdədən başlayan Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yol infrastrukturu layihələrindən biri də Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır. Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometr olacaq. Xanlıq qəsəbəsindən Qubadlıya 17 kilometr uzunluğunda yeni avtomobil yolunun tikintisi nəzərdə tutulub. Nəzərdə tutulan yolların ümumi uzunluğu 83 km-dir. Bundan başqa, uzunluğu 29 km olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu bərpa olunub.

Ölkəmizin inkişaf etmiş nəqliyyat sisteminin mühüm istiqamətlərindən biri də dəmir yollarıdır. Hazırda əlverişli coğrafi ərazidə yerləşən respublikamız bütün beynəlxalq və regional layihələrin həyata keçirilməsində fəal iştirak edir.

Son illər dəmir yolu nəqliyyatı sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, ölkənin dəmir yolu şəbəkə-sinin

genişləndirilməsi, müasirləşdirilməsi və yenilənməsi istiqa-mətində intensiv işlər həyata keçirilir. Azərbaycanın beynəlxalq və regional nəqliyyat dəhlizlərinin, Bakı-Tbilisi-Qars və Şimal-Cənub layihələrinin həyata keçirilməsində fəal iştirakı da təmin edilib.

İşğaldan azad edilmiş ərazilərdə dəmir yolu şəbəkəsinin bərpası istiqamətində işlər davam etdirilir. Uzunluğu 100 km olan Horadiz-Ağbənd dəmir yolu işğaldan azad edilmiş torpaqlara çıxışda mühüm rol oynayacaq və ən əsası gələcəkdə Zəngəzur dəhlizi ilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu əlaqəsi yaratmağa imkan verəcək. Bundan əlavə, 45 kilometrlik Bərdə-Ağdam dəmir yolu yenidən qurulur.

Beynəlxalq iqtisadi əlaqələri dəniz nəqliyyatının iştirakı olmadan təsəvvür etmək mümkün deyil. Dəniz nəqliyyatı digər nəqliyyat növləri ilə müqayisədə vahid nəqliyyat sistemində ən ucuz nəqliyyat növüdür. Dəniz ticarəti imkanlarından yararlanmaq üçün dünyanın bir sıra ölkələrinə investisiyalar qoyulur. 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib. Azərbaycanda və xaricdə liman əməliyyatları ilə yanaşı, ən vacib məsələlərdən biri də gəmilərin müasirliyi və yüksək daşıma qabiliyyətidir.

Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tərkibinə nəqliyyat donanmasından əlavə, ixtisaslaşmış donanma və gəmi təmiri zavodları daxildir. Nəqliyyat donanmamız 20 tanker, 13 bərə, 15 ümumi yükdaşıyan, 2 Ro-Ro gəmisi, 1 texniki gəmi və 1 üzən sex də daxil olmaqla 51 gəmidən ibarətdir. İxtisaslaşdırılmış donanma 204 gəmidən ibarətdir.

Nəqliyyat sisteminin mühüm sahələrindən biri hava nəqliyyatıdır. Son illər ölkədə 7 hava limanı tikilib və ya yenidən qurulub. Hazırda Azərbaycanda altı beynəlxalq (Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala) və bir yerli (Yevlax) hava limanı fəaliyyət göstərir. Hazırda işğaldan azad edilmiş ərazilərdə daha 3 hava



limanının (Füzuli, Zəngilan və Laçın) istifadəyə verilməsi planlaşdırılır ki, onlardan biri beynəlxalq hava limanıdır.

Azərbaycan Respublikasının işğaldan azad olunan Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər və Laçın rayonlarında nəqliyyat infrakstrukturunun yenidən qurulması, bu rayonlarda istər quruculuq dövründə, istərsə də sonrakı illərdə yük və sərnişin daşınmasına olan tələbatın təmin edilməsi, beləliklə, avtomobil nəqliyyatı ilə göstəriləcək bütün xidmətlərin bərpa edilməsi əsas prioritetlərdəndir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006 - 2015-cu illər) Dövlət Proqramı";
2. Allahverdiyev S.S. Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmipraktiki kommentariyası). I hissə. Bakı: Digesta, 2005, 336 s.;
3. Əliyev E.Ə. Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Zərdabi LTD, 2008;
4. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. - Bakı, 2015. - 1056.

# İQTİSADİYYATIN İDARƏ OLUNMASINDA YENİ YANAŞMALAR

**Məmmədova Fatimə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
*fatime_memmedova_1995@mail.ru*

**Xülasə**

İqtisadiyyat hər dövrdə bütün dünya ölkələrinin əsas gündəmini formalaşdıran bir fəaliyyət sahəsidir. 2000-ci illərdə yaşanan qlobal krizlərin təsiri ilə geriyə düşən iqtisadiyyatı bərpa etmək və irəli aparmaq üçün bir-birinin ardıyca yeni yanaşmaların axtarılması, müəyyən aralıqlarla icra ediləcək proqramların hazırlanması labüd idi. Bu məqalədəki araşdırmanın əsas məqsədi iqtisadiyyat və onun idarəolunması üzərində dəyərləndirmə apararaq, onun strukturunu və təməlini təşkil edən ənənəvi isiqamətlərlə yanaşı, sonradan ortaya qoyulan bir neçə əsas yeni təklif və yanaşmaları analiz etməkdir.

***Açar sözlər:*** *idarəetmə, iqtisadiyyat, mikro və makro-iqtisadiyyat, müasir yanaşmalar, müqayisəli analiz.*

***Giriş.*** Demokratik cəmiyyətlərdə hökumətlərin iqtisadi məsələlərdə mühüm rolu olduğu hesab edilir və seçicilər getdikcə hökumətlərin iqtisadiyyatın gedişatına görə daha çox məsuliyyət daşıdığını düşünürlər. Bu inkişaflar idarəetmə və iqtisadi sistem arasında qarşılıqlı əlaqənin təhlilini vacib edir. Bu əlaqənin ölçüləri ilk növbədə həmin ölkənin ictimai-dövlət sektorunun ölçüsü ilə sıx bağlıdır. Nəzəri nöqteyi-nəzərdən görünür ki, sosial rifah funksiyası, orta seçici nəzəriyyəsi, səsvermə və populyarlıq funksiyası idarəetmə ilə iqtisadiyyat arasındakı əlaqədə mühüm yerlərə malikdir. Çünki



iqtisadiyyatın ilkin məqsədi sosial rifahı maksimuma çatdırmaqdır və bunları müəyyən edən və həyata keçirən şəxsləri seçənlər də ortalama seçicilərdir

İlkin olaraq "iqtisadiyyatın idarə olunması" dedikdə, büdcə məqsədlərinə minimum xərclərlə nail olunması üçün gəlir məsrəflərini üstələmək, yəni həm ümumi səviyyədə, həm də həyata keçirilən məhsul, şöbə və ya xidmət üzrə mümkün qədər yüksək gəlirlilik səviyyəsini təmin edən mənfəəti əldə etmək nəzərdə tutulur. İqtisadiyyatın idarəolunması idarəetmə strukturu tərəfindən qərar qəbul etməyi və gələcək planlaşdırmanı asanlaşdırmaq üçün iqtisadi nəzəriyyənin biznes təcrübələri ilə birləşməsi kimi müəyyən edilə bilər. Hər hansı bir firmanın, təşkilatın, ümumən strukturun fəaliyyətində üzləşdiyi maneələrin rasional həllində rəhbərlərə kömək edir. Mahiyyət etibarilə, iqtisadi nəzəriyyə və anlayışlardan istifadə edərək məntiqi idarəetmə qərarlarını formalaşdırırlar.

İqtisadiyyatın idarəolunmasının açarı mikro və makro iqtisadiyyatdır.[4, s.220]

Mikroiqtisadiyyat:

- Ayrı-ayrı iqtisadi vahidlərin iqtisadi davranışını öyrənir.
- Ev təsərrüfatlarının, firmaların və sənayelərin iqtisadi davranışının öyrənilməsi mikroiqtisadiyyatın predmetini təşkil edir;
- O, resursların səmərəli şəkildə bölüşdürüldüyünü yoxlayır, məhsulu və sosial rifahı maksimuma çatdırmaq üçün resursların optimal bölüşdürülməsi şərtlərini açıqlayır;
- Məsələn, mikroiqtisadiyyat fərdi istehlakçının faydalılığı maksimuma çatdırmaq üçün gəlirini müxtəlif məhsul və xidmətlər arasında necə bölüşdürməsi ilə məşğul olur;
- Beləliklə, mikro-iqtisadiyyat məhsul qiymətləri, faktor qiymətləri və iqtisadi rifah nəzəriyyələri ilə məşğul olur.

Makroiqtisadiyyat isə:

• Bütövlükdə iqtisadiyyatın fəaliyyəti ilə məşğul olur;
• Məsələn, makroiqtisadiyyat iqtisadiyyatın ümumi məhsul və xidmətlərin istehsalının və resursların ümumi məşğulluğunun necə müəyyən edildiyini, istehsal və məşğulluq səviyyəsindəki dalğalanmanın nə ilə izah olunduğunu açıqlamağa çalışır;
• O, tam məşğulluq və ya işsizlik, potensial və ya aşağı gücün istehsalı, aşağı və ya yüksək artım tempi, inflyasiya və ya deflyasiya kimi geniş iqtisadi məsələlərlə məşğul olur;
• Milli gəlir, məşğulluq, məcmu istehlak, əmanət və investisiya, ümumi qiymət səviyyəsi və iqtisadi artım nəzəriyyəsidir.

Mikroiqtisadiyyat və makroiqtisadiyyat arasında qarşılıqlı asılılıq nədən ibarətdir:
• Mikroiqtisadi təhlil və makroiqtisadi təhlil bir-birini tamamlayır;
• Hər iki nəzəriyyənin əsas məqsədi eynidir: millətin maddi rifahını maksimuma çatdırmaq;
• Mikroiqtisadi nöqteyi-nəzərdən, resursların optimal bölüş-dürülməsinə nail olmaqla, ölkənin maddi rifahı maksimuma çatdırılacaqdır;
• Makroiqtisadi nöqteyi-nəzərdən iqtisadiyyatın istehsal ehtiyatlarından tam istifadəyə nail olmaqla, ölkənin maddi rifahı maksimuma çatdırılacaqdır;
• İqtisadiyyatın mövzusu haqqında tam biliyə sahib olmaq üçün hər ikisinin öyrənilməsi eyni dərəcədə vacibdir;
• Müasir iqtisadçılar həm mikroiqtisadiyyat, həm də makroiqtisadiyyatla maraqlanırlar.

Ümumiyyətlə, iqtisadiyyat üçün verilən standart təriflərə nəzər salsaq, biri əmtəə və xidmətlərin istehsalı, bölüşdürülməsi və istehlakının öyrənilməsi; digər tərif isə azlıq təşkil edən resursların bölüşdürülməsi ilə bağlı seçimin öyrənilməsidir. Birinci tərif iqtisadiyyatın hər hansı biznesi, qeyri-kommersiya təşkilatını və ya



inzibati vahidi əhatə etdiyini göstərir. İkinci tərif isə müəyyən edir ki, iqtisadiyyat bu təşkilatların menecerlərinin etdiklərinin əsasını təşkil edir.

İdarəetmə iqtisadiyyatının məqsədi təşkilatda idarəetmə qərarlarının təkmilləşdirilməsi üçün iqtisadiyyatı tətbiq etmək olduğundan, idarəetmə iqtisadiyyatındakı mövzu materiallarının əksəriyyəti mikroiqtisadi diqqətə malikdir. Bununla belə, menecerlər qərarlar qəbul edərkən ətraf mühitin vəziyyətini nəzərə almalı olduqlarından və ətraf mühitə ümumi iqtisadiyyat daxil olduğundan, makroiqtisadi tədbirlərin necə şərh edilməsi və proqnozlaşdırılmasının başa düşülməsi idarəetmə qərarlarının qəbulunda faydalıdır.

İqtisadiyyatın idarə olunmasını ümumi nəzərdən keçirdiyimiz zaman 2 əhatəli və əsas yanaşmadan baxa bilərik: ənənəvi və müasir yanaşma.[4, s.345]

Ənənəvi yanaşmaya görə:
• İqtisadiyyat sosial elmi əhatə edir;
• İnsanın rasional sosial varlıq kimi davranışını öyrənir;
• İnsan rifahı ilə bağlı sərvət elmi hesab edilir;
• Gəlirlərin əldə edilməsi və xərclənməsi bütün təsərrüfat fəaliyyətlərinin sonu hesab edilirdi;
• Sərvət məqsədə çatmaq üçün bir vasitə hesab olunurdu - məqsəd insan rifahıdır.

Müasir yanaşmaya görə isə:
• İstər istehlakçı, istərsə də istehsalçı kimi fərd öz məqsədini optimallaşdıra bilər, iqtisadi qərardır;
• İqtisadiyyatın əhatə dairəsi iqtisadi problemlərin təhlili və siyasət tədbirlərinin təklif edilməsindən ibarətdir;
• Beləliklə, sosial problemlər mücərrəd nəzəri vasitələrlə və ya empirik üsullarla izah edilə bilər;
• Klassik müzakirədə iqtisadiyyat müsbət bir elmdir;

• Problemin nə olduğunu və onun necə həll olunmağa meyilli olduğunu izah etməyə çalışır;
• Müasir dövrdə həm müsbət, həm də normativ elmdir;
• Bugünün iqtisadçıları iqtisadi məsələlərlə yalnız olduğu kimi deyil, həm də olması lazım olduğu kimi məşğul olurlar;
• Rifah iqtisadiyyatı və artım iqtisadiyyatı müsbətdən daha çox normativdir.

Ölkədə aparılan iqtisadi transformasiyalar ictimai narazılığın artmasına, idarəetmənin keyfiyyətinə və islahatların nəticələrinə səbəb olan çoxsaylı problemlərlə müşayiət olunur. Bunu obyektiv şərait diktə edir. Həqiqətən də, bir çox davam edən layihələr, eləcə də onların həyata keçirdiyi rəhbərlik aşağı qiymətlərlə nəticələnir. Bununla belə, məsələ təkcə müxtəlif səviyyəli menecerlərin-rəhbərlərin aşağı ixtisasında və ya təklif olunan yenilənmələrin səmərəsizliyində deyil. İstənilən açıq sistem kimi, bizim tərəfimizdən irəli və geriyə doğru əlaqələrin, proseslərin və hadisələrin məcmusu kimi qəbul edilən iqtisadiyyat da bütöv bir ehtimal vəziyyətinə malikdir. Onların və onlara keçid şərtlərinin öyrənilməsi onların idarə edilməsində yeni yanaşmaların işlənib hazırlanması zərurətini diktə edir. Təqdim olunan işdə idarəetmə prosesinə yeni yanaşmaların işlənib hazırlanmasına, sənaye sahələrinin, regionların, ərazilərin inkişafındakı disbalansları aradan qaldırmaq üçün iqtisadi sistemin islahatı ilə bağlı idarəetmə səylərinin səmərəliliyinin qiymətləndirilməsinə cəhd edilir. Və həmçinin vəzifələrin həllində sinergetik-institusional yanaşmanın tətbiqi üçün metodoloji əsaslandırma da vermək lazımdır.

Ətraf mühitin idarə edilməsinə və siyasətinə iqtisadi yanaşmaların geniş şəkildə qəbul edilməsi bu sahədə hetero-jenliyin artmasına səbəb olur. Həm ortodoks, həm də heterodoks iqtisadi yanaşmalardakı tendensiyaların geniş konturları da təqdim olunur. Ətraf mühit və ekoloji iqtisadiyyat arasında ənənəvi parçalanma bu



sahədə son inkişaflara görə ədalətli hesab olunmur. Bunun əvəzinə son zamanlar daha çox Ətraf Mühit, Resurs və Ekoloji İqtisadiyyat (EREE), Ekoloji-İqtisadi Sistemlər (EES) və Sosial-Ekoloji Sistemlər (SES) yanaşmalarına, eləcə də Ətraf Mühit və Davamlılığa (HEES) Heterodoks yanaşmalara istinad etmək təklif olunur.[1, s.705]

Belə nəticəyə gəlmək olar ki, əxlaqi fəlsəfə və dəyərlərin, eləcə də reallıq modellərinin daha dərin, özünütənqidi ilə izahına ehtiyac var. İrəli doğru yol kimi özünütənqid, təvazökarlıq və başqaları ilə iştirakda iştirak strate-giyası təklif olunur. Belə bir prosesin uğurlu olması üçün iki şərt lazımdır: insan şəxsiyyətinə dəyər vermək və qeyri-müəyyən bir dünya reallığını qəbul etmək.

İqtisadi arqumentin mərkəzi diqqəti bazarların uğursuzluğu daxilində ekoloji problemlərin yüksəlişini tapmaq və iqtisadi fəaliyyətin ətraf mühitə olan həqiqi xərclərini tutmaqdır. Təqib edilən iki əsas strategiya (a) vergilər, ödənişlər və subsidiyalar rejimi vasitəsilə təbii ehtiyatların xərclərini və ətraf mühitin keyfiyyətini düzəltmək və ya (b) ümumi və ya ictimai mülkiyyətdə olan təbii və ətraf mühit resurslarına mülkiyyət hüquqlarını təyin etməkdir. Bu yanaşmalar ətraf mühitə dəyən zərərin xərclərini, özəl və ya ictimai mülkiyyətdə olan təbii ehtiyatların dəyərini qiymətləndirmək üçün çoxlu sayda araşdırmaya səbəb oldu, əsasən kölgə qiymətləri, bazar qiymətləri üçün proksi ölçülər, davranış və ya davranış yolu ilə aşkar edilən üstünlüklər vasitəsilə yaradılan qeyri-bazar dəyərlərinə əsaslanır. [5, s.150]

Xərc-fayda təhlili və xərc-səmərəlilik təhlili kimi iqtisadi qiymətləndirmə vasitələri təbii ehtiyatların dəyərini və ətraf mühitə dəymiş zərərin dəyərini əhatə edəcək şəkildə genişlən-dirilir. Black, Turpie & Rao (2016) iqtisadi səmərəlilik təhlilindən (CEA) istifadə edərək, iqlim dəyişikliyinə uyğunlaşan pastoralist sistemlərdə bataqlıq ərazilərin bərpası üçün ənənəvi mühəndislik və ekosistemə əsaslanan

uyğunlaşma üsullarını müqayisə edir.[1, s.707] Onlar belə nəticəyə gəlirlər ki, torpaq sahiblərinin nöqteyi-nəzərindən bataqlıq ərazilərin adi mühəndisliyi daha sərfəli olur, lakin yoxsulluğun azaldılması kimi əlavə sosial problemlər daxil edildikdə, ekosistemə əsaslanan uyğunlaşmalar daha məqsədə-uyğun olur. Nəticələr daha geniş sosial məqsədlərə nail olmaq üçün xüsusi siyasət müdaxiləsini təklif edir.

Ətraf mühit və resurs iqtisadiyyatı yanaşmasını tənzim-ləyən normativ dəyər ətraf mühitin xarici təsirlərinin qiymətsiz zərərlərinə və təbii ehtiyatlardan optimal istifadəyə imkan verməklə iqtisadi səmərəliliyə nail olmaqdır. Nəzəri olaraq, təbii və ekoloji ehtiyatların texnogen kapitalın digər formaları ilə əvəz oluna biləcəyi fərziyyəsi ilə zamanla kapitalın ümumi ehtiyatı sabit qalsa, davamlı inkişafa nail olunacaqdır. İqtisadi siyasət təklifləri, buna görə də, fərdi ödəmək istəyinin monetar qiymətlən-dirilməsinin təkmilləşdirilməsinə, bazar əsaslı siyasət alətlərinin səmərəliliyinin artırılması və mülkiyyət hüquqlarını təyin etmək və həyata keçirmək üçün institusional potensialın gücləndirilməsi yolu ilə xarici xərclərin daxililəşdirilməsinə meyillidir. Nəzəriyyə (Ətraf mühitin Kuznets Əyrisi (EKC) kimi tanınır) ondan ibarətdir ki, gəlirlər artdıqca ətraf mühitin keyfiyyətinə görə ödəmək istəyi yüksələcək və zaman keçdikcə ölkələr ətraf mühitə dəyən zərərin bərpasını yaşayacaqlar.[2, s.360] Bu və ya bənzəri təklif və yanaşmaları düzgün analiz etmək üçün tədqiqatı dəyər, ontologiya və epistemologiya ilə bağlı daha dərin suallarla əlaqələndirməklə, güclü elmi empirik əsaslandırılmış tədqiqat və tətbiqlər çərçivəsində ətraf mühitin idarə edilməsi və siyasətinə müxtəlif iqtisadi yanaşmaları fəal şəkildə cəlb etməkdir. Bu, obyektivliyi və ya subyektivliyi apriori rədd etmək deyil, əksinə, özünü tənqid, təvazökarlıq və başqaları ilə iştirakda iştirak strategiyasını tətbiq etmək deməkdir. Müxtəlif fənləri



əhatə edən və müxtəlif rol oyunçularının iştirakını əhatə edən tədqiqat proqramları bu istiqamətdə irəliləmək üçün vacibdir.

Son olaraq, iqtisadiyyatın yeni yanaşmalar üzrə aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə əsas verir: davamlı iqtisadi inkişaf insanların uğur qazanmaları üçün əsas yoldur; dövlətin müdaxiləsi olmadan mövcud olan azad bazarlar sərvətlərin səmərəli və ən uyğun formada paylaşdırılması üçün effektiv üsuldur; iqtisadi qloballaşma hər kəsə fayda gətirir; özəlləşmə ictimai sektordakı səmərəsizlik mühitini aradan qaldırır; dövlət daha çox mülkiyyət hüququna hörmətlə yanaşmaqla qanun çərçivəsində özəl sektorun fəaliyyəti üçün zəruri infrastrukturu yaratmaq funksiyasını yerinə yetirməlidir.

## Ədəbiyyat


1. David Black, Jane K Turpie, Nalini Rao "Evaluatıng Thecost-Effectıveness of Ecosystem-Based Adaptatıon: Kamıesberg Wetlandscase Study"/ "South African Journal of Economic and Management Sciences", | Vol. 19, No 5 (December, 2016), p.702-713
2. Gene M.Grossman and Alan B.Krueger "Economic Growth and the Environment"/ "The Quarterly Journal of Economics", Vol. 110, No. 2 (May, 1995), p.353-377
3. Michael R.Baye and Jeffrey T.Prince "Managerial Economics and Business Strategy", 10th edition 2020, 550 p.
4. Thomas Sowell "Basic Economics", 5th edition 2014, 704 p.
5. William G.Forgang and Karl W.Einolf "Management Economics: An Accelerated Approach", Published by Routledge 2006, 240 p.
6. Mahfi Eğilmez "Ekonomi politikası", Remzi Kitabevi 2016, 344 s.

# GƏNCLƏRİN DİNİ RADİKALLIQDAN UZAQLAŞDIRILMASINDA MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİNİN ROLU

**Məmmədova Nərminə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
nermine.a.memmedova@gmail.com

Dünyada sabitliyə və təhlükəsizliyə təhdidlərdən biri dini fanatizm və radikalizmdir ki, bu da insanların düşüncələrinə, hərəkətlərinə, dövlətlərin konstitusion əsaslarına və dünyəvi inkişaf prinsiplərinə, xalqların mənəvi dəyərlərinə təhlükələr yaradır. Buna görə də dini sahədə məqsədyönlü siyasətin həyata keçirilməsi vacib şərtlərindəndir.

Dini radikalizmə qarşı mübarizə, xüsusilə Soyuq Müharibədən sonra beynəlxalq münasibətlərdə aktual məsələlər-dən birini təşkil edir. Günümüzdə dini radikalizm halları problem olduğu ölkələrin sərhəddini aşaraq getdikcə beynəlxalq xüsusiyyət qazanmağa başlamışdır. Cənubi Qafqaz ölkələri də bu problemdən sığortalanmamışdır. Azərbaycanda müstəqilliyin ilk illərindən dini radikalizm təzahürləri müşahidə edilmişdir. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində həmin cəhdlərin qarşısı qətiyyətlə alındı, bu sahəyə diqqət daha da artdı. Bu gün də Azərbaycan Respub-likasının Prezidenti İlham Əliyevin siyasi kursunun əsasında nəinki dini radikalizmə, istənilən ekstremist hallara qarşı əsaslı hüquqi müstəvi yaradılmışdır.



Dini radikalizmin istənilən istiqaməti və forması cəmiyyət üçün təhlükədir. Radikalizmlə mübarizə əsasdır və onunla mübarizə nəinki bütün cəmiyyətin, hər bir vətəndaşın borcudur. Hər hansı bir dünyəvi dövlət yalnız onun Konstitusiyasına zidd olmayan dini görüşlərin təbliğinə icazə verə bilər.

Dini radikalizmin yaranma səbəblərinin kökündə dayanan ictimai-siyasi, sosial-etnik təhlükəsizliyin mahiyyəti, məqsədi və vəzifələri ilə bağlı ümumi istiqamətlər Azərbaycan Respublika-sının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Sənəddə ölkə daxilində qanunun aliliyinin təmin olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi dövlətin əsas daxili idarəçilik funksiyaları kimi təqdim edilir, həmçinin bu funksiyaları pozmaq cəhdi, separatçılıq, etnik, siyasi və dini ekstremizm kimi hallar milli təhlükəsizliyin mümkün təhdidləri hesab olunur və öz məzununa görə ictimai-siyasi təhlükəsizliyə təhlükə kimi dəyərləndirilir.

Müasir dövrdə qloballaşan dünyada terror və ekstremizmlə mübarizədə müxtəlif üsullardan istifadə olunur, bir sıra hallarda inzibati metodlara daha çox üstünlük verilir. Bu gün ekstremizmlə mübarizədə ən səmərəli metodlardan biri maarifləndirmə işinin gücləndirilməsi, insanların, xüsusilə də gənc nəslin dini biliklərinin artırılmasıdır. Ümumi təhlillər gənclərin bu təsirlərə daha çox dini biliklərinin zəif olması və savadsızlıq səbəbindən məruz qaldıqlarını göstərir. Bunun üçün dini təhsil müəssisələrində təhsilin səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazanın gücləndirilməsi, dini dərslərlə yanaşı, dünyəvi fənlərin tədrisi, əhatəli və dərin məzmunlu dərs vəsaitlərinin hazırlanması, tədrisin hər hansı məzhəbçilik deyil, ümumi prinsiplər əsasında təşkil olunması, xurafatçılığa yol verilməməsi və tələbələrə vətənpər-vərlik ruhunun aşılanması xüsusi əhəmiyyət kəsb edir.

Dövlətimiz dini radikalizmin qarşısının alınması, vətəndaşlarımızın, xüsusilə gənclərin xarici təsirlərdən qorunması, ölkədəki dini durumun sabit saxlanılması, əhalinin təhlükəsiz-liyinin təmin edilməsi istiqamətində tədbirləri bu gün də uğurla davam etdirir. Normativ-hüquqi aktların beynəlxalq normalara uyğunlaşdırılması, dövlətin, həm də dini qurumların hüquq və öhdəliklərinin dəqiq müəyyən olunması, eləcə də insanpərvərlik prinsipləri ilə ziddiyyət təşkil edən zərərli fikirləri təbliğ edən təriqət və cərəyanların fəaliyyətinin məhdudlaşdırılması məqsədilə qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir. Dini radikalizmin qarşısının alınmasında ən mühüm addımlardan biri maarifləndirmədir. Gənclərimizin radikalizmdən uzaqlaşdırılması, onlara vətənpərvərlik və dövlətçilik hissinin aşılanması, milli mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilməkdədir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QULLUQÇULARININ XİDMƏTİ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ İNNOVASİYALARIN TƏTBİQİ

**Məmmədova Şahanə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Məqalədə Azərbaycanda vətəndaş cəmiyyətinin uğurları və problemləri təhlil edilir. İlk növbədə qeyd edilmişdir ki, vətəndaş cəmiyyəti dövlət strukturlarından kənarda yaranaraq ictimai həmrəyliyi idarə edir və könüllü, təmənnasız fəaliyyət göstərir.



Məqalədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin canlanmasında rolu olan amillər qeyd edilir. Xüsusi olaraq vurğulanır ki, QHT-lərin səmərəli işləmələrinə müsbət təsir göstərən hüquqi bazanın formalaşması az rol oynamamışdır.

Məqalədə QHT sahəsində təşkilatlanma, bu sahədə dövlət siyasəti, dövlət dəstəyi və s. kimi məsələlər öyrənilir. Həmçinin bu sahədə həyata keçirilən islahatlar təhlil edilir. Qeyd edilir ki, QHT-lərin fəaliyyətində şəffaflığın artırılması ilə bağlı məsələlər dövlət orqanları tərəfindən vaxtaşırı qaldırılır və vurğulanır. Bu da üçüncü sektorun daha dainkişaf etməsinə yönəlib.

Dövlət sektorunda səmərəliliyi təmin etmək çox böyük ölçüdə dövlət qulluqçularının fəaliyyətindən asılıdır. Dövlət qulluğunda, hər bir işçinin, istər idarəedici, istərsə də sıravi işçi olsun, şəxsi uğuru səmərəliliyin ən vacib amillərindən biridir. Bu reallıqdan çıxış etməklə fəaliyyətin qiymətləndirilməsi müasir dövrdə sistematik fəaliyyət sahəsinə çevrilməkdədir. Dövlət sektorunda fəaliyyətin qiymətləndirilməsi uğurlu və uğursuz kadrların müəyyənləşdirilməsi, onların təlim ehtiyaclarının müəyyənləşdirilməsi üçün istifadə olunan idarəetmə metodudur.

Xidməti fəaliyyətin qiymətləndirilməsi işin dəyərləndiril-məsi, kadr idarəçiliyi, işə qəbul, işdən azad etmə, vəzifə pilləsində irəliləmə, əmək haqqı tənzimlənməsi kimi fəaliyyətlərin təsadüfi qərarlardan azad edilməklə səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradılır. Qeyd olunan məqsədlərə çatmağa kömək edəcək qiymətləndirmə sistemi ədalətli, real və qərəzdən azad olmalıdır.

Performans qiymətləndirmə prosesinin müvəffəqiyyəti, qiymətləndiricilər və qiymətləndirilənlərin bu prosesə səmimi və peşəkar yanaşması ilə bağlıdır. Xüsusilə menecerlərin məsul olduğu bölmədə həm şəxsi, həm də həm təşkilatçılıq fəaliyyətinin

yaxşılaşdırılması baxımından, qiymətləndirmənin faydasına inamı mühüm əhəmiyyətə malikdir. Heyət isə qiymətləndirməni uğurlu və uğursuz kadrları bir-birindən ayıran, müvəffəq olduqları təqdirdə işlərinin dəyərləndiridiyini görməyə imkan verən və çatışmayan cəhətlərini öyrənərək özlərini inkişaf etdirmə imkanı verən bir fəaliyyət kimi görməlidir.

Bu gün bir çox inkişaf etmiş ölkələr xidməti fəaliyyətin qiymətləndirilməsi anlayışını yüksək səviyyəli performans mədəniyyəti formalaşdırmağa hesablayaraq, xidmət göstərilmə-sindəki strateji hədəflərin inkişaf etdirilməsi və fərdi performansın artırılmasına fokuslanaraq həyata keçirməkdədirlər. Bu baxımdan dövlət sektorunda müasir performans qiymətləndirmə metodla-rından geniş istifadə edildiyi görülür.

Qloballaşan, informasiya cəmiyyətinə çevrilən və artan rəqabət şəraitində olan bugünkü dünyada dövlətlərin klassik üsullarla dövlət idarəçiliyini inkişaf etdirməsi, səmərəli xidmətlər göstərməsi və vətəndaş məmnunluğunun təmin edilməsi mümkün deyil. Dövlət idarəçiliyi ideyasının dəyişdiyi və institusional quruluşda, vəzifələrdə və xidmət göstərmə formalarında transfor-masiya yaşandığı bu mühitdə dövlət sektorunda performansa söykənən xidmət göstərilməsi anlayışı geniş yayılmışdır. Müasir tendensiyalar giriş və çıxış yönümlü bir yanaşma əvəzinə, geniş bir monitorinq və qiymətləndirməyə əsaslanan yeni idarəetmə mədəniyyətinin formalaşmasına gətirib çıxarır.

Bu gün vətəndaşlara dövlət xidmətləri göstərən kadrlar sisteminin lazımi sayda və keyfiyyətlə təmin edilməsi, iş şəraitinin müəyyənləşdirilməsi, əmək haqqı və ödəniş üsullarının müəyyən-ləşdirilməsi, peşə üzrə səriştəli olmaq üçün xidmətdə təlim və digər əlavələr nəzərə alınır.



Müxtəlif ölkələrin dövlət qulluğu orqanlarında, təşkilatlarda qulluq fəaliyyətinin qiymətləndirilməsi fərqli qaydalarda həyata keçirilir. Lakin məzmun və əsas məqsəd eynidir. Ayrı-ayrı ölkələr-də tətbiq edilən qiymətləndirmə formasına nəzər saldıqda onları ümumiləşdirən, bəzən də hətta eyniləşdirən çox oxşar cəhətlər üzə çıxır.

Müasir dövlət qulluğu sisteminin formalaşdırıldığı Azərbay-canda xidməti fəaliyyətin qiymətləndirilməsinin təkmilləş-diril-məsi istiqamətində mühüm addımlar atılmaqdadır. Bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə yanaşı, institusional istiqamətdə də vacib qərarlar qəbul edilmişdir. Həmçinin qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi diqqət mərkəzindədir. Bütün bunlar mövzunun aktullığını ortaya qoyur.

## AZƏRBAYCAN, ÇİN VƏ KOREYADA BƏRPA OLUNAN ENERJİ SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ: YAŞIL İNKİŞAF ÜÇÜN YENİ TƏKLİFLƏR

**Mikayılov Cahid**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Giriş.** Zəngin karbohidrogen resurslarından səmərəli istifadə edərək qlobal miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Azərbaycanda ədalətli enerji keçidi dəstəklənir. Milli maraqlara əsaslanan praqmatik siyasət ölkəmizi regional miqyaslı və qlobal əhəmiyyətli transmilli layihələrdə mərkəzi oyunçuya çevirmişdir və gələcəkdə də yaşıl enerji istehsalı və ixracı

ilə qitənin enerji təhlükəsizliyinin təmininə böyük töhfələr veriləcəkdir.

Bunun üçün, Azərbaycanda kifayət qədər yüksək potensial vardır. Quruda bərpa olunan enerji mənbələri üçün iqtisadi potensial 27 QVt, dənizdə bərpa olunan enerji mənbələri üçün texniki potensial isə 157 QVt təşkil edir.

Azərbaycan hökuməti tərəfindən sosial-iqtisadi inkişafın milli prioritetlərinə və BMT-nin inkişaf gündəliyinə uyğun olaraq 2030-cu ilə qədər dayanıqlı, bərpa olunan mənbələrin ümumi qoyuluş gücündə payını ən az 30%-ə çatdırmaqla bağlı hədəf müəyyənləşdirilib. Azərbaycan Paris Sazişinə əsasən 1990-cı il səviyyəsi ilə müqayisədə 2030-cu ilə qədər emissiyalarını 35%, 2050-ci ilə qədər isə 40% azaltmağı öhdəsinə götürüb.

Qeyd edilən hədəflərə nail olmaq üçün bir çox işlər görülüb və uğurlu nəticələr əldə edilib. Bu tezisdə ölkədə bərpa olunan enerji mənbələrinin inkişafını daha da gücləndirə biləcək bəzi siyasət alətləri təklif edilir.

Tezisi istiqamətləndirən sual belədir: Çin və Koreya təcrübəsinə əsaslanaraq Azərbaycanda bərpa olunan enerjinin təşviqi üçün ən effektiv siyasət alətləri hansılardır?

Bu suala cavab vermək üçün tezis iki hissədən ibarət olmaqla formalaşdırırlıb. Birinci hissədə Azərbaycanda bərpa olunan enerjidən istifadənin mövcud vəziyyəti, o cümlədən potensialı, inkişafı üçün imkanlar haqqında ümumi məlumat verilib və milli enerji kompleksində bərpa olunan enerjinin payının artırılması üzrə Azərbaycan hökumətinin gələcək planları qeyd edilib. İkinci hissədə Çin Xalq Republikası və Cənubi Koreyanın bərpa olunan enerji siyasəti sahəsində təcrübəsi tədqiq edilib, iki təşviq siyasəti alətinə diqqət yetirilib: Feed-in Tarif (FIT) və Renewable Portfolio Standard



(RPS). Həmçinin bu alətlər Azərbaycanda istifadə olunan hərraclar və birbaşa müqavilələr kimi mövcud siyasət alətləri ilə müqayisə edilib.

**Azərbaycanda bərpa olunan enerji: mövcud vəziyyət və gələcək planlar.** Cənubi Qafqazın lider dövləti olan Azərbaycan enerji sahəsində xarici təchizatçılardan asılılığı olmayan ölkədir. Üstəlik həm neft-qaz, həm də elektrik enerjisi ixracatı bu gün region ölkələri ilə yanaşı Avropa ölkələrinin də enerji təhlükəsizliyinə töhfə verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu rasional enerji siyasəti bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli və dayanıqlı inkişafını təmin edir.

Azərbaycanda elektrikləşmə səviyyəsi 100% həddindədir. Buna baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri məhz ölkəmizdə yaşıl enerjidən istifadənin gücləndirilməsindən ibarətdir.

2022-ci ildə elektrik enerjinin istehsalı 29 mlrd. kVt·st olmuşdur ki, bunun 2.1 mlrd. kVt·st-ı yaşıl enerji mənbələrinin payına düşmüşdür. Elektrik enerjisinin istehsalında yaşıl mənbələrin payı 7.2%, qoyuluş gücündə isə 17% olmuşdur.

Ölkəmizdə "yaşıl enerji"dən istifadə sahəsinin inkişaf etdirilməsi, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə müvafiq qanun və normativ hüquqi aktlar qəbul edilmişdir. Bərpa olunan enerjinin inkişafına xüsusi töhfə verən "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanunu təsdiq edilmişdir.

2019-cu ilədək dövlət büdcəsi Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadənin inkişafının əsas maliyyə mənbəyi olmuşdur. Həmin ildən etibarən isə "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 1209 nömrəli

sərəncam ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə ölkədə yaşıl enerji sahəsində yeni istehsal güclərinin yaradılması işinə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində işlər aparılıb.

2020-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin tamamilə xarici investsiya hesabına həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb.

"Masdar" şirkətinin reallaşdırdığı 230 MVt gücündə Qaradağ GES cari ilin oktyabr ayında istismara verilib. "ACWA Power" şirkəti tərəfindən işlənilən 240 MVt gücündə KES layihəsi isə 2025-ci ildə istismara veriləcəkdir.

2027-ci ilədək 2 QVt həcmində "yaşıl güc"lərin enerji sistemimizə inteqrasiyası planlaşdırılır.

**Üç Asiya ölkəsində bərpa olunan enerji siyasəti üzrə müqayisə və təkliflər.** Azərbaycanda bərpa olunan enerji sahəsində əldə edilmiş uğurlarla yanaşı bu sahənin daha da inkişafı üçün hüquqi və institusional bazanın təkmilləşdirilməsinə ehtiyac duyulur.

Təkmilləşdirmə üzrə təkliflərin verilməsi üçün Çin və Koreyaya səfərlər edilmiş, bu ölkələrin bərpa olunan enerji siyasətləri öyrənilmişdir.

Adıçəkilən ölkələr bərpa olunan enerji siyasəti sahəsində iki aparıcı ölkədir və son illərdə bərpa olunan enerji istehsalının artırılmasında nəzərəçarpacaq irəliləyiş əldə etmişlər. Onlar bərpa olunan enerjinin inkişafını dəstəkləmək üçün subsidiyalar, vergi güzəştləri, kreditlər, qrantlar, kvotalar, sertifikatlar və s. kimi müxtəlif siyasət alətlərini qəbul ediblər. Bu alətlər arasında FIT və RPS ən effektiv və geniş istifadə olunanlar hesab olunur.



FIT müəyyən müddət ərzində bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisi üçün sabit qiymətə zəmanət verən siyasət alətidir. İstehsalçılar üçün uzunmüddətli sabit gəlirlilik təmin etməklə bərpa olunan enerjiyə investisiyaları təşviq etmək məqsədi daşıyır. RPS elektrik enerjisi təchizatçılarını bərpa olunan enerji mənbələrindən müəyyən miqdarda elektrik enerjisi almağa və ya istehsal etməyə məcbur edən siyasət alətidir. Təchizatçılara kvota tətbiq etməklə, bərpa olunan enerjiyə bazar tələbi yaratmağı hədəfləyir.

Həm FIT, həm də RPS-in dizayn, tətbiq, monitorinq, qiymətləndirmə və s. kimi müxtəlif amillərdən asılı olan üstünlükləri və çatışmazlıqları var. FIT bol bərpa olunan enerji resurslarına malik olan və bərpa olunan enerji texnologiyalarının sürətlə tətbiqini stimullaşdırmaq istəyən ölkələr üçün daha uyğundur. RPS bərpa olunan enerji istehsalçıları arasında rəqabəti və innovasiyanı təşviq etmək istəyən ölkələr üçün uyğundur.

Azərbaycanda hazırda heç bir FIT və ya RPS sxemi mövcud deyil. Bunun əvəzinə ölkədə bərpa olunan enerjinin inkişafının dəstəklənməsi üçün əsas siyasət alətləri kimi hərraclardan və birbaşa müqavilələrdən istifadə edilir. Hərraclar, təklif olunan ən aşağı qiymətə əsasən bərpa olunan enerji istehsalçılarına müqavilələr verən rəqabətli tender prosesləridir. Birinci hərracın ən tez 2024-cü ildə keçirilməsi planlaşdırılır. Bununla yanaşı ölkədə bir sıra uzunmüddətli ikitərəfli müqavilələr imzalanmış və bərpa olunan enerji stansiyalalrının tikintisinə başlanılmışdır. Əvvəl də qeyd edildiyi kimi, bu sxemlə artıq 230 MVt gücündə günəş elektrik stansiyası istismara verilmişdir.

FIT və RPS ilə müqayisədə hərraclar və birbaşa müqavilələr Azərbaycanda bərpa olunan enerjinin təşviqində effektivliyinə və səmərəliliyinə təsir edə biləcək bəzi məhdudiyyətlər var. Məsələn,

hərraclar qiymət dəyişkənliyinə, təklif sayının aşağı olmasına səbəb ola, və ya ümumiyyətlə baş tutmaya bilər; Birbaşa müqavilələr isə gələcəkdə liberal bazarın sərbəst işinə manelər yarada bilər.

Bu tapıntılara əsaslanaraq, tezisdə təklif edilir ki, Azərbaycanda bərpa olunan enerji sahəsində dövlət siyasətinin daha da təkmilləşdirilməsi üçün FIT və RPS mexanizmlərini tamamlayıcı siyasət alətləri kimi qəbul edilsin. Bu alətlər investorlar və bərpa olunan enerji istehsalçıları üçün daha çox stimul və əminlik təmin edə, həmçinin elektrik enerjisi təchizatçıları və istehlakçıları üçün daha çox bazar imkanları və müxtəliflik yarada bilər. Bundan əlavə, bu alətlər Azərbaycana bərpa olunan enerjinin inkişafı üzrə milli hədəflərinə nail olmaqda kömək edə, həmçinin iqlim dəyişikliyinin azaldılması üzrə beynəlxalq öhdəliklərinə töhfə verə bilər.

Qeyd edilən təşviqedici alətlərlər və onların tətbiqi daha ətraflı şəkildə "Azərbaycan Respublikasında bərpa olunan enerji sahəsində dövlət siyasəti" adlı magistr dissertasiyasında tədqiq edilmişdir.

## LAÇIN RAYONUNUN İQTİSADİ POTENSİALI

**Mirzəyev İsmət**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**

Məqalədə Laçın rayonunun iqtisadi potensialı tədqiq edilmişdir. İlk növbədə qeyd edilmişdir ki, işğaldan azad edilən rayonlardan olan Laçının kifayət qədər zəngin təbii-resurs və iqtisadi potensialı mövcuddur. Bu isə Laçın rayonun iqtisadi potensialının öyrənilməsi və təhlil edilməsi zərurəti və aktuallığını ortaya qoyur. Məqalədə Laçın



rayonunun Azərbaycanın gələcək iqtisadi inkişafında oynayacağı mühüm rola toxunulur. İşğaldan əvvəl Laçın rayonu kənd təsərrüfatı, bir sıra sənaye məhsullarının istehsalında, xüsusilə aqrar sektorda heyvandarlığın inkişafında respublikada öndə gedən rayonlardan hesab olunurdu. Laçın rayonu bərpa prosesindən sonra qısa bir zamanda Azərbaycanda iqtisadi inkişafa dəstək verən aparıcı rayonlardan birinə çevriləcək.

Laçın rayonunun təbii resurs potensialından bəhs edərkən göstərilir ki, rayonun ərazisi yeraltı və yerüstü təbii ehtiyatlarla zəngindir və işğaldan sonra bu obyektlərin dağıdılması ölkəmizə milyardlarla manat zərər vurub.

Məqalədə qeyd edilir ki, işğaldan sonra rayonda qoyunçuluq, maldarlıq və arıçılıq təsərrüfatlarını yaratmaqla bu sahələri rayonun iqtisadi inkişafında aparıcı sahələrdən birinə çevirmək olar. Bununla paralel kənd təsərrüfatının əkinçilik və bitkiçilik potensialından da maksimum yararlanmaq lazımdır. Həmçinin rayon ərazisində inşa ediləcək hava limanı da bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək.

***Açar sözlər:*** *Regional inkişaf, Laçın rayonu, Laçın rayonunun iqtisadi inkişafı, Laçın rayonunun resurs potensialı, Şərqi Zəngəzur iqtisadi rayonu.*

**Giriş.** Uzun illər ərzində Azərbaycanın 20%-dək ərazisi Ermənistanın işğalı altında qalmışdır. Ermənistan həmin ərazilərin təbii resurs potensialını vəhşicəsinə istismar etmişdir. Bu isə ölkəmizin iqtisadiyyatı ilə yanaşı, təbiətinə, ekosisteminə də ciddi ziyan vurmuşdur.

2020-ci ilin 27 sentyabrın başlanan və 10 noyabr 2020-ci il tarixədək davam edən və Azərbaycanın tam qələbəsi ilə yekunlaşan Vətən müharibəsi nəticəsində işğal edilmiş ərazilər düşmən tapdağından azad edilmişdir. Məhz bu qələbə ölkəmizə işğal altında

qalmış ərazilərin, rayonların təbii resurs potensia-lından səmərəli istifadə etmək imkanı vermişdir.

İşğaldan azad edilən rayonlardan olan Laçının kifayət qədər zəngin təbii-resurs və iqtisadi potensialı mövcuddur. Bu isə Laçın rayonun iqtisadi potensialının öyrənilməsi və təhlil edilməsi zəru-rəti və aktuallığını ortaya qoyur.

İşğaldan azad olunmuş rayonlar ölkə iqtisadiyyatına mühüm töhfə verə biləcək. Laçın rayonu da Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq.

Şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəd olan rayon, Azərbaycanın ən qədim insan məskənlərindən biri hesab olunur. Rayon ərazisi narzan, istisu, turşsu kimi mineral bulaqlar, həmçinin qızıl, civə, kükürd, qrafit, əhəng daşı, kəhrəba, vulkanik tuf daşları, mərmər, ipək daşı və s. kimi faydalı qazıntılarla zəngindir. 1 şəhər, 1 qəsəbə, 125 kəndidən ibarət olan rayonun ümumi sahəsi 1835 kvadrat kilometrdir. Əhali, əsasən, heyvandarlıq, bitkiçilik, arıçılıq və qismən də bağçılıq və bostançılıqla məşğul idi. İşğaldan sonra 58736 nəfər laçınlı Azərbaycanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb. Rəsmi məlumatlara əsasən isə 2020-ci il yanvarın 1-də laçınlıların sayı 78.565 nəfər olub.

Laçın rayonu Azərbaycan üçün strateji əhəmiyyət daşımaqla yanaşı, böyük iqtisadi potensiala malikdir: "İşğaldan əvvəl Laçın rayonu kənd təsərrüfatı, bir sıra sənaye məhsullarının istehsalında, xüsusilə aqrar sektorda heyvandarlığın inkişafında respublikada öndə gedən rayonlardan hesab olunurdu. Laçın rayonu kifayət qədər təbii ehtiyatlara malikdir. Rayonda dəmir, mis, mərmər və digər inşaat materiallarının istehsalı üçün xammal ehtiyatları var ki, bu da emaledici sənaye müəssisələrinin formalaşmasına zəmin yaradır. Laçın, eyni zamanda, turizm baxımından, o cümlədən, yay və qış



turizminə malik seçilən rayonlardandır. Laçın rayonu bərpa prosesindən sonra qısa bir zamanda Azərbaycanda iqtisadi inkişafa dəstək verən aparıcı rayonlardan birinə çevriləcək" [2].

Rayonun relyefi dağlar və dağlıq yaylalardan ibarətdir. Ən hündür nöqtəsi isə 3594 metr olan Qızılboğaz dağıdır. Rayon ərazisindən Həkəri çayı və onun qolları keçir. Rayonun meşə fondunun əhəmiyyətli hissəsi işğal dövründə Ermənistan tərəfindən məhv edilib. Rayon ərazisində ümumi sahəsi 1092 hektar olan üçüncü dövrün relikt növlərinə aid "Ardıc meşəsi" dövlət təbiət abidəsi kimi xüsusi qiymətli meşə sahələrinin siyahısına daxil edilib. Eyni zamanda, Laçında 2 xüsusi mühafizə olunan təbiət ərazisi - Qaragöl Dövlət Təbiət Qoruğu və Laçın Dövlət Təbiət Yasaqlığı yerləşir. Qaragöl Dövlət Təbiət Qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 metr hündürlükdə, Həkəri çayının sağ qolu olan Ağoğlan çayının mənbəyinə yaxın 240 hektar ərazidə yaradılıb. Laçın Dövlət Təbiət Yasaqlığı isə 1961-ci ilin noyabr ayında Laçın rayonu ərazisində 20000 hektar ərazidə yaradılıb. Laçın rayonu zəngin faydalı qazıntılarla, o cümlədən civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Gilgəzçay, Sarıbulaq, Narzanlı civə, Ahnəzər əlvan daşı, Qarabəyli, Dəlikdaş, Çorman və Narzanlı kimi vermikulit yataqları daha böyük ehtiyatlara malikdir. Ümumilikdə, Laçının işğaldan azad olunması ilə ölkəmizin bu gözəl guşəsində həyat yenidən canlanacaq, insanlar öz yurdlarına qayıdacaq və böyük quruculuq işləri həyata keçiriləcək.

Laçının ərazisi yeraltı və yerüstü təbii ehtiyatlarla zəngindir və işğaldan sonra bu obyektlərin dağıdılması ölkəmizə milyardlar-la manat zərər vurub. Təbii şəraitinə görə Laçın rayonu ərazisində, əsasən əkinçilik və arıçılıq üstünlük təşkil edib. Ermənistanla həmsərhəd dağlıq ərazidə yerləşən rayon 1924-cü ildə təsis edilib. 1 şəhər, 1

qəsəbə və 125 kənd olmaqla rayonun bütövlükdə ərazisi 1.84 kv.km təşkil edir. İşğal edilməzdən əvvəl rayonda 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisə, 100 orta məktəb, 5 məktəbəqədər müəssisə, 5 musiqi məktəbi, 1 internat tipli məktəb, 1 texniki peşə məktəbi, 1 rabitə evi fəaliyyət göstərirdi. Bu obyektlərin dağıdılması ilə ölkəmizə milyardlarla manat zərər vuruldu. Məlumdur ki, ərazi yeraltı və yerüstü təbii ehtiyatlarla zəngindir. Ən çox yayılan faydalı qazıntılar əlvan metal filizləri - qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və başqalarıdır. Rayonda dünyada nadir ağaclardan sayılan qırmızı dəmirağac meşələri, kobalt, uran, dəmir yataqları da var. İllərdir iqtisadiyyatdan kənar qalan rayonun təbii sərvətləri ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə təkan verə bilər.

Rayon ərazisində böyük müalicəvi əhəmiyyətə malik 120-dək müxtəlif tərkibli mineral su yataqları var. 20-dən çox müalicə əhəmiyyətli bulaq var ki, bunlardan İlıqsu, Tutqunçay və 4.300 m3/gün ehtiyatı olan Minkənd mineral suları diqqəti xüsusilə cəlb edir. Palıd meşələri, saf qaynaq suları, şəlalələr, dağlar, düzənlər, yaylaqlar rayonun ərazisindən hər növ turizm üçün istifadə etmək imkanı verir. Rayonda, xüsusilə, müalicəvi sanatoriya tipli turizm obyektləri inşa edilə bilər, o cümlədən, dağlıq ərazilərdə dağ-idman turizmi təşkil oluna bilər.

İşğaldan azad olunmuş ərazilərdə aqrar sektorun potensialının böyük olduğunu həqiqətdir. Məlum olduğu kimi, bütün dünya hazırda qida təhlükəsi ilə üz-üzədir. Almaniyanın "Aclıqla Mübarizə Təşkilatı” (Welthungerhilfe) dünya miqyasında aclıq problemi ilə qarşı-qarşıya qalan insan sayının yaxın zamanlarda bir milyarda yüksələcəyini vurğulayır. Təşkilatın 2019-cu il hesabatında dünyada təqribən 820 milyon insanın aclıqla üz-üzə olduğu qeyd olunur. COVİD-19 epidemiyasının yayılması və ardınca qida məhsullarının



qiymətlərində yüksəlmə aclıq problemini daha da dərinləşdirib. Hazırda torpağın ən dəyərli olduğu bir dövrdəyik. Dövlət Statistika Komitəsinin hesabatında bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi cəmi 1665,7 milyon hektar göstərilirdi [3] İndi isə torpaqlarımızın böyük əksəriyyəti işğaldan azad edilmişdir. Hazırkı vəziyyətdə atılacaq ilk addım həmin ərazilərdə sürətlə məskunlaşma aparmaqdır.

Məlumat üçün bildirək ki, bu bölgədə inşaat sektoru üçün əhəmiyyətli hesab edilən xammal bazası mövcuddur. İşğaldan öncə mərmər, əhəng sexləri, iki ədəd daş karxanası fəaliyyət göstərib. Bu, bir daha rayonun yenidən biznes ənənələrini bərpa etmək üçün fundamental əsaslardandır. Nəzərə alsaq ki, Qarabağın inkişafında əsas inkişaf faktoru tikinti sektoruna yararlı xammal bazasıdır, Laçın rayonu da bu istiqamətdə yaranacaq inkişaf tra-yektoriyasında mühüm paya sahib olacaqdır.
6000 ton süd, 5000 ton ət, 400 tondan çox yun...

İqtisadi İslahatlar Mərkəzinin məlumatına görə, Laçın rayonunun bir sıra investisiya tutumlu sahələri var ki, bura kənd təsərrüfatı, heyvandarlıq, toxuculuq, tikinti və turizm sektoru daxildir. İşğaldan əvvəl əməkqabiliyyətli əhalinin təxminən 82 faizi kənd əhalisi olub. Bütün bu göstəricilər yerli fermerlər üçün əlavə imkanlar yaradır.

Kənd təsərrüfatında əsas bitkiçilik məhsullarının dənli və dənli paxlalıların (o cümlədən buğdanın) istehsalı 2450 ton olmaqla üstünlük təşkil edir [4]. Digər kənd təsərrüfatı məhsullarından şəkər çuğunduru, kartof, tərəvəz, bostan bitkilərini söyləmək mümkündür. Əhali, əsasən heyvandarlıqla məşğul olmuş və iri-buynuzlu mal-qara, arı, qoyun və keçilər saxlayıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 1990-cı ildə Laçın rayonunda təxminən 40 min iribuynuzlu mal-qara, 240 min qoyun-keçi olmuşdur. İşğaldan əvvəl

hər il rayon üzrə dövlətə 6000 ton süd, 5000 ton ət, 400 tondan çox yun satılırdı.

Laçın rayonunun ərazisində toxuculuq sənəti də inkişaf etmişdi. Burada yundan toxunan at çulu, palaz, kilim, xalça, zili, xurcun, fərməş xüsusi gözəlliyi ilə seçilib. Dünyada "Qasımuşağı" adı ilə tanınan xalçanın yaranması Laçın rayonun adı ilə bağlıdır. Sovetlər dönəmində rayonda yun və gön-dəri qəbulu müəssisəsi fəaliyyət göstərib. Bütün bu istiqamətlər gələcəkdə rayonun Qarabağın yüngül sənayesinin inkişafında dəstəkləyici faktora çevrilməyinə səbəb olacaq.

Laçının kifayət qədər geniş olan rekreasiya imkanlarının və regionun mineral su ehtiyatlarının mövcudluğu içki sənayesində yeni emal güclərini ortaya çıxaracaq.

Rayon ərazisində olan İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı və zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək.

Bu imkanlardan istifadə edərək rayonda "içki sənayesi-turizm-rekreasiya" üçbucağının yaradılmasına nail oluna bilər. Əgər bunu müasir tələblərə uyğun şəkildə qura bilinsə, bu üçbucaq zəncirvari reaksiya effekti ilə turizm üçün daha cəlbedici amilə çevriləcək.

Laçın əhatə etdiyi ərazilərə görə Azərbaycanda 8-ci inzibati rayon olmaqla böyük strateji-iqtisadi əhəmiyyətə malikdir. Laçin eyni zamanda Kəlbəcər-Laçın iqtisadi rayonunun ən inkişaf etmiş rayonu, Laçın şəhəri isə iqtisadi rayonun önəmli şəhəri hesab edilir.

Laçın rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil edib. İşğaldan sonra da qoyunçuluq, maldarlıq və arıçılıq təsərrüfatlarını yaratmaqla bu sahələri rayonun iqtisadi inkişafında aparıcı sahələrdən birinə çevirmək olar. Bununla paralel kənd təsərrüfatının əkinçilik və bitkiçilik potensialından da maksimum yararlanmaq lazımdır.



Laçında civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad kimi çox növlü faydalı qazıntı ehtiyatlarının olması bu rayonun iqtisadi potensialını artırır. Hər iki rayonun qonşu olması ehtiyatların hasilatdan sonrakı emal proseslərində birgə işlənmənin tətbiqinə imkan verəcək ki, bu da rentabellik göstəricilərinin yüksəldilməsinə şərait yaradacaq.

Qarabağın, eləcə də ətraf rayonların Ermənistanla əlaqəsinin Laçın üzərindən edilməsi buranın iqtisadi təşəkkülünə öz təsirini göstərəcək. "Laçın dəhlizi" kimi tanınan yol əslində, Yerevan-Gorus-Laçın-Şuşa-Xankəndi yoludur. Kəlbəcər və Qubadlı kimi digər rayonlar da bu yola birləşir. Perspektivdə bu yolun daha da genişləndiriləcəyini və rus sülhməramlılarının bu dəhlizdə əbədi qalmayacağını, tədricən münasibətlərin fərqli istiqamətdə inkişaf edəcəyini nəzərə alsaq, bir müddət sonra Laçın ticarət fəaliyyətlərindən bəhrələnən bir rayon olacaq: "Çünki bu gün daha çox hərbi münaqişədə adı hallanan bu marşrut bir gün öz təyinatını ticari münasibətlərə və yükdaşımaya dəyişəcək. Bu gün bu mənzərəni təsəvvür etmək çətin olsa da, amma tarix bunu göstərir ki, belə keçidlər, əvvəl müharibələrə, sonra ticarətə xidmət edir. Məsələn, illərboyu müharibələrin xidmətində duran Xudafərin körpüsü artıq təyinatını çoxdan dəyişib. Odur ki, Qarabağın, eləcə də ətraf rayonların Ermənistanla əlaqəsinin bu cografiya üzərindən edilməsi buranın iqtisadi təşəkkülünə öz təsirini göstərəcək. Çünki burada təkcə əmtəə bazarının yüksəlişi deyil, eyni zamanda kontraktasiya müqavilələrinin bağlanması üçün çox əlverişli mühit yaranacaq"[5].

Sürətli inşaat işləri ilə yanaşı, yeni və fərqli təyinatlı infrastruktur layihələrin həyata keçirilməsi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının yüksək iqtisadi potensialından xəbər verir.

Rayonun Qorçu kəndinin ərazisində inşa edilən hava limanı da bu baxımdan bölgənin sosial-iqtisadi inkişafına, turizm potensialına təkan verəcək.

1 şəhər, 1 qəsəbə, 125 kənddən ibarət olan Laçında işğal zamanı 13 min 745 yaşayış evi qarət edilərək yandırılsa da, rayona ümumilikdə 7.1 milyard ABŞ dollarından çox ziyan dəysə də, Laçın yenə də öz gözəlliyini və əsrarəngizliyini itimədi. Şimaldan Kəlbəcər, Şərqdən Xocalı, Şuşa və Xocavənd, Cənubdan Qubadlı, Qərbdən isə Ermənistanla sərhəd olan Laçın dünyada nadir dəmirağac meşələri, 300-400 il yaşında qırmızı palıd ağacları, mineral sular, müxtəlif rəngli mərmər yataqları ilə zəngindir.

Keyfiyyətli su mənbələri, 20-dən çox müalicə əhəmiyyətli bulaqlar da mövcuddur bu yerlərdə. Mineral bulaqlardan vaxtilə müalicə məqsədi ilə istifadə edilirdi. Bu isə onu deməyə əsas veririr ki, Laçının turizm imkanları da olduqca genişdir

Laçında beynəlxalq hava limanın inşası rayonun növbəti dövrdə stareji əhəmiyyətini daha da artıracaq. Laçında inşa ediləcək hava limanı bütövlükdə bölgənin potenisalının təbliğ edilməsi və təhlükəsizliyin formalaşması baxımından vacibdir. Bu əslində regionun təhlükəsizliyinə dəstəkdir. Eyni zamanda rayonun turizm potensialının böyük olması Laçın beynəlxalq hava limanın rentabelli işləməsinə səbəb olacaq. Bu, artıq beynəlxalq uçuşların həyata keçirilməsi, turistlərin gəlməsi, həmin ərazidə istehsal olunacaq qeyri-neft məhsulllarının daha böyük coğrafiyaya, daha böyük bazarlara çıxarılması deməkdir.

Laçın rayonu Azərbaycan üçün strateji əhəmiyyət daşımaqla yanaşı, böyük iqtisadi potensiala malikdir.

Laçın rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil edib. İşğaldan sonra da qoyunçuluq, maldarlıq və arıçılıq təsərrüfatlarını yaratmaqla bu sahələri rayonun



iqtisadi inkişafında aparıcı sahələrdən birinə çevirmək olar. Bununla paralel kənd təsərrüfatının əkinçilik və bitkiçilik potensialından da maksimum yararlanmaq lazımdır.

Sürətli inşaat işləri ilə yanaşı, yeni və fərqli təyinatlı infrastruktur layihələrin həyata keçirilməsi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının yüksək iqtisadi potensialından xəbər verir.

Rayonun Qorçu kəndinin ərazisində inşa edilən hava limanı da bu baxımdan bölgənin sosial-iqtisadi inkişafına, turizm potensialına təkan verəcək.

## Ədəbiyyat

1. http://www.lachin-ih.gov.az/page/24.html
2. https://azertag.az/xeber/Deputat_Lachin_qisa_zamanda_iqtisadi_inkisafa_destek_veren_aparici_rayonlardan_birine_chevrilecek-1658997
3. https://www.kaspi.az/az/qarabain-inkisaf-trayektoriyasinda-muhum-paya-sahib-olacaq-rayon
4. https://azertag.az/xeber/Isgaldan_azad_olunan_Lachinda_aqrar_senaye_ve_turizm_saheleri_inkisaf_etdirilecek____Tehlil-1654935
5. https://az.trend.az/business/3342828.html
6. https://www.realtv.az/news/az/96281/lachinin-iqtisadi-potensiali-video

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BƏRPA İŞLƏRİNİN APARILMASINDA GƏNCLƏRİN FƏALİYYƏTİ

**Muradxanlı Muradxan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**

Postkonflik və postm üharibə dövründə işğaldan azad olun-muş ərazilərdə yenidənqurma işlərində gənclərin fəaliyyəti də mühümdü. Bu tezisdə gənclərin işğal olunuş ərazilərin bərpa işlərində fəaliyyəti haqqında məlumat verilmişdir. Azərbaycan müasir və dayanıqlı iqtisadi artıma, innovasiyalara, maliyyə sabitliyinə, qlobal dəyər zəncirinə inteqrasiyaya diqqət yetirməklə 2022-2030-cu illəri əhatə edən yeni strateji inkişaf mərhələsinə qədəm qoyur. "Azərbaycan-2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" təsdiq edilib və 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası hazırlanıb.

Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz bu məqsədlə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən



"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir.

Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı artacaq, qeyri-xammal ixracı genişlənəcəkdir.

Qeyri-neft/qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək.

Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsi yüksələcək, iqtisadiyyatda şəffaflıq daha da artacaq, iqtisadi idarəetmənin keyfiyyəti yeni səviyyəyə qalxacaqdır. Dövlət əmlakının özəlləşdirilməsi və dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, burada dövlət payının azaldılması sahəsində müvafiq işlər görüləcəkdir.Bütün bu sahələrdə işğaldan azad olunmuş ərazilərdə gənclərin fəaliyyətinə xüsusi yer verilmişdşir.

Azərbaycan ordusunun şanlı qələbəsi ilə bitən İkinci Qarabağ Müharibəsi işğal edilmiş ərazilərin azad edilməsi ilə nəticələnməklə yanaşı Erməni işğalçılarının həyata keçirdiyi dağıntıların tam olaraq üzə çıxmasına imkan yaratdı. Bir daha məlum oldu ki, otuz ilə yaxın davam edən işğal müddətində Erməni vandalları işğal etdikləri Azərbaycan ərazilərində böyük dağıntılar həyata keçirmiş və mövcud

olan infrastrukturu demək olar ki, tamamən məhv etmişdir. Əvəzində isə hətta özləri üçün belə heç bir infrastruktur formalaşdırmamışdır. Biz bunun xüsusilə Ağdam nümunəsində şahidi olduq. Müharibədən sonra Ağdama səfər edən xarici media nümayəndələri hətta Ağdamı Cənubi Qafqazın Xirosiması adlandırdı. BMT-nin hesablamalarına görə işğal nəticəsində Azərbaycana dəymiş iqtisadi zərərin həcmi 53.5 milyard ABŞ dolları həcmindədir (bundan sonra dollar). İşğal nəticəsində bütün istiqamətlər üzrə Azərbaycana dəymiş zərəri hesablasaq o zaman dəymiş zərərin daha böyük olduğu görərik. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən işğal nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə ümumilikdə 265 milyard dollar ziyan dəyib. Hərbi Prokurorluq tərəfindən aparılmış kompleks məhkəmə eksper-tizasının ilkin hesablamalarına görə isə bütün istiqamətlər üzrə dəymiş maddi ziyanın ümumi həcmi 819 milyard dollar təşkil edir. Dağıntıların hərtərəfli və miqyasının böyük olması isə azad edilmiş ərazilərin bərpası prosesini mürəkkəb və zaman alan prosesə çevirir. Ona görə də bərpa prosesinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə həyata keçirilməsinə ehtiyac yaranır. Bunları nəzərə alaraq İkinci Qarabağ müharibəsi bitdikdən dərhal sonra azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün tapşırıqlar verildi və "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başlandı.

Ümumilikdə, bərpa prosesi ilə bağlı müəyyən edilmiş əsas məqsədlərə aşağıdakıları aid etmək olar: • Bərpa prosesinin keyfiyyətli və qənaətli şəkildə həyata keçirilməsi • Müasir standartlara cavab verən inkişaf modelinin yaradılması • Azad edilmiş ərazilərin texnologiya baxımından yüksək inkişaf etmiş əraziyə çevrilməsi • Qabaqcıl texnoloji şirkətlərin bərpa prosesinə cəlb edilməsi • Azad edilmiş ərazilərin "Yaşıl Enerji" zonasına çevrilməsi



- İşğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyaclarının müəyyənləşdirilməsi, mövcud təhsil infrastrukturunun vəziyyə-tinin qiymətləndirilməsi və fəaliyyətinin təşkili ilə bağlı planların hazırlanması;
- - İşğaldan azad olunmuş ərazilərdə təhsil müəssisələrinin tikilməsi / bərpası (əhalinin sayına uyğun);
- - İşğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil, səhiyyə, sosial və digər xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətlərin stimullaşdırılması;
- - İşğaldan azad olunmuş ərazilərdə məşğulluğun strukturu baxımından prioritet sahələr üzrə mövcud təhsil müəssisə-lərində mütəxəssislərin hazırlanması;
- - Bölgələrin ənənəvi, coğrafi və s. xüsusiyyətlərinə uyğun xüsusi profilli təhsil müəssisələrinin (məktəbdənkənar, peşə, orta ixtisas, ali) və əlavə kursların yaradılması.

## REGİONAL İNKİŞAFDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Musayev Fuad**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Müstəqil dövlət kimi Azərbaycan 25 il ərzində azərbaycan-çılıq ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmiş və demokratik, hüquqı dövlət qurmaq imkanı yaratmış-dır. Daxili və xarici siyasət sayəsində iqtisadiyyatımız inkişaf etmiş, mədəniy-yətimiz zənginlənmişdir. İslahatların ilk illərdə ləng getməsi ilə maraqlanan ulu öndərimiz Heydər Əliyev bunun səbəbini hələ 1996-cı

ildə aşkara çıxarmış və regionlaşmanın həyata keçirilməsi, regional siyasətin işlənib hazırlanması zəruriliyyətini qeyd etmişdi. Müasir dövrdə qabaqcıl iqtisadiyyata malik dünya ölkələrində iqtisadiyyatın dövlət tənzimlənməsi müxtəlif metod və mexanizmlərlə tənzimlənir. Bütün dünyada qəbul olunan regional inkişaf mexanizmi və onun öyrənilmə metodları Azərbaycan Respublikasında da geniş tətbiq olunur. Bunun üçün dövlətin qarşıya qoyduğu regionların sosial-iqtisadi inkişaf siyasəti regional inkişafın təminatçısı, habelə ölkəmizin bu sahədə uğurlu, tarazlı, davamlı və dinamik inkişafının göstərici-sidir. Bu baxımdan ölkəmizdə regional iqtisadi inkişaf strategiyası qarşıya qoyulan məqsədlər və o məqsədlərə çatmağa yönələn hədəflərlə qiymətləndirilir.

Regional siyasət iqtisadi siyasətin əsası olaraq dövlətlə regionlar arasındakı əlaqəni habelə regionların öz aralarındakı münasibətlərini öyrənir. Bu baxımdan regional siyasət hər zaman ölkənin iqtisadi siyasəti kimi qiymətləndirilir. İqtisadi siyasət ümumilikdə bütöv ölkə üçün qiymətləndirilirsə, regional siyasət hər hansı bir regionun iqtisadi durumu kimi qiymətləndirilir. Beləcə bütün regionların iqtisadi uğurları cəmlənərək ölkənin iqtisadi siyasət uğuru "kompozisiyasını" yaradır. Odur ki, regional inkişafsız ölkə iqtisadi qüdrətini yarada yaxud bərpa edə bilməz. Ölkənin makroiqtisadi göstəricilərinin artımı, xarici iqtisadi əlaqələrin inkişafı və əhalinin rifah halının yüksəlməsi dövlətin iqtisadi siyasəti düzgün istiqamətləndirilməsidir. Vətəndaşların qayğısına qalmaq, ölkənin iqtisadi qüdrəti inkişafı, təbii resurs, insan kapitalı, normatıv-hüquqi aktlar daxili idarəetmə mexanizm-ləri vasitəsilə tənzimlənir.

Dövlətsizləşdirmə, özəlləşdirmənin həyata keçirilməsi yeni mülkiyyət formalarının yaradılması, regional siyasətin həyata keçirilməsi davamlı sosialiqtisadi inkişaf strategiyası regionların 13 il ərzində inkişafı üçün təkan vermişdir. Azərbaycan Respub-likası



regionlarının inkişafı həm proqramın uğurla həyata keçiril-məsində və sürətləndirilməsi, həm də 2004-2017 - ci illərin icrası ilə əlaqədar respublika iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər tədqiq olunan mövzunun müasirliyini və aktuallığını sübut edir. Proqramların yerinə yetirilməsinin müzakirəsi region-ların inkişaf sahəsində qəbul edilmiş və sosial-iqtisadi tədbirlərlə bağlı 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üçün region-ların sosial-iqtisadi inkişafı Dövlət Proqramının işlənib hazır-lanması zürriyyətinin qeyd etməsi tədqiqatın mövzusunun aktual-lığını bir daha təsdiq edir.

## PANDEMİYA DÖVRÜNDƏ DÜNYADA TƏHSİL İDARƏÇİLİYİNİN VƏZİYYƏTİ

**Musayeva Röya**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Bir məfhum kimi, "təhsil" praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusudur. YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. Diqqət yetirin ki, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etmə-sini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icma-larının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir [1].

Əlbəttə, bu çox fərdiyyətçi yanaşmadır – yəni burada insanlara toplum kimi deyil, fərdlər kimi baxılır. İnsanlara həm də cəmiyyət nöqteyi-nəzərindən yanaşmaq lazımdır, belə olduqda əlavə, mahiyyətcə yeni perspektivlər, yanaşmalar və prioritetlər ortaya çıxır. Məsələn, plüralist cəmiyyətlərdə, o cümlədən Qərb demokratiyalarında bəzi qruplar fərdin muxtariyyətini tamamən qəbul edə bilmirlər, çünki onların fikrincə, yalnız öz eqosuna və hüquqlarına qapılmış fərdlər milli-mədəni normalara, inanclara və ənənələrə tabe olmamaqla milli (etnik, mədəni və ya konfessional) qrupun varlığını zəiflədə bilərlər. Beləcə öz milli mahiyyətini fərdiyyətçiliyin təhlükəsi altında görən qruplar dövlət tərəfindən təmin edilən icbari və formal təhsili heç də həmişə faydalı hesab etmirlər. Bununla belə, bütün milli-siyasi qruplar (millətlər və dövlətlər) qəbul edirlər ki, onların davamlı gələcəyi təhsil proseslərindən asılıdır. 1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı ki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir. O qeyd edirdi ki, "sosial qrupun hər bir üzvünün doğuluş və ölümünün qaçılmazlığı" təhsili labüd edir, zira bu bioloji dövriliyə baxmayaraq, "qrupun həyatı davam etməlidir".

Pandemiya dövrünə qədər yeni elmi-texniki sahələrin inkişafı, informasiya texnologiyalarının geniş vüsəti, ənənəvi texnologiyalar sahəsindəki innovasiyalar, yeni ticari münasibətlər, ictimai və korporativ məşğulluq sahəsində sürətlə dəyişən tələblər və yeni siyasi proseslərin miqyası inkişaf etməkdə olan ölkələri insan potensialının inkişafının əsaslarını yenidən düşünməyə vadar edir. Eyni zamanda, inkluzivlik, yəni indiyədək inkişaf proses-lərindən kənarda qalmışların da ağuşa götürülməsi çağırışlarına artıq məhəl qoymamaq olmaz, çünki ədalətli və bərabərhüquqlu dünyaya aparan yollar inkluzivlik və iştirak kimi əkiz anlayışlar üzərində qurulmuşdur.



Yuval Noah Harari "XXI əsr üçün 21 dərs" adlı tədqiqatında qeyd edir ki, bu gün doğulmuş körpə 2050-ci ildə 30+ yaşında olacaq. Əgər hər şey yaxşı olsa, 2100-cü ildə də buralarda olacaq, hətta o, XXII əsrin aktiv vətəndaşı ola bilər. Biz bu körpəyə nə öyrədək ki, 2050-ci ilin və ya XXII əsrin dünyasında yaşaya bilib tərəqqi etsin?" COVID-19 böhranı kontekstində yanaşanda bu sual çox düşündürücü səslənir. Bu böhran dünya siyasətini, dünya iqtisadiyyatını, bütövlükdə XXI əsr insanını silkələdiyi və sarsıtdığı kimi dünya təhsil sistemini də postpandemiya dövründə yeni çağırışlar, yeni yanaşmalar axtarışında qoyur.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) martın 11-də COVID-19 infeksiyasını pandemiya elan etdikdən sonra bəzi dünya ölkələri (həmçinin bu təhlükəni əvvəlcədən hiss edən Azərbaycan rəhbər-liyi) bu bioloji təhlükəni qabaqlamaq üçün ilkin addımlardan biri kimi karantin rejiminin tətbiqi, o cümlədən orta və ali məktəblərdə tədrisin dayandırılması qərarını verdilər.

Pandemiyanın qlobal miqyasda təhsilə ən açıq təsiri məktəblərin bağlanması oldu. Ümumdünya Səhiyyə Təşkilatının "Koronavirus Xəstəliyi 2019 (COVID-19) Vəziyyət Hesabatı"na görə, yeni koronavirus səbəbiylə məktəblərin bağlanması dünya üzrə 1,5 milyarddan çox uşaq və gəncə təsir edib. Bir neçə ölkə milyonlarla şagirdə təsir edən lokallaşdırılmış qapadılmalar həyata keçirmiş, əksər ölkələr isə bütün ölkə miqyasında məktəblərin bağlanmasını həyata keçirmişdir. Pandemiya qlobal miqyasda təhsilin görünməmiş səviyyədə pozulmasına səbəb olub. Aprelin 3-nə kimi 195 ölkədə məktəblər bağlanmağa məcbur oldu və bu, dünya tələbə əhalisinin 91%-dən çoxuna təsir etdi".

Innocenti Research Brief 2020-10-dan (UNICEF, 2020a) götürülmüş məlumatlardan göründüyü kimi, müəllif tərəfindən orta gəlirli və orta gəlirdən çox olan ailələrdən olan tələbələr üçün

əlçatanlıq və əlçatanlıq ölçüsünə uyğun olaraq yenidən təşkil edilmişdir. Ən çox istifadə edilən və faydalanan və distant təhsil kanalı Türkiyə, Monteneqro, Meksika və digər ölkələrdə məktəbəqədər distant təhsil də daxil olmaqla geniş siniflər üçün hazırlanmış TV məzmunu (%78) idi. Distant təhsil üçün radio yayımına gəlincə, bu, dağlıq ərazilərdə, adalarda, qütblərdə, arxipelaqlarda və s. yaşadıqları üçün fiziki cəhətdən ən əlverişsiz variant olan uşaqlarla əlaqə saxlamaq üçün ən əlverişli və bəlkə də ən ucuz vasitələrdən biridir. Radio proqramları Tanzaniyanın Covid-19 Pandemiyasına qarşı maarifləndirici reaksiyasında mühüm yer tutur: "UNICEF, ibtidai sinifdən başlayaraq bütün məktəb səviyyələri üçün hazırda 36 radio stansiyası və altı televiziya stansiyası vasitəsilə evdə tədris dərslərinin hazırlanması üçün Tanzaniya Təhsil İnstitutuna dəstək verdi. 2,5 milyon uşağa çatan ibtidai, orta və yüksək səviyyəli orta təhsil". Adalardakı tələbələrə çatmaq üçün radio dramları, dərslər, repetitorluq və digər təhsil verilişlərindən istifadə edən Kabo Verde kimi başqa nümunələr də var.

**Ədəbiyyat**

1. Yılmaz, M.E. Comparison of nutritional habits and food consumption frequencies of childhood and adolescent students studying at a private education ınstitution in Istanbul during distance and FACE-TO-FACE education during the COVİD-19 pandemic period. İstanbul: Yeditepe Üniversitesi, 2023. 196 pages. p. 42.



# DÖVLƏT ORQANLARINDA İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İŞİNİN TƏŞKİLİ (TOVUZ RAYONU TİMSALINDA)

**Mürsəlov Elşən**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Dövlət orqanlarında İctimaiyyətlə Əlaqələr (PR) dövlət qurumları ilə xidmət etdikləri ictimaiyyət arasında kommunikasiyanın strateji idarə olunmasını nəzərdə tutur. Əsas məqsəd şəffaflığın bərqərar olması, etimadın yaradılması və hökumətlə onun seçiciləri arasında müsbət münasibətin gücləndirilməsidir. Dövlət orqanlarında PR fəaliyyətlərinə adətən məlumatların yayılması, böhranın idarə edilməsi, ictimaiyyətlə əlaqə, media ilə əlaqələr və müsbət ictimai imicinin saxlanması daxildir. Effektiv PR hökumətin hərəkətlərinin başa düşülməsini, qiymətləndiril-məsini və ictimaiyyətin gözləntiləri və ehtiyacları ilə uyğunlaş-dırılmasını təmin edir.

Tədqiqatımız aktualdır, çünki o, PR təcrübələrinin Tovuz rayonunda idarəetmənin şəffaflığını necə artıra biləcəyinə işıq salır. Dövlət orqanlarının öz PR işlərini necə təşkil etdiyini başa düşmək hökumətin qərarlarını və fəaliyyətlərini yerli əhaliyə çatdırmaq üçün mövcud mexanizmlər haqqında anlayışlar verir. Bu şəffaflıq vətəndaşların məlumatlı olması və dezinformasiyanın qarşısının alınması üçün çox vacibdir.

Tovuz rayon dövlət orqanlarında PR işinin təşkilinin araşdırılması ona görə aktualdır ki, o, ictimaiyyətin iştirakının və qərarların qəbulu proseslərində iştirakının səviyyəsini qiymət-ləndirir. Effektiv PR strategiyaları vətəndaşların müzakirələrə, məsləhətləşmələrə və

əks əlaqə mexanizmlərinə fəal cəlb olun-masını, hökumətin yerli icmanın ehtiyaclarına cavab verməsini təmin edir.

Tədqiqat PR təcrübələrinin ictimai etimadın qurulmasına və saxlanmasına necə töhfə verdiyini araşdırdığı üçün aktualdır. Dövlət qurumlarına etimadın həyati əhəmiyyət kəsb etdiyi Tovuz rayonunda PR işinin təşkilini başa düşmək etimadın yaradılması, ictimai problemlərin həlli və hökumətin fəaliyyətinin müsbət təsirinin nümayiş etdirilməsi üçün istifadə olunan strategiyaları aşkar edə bilər.

Tədqiqatın aktuallığı Tovuz rayonunda dövlət orqanlarının PR təcrübələri vasitəsilə böhranın idarə edilməsini necə idarə etməsinin araşdırılmasındadır. Böhranlar zamanı effektiv ünsiyyət üçün mövcud strategiyaların tədqiqi hökumətin ictimai etimadı qoruyub saxlamaqla çətinliklərin öhdəsindən gəlmək bacarığına dair dəyərli fikirlər verir.

Tovuz konkret rayon kimi özünəməxsus mədəni, sosial və iqtisadi xüsusiyyətlərə malik ola bilər. Bu kontekstdə dövlət orqanlarında PR işinin təşkilinin başa düşülməsi ictimaiyyətlə əlaqələrə daha lokal yanaşmaya imkan verir. Kommunikasiya strategiyalarının Tovuz əhalisinin spesifik ehtiyaclarına və gözləntilərinə uyğunlaşdırılması hökumətin təşəbbüslərinin uğuru üçün vacibdir.

Tədqiqatın aktuallığı onun Tovuz rayonunda vətəndaş iştirakını təşviq etmək potensialını əhatə edir. Tədqiqat PR-nin necə təşkil edildiyini başa düşməklə, vətəndaşları ictimai işlərdə fəal iştirak etməyə, qərarların qəbulu proseslərində iştirak etməyə və regionun inkişafına töhfə verməyə təşviq etmək imkanlarını müəyyən edə bilər.

Tovuz dövlət orqanlarında PR işinin təşkilinin araşdırılması qanuna uyğunluğun təmin edilməsi, xüsusən də məlumat əldə etmək baxımından aktualdır. İctimai məlumatın necə yayıldığını və vətəndaşlar üçün əlçatan olmasını başa düşmək "İnformasiya əldə



etmək haqqında" Azərbaycan Respublikasının Qanunu kimi hüquqi çərçivələrə uyğundur.

Başqa sözlə, Tovuz rayonunda dövlət orqanlarında PR işinin təşkili ilə bağlı aparılan araşdırma idarəetmədə şəffaflığın artırılması, ictimaiyyətin fəallığının təşviqi, ictimai etimadın yaradılması və yerli əhalinin ümumi rifahına töhfə vermək potensialına görə aktualdır. Belə bir araşdırmanın nəticələri dövlət orqanları üçün PR sahəsində ən yaxşı təcrübələri məlumatlandıra bilər və Tovuz rayonunda hökumətlə xalq arasında daha effektiv ünsiyyəti asanlaşdıra bilər.

## XƏBƏRVERMƏ İNSTİTUTUNUN YARANMASI VƏ İNKİŞAF TARİXİ, KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ ROLU

**Nəsibov Emin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Xəbərvermə institutunun yaranması və inkişafı istiqamə-tində alimlər tərəfindən çoxsaylı tədqiqatlar aparılaraq elmi ədəbiyyatlarda xəbərvermə və xəbərverən anlayışlarına dair müxtəlif təriflər verilsə də, elmi ədəbiyyatda bu günədək vahid anlayış formalaşmamışdır (1, s.2). Bununla belə, Ralph Naderin xəbərverməyə verdiyi anlayış alimlər tərəfindən daha geniş qəbul edilir. O, "xəbər verəni" ictimai maraqları xidmət etdiyi təşkilatın maraqlarından üstün tutaraq təşkilatın korrupsiya və digər qanunsuz fəaliyyətlə məşğul olması barədə məlumat verən şəxs kimi təsvir etmişdir (2, s.vii).

XX əsrin 70-80-ci illərində ABŞ-da xəbər verənlərin məlu-matı əsasında bir çox iri korrupsiya faktları və digər hüquq-pozmaların aşkara çıxarılması ilə xəbərvermə institutunun tədqiq edilməsinə

maraq artmışdır. Belə ki, ABŞ-da 1970-ci illərdə prezident administrasiyasında vəzifə səlahiyyətlərindən sui-istifadə ilə əlaqədar "Uetergeyt əhvalatı", Nyu-York polisində sistematik korrupsiya faktları, 1988-ci ildə pensiya fondunun vəsaitinin mənimsənilməsi kimi cinayətlər məhz xəbərverənlərin məlumatı əsasında aşkar edilmişdir (1, s.4).

Bu sahədə aparılan araşdırmalar üzrə vahid mövqe bundan ibarətdir ki, xəbərvermə korrupsiya və dələduzluq, habelə ictimai təhlükəsizliyə, maliyyə şəffaflığına, insan hüquqlarına, ətraf mühitə, insanların sağlamlığına və digər ictimai münasibətlərə qəsd edən hüquqpozmaların aşkar edilməsində mühüm rola malikdir.

Xəbərvermə institutunun hüquqpozmaların aşkar edilərək neytrallaşdırılmasında xüsusi rolu nəzərə alınaraq, son zamanlar qəbul edilmiş bir çox beynəlxalq əhəmiyyətli sənədlərdə buna dair müddəalar əks olunmuşdur. Belə ki, Beynəlxalq Şəffaflıq Təşkilatı tərəfindən xəbərverməyə anlayış verilmişdir. Həmin təşkilat tərəfindən nəşr olunmuş "Xəbərverənlərin müdafiəsinə dair qanunvericilik üçün ən yaxşı bələdçi" adlı vəsaitdə xəbərverməyə aşağıdakı kimi anlayış verilmişdir (5, s. 12):

"*Xəbərvermə dövlət və ya özəl təşkilatlarda, eləcə də həmin təşkilatlar tərəfindən yol verilən, ictimai mənafeyə və marağa qəsd edən korrupsiya, dələduzluq və digər qanunsuz və ya təhlükəli fəaliyyətə dair məlumatın müvafiq təsir imkanlarına malik olması güman edilən şəxsə və ya quruma açıqlanmasıdır*"

Avropa Şurası tərəfindən nəşr edilmiş "İnformatorların müdafiəsi" adlı vəsaitdə isə xəbərverənə aşağıdakı kimi anlayış verilmişdir (6, s.7):

*"Xəbərverən – əmək münasibətləri kontekstində özəl və ya dövlət sektorunda baş verən ictimai marağa toxunan və ya ictimai marağı təhdid edən əməllər barədə məlumat verən şəxsdir"*



Birləşmiş Millətlər Təşkilatının Korrupsiya Əleyhinə Konvensiyasının 33-cü maddəsi korrupsiya və əlaqəli hüquqpozmalar barədə məlumat verən şəxslərin müdafiəsinə həsr olunmuşdur. Konvensiyanın həmin maddəsinə əsasən, "Hər bir İştirakçı Dövlət bu Konvensiyaya uyğun olaraq tanınmış hüquqpozmalarla bağlı faktlar barədə səlahiyyətli orqanlara vicdanla və ağlabatan əsas-larla məlumat verən şəxslərin hər hansı ədalətsiz müna-sibətdən müdafiəsini təmin etmək üçün öz hüquq sisteminə müvafiq tədbirlərin daxil edilməsi məsələsini nəzərdən keçirir (4, s. 5).

Xəbərvermə və xəbərverən anlayışlarının, onların müdafiə-sinə dair müddəaların bir çox beynəlxalq sənədlərdə təsbit olunmasına baxmayaraq bu mexanizmin effektiv işləməsi üçün bu institutla bağlı müvafiq müddəaların daxili qanunvericilikdə aydın və detallı şəkildə əks olunması zəruridir. Bəzi ölkələrdə xəbər-verməyə dair müddəalar digər qanunvericilik aktlarının tərkib hissəsi kimi müəyyən olunur, bir qrup ölkələrdə isə buna dair ayrıca qanunvericilik aktı qəbul edilir. Beynəlxalq təşkilatlar tərəfindən də bu sahədə ayrıca qanunvericilik aktının qəbul edilməsi tövsiyə edilir. Beynəlxalq Şəffaflıq Təşkilatının mövqeyinə əsasən xəbərvermə mexanizminin aydınlığını və təcrübədə düzgün tətbiqini təmin etmək məqsədilə ayrıca qanunvericilik aktının qəbul edilməsinə üstünlük verilməsi tövsiyə olunur.

Azərbaycan təcrübəsində xəbərverənlərin müdafiəsinə dair ayrıca qanunvericilik aktı mövcud deyildir. Lakin bu sahədə beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınaraq 2016-cı ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2004-cü il tarixli qanununa dəyişiklik edilmişdir. Belə ki, Qanuna əlavə edilən dəyişikliyə əsasən 11-1-ci (*Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə*) və 11-2-ci (*Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi*) maddələr əlavə edilmişdir. Göründüyü kimi, xəbərvermə

institutu və xəbərverənlərin müdafiəsinə dair müddəalar beynəlxalq təcrübə nəzərə alınmaqla daxili qanunvericilikdə təsbit edilsə də, bu yalnız korrupsiya hüquqpozmalarına münasibətdə həyata keçirilmişdir.

Bu institutun əhəmiyyəti və korrupsiyaya qarşı mübarizədə rolu nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi tədbiri qeyd edilmişdir. Həmin tədbirin icrası ilə bağlı qeyd edilən hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericilik aktının layihəsinin hazırlanması və qəbul edilməsi nəzərdə tutulur.

Göründüyü kimi, həm dünya, həm də ölkəmizin təcrübəsində xəbərvermə institutunun korrupsiyaya qarşı mübarizədə mühüm əhəmiyyət kəsb etməsi nəzərə alınaraq, yuxarıda qeyd edilən bir sıra normativ-hüquqi aktlara dəyişikliklər edilməklə yanaşı, son dövrlər bu sahədə aparılan hüquqi islahatlar zamanı diqqət mərkəzində qalmışdır.

Bununla belə, bu institutun hüquq pozuntularına qarşı mübarizədə artan rolu nəzərə alınaraq, ölkəmizdə korrupsiya hüquqpozmaları ilə yanaşı digər hüquqpozmalara münasibətdə də beynəlxalq təcrübə nəzərə alınmaqla xəbərverməyə dair müddəaları özündə əks etdirən ayrıca və vahid qanunvericilik aktının qəbul edilməsi məqsədəmüvafiq olardı.

### Ədəbiyyat


1. Rugerro Scaturro – Defining whistleblowing, Vyana – 2018.





2. Nader, R., Petkas, P. J., Blackwell, K. eds., 1972. Whistle Blowing: The Report of the Conference on Professional Responsibility. Grossman: New York.
3. Near, J.P., Miceli, M.P., 1992. Blowing the Whistle: The Organizational and Legal Implications for Companies and Employees. New York: Lexington Books.
4. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası, 2004.
5. A Best Pracvtice Guide for Whistleblowing Legislation, Transparency İnternational, 2018.
6. Council of Europe, Protection of Whistleblowers.
7. OECD Committing to Effective Whistleblowers Protection
8. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, 2004.
9. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı"


## ƏMƏK BAZARLARININ DƏYİŞKƏNLİYİ


**Nəsirli Murad**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*


Aktiv əmək bazarı siyasətləri sosial dövlətin iş axtaranların məşğulluq ehtimalını artırmaq və ümumi işsizliyi azaltmaq üçün "səmərəli" istifadə etdiyi əmək bazarı siyasətinə müdaxilələrdən ibarətdir. Buna görə də, aktiv əmək bazarı siyasətinin əsas məqsədi

proqram iştirakçılarının fərdi məşğulluq şanslarını artırmaqdır [1]. Digər məqsədlər fərdi məhsuldarlığa və qazanclara yönəldilə bilər. ABŞ-da proqramlar tez-tez əsas nəticə kimi qazanclara diqqət yetirir, çünki aktiv əmək bazarı siyasətləri ən imkansız şəxsləri hədəf alır və yoxsulluğu azaltmağa yönəlir [5]. Avropada iş tapmaqdan başqa, məşğulluq nəticələri ən çox diqqəti cəlb edir. İşin xarakteri və müddəti də rol oynaya bilər [2]. Son illərdə fəal əmək bazarı siyasətinin nəticələrindən biri kimi "məşğulluq" nəticələri daha çox diqqəti cəlb edir. "Məşğulluq" ümumi mənada fərdin iş tapmaq/yerləşmək üçün potensial meylini təsvir edir. Buna görə də aktiv əmək bazarı siyasətinin məqsədlərindən biri fərdi iş axtaranların əmək bazarına olan məsafəsini azaltmaq ola bilər [3].

Aktiv əmək bazarı siyasətinin digər mümkün məqsədləri əmək bazarında tələb və təklifin daha çox uyğunluğunu təmin etmək, fəal əmək bazarı siyasəti iştirakçılarının rifahını (və mümkünsə, ümumilikdə sosial rifahı) artırmaq və dövlət xərclərini azaltmaqdır. Digər məqsəd alternativ məşğulluq variantları təqdim etməklə istehlakı asanlaşdırmaq ola bilər [10].

Bununla belə, ümumilikdə, məşğulluq imkanları həm proqramın əsas məqsədi, həm də proqram qiymətləndirmələrindən ən çox təhlil edilən nəticə ölçüsü kimi böyük rol oynayır. Buna görə də, bu tədqiqatda fəal əmək bazarı siyasətinin effektivliyi ilə bağlı müzakirələrdə proqramın uğurunun ölçüsü kimi daha çox məşğulluq nəzərə alınmışdır. Bu ölçü adətən proqramın bitməsindən x ay sonra orta məşğulluq dərəcəsi kimi empirik olaraq qiymətləndirilir. İlk 12 ay ərzində o, "qısamüddətli təsir" kimi tanınır, "orta müddətli təsir" 12 və 24 ay arasında qiymətləndirilir və "uzunmüddətli təsir" 24 ay və ya daha uzun müddətə qiymətləndirilir [4].

Aktiv əmək bazarı siyasətləri qazancı əvəz edən işsizlik müavinətləri kimi passiv əmək bazarı siyasətlərini tamamlayır. OECD



ölkələrində aktiv və passiv siyasətlər getdikcə bir-birinə bağlıdır [7]. Bu, İƏİT tərəfindən özünün "Biznes strategiyası"
nda və "düzəliş edilmiş biznes strategiyasında" tərtib edilmiş tövsiyələrin mahiyyətini təşkil edir [8].

Bu inkişaf iş axtaranları iş axtarışları üçün aktivləşdirməyi və 'qarşılıqlı öhdəliklər' prinsipinə uyğun olaraq işə başlamağı hədəfləyən strategiya olan 'aktivləşdirmə' başlığı altında ümumiləşdirilmişdir [9]. Aktivləşdirmənin əsas elementləri aşağıdakılardır:

- işsizlik zamanı dövlət məşğulluq xidmətlərinin erkən müdax-iləsi və işaxtaranlarla sosial işçilər arasında əlaqənin intensivliyinin artırılması;
- cari iş və iş axtarış fəaliyyətləri haqqında müntəzəm hesabat və monitorinq;
- işə qayıtma müqavilələri və ya fərdi fəaliyyət planlarının təşkili;
- işsizlərin vakant işlərə birbaşa göndərilməsi;
- Aktiv əmək bazarı siyasətinin tətbiqi.

Əgər iş axtaranlar iş axtarışı tələblərinə əməl etmirlərsə, müavinət sanksiyaları tətbiq edilir. Ədəbiyyatda aktiv əmək bazarı proqramları ümumiyyətlə dörd əsas kateqoriyaya bölünür [6].

Bunlar aşağıdakılardır:

- İş axtarışında yardım;
- Təhsil (əmək bazarında təlim);
- Özəl sektorun məşğulluğunun stimullaşdırılması;
- Dövlət sektorunda məşğulluq.

Bu dörd proqram növü aşağıdakı bölmələrdə müəyyən edilir və izah edilir. Bu tədqiqat kontekstində bu təsnifatı tətbiq etmək məqsədəuyğun görünür. Birincisi, digər ölkələrdə olduğu kimi, Avropa Təlim Fondunun tərəfdaş ölkələrində də proqram portfelini bu kateqoriyalara adekvat şəkildə bölmək olardı. Bundan əlavə, sabit

təsnifatın istifadəsi mümkün olduğu qədər digər regionlar və ölkələrlə müqayisələr aparmağa imkan verəcək.

### Ədəbiyyat


1. Armstrong M. (2012), Armstrong's handbook of strategic human resource management, London, "Kogan Page'' 440 p.
2. Aston C. , "HR transformation at AT&T Consumer Services". Human Resource Management International Digest, Vol 10(5), 2002, p. 6-11.
3. Bəkirli A. (2016), İnsan resurslarının idarə edilməsi: nəzəriyyədən praktikaya, Bakı. "Elm və təhsil" nəşriyyatı, 304 s.
4. Card, D. et al., 'Active labour market policy evaluations: a meta-analysis', The Economic Journal, Vol. 120, 2010, pp. F452-F477.
5. Quliyev T. (2013) İnsan resurslarının idarə edilməsi, Bakı, "Nağıl evi" şirkəti, 828 s.
6. Kluve J. et al., Active labor market policy in Europe: performance and perspectives, Springer, Berlin, 2007.
7. OECD (Organisation for Economic Cooperation and Development), The OECD jobs strategy, OECD, Paris, 1994.
8. OECD (Organisation for Economic Cooperation and Development), OECD employment outlook, OECD, Paris, 2006.
9. OECD (Organisation for Economic Cooperation and Development), 'Activating the unemployed: what countries do', Chapter 5 in OECD employment outlook, OECD, Paris, 2007.
10. Turgut Özal Üniversitesi. Kariyer planlama uygulama ve araştırma merkezi (karmer). Kariyer planlama ve geliştirme el kitabi, Ankara, 2011, 58 s.




## AZƏRBAYCAN RESPUBLİKASINDA ELEKTRON HÜQUQUN TƏTBİQİNDƏ RƏQƏMSAL İNKİŞAFIN İDARƏ OLUNMASININ PERSPEKTİVLƏRİ

**Orucov Novruz**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Hazırda biz təkcə V texnoloji nizamın dəyişdirilməsinin və VI formalaşmasının deyil, həm də dünya iqtisadiyyatının inkişa-fının şəbəkə modelinə keçidin şahidi oluruq ki, onun özünəməxsus xüsusiyyəti iqtisadi məkanların yaxınlaşması iqtisadiyyatın virtuallaşdırılması və açıqlıq ilə özünü göstərir (2). Bu, zəmanə-mizin obyektiv reallığıdır ki, bütün ölkələr buna uyğunlaşmaq məcburiyyətində qalır, bunu təbii qəbul edərək, vahid rəqəmsal məkanda birgə yaşayır.

Əvvəlcə rəqəmsallaşma informasiya-kommunikasiya texnologiyalarının (İKT), o cümlədən telekommunikasiya, inter-net, İT sektoru və proqram təminatının inkişafı ilə bağlı idi.

Sonradan İKT sahəsi iqtisadiyyatın rəqəmsal texnologiya ilə inteqrasiya olunmuş ənənəvi sektorları ilə yeni imkanlar yaradan və yeni risklər gətirən texnologiyalar və xidmətlər tamamlandı.

Rəqəmsal iqtisadiyyatın xarakterik xüsusiyyətləri iqtisadi fəaliyyətin rəqəmsal platformalarda cəmləşməsi, fərdiləşdirilmiş xidmət modellərinin formalaşdırılması, istehsalçılar və istehlak-çılar arasında birbaşa qarşılıqlı əlaqənin, habelə ayrı-ayrı təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinə töhfənin rolunun artmasın-dan ibarətdir.

İKT inkişafının müasir (dördüncü) səviyyəsi əməliyyatların iştirakçıları arasında etimad problemini ləğv edərək, əməliyyatları vasitəçilərsiz həyata keçirməyə imkan verən paylanmış kitab texnologiyası olan blokçeyn texnologiyasından istifadə edir.

Eyni zamanda, dəyişikliklər təkcə texnoloji xarakter daşımır, informasiya sistemləri ilə əlaqəli bir sıra idrak, davranış, təşkilati, siyasi və mədəni dəyişikliklər vasitəsilə cəmiyyətə təsir göstərir.(4, s. 468).

Blockchain texnologiyasının istifadəsi proqramlaşdırma dilində təqdim olunan istənilən qaydalar toplusunu kodlaşdıran və maliyyə alətləri də daxil olmaqla, geniş spektrli tətbiqləri həyata keçirə bilən proqram olan "ağıllı müqavilə" bağlamağa imkan verir.

Bütün bunlar, əlbəttə ki, sahibkarlıq subyektlərinin əməliyyat fəaliyyətini və qarşılıqlı fəaliyyətini prinsipial olaraq yeni səviyyəyə çıxarmağa imkan verir.

Rəqəmsallaşmanın bütövlükdə iqtisadiyyatın inkişafına təsiri aşağıdakı kimidir (3, s. 40):

1. Təsərrüfat subyektləri arasında qarşılıqlı əlaqənin sadələşdirilməsi, tranzaksiya xərclərinin azaldılması, yeni malların və xidmətlərin işlənib hazırlanması və onların bazara çıxarılması üçün dövriyyə müddətinin azaldılması, innovativ məhsulların və innovativ həllərin yaradılması və yayılmasının stimullaşdırılması;
2. Resurslara qənaət etməyə, əhalinin həyat keyfiyyətini və səviyyəsini yüksəltməyə kömək edən mal və xidmətlərin istehsalını və satışını fərdiləşdirməyə imkan verən ünvanlı internet marketinqi, 3D çap və digər rəqəmsal texno-lo-giyaların tətbiqi;
3. İstehsalçı ilə son istehlakçı arasında vasitəçi zəncirlərinin azaldılması üçün şəraitin yaradılması, səmərəli sənaye və istehlakçı kooperasiyasının qurulması;



4. Ənənəvi mülkiyyət münasibətlərinin aşınması üçün ilkin şərtlərin yaradılması, "mülkiyyət hüquqları paketi"nin nəzəri institusional konsepsiyasından istifadə etməklə hüquqi təcrübənin inkişafı;
5. Biznes proseslərinin inkişafında kiçik və orta biznesin rolunun gücləndirilməsi, innovativ startapların sürətləndirilmiş təş-viqinin həyata keçirilməsi, "fiziki şəxslərin iqtisadiyyatı" sektorunun genişləndirilməsi və "atomlaşma" meylinin for-malaşması.

Bu mövzu sahəsində tədqiqatların aktuallığı rəqəmsal həllərin müasir dövlətin iqtisadiyyatının inkişafında və gələcəkdə onun davamlı iqtisadi inkişafı üçün ilkin şərtlərin formalaşmasında əsas rolu ilə bağlıdır.

Bu tədqiqatın məqsədi Azərbaycan Respublikasının inkişaf modelinin proyeksiyasında rəqəmsal həllərin tətbiqinin nəticələrini öyrənməkdir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- postsovet dövründə Azərbaycan iqtisadiyyatının modelini öyrənmək və inkişaf qanunauyğunluqlarını müəyyən etmək;
- Azərbaycan iqtisadiyyatının rəqəmsallaşdırılması təcrübəsini öyrənmək (dövlət idarəetməsi sferasının timsalında);
- Azərbaycan iqtisadiyyatının mövcud fəaliyyət şəraitində onun inkişafı üçün əsas amilləri formalaşdırmaq;
- Azərbaycanın iqtisadi inkişaf modeli çərçivəsində rəqəmsal texnologiyalardan istifadənin perspektivli istiqamətini əsaslandırmaq.

Qarşıya qoyulan vəzifələrin həlli üçün müqayisəli və məntiqi təhlil metodlarından, ekspert qiymətləndirmələri metodundan isti-fadə edilmişdir ki, bu da Azərbaycan Respublikasının iqtisadi inkişafı modelinin səmərəliliyinin artırılmasına dair təklifləri əsaslandırmağa imkan vermişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının İnkisafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları Üzrə Milli Strategiya (2015 - 2020-ci illər);
2. Бабаев Э. А. Электронное правительство как элемент цифровой экономики: опыт РеспубликиАзербайджан // Управленческое консультирование. 2018. № 8. С. 137–146;
3. Волкова А. А., Плотников В. А., Рукинов М. В. Цифровая экономика: сущность явления, проблемы и риски формирования и развития // Управленческое консуль-тирование. 2019. № 4.С. 38–49;
4. Dunleavy P., Margetts H., Bastow S., Tinkler J. New public management is dead-long live digital-era governance // Journal of Public Administration Research and Theory. 2006. Vol. 16.N 3. P. 467–494.

## AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏR SİYASƏTİ DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTİ KİMİ

**Rəhimov Aqil**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Açar sözlər: gənclər siyasəti, islahat, vətənpərvərlik.

Hər bir ölkənin gələcəyini, perspektiv inkişafını, sürətlə dəyişən dünyada özünün layiqli yerini tutmasını şərtləndirən amillər sırasında gənclərin rolunu xüsusi qeyd etmək lazımdır. Deyilənlər baxımından müstəqil Azərbaycanda gənclərin hərtərəfli qayğı ilə əhatə olunmaları,



gənclər siyasətinin dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirilməsi təqdirəlayiq haldır.

Müstəqil Azərbaycanda uğurlu gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulub.Müstəqil Azərbaycanda uğurlu gənclər siyasətinin əsaslarının formalaş-masında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri vardır. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Ulu Öndər sağlam düşüncəli yeni nəslin yetişdirilməsinin dövlətin və cəmiyyətin mühüm vəzifəsi olduğunu bəyan etdi. Məlumdur ki, həmin dövrdə respublikamızda vəziyyət heç də ürəkaçan deyildi. Ölkə iqtisadi tənəzzül yaşayırdı, müstəqilliyimizə daxildən və xaricdən böyük təhdidlər var idi. Bütün bu çətinliklərə baxmayaraq, Ulu Öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Təlatümlü bir şəraitdə Öz xalqının çağırışına biganə qalmayaraq müstəqil Azərbaycanın idarəetmə sükanının arxasına keçən Ulu Öndər gənclərə olan böyük rəğbətinin və inamının ifadəsi olaraq ilk görüşlərindən birini məhz onlarla keçirdi.Ümummilli Lider Heydər Əliyevin 1994-cü il iyulun 26-da imzaladığı müvafiq Fərmana əsasən, ölkəmizdə gənclər siyasətini həyata keçirən mərkəzi icra orqanı - Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndər 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bundan bir il sonra isə Ümummilli Lider gənclərə böyük qayğısının daha bir təzahürü kimi, 2 fevralın Azərbaycanda Gənclər Günü elan edilməsi haqqında müvafiq Sərəncam imzaladı. Həmin vaxtdan etibarən hər il 2 fevral ölkəmizdə Azərbaycan gənclərinin bayramı kimi qeyd olunur.Ümummilli Lider Heydər Əliyevin 1999-cu ildə imzaladığı “Dövlət Gənclər Siyasəti haqqında” müvafiq Fərman isə gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı,

asudə vaxtın təşkili problemlərinin həlli, gənclərin hüquqlarının müdafiəsi, onların respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunması ilə bağlı məsələlərin geniş spektrini əhatə edir. Sözügedən Fərmana uyğun olaraq ölkəmizdə "Gənclər siyasəti haqqında" ayrıca qanun qəbul edilib.

Hazırda respublikamızda Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu məqsədyönlü gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin gənclər siyasəti ilə bağlı müxtəlif illərdə imzaladığı Fərman və sərəncamlar ölkəmizdə aparılan gənclər siyasətinə yeni impuls verib. Respublikamızda Azərbaycan gəncləri ilə bağlı Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiqlənən və 2005-2009-cu, eləcə də 2011-2015-ci illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Hazırda respublikamızda Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası da yüksək səviyyədə təmin edilir.Ölkəmizdə gənclər siyasətinin mühüm tərkib hissəsi kimi gənclərin yüksək səviyyəli təhsil almalarına, onların öz intellektual bacarıqlarını daha da artırmalarına dövlət səviyyəsində böyük qayğı göstərilməsi diqqətəlayiq haldır. Dövlət başçısı "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" müvafiq Fərman və sərəncamlar imzalayıb. Ölkəmizdə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər) böyük müvəffəqiyyətlə reallaşdırılıb. Dövlət başçısının 2 iyul 2013-cü il tarixli Fərmanı ilə Gənclər üçün Prezident mükafatı təsis edilib. Mükafat elm, mədəniyyət, ədəbiyyat, təhsil və ictimai fəaliyyət sahələrində fərqlənən gənclərə ildə bir dəfə təqdim edilir.



Ardıcıllıqla həyata keçirilən gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edərkən ölkəmizdə vətənpərvər gənclər nəslinin formalaşmasını məmnunluq hissi ilə qeyd edə bilərik. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsidir. Bu istiqamətdə keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qlobal-laşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Azərbaycan gəncləri öz məharətlərini və doğma Vətənə sonsuz bağlılıqlarını Aprel döyüşlərində, 44 günlük İkinci Qarabağ müharibəsində, lokal xarakterli antiterror tədbirlərində nümayiş etdirdilər. Vətənpərvər, qəhrəman və professional gəncləri olan Vətən heç vaxt yenilməyəcək, daim öz şan-şöhrətini və qüdrətini qoruyub saxlayacaqdır.

Ədəbiyyat


Azərbaycan Respublikası Prezidentinin "Dövlət Gənclər Siyasəti haqqında" Qanun 9 aprel,2022-ci il

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncam, 15 sentyabr 2017-ci il

1. https://bsu-uni.edu.az/az/news/2182
2. https://youthfoundation.az/23502/?lang=en
3. https://lib.aliyev-heritage.org/az/9476535.html
4. https://nuhcixan.az/news/cemiyyet/16993-vetenperver-gencler-vetenimizin-parlaq-geleceyininteminatcisidir

# AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİNİN FORMALAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Rzayev Asim**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

***Açar sözlər:*** *Yerli özünüidarəetmə, Konstitusiya, normativ-hüquqi baza.*

Ulu Öndərin rəhbərliyi altında həyata keçirilən müdrik dövlət siyasəti nəticəsində dünya dövlətləri birliyində öz layiqli yerini tutan Azərbaycan Respublikasında mütərəqqi islahatlar aparılmaqla demokratik, hüquqi bir dövlət qurulmuşdur. Dövlət müstəqilliyimizin çətin bir dövründə, Azərbaycan dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qaldığı bir vaxtda məhz belə bir dahi şəxsiyyət – Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və liderlik missiyasını öz üzərinə götürdü.

Müstəqil dövlətin demokratik inkişafı, möhkəmləndirilməsi, ölkədə əmin-amanlığın, sabitliyin və müstəqilliyin əbədi olması üçün demokratik Azərbaycan dövlətinin qurulması yeni bir strategiyanın həyata keçirilməsi ilə xarakterizə olunur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş yeni Konstitusiyanın müstəqil Azərbaycan dövlətinin inkişafı tarixində əhəmiyyətli rolu oldu. Konstitusiya müasir dövlət quruculuğu üçün tələb olunan bütün prinsipial məqamları özündə əks etdirir. Konstitusiya müddəalarının reallaşdırılması istiqamətində həyata keçirilən ən mühüm nailiyyətlərdən biri mülkiyyətin dövlət, bələdiyyəvə xüsusi olmaqla, 3



formasının yaradılması və mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı təminatlar olmuşdur. Məhz yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə institutu – bələdiyyə orqanları yaradılmış və fəaliyyətə başlamışdır. Konstitusiyanın qəbulundan sonra "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" və "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası qanunları qəbul edilmişdir.

Beləliklə, Azərbaycan Respublikası ərazisində ilk bələdiyyə seçkiləri keçirilənədək yerli özünüidarə ilə bağlı əsaslı hüquqi baza formalaşdırılmış, yerli özünüidarəetmə sahəsini tənzimləyən normativ-hüquqi aktlar qəbul edilmişdir. Ümummilli Lider Heydər Əliyev yerli özünüidarəetməni ölkəmizdə gedən demokratiya prosesinin mühüm bir sahəsi kimi dəyərləndirərək bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini də müəyyən etmiş, onun inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. Vətəndaşların dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsi məqsədilə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. İctimai iştirakçılığın əsas məqsədləri kimi yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili və qorunması müəyyən edilmişdir. Ölkəmizdəki mühüm dəyişikliklər, ictimai həyatın tələbatları bələdiyyələri yeni məqsədlərə, səmərəli fəaliyyətə istiqamətləndirir. Həyata keçirilən mühüm Dövlət proqramlarında icra orqanları ilə bərabər bələdiyyələrin vəzifələrinin də müəyyən edilməsi onların fəallığının yüksəldilməsini şərtləndirir. Son illər bir çox qanunlara edilmiş dəyişikliklər bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına xidmət edir və bələdiyyə

institutunun cəmiyyətin idarə olunmasında rolunun artırılmasına hərtərəfli şərait yaradır.

Ölkəmizdə yerli özünüidarəetmə institutunun inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuş və həmişə qayğı göstərilmişdir. Bu qayğını Ulu Öndərimizin dediyi aşağıdakı fikirlərdən də görmək olar: "...Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir. Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm demoktatiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir"[2]. Elə bu qayğının nəticəsidir ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərmək məqsədilə "Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinin bəzi məsələləri haqqında" ölkə Prezidenti tərəfindən 2000-ci il 8 fevral tarixdə Sərəncam imzalandı. Bu Sərəncam bələdiyyələrin işinin təşkili və onlara metodoloji yardım göstərilməsi sahəsində əsas hüquqi baza oldu. Sərəncama əsasən Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə iş və bələdiyyələrə metodoloji yardım mərkəzi yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 may tarixli Sərəncamı ilə mərkəz yenidən təşkil edilərək struktur bölmə kimi Ədliyyə Nazirliyinin aparatına daxil edilmişdir. Bununla mərkəzin dövlət orqanı kimi statusu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Ulu Öndər Heydər Əliyevin demokratiyanın inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasətin bir istiqaməti də yerli özünüidarəetmənin səmərəli təşkilinə yönəlmişdir. Bu siyasət bələdiyyələrin təşkili və formalaşması ilə yerli demokratiyanın inkişafına və yerli əhəmiyyətli problemlərin həllinə müsbət təsir



etmişdir. Nəticədə, cəmiyyətimizdə əhalinin mənafeyinin qorunmasında bələdiyyə-lərin rolu ildən-ilə artır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 dekabr Bələdiyyə seçkiləri ilə əlaqədar xalqa müraciəti. 10 dekabr 1999-cu il
3. Bələdiyyələrin statusu haqqında Qanun. Bakı, 1999.
4. https://www.belediyye.info/xeberler/gundelik-xeberler/7551
5. https://www.pa.edu.az/library/3/26/224_movzu13_yerli_ozunuidareetme_sistemi..pdf
6. https://azertag.az/xeber/heyder_eliyev_azerbaycanda_yerli_ozunuidareetmenin_banisidir-1776001


## MÜTƏRƏQQİ SƏNAYE QURULUŞLARI VƏ ONLARIN XARAKTERİK CƏHƏTLƏRİ NAXÇIVAN MUXTAR RESPUBLIKASININ DAVAMLI INKLÜZIV INKIŞAFI (ŞƏRUR SƏNAYE MƏHƏLLƏSININ TIMSALINDA)


**Rzayev Tural**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

*trzayev112@gmail.com*


Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf təməl-lərinin formalaşdırılması bəhs olunan yöndə menecment və marketinq, planlaşdırma və proqnozlaşdırma, təşkilatlanma və fəaliyyət

proqramlaşdırılması, tənzimləmə və nəzarət kimi istiqamətlərin təmərküzləşdirilməsi bazasında mümkündür. İnklüziv tərəqqinin uzun müddətli zaman kəsikləri üzrə təşkili və mütəmadi şəkildə həyata keçirilməsi çoxsaylı cari və perspektiv məsələlərin icrasında özünü göstərməkdədir. Belə vəziyyətlərdə fərdlərin əldə etdiyi (və ya edə biləcəyi) nailiyyətlər, iqtisadi sistemin nəticələrindən onların yararlanmaları amil və təsir əlamətlərinin müxtəlif konfiqurasiyalarda təmsil olunan situasiyaları təcəssüm etdirməkdədir. Məsələnin qoyuluşu ölkə vətəndaşlarının onun potensial və ehtiyatlarından yararlanması çoxsaylı üsul, vasitə, alət və mexanizmləri vahid məcmularda ahəngdar şəkildə təmsil olunmasını ehtiva etməkdədir. Onun məzmun elementlərinin fərdi tədqiqatı ilk növbədə iki üsulun öncül cərgələrdə təmsil olunmasına şərait yaratmaqdadır:

1. dövlət sektounda yaradılan maliyyə və digər imkanlardan ölkə vətəndaşlarının yararlanması;
2. fərdlərin birbaşa sahibkarlıq, konsaltinq, vasitəçilik və digər yönlərdə məşğuliyyəti hesabına əldə etdikləri xüsusi maliyyə resurslarından istifadə etməsi.

Birinci bənd özündə maliyyələşmə, maarifləndirmə? sağlamlıq səviyyəsinin tələblərə uyğun şəkildə gözlənilməsi, bir sıra spesifik təşklatlanma əməliyyatları və digər əlaqəli sahə və istiqamətləri əhatə etməkdədir. Onun məzmun elementləri sırasında maliyyə-təşkilati zəminlə fərqlənən aşağıdakılar nümunəvi şəkildə göstərilə bilər: dövlət tərəfindən xüsusi birdəfəlik və tsiklik yardımların (maliyyə, tibbi müalicə, sosial və təhsil təqaüdləri, fərqli fondlar vasitəsilə fəxri adlara görə ödəmələr və s.) və s. ödəmələrin göstərilməsi; müxtəlif indeksləşdirmə əməliyyat-larından yaranan maliyyə kənarlaşmalı ödəmələrin icrası; fərqli borc ödəmələrinin borclular tərəfindən deyil, dövlət tərəfindən qarşılanması; ölkənin prioritet sahələrinin maliyyə vəsaitləri hesabına əhaliyə müxtəlif yardımların göstərilməsi, onların



fəaliyyətinin fərqli layihələr üzrə stimullaşdırılması; dövlət və digər xüsusi proqramlar vasitəsilə əhalinin fərqli qrupları üçün sosial müdafiə və digər analoji tədbirlərin həyata keçirilməsi və s.

Təsnifatın birinci maddəsində davamlı inkişafın inklüziv təmin edilməsi məqsədilə icra olunan müxtəlif təyinatlı ödəmələr nəzərdə tutulmaqdadır. Əsasən sosial sahə və istiqamətləri rəngarəng ampletuda ilə fərqlənməkdədir. Bu fəaliyyətin tənzimləmə təyinatlı bazası ölkə və yerli hökümətlərin hüquqi-normativ aktlarının müddəaları əsasında mümkün olmaqdadır.

Təsnifatın ikinci maddəsində zaman intervalları çərçivəsində qiymət-dəyər dəyişmələrinə irəli gələn kənarlaşmalar və onların maliyyə baxımından planlaşdırılan və ya plandankənar şəkildə ödənilməsi nəzərdə tutulmuşdur. Borc vəsaitlərinin mövcudluğu müxtəlif əməliyyatlarının gedişatında arzuolunmaz olsa da, qeyri-adi hal kimi qiymətləndirilməməkdədir. Belə hallarda dövlət və ya onun ayrı-ayrı orqanları tərəfindən müxtəlif borcluların ödəmə-lərinin öz öhdəsinə götürməsi yardım təyinatlı əməliyyatların tərkib elementlərindəndir.

Təsnifatda mühüm maddələr sırasında dövlətin xüsusi proqramları vasitəsilə fərdlərə və ya sahibkarlıq subyektlərinə edilən subsidiyaları və digər yardım təyinatlı vəsaitləri ifadə olunmaqdadır.

İkinci bənd özündə insanların fərdi təşəbbüskarlıq hisslərinin inkişafını tərənnüm etdirməkdədir. Bu sırada aşağıdakı maddələrin dayanıqli inklüziv inkişafa səbəb olmaq xüsusiyyətlərini özündə cəmləməkdədir: cəmiyyət üzvlərinin fərdi və ya kollektiv şəkildə yaradıcı fəaliyyətə müraciət etməsi; iqtisadi sistemin ayrı-ayrı sahə və istiqamətləri üzrə özlərinin məşğulluqlarını təmin etməsi; fəal iqtisadi həyata keçidin təmin edilməsi və bu amilin bazasında özünün tələbatının daha yüksək səviyyədə ödənilməsi; məşğul olduğu sferadan

əldə olunan vəsaitlərin ətrafında olan insanların tələblərinin qarşılanma səviyyəsinin yüksəlməsi və s.

Birinci maddə insanlarda fərdi və ya qrup şəklində sahibkarlıq qabiliyyətlərini nümayiş etdirməkdədir. Bu fəaliyyət ilk növbədə "forma – məzmun" tandemi üzrə araşdırılmalıdır. Fərdlərin keyfiyyət xüsusiyyətlərinin bacarıq, təhsil səviyyəsi, təcrübi vərdişləri, istismarı mümkün ola biləcək avadanlıqlardan istifadə və digər bu kimi cəhətlərdən irəli gəlməsi nəzərə alınaraq "üfuqi" və "şaquli" tədqiqatlara keçilə bilər. Digər tərəfdən, sahibkarlıq bacarıqlarının təchizat (tədarükat), istehsal yaxud reallaşdırma proseslərində nümayış etdirilməsi "sahə - istiqamət" tandeminin əlamətləri əsasında nümayış etdirilməsi problemin mühüm tərəflərindən birini təşkil etdiyi halda, onun digər spesifik tərəflərinə inklüziv tərəqqi, davamlılıq və regionlar miqyasında bu yöndə icra olunan fəaliyyət daxildir. Qeyd olunan mühüm amillərin fərqli kombinasiyalı təmərküzləşməsi və təcrübədə tətbiqi nəticəsində qarşıya qoyulmuş fərqli məqsədlərin nail olunması reallaşa bilər.

İştirakçı elementlərin aktivlik, səmərəlilik, optimallıq və digər aspektlərdə nəzərdən keçirilməsi alına biləcək müxtəlif variantlı nəticələrdən seçmə üsulu bazasında ən yararlısını müəyyənləşdirməyə imkan yaratmaqdadır. Bu variantların iqtisadi-riyazi müstəviyə daşınması ilk növbədə nəzəri yöndən hesablama-qiymətləndirmə işlərinin həyata keçirilməsinə şərait yaratmaqdadır. Sonrakı mərhələ isə təcrübi sahədə istifadəsi (istismarı) mümkün ola biləcək texniki-texnoloji, idarəetmə, marketinq, tənzimləmə və digər innovativ addımların atılmasına şərait yaratmaqla yanaşı həqiqi vəziyyətin müxtəlif miqyaslı qiymətləndirilməsi və təhlilinə yol açacaqdır. Məhz bu meyarların ölkə miqyasında makromüstəviyə yüksəldilməsinin tədqiqat obyektlərindən birini sənaye müəssisələrində istehsal olunan məhsulların dövlət və qeyri-dövlət sektorları üzrə bölgüsüdür. Bu



məqsədlə özünün sistemliliyi və kompleksliliyi ilə fərqlənən çoxsaylı addımların atılmasına müraciət oluna bilər ki, onlardan da nümunəvi qaydada ilk növbədə aşağıdakı istiqamətlərə müraciət olunmalıdır: iqtisadi sistemin sahələri, o cümlədən sənaye sahəsi üzrə mütərəqqi addımların atılması; sahələrin (xsusilə də sənayenin) maddi-texniki bazasının möhkəmlənməsi; regional xüsusiyyətlər nəzərə alınmaqla spesifik istehsalların çoxşaxəli şəkildə mənimsənilməsi; elmi araşdırma və təcrübi-sınaq naliyyətlərinin uyğunlaşdırılmış şəkildə regionda istifadəsi; beynəlxalq təcrübə əsasında iqtisadi sahələr və istiqamətlərdə yeni təşkilati quruluşların yaradılması və sonrakı fəaliyyətinin təmin edilməsi; zəruri hüquqi-tənzimləyici bazanın formalaşdırılması; infrastruktur-logistika imkanlarının genişləndirilməsi; diversifi-kasiya reallıqlarının çoxvariantlılığı ilə fərqlənən təchizat-tədarük sisteminin bərqərar olması; bazarlama-təqdimetmə fəaliyyətinin mütəşəkkilliyinin təmin edilməsi və s.

İstehsal zonalarında infrastruktur – logistika, bank və digər xidmətlərin icrası ilə məşğul olan fəaliyyət vahidlərinin təşəkkülü istehsal (hasil) edilən məhsulların "təchizatçı (tədarükçü) - istehsalçı" "istehsalçı – son istehlakçı" marşrutlarında zaman qənaətinə, saxlama-qoruma və yükdaşımaların kəmiyyət-keyfiyyət ifadələrinə müsbət təsirini şərtləndirməkdədir, həmçinin beynəlxalq iqtisadi (ilk növbədə isə sərhədyanı) əlaqələrin formalaşmasına öz töhfəsini verməkdədir. Digər tərəfdən, bizi maraqlandıran və ilk bəndə aidiyyatı ilə seçilən sferada bir sıra xüsusiyyətlərin nəzərə alınması zəruridir. Bu sırada regionda sənayenin inkişafına, onun mütərəqqi alət, üsul və formalarla silahlanması özünün spesifik əhəmiyyətini qorumaqdadır. Onların sırasında mütərəqqi təşkilati-hüquqi formaların sənaye sahəsinə tətbiqi vəzifələr baxımından ön sıralarda yer almaqdadır. Hazırda bəhs olunan yöndə "region – iqtisadi sahə" müstəvisində yaradılan təsərrüfatçılıq formalarından aşağıdakıların seçilməsi zəruridir: sənaye məhəlləri,

sənaye parkları və klasterləri. Adətən mikro-miqyasla seçilən, sərbəst sahibkarlıq fəaliyyətinin təşəkkülünü nəzərdə tutan bu formalar vahid sahə aidiyyatı ilə fərqlənsələr də, özünəməxsus xüsusiyyətləri də tərənnüm etməkdədir. Müvafiq təşkilati-fəaliyyət quruluşlarında ekoloji (təmizlik) faktorlarının nəzərə alınması onun inklüzivliyinə dəlalət etməkdədir. Bu cəhətdən, emal sənayesində orqanik məhsullardan istifadə olunmasına, "yaşıl" enerji növlərindən istifadə olunmasına üstünlük verilməsi, sənaye vahidlərinin ərazilərinin daxili və ətraflarında xüsusi yaşıllıq və istirahət zolaqlarının yaradılması və müvafiq yöndə digər analoji işlərin icrası yüksək əhəmiyyəti ilə seçilməkdədir.

Seçim qaydasında müəyyən etdiyim sahə sənaye, təşkilati forma isə sənaye məhəlləsi olduğundan diqqətimizi bu obyektlərin xüsusi şərtlərinə yönəltməyizim uyğun olardı. Nümunəvi şəkildə bu şərtləri aşağıdakı kimi sadalamaq mümkündür: yaradılması nəzərdə tutulan sahənin və onun məskunlaşacağı ümumi ərazinin müəyyən edilməsi; sənaye məhəlləsinin yaradılmasının məqsəd və təyinatının aydınlaşdırılması; onun təşkili və idarə edilməsi forma və üsullarına aydınlıq gətirilməsi; sənaye məhəlləsində həyata keçiriləcək proseslərin tərkib üzrə siyahılaşdırılması; sənaye məhəlləsində istifadəsi mümkün olacaq valyutaların müəyyən edilməsi (xarici partnyorlarla hesablaşmalar zamanı isə seçilməsi); Sənaye məhəlləsində fəaliyyəti təşkil ediləcək hüquqi və fiziki şəxslərin müəyyən olunması; sənaye məhəlləsində fəaliyyətləri şərtləndirən, lakin yuxarıdakı bəndlərdə öz əksini tapmayan digər amillərin mövcudluğu.

Beynəlxalq təcrübədə sənaye məhəllələrinin yaradılması və sonrakı fəaliyyətinin mütəşəkkil təşkili ilə bağlı müxtəlif ölkələrdə (ABŞ, Türkiyə Respublikası, İran İslam Respublikası, İspaniya, Rusiya Federasiyası və digərləri) çoxsaylı nümunələr mövcuddur.



Lakin həmin təcrübələrdən istifadə olunması transformasiya qaydasında reallaşmalıdır, yəni ölkəmizin, həmçinin onun regionlarının yerli (ümumölkə və regional), sənaye məhəlləsinin yaradılacaq ərazisi, milli və digər xüsusiyyətlər nəzərə alınmalıdır. Sənaye məhəlləsində istehsalın təşkili və həyata keçirilməsi: ölkə (region) üzrə sənaye məhsullarına olan tələbatın öyrənilməsi, sənaye sahəsi üzrə fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsi; sənaye məhsulları üzrə "istehsal - ticarət" cütlüyünün imkanlarının genişləndirilməsi, bu istiqamətdə daha məhsuldar, optimal və səmərəli üsul, mexanizm, vasitə və yolların tətbiqinə nail olunması; daxili bazarda rəqabətqabiliyyətlilik, növ-çeşid, dəb-ehtiyac, ərazi-sahə kimi prinsiplər üzrə sənaye mənşəli əmtəə və xidmətlərin təklifinin nizamlanması; sənaye məhəlləsi subyektlərində çalışanların ixtisas-peşə səviyyələrinin artırılması; sənaye məhəlləsinin subyektlərinin fəaliyyətində innovasiyalardan aktiv istifadəyə imkanların yaradılması, bu sahədə maliyyələşmə mənbələrinin dəqiqləşdirilməsi; sənaye məhəlləsində məhsul istehsalının planlaşdırılması, bu sahədə istehsalçı rayon daxilində istehlak, ölkənin digər rayonlarına və ixraca göndərilmə kimi istiqamətlərin optimal həcmlərinin müəyyən edilməsi; sənaye məhsulları üzrə kompleks marketinq monitorinqlərinin aparılması; "istehsalçı – logistika subyektləri" müstəvisində lazımi əlaqələrin yaradılması; sənaye məhsulları üzrə əmtəə və xidmətlərin təhlükəsizlik dərəcəsinin müəyyən edilməsi (əgər varsa istər istehlakçılar, istər ətraf mühitə vurulacaq zərərlərin dəqiqləşdirilməsi); sənaye məhəllələrinin fəaliyyətində elm və təhsil ocaqlarının nailiyyətlərindən istifadə olunması və s.

Ümumi qiymətləndirilmənin icrası sənaye məhəllələrinin ölkənin, regionun həyatında çoxsaylı və fərqli məzmunlu faydalara yol açmaqdadır. Bu sırada məşğulluq yönündə vəziyyətin yaxşılaşması, əhalinin istər istehsal olunan sənaye məhsulları, istərsə də əldə etdiyi

gəlirlər baxımında vəziyyətinin yüksəlməsi, regional və ya ölkə büdcəsinə daxil olan maliyyə vəsaitlərinin artması, əhaliyə təklif olunan sənaye məhsullarının assortimentinin zənginləşməsi və s. nümunə olaraq çıxış edə bilər.

**Ədəbiyyat**


1. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymət-ləndirmə və təhlil fəaliyəti. Naxçıvan: Əcəmi, 2023, 216s.
2. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: Əcəmi, 2022,
3. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi, 2020. 525s.
4. Ələkbərov U.K. İnklyüziv inkişafın idarə edilməsinin əsasları. Bakı: Təhsil, 2018, 216s
5. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları Bakı: Təhsil, 2017, 176s
6. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və iadrə edilməsi. Naxçıvan, İdeya, 2011. 318s.
7. Mahmudov C.İ. Biznesin əsasları. Bakı, AzTU-nun nəşriyyatı, 2008. 220s.




## TEXNOLOGİYANIN VƏTƏNDAŞ MƏMNUNLUĞUNA TƏSİRİ


**Rza Gülmirə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
gulmirarustamova92@gmail.com


Texnologiyanın vətəndaş məmnunluğuna təsiri çoxşaxəlidir. Texnoloji inkişaflar vətəndaş məmnunluğunu artıra bilər. Məsələn, rəqəmsal xidmətlər dövlət xidmətlərinə daha sürətli və asan çıxışı təmin edə bilər ki, bu da vətəndaşlara gündəlik işlərini daha effektiv idarə etməyə kömək edə bilər. Qabaqcıl texnologiya xidmətləri daha əlçatan etməklə həyat keyfiyyətini yaxşılaşdıra bilər. Elektron hökumət tətbiqləri, səhiyyə texnologiyaları və rəqəmsal kommunikasiya vasitələri vətəndaşlara gündəlik işlərini daha asan və effektiv şəkildə idarə etməyə kömək edə bilər ki, bu da məmnuniyyəti artıra bilər. Bir sözlə, səhiyyə texnologiyaları və təhsildə rəqəmsal alətlər həyat keyfiyyətini yaxşılaşdıra bilər [1]. Bununla belə, texnologiyanın ədalətli paylanmasına diqqət yetirilməlidir. Bununla belə, məxfilik problemləri və texnologiyaya çıxışda bərabərsizliklər kimi məsələlər də nəzərə alınmalıdır.

Beləliklə, vətəndaş məmnunluğunu artırmaq üçün texnologiyadan istifadə aşağıdakı yollarla artırıla bilər [2, 3]:

1. Rəqəmsal xidmətlər: Onlayn platformalarda dövlət xidmətlərini daha əlçatan və istifadəçilər üçün əlverişli etməklə vətəndaşlara rahatlıq təmin edə bilər.

2. Elektron hökumət tətbiqləri: Vergi ödənişləri və rəsmi sənəd sorğuları kimi əməliyyatları sürətləndirən və asanlaşdıran elektron hökumət tətbiqləri hazırlana bilər.
3. Süni intellekt və analitik həllər: Süni intellekt və məlumat analitikası vətəndaşların tələblərini daha yaxşı başa düşmək və xidmətləri optimallaşdırmaq üçün istifadə edilə bilər.
4. Mobil tətbiqlər: Mobil cihazlar vasitəsilə xidmətlərə asan çıxışı təmin edən mobil proqramların hazırlanması vətəndaş məmnunluğunu artıra bilər.
5. Vətəndaşların iştirakı: Sosial media və onlayn platformalar vasitəsilə vətəndaşların cəlb edilməsi və vətəndaşlarin iştirakının təşviq edilməsi.
6. Təhsil və informasiya: Vətəndaşlara xidmətlər haqqında məlumatın verilməsi və texnologiya vasitəsilə təhsil materiallarının təmin edilməsi.
7. Təhlükəsizlik və məxfilik: Vətəndaşların şəxsi məlumat-larının təhlükəsizliyinin təmin edilməsi və texnoloji həllər vasitəsilə məxfilik problemlərinin həlli.
8. İnteraktiv dəstək kanalları: Canlı söhbət və chatbotlar kimi interaktiv dəstək kanalları vasitəsilə vətəndaşlara daha sürətli və effektiv yardımın göstərilməsi.

Bu tətbiqlərin səmərəli şəkildə istifadəsi vətəndaş məmnunluğunu artırmaqda və dövlət xidmətlərini daha əlçatan etməkdədir.

## Ədəbiyyat


1. Lee, C., Hung, M., Chen, D. Factors affecting citizen satisfaction: examining from the perspective of the expectancy disconfirmation theory and individual differences, Asian Journal of Political Science, 2022, 30, 1, 35-60.





2. Zeren, E., Özmen, A. Halkın Belediye Faaliyetlerine Katılma Duyarlılığı ve Hizmet Memnuniyeti: Karaman Belediyesi Örneği, KMÜ Sosyal ve Ekonomik Araşt ırmalar Dergisi, 2010, 12, 165-173
3. Sezer, Ö. Kamu Hizmetinde MüĢteri (Vatandaş) Odaklılık: Türkiye"de Kamu Hizmeti Açısından Bir Değerlendirme, ZKÜ Sosyal Bilimler Dergisi, 2008, 4, 147-171.


# DAVAMLI İNKİŞAFIN SOSİAL KOMPONENTLƏRİNİN STATİSTİK TƏHLİLİ


**Sadıqlı Şahin**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

sadiglishahin@gmail.com


Davamlı inkişafın sosial komponentlərinin statistik təhlili bir neçə məcburedici səbəbə görə mühüm əhəmiyyət kəsb edir. Bu analitik yanaşma cəmiyyətin rifahı, iqtisadi artım və ətraf mühitin mühafizəsi arasında mürəkkəb qarşılıqlı əlaqə haqqında anlayışlar təqdim edərək, bir millətin üzləşdiyi tərəqqi və çətinliklərin hərtərəfli başa düşülməsini təklif edir. Statistik təhlil siyasətçilərə və maraqlı tərəflərə məlumatlara və sübutlara əsaslanan qərarlar qəbul etməyə imkan verir. Təhsil, səhiyyə, yoxsulluq dərəcələri və bərabərsizlik kimi sosial göstəriciləri tədqiq etməklə qərar qəbul edənlər müdaxiləyə ehtiyacı olan sahələri müəyyən edə, resursları səmərəli şəkildə bölüşdürə və konkret sosial ehtiyacları qarşılamaq üçün siyasətləri uyğunlaşdıra bilərlər.

Davamlı inkişaf iqtisadi, sosial və ekoloji ölçüləri əhatə edir. Statistik təhlil sosial sahədə irəliləyişləri ölçməyə, vətəndaşların rifahının və həyat keyfiyyətinin zaman keçdikcə yaxşılaşmasını təmin etməyə imkan verir. Savadlılıq əmsalı, gözlənilən ömür uzunluğu və əsas xidmətlərə çıxış kimi göstəricilərin izlənilməsi ölkənin inkişaf trayektoriyasının vahid görünüşünü təmin edir.

Sosial bərabərsizliklər və zəifliklər çox vaxt daha geniş iqtisadi statistikanın altında gizlənir. Statistik təhlil marjinal qrupları, coğrafi bərabərsizlikləri və digər sosial bərabərsizlikləri aşkar etməklə bu bərabərsizlikləri üzə çıxarır. Bu bilik imkansız icmaları yüksəltmək və heç kimin geridə qalmamasını təmin etmək üçün məqsədyönlü siyasətlərin hazırlanması üçün çox vacibdir.

Statistik təhlil vasitəsilə siyasətçilər mövcud sosial siyasət və proqramların effektivliyini qiymətləndirə bilərlər. Müdaxilələrin təsirini ölçməklə, müsbət nəticələri artırmaq və hər hansı gözlənilməz nəticələri aradan qaldırmaq üçün düzəlişlər edilə bilər. Vəkillər və vətəndaş cəmiyyəti təşkilatları hökumətlərin davamlı inkişafa sadiqliklərinə görə məsuliyyət daşımasında mühüm rol oynayırlar. Statistik məlumatlar sübuta əsaslanan vəkillik üçün möhkəm zəmin yaradır, bu qruplara sosial inkişafdakı boşluqları vurğulamağa, hesabatlılığı tələb etməyə və siyasət dəyişikliklərinin tərəfdarı olmağa imkan verir.

Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsəd-ləri (SDGs) kimi beynəlxalq öhdəliklər dövlətlərdən davamlı inkişafa doğru irəliləyişləri barədə hesabat vermələrini tələb edir. Statistik təhlil bu hesabat öhdəliklərini dəqiq yerinə yetirmək üçün lazımi məlumatları təmin edir. O, həmçinin beynəlxalq müqayisələri asanlaşdırır və ölkələrə öz tərəqqilərini qlobal standartlarla müqayisə etməyə imkan verir.



Məhdud resurslar səmərəli resursların bölüşdürülməsini tələb edir. Sosial göstəricilərin statistik təhlili investisiya üçün prioritet sahələri müəyyənləşdirməyə kömək edir, resursların ən böyük ictimai fayda verən təşəbbüslərə yönəldilməsini təmin edir.

Statistik təhlil ortaya çıxan sosial problemləri və ya problemləri göstərə biləcək tendensiyaları aşkar edə bilər. Bu tendensiyaların vaxtında aşkarlanması onların kəskinləşmədən və davamlı inkişafı pozmazdan fəal şəkildə aradan qaldırılmasına imkan verir.

Statistik nəticələrin ictimaiyyətlə bölüşdürülməsi sosial məsələlər haqqında məlumatlılığı və anlayışı artırır. Məlumatlı vətəndaşlar daha çox ictimai müzakirələrdə iştirak edir və müsbət dəyişikliklərin tərəfdarı olurlar. Davamlı inkişaf uzunmüddətli səydir. Statistik təhlil hökumətlərə və təşkilatlara daha geniş milli və qlobal hədəflərə uyğun gələn sosial inkişaf üçün strateji planlaşdırma ilə məşğul olmağa imkan verən uzunmüddətli tendensiyalar haqqında anlayışlar təqdim edir.

Xülasə, davamlı inkişafın sosial komponentlərinin statistik təhlili sübuta əsaslanan qərarların qəbulu, tərəqqinin ölçülməsi, zəifliyin müəyyən edilməsi, siyasətin effektivliyinin qiymətlən-dirilməsi, təbliğat və qlobal hesabatlılıq üçün həyati əhəmiyyət kəsb edir. Sosial bərabərsizliklərə, meyllərə və problemlərə işıq salmaqla bu təhlil davamlı inkişaf prinsiplərini dəstəkləyən daha inklüziv və ədalətli cəmiyyətlərin yaradılmasına töhfə verir.

## MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİQRASİYA XİDMƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ROLU

**Sadıqov Ayxan**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Miqrasiya, insanların coğrafi sərhədlər boyunca hərəkəti bəşər tarixinin müəyyənedici xüsusiyyəti olmuşdur və müasir dünyamızda cəmiyyətləri formalaşdıran mühüm qüvvə olaraq qalır. İnsanlar daha yaxşı imkanlar, təhlükəsizlik və yaxşı həyat şəraiti axtardıqca, miqrasiya fenomeni artan diqqət və əhəmiyyət qazanmışdır. Miqrasiya tədqiqatları kimi tanınan miqrasiyanın tədqiqi bu qlobal fenomenin mürəkkəbliyini və dinamikasını anlamaqda mühüm yer tutur. Getdikcə bir-birinə bağlı olan dünyada miqrasiya sərhədləri aşır və millətlərə və icmalara dərin təsir göstərir. Kəndin hinterlandlarından səs-küylü şəhər mərkəzlərinə qədər insanlar iqtisadi yaxşılaşma, təhsil, ailə birləşməsi və ya münaqişə və təqiblərdən sığınmaq üçün köçürlər. Miqrasiyanın qlobal təbiəti o deməkdir ki, onun təsirləri ayrı-ayrı ölkələrlə məhdudlaşmır, həm göndərən, həm də qəbul edən ölkələr üçün geniş təsirlərə malikdir.

Miqrasiya iqtisadi artımın və inkişafın əsas sürücüsüdür. Miqrantlar tez-tez kənd təsərrüfatından səhiyyə və texnologiyaya qədər müxtəlif sektorlarda işçi boşluqlarını dolduraraq ev sahibi ölkələrə töhfə verirlər. Onların müxtəlif bacarıqları və təcrübələri iqtisadiyyatlara canlılıq qataraq, innovasiya və məhsuldarlığın artmasına səbəb olur. Miqrantların öz ölkələrinə göndərdikləri pul



köçürmələri yoxsulluğun azaldılmasında və bu xalqların inkişafında mühüm rol oynayır.

Miqrasiya sosial-mədəni müxtəliflik gətirir, cəmiyyətləri yeni perspektivlər, adət-ənənələr, dillər və mətbəxlərlə zənginləşdirir. Mədəniyyətlərin qarışığı şəhərlərin və icmaların canlılığına töhfə verən təcrübə qobeleninə gətirib çıxarır. Bununla belə, o, həm də inteqrasiya, şəxsiyyət və sosial birlik ilə bağlı problemlər yaradır və müxtəlif qrupların multikultural kontekstlərdə necə qarşılıqlı əlaqədə olduğunu daha dərindən başa düşməyi tələb edir.

Münaqişə, təqib və ətraf mühit faktorları səbəbindən insanların hərəkəti miqrasiyanın humanitar ölçüsünü vurğulayır. Məcburi miqrasiyanın mürəkkəbliklərini anlamaq ehtiyacı olanlara sığınacaq və dəstək təmin etmək üçün effektiv siyasət və strategiyaların hazırlanması üçün çox vacibdir. Miqrasiya tədqiqatları qaçqınların və məcburi köçkünlərin təcrübələrinə işıq salır, insan ləyaqətini və hüquqlarını müdafiə edən cavabların məlumatlandırılmasına kömək edir.

Miqrasiya hökumətlərin idarə etməli olduğu unikal siyasət problemləri təqdim edir. Miqrasiya tədqiqatları iqtisadi maraqları, sosial birliyi və insan hüquqlarını tarazlaşdıran hərtərəfli və inklüziv miqrasiya siyasətlərinin dizaynına dair fikirlər təklif edir. Effektiv idarəetmə miqrasiyanın təhlükəsiz, nizamlı olmasını təmin edir və həm göndərən, həm də qəbul edən ölkələrə müsbət töhfə verir.

Miqrasiya və miqrasiya tədqiqatlarının aktuallığını və əhəmiyyətini şişirtmək olmaz. Dünya getdikcə bir-birinə bağlı və müxtəlifləşdikcə, miqrasiyanın çoxşaxəli aspektlərinin dərk edilməsi məlumatlı qərarların qəbulu, davamlı inkişaf və qlobal əməkdaşlığın təşviqi üçün vacib olur. İqtisadi artıma töhfə vermək, sosial-mədəni müxtəlifliyi təşviq etmək, humanitar böhranların həlli və ya siyasət çərçivələrini formalaşdırmaq olsun, miqrasiya və miqrasiya

tədqiqatları dünyamızın bu gününün və gələcəyinin formalaşmasında ayrılmaz rol oynayır.

Azərbaycanın Daxili İşlər Nazirliyi və ya Dövlət Miqrasiya Xidməti kimi rəsmi hökumət saytlarında tez-tez miqrasiya xidmətləri, qaydalar və siyasətlər haqqında məlumat verilir. Bu veb-saytlar viza və rezidentlik tələbləri, sığınacaq prosesləri və digər əlaqəli xidmətlər haqqında məlumat təklif edir. Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və ya Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) kimi təşkilatların Azərbaycanda miqrasiya xidmətləri və məsələlərlə bağlı hesabatları, nəşrləri və məlumatları ola bilər. Tədqiqat institutları və beyin mərkəzləri tez-tez miqrasiya və əlaqəli xidmətlər üzrə araşdırmalar aparırlar. Bu təşkilatlar Azərbaycanda miqrasiya meylləri və xidmətlər haqqında hesabatlar, siyasət təhlilləri və məlumatlar təqdim edə bilər. Miqrasiya tədqiqatlarına yönəlmiş akademik jurnallar Azərbaycanda miqrasiya xidmətləri ilə bağlı elmi araşdırmalar üçün əla mənbələr ola bilər. Bu nəşrlər tez-tez miqrasiya siyasətləri, xidmətlər və onların təsirləri ilə bağlı dərin təhlillər və nümunə araşdırmaları təqdim edir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF) və başqaları kimi beynəlxalq təşkilatlar tez-tez miqrasiya ilə bağlı məsələlərə, o cümlədən iqtisadi təsirlərə və siyasətlərə toxunan hesabatlar hazırlayırlar.

"Müasir şəraitdə Azərbaycanda miqrasiya xidmətlərinin təkmilləşdirilməsi" adlı tədqiqat müasir çağırışlar və imkanlar kontekstində Azərbaycanda miqrasiya xidmətlərinin müxtəlif aspektlərinin həllində mühüm məqsəd və aktuallıq kəsb edir. Belə bir tezisin məqsədi bir neçə əsas məqsədi əhatə edir. Dissertasiyanın məqsədi Azərbaycanda miqrasiya xidmətlərinin mövcud vəziyyətini hərtərəfli qiymətləndirməkdir. Bu qiymətləndirmə viza və yaşayış icazəsi prosedurları, sığınacaqla bağlı işlərin aparılması, əmək



miqrasiyası qaydaları və inzibati proseslərin ümumi effektivliyi kimi sahələri əhatə edir.

Tədqiqat Azərbaycanda miqrasiya xidmətlərinin üzləşdiyi çətinlikləri və çatışmazlıqları araşdırır. Bu çağırışlara bürokratik proseslər, şəffaflıq, qərarların qəbulunda ardıcıllıq və miqrantların hüquqlarının müdafiəsi ilə bağlı məsələlər daxildir. Tədqiqat Azərbaycanda miqrasiya xidmətlərini tənzimləyən hüquqi və siyasi çərçivələri təhlil edir. Bu, milli qaydaların beynəlxalq normalara uyğunluğunun qiymətləndirilməsini, boşluqların və ya uyğunsuzluqların araşdırılmasını və potensial təkmilləşdirmələrin təklif edilməsini əhatə edir.

Miqrasiya ölkənin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Tədqiqat təkmilləşdirilmiş miqrasiya xidmətlərinin Azərbaycanda iqtisadi artıma, insan kapitalının inkişafına və sosial birliyə necə töhfə verə biləcəyini araşdırır. Əslində, tədqiqat dissertasiyasının məqsədi mövcud landşaftın hərtərəfli təhlilini aparmaq, inkişaf etdirilməsi üçün sahələr müəyyən etmək və səmərəli, şəffaf və hüquqlara hörmət edən miqrasiyanın təmin edilməsi üçün praktiki tövsiyələr verməklə Azərbaycanda miqrasiya xidmətlərinin təkmilləşdirilməsinə töhfə verməkdir.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ UĞURLA DAVAM ETDİRİLİR

**Salmanova Gülnar**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
salmanova.gulnar.87@gmail.com

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Savadlı, geniş dünya görüşünə malik gənclərin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələlərdən biridir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaq. Bu baxımdan, ölkənin hərtərəfli uğurlu inkişafına hər bir gənc öz töhfəsini verməlidir. Nəsillər dəyişir, ölkələr inkişaf edir ancaq ənənələr, milli dəyərlər daima yaşayır. Gənc nəslin vətənpərvərlik, Vətənə sevgi ruhunda tərbiyə olunması xalqın rifahının, ölkənin tərəqqisinin, inkişafının, çiçəklənməsinin rəhnidir. Bu gün iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərini, doğma ana dilimizi, ata-babalardan qalan adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşatmaqdadır.

Məlum olduğu kimi, Azərbaycan bu gün ictimai həyatın müxtəlif sahələrində, dinamik inkişafa, yüksəlişə nail olan dövlətdir. Şübhəsiz ki, ölkənin ümumi inkişaf prosesindən əhalinin bütün təbəqələri ilə yanaşı, gənclər də geniş şəkildə bəhrələnirlər.

1969-1982-ci illər həm də Azərbaycanda milli intibah, elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. XX əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə ali təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı



mütəxəssislərin yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdır.

Heydər Əliyevin XX əsrin 70-80-ci illərindəki ən böyük xidmətlərindən biri olan gənc milli hərbçi kadrların hazırlanması sahəsində qəbul etdiyi tarixi qərarlar gələcəyə hesablanmış strateji xətt idi. Bunun nəticəsi olaraq 1971-ci ilin noyabr ayında məhz Heydər Əliyev təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başlamışdır

1976-cı ildə Hərbi Məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədilə Azərbaycanın KP MK-nın və Nazirlər Şurasının qərarı ilə tədbirlər görülmüşdür. Ümümmilli lider 1976-1977-ci illərdən başlayaraq keçmiş SSRİ-nin ali hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail oldu. Belə ki, nəticədə keçmiş SSRİ-nın 50-dən çox şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən, eləcə də zəruri ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 18 mindən çox azərbaycanlı gənc təhsil alaraq müxtəlif ixtisaslara yiyələnmişdir. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər.

Bundan əlavə, Heydər Əliyevin göstərişi ilə 1969-cu ildə Xankəndində Pedaqoji İnstitutun açılması və orada Azərbaycan bölməsinin yaradılması Qarabağda elmi-mədəni mühitin formalaşmasına, gənclərin ali təhsil almasına əlverişli şərait yaratmışdı. Ümummilli lider təkcə Yuxarı Qarabağın deyil, bütövlükdə Qarabağın hərtərəfli inkişafına hər zaman azərbaycanlı gənclərin yeni yaradılmış iş yerlərində çalışması məsələsinə diqqət yetirmiş və bu istiqamətində mühüm addımlar atılmışdır.

Hazırda gənclər siyasəti Azərbaycanda dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi

ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldırlar. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Prezident İlham Əliyev özünün çıxışlarında mütəmadi olaraq gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq bu təbəqəni novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi təqdim edir. Həqiqətən də, dövlətin gənclər üçün yaratdığı geniş imkanlar onları nəinki cəmiyyətin avanqard qüvvəsinə çevirir, üstəlik, gənc nəsil özünün intellektual potensialı ilə Azərbaycanı beynəlxalq müstəvidə daha əzmlə təmsil etmək üçün qətiyyət göstərməkdədir. Bu faktor isə müstəqilliyini 1991-ci ildə müstəqilliyini bərpa edən bir respublika üçün mürəkkəb geosiyasi proseslərin getdiyi dövrdə çox əhəmiyyətli sayılırdı.

Ümummilli lider Heydər Əliyev gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atmış, bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etmişdir. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ümummilli lider Heydər Əliyev “2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında”Fərman imzaladı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il fevralın 2-si Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Ulu öndər Heydər Əliyev tərəfindən 2002-ci il mayın 6-da imzalanmış "Gənclər siyasəti haqqında" qanunda deyilir: “Bu siyasət gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə - mənəvi ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə birbaşa bağlıdır.”



Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev gənclər siyasətini prioritet istiqamət olaraq müəyyənləşdirmişdir. Azərbaycanda gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasətinin formalaşdırılması və uğurla həyata keçirilməsi məqsədilə dövlət başçısı İlham Əliyevin 2007-ci ili “Gənclər ili” elan etməsi gənclərə dövlət başçısı tərəfindən verilən böyük önəmin bir daha əyani göstəricisidir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”, Azərbaycan Prezidentinin 2011-ci il tarixli 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramlarının icraları nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur.

Azərbaycan Prezidentinin “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında 2015-ci il 26 yanvar tarixli 998 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nda isə gəncliyin inkişafı dövlətin sosial siyasətinin vacib tərkib hissələrindən biri olması, gənclər siyasəti gənclərin dinamik inkişafı üçün həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər komplekslərinin artması, dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar, həmçinin ölkənin yeni inkişaf imkanları Azərbaycanda gənclər siyasətinin yeni strategiyasının hazırlanmasını və qəbulunu qeyd edilən zaman dövründə həyata keçirilməsi nəzərdə tutulur.

Ümummilli lider Heydər Əliyevin azərbaycanlı gənclərin təhsil almaq üçün ölkədən kənardakı nüfuzlu ali məktəblərə göndərilməsi ənənəsinə sadiq qalan Prezident İlham Əliyev bu gün “Qara qızıl”ın insan kapitalına çevrilməsi strategiyasını uğurla həyata keçirir. Bu strategiyanın icrası çərçivəsində gənclərin qabaqcıl xarici təhsil

proqramlarına cəlb edilməsi təmin olunur. 2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilmiş və onlara təqaüd verilmiş, bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənmişdir.

Prezident İlham Əliyev gənclərimizin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq gənclərin siyasətindəki rolu ondan ibarətdir ki, Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

2003-cü ildən sonrakı dövrdə isə Prezident İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Azərbaycan Prezidenti İlham Əliyevin növbəti müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması məqsədilə ölkənin şəhər və rayonlarındakı Heydər Əliyev Mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin



nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi qərara alındı.

Qeyd etmək lazımdır ki, gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. İkinci Qarabağ müharibəsində Azərbaycanın mühüm hərbi Qələbəsinin qazanılmasında gənclərin rolu əvəzsizdir. Azərbaycan Prezidenti, Ali Baş Komanda İlham Əliyev bütün çıxışlarında bunu yüksək dəyərləndirərək bildirmişdir ki, biz hər zaman, Vətən uğrunda canlarını fəda etmiş şəhidlırimizə borclu olmalıyıq: "Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar, bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu, bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy, bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərmişdir. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər".

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxış edərək bildirdi ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda

tərbiyə edilməsini qələbəyə aparan əsas amillər kimi xarakterizə edən Ali Baş Komandan bir daha diqqətə çatdırdı ki, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir.

Qeyd etmək lazımdır ki, son 20 il ərzində gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir. Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən bu siyasəti dinamik şəkildə inkişaf etdirərək yeni mərhələyə qaldırdığı dövlət gənclər siyasəti respublikamızda böyüməkdə olan vətənpərvər gənclərin inkişaf yoluna işıq salmış, onların dövlət quruculuğunda və idarəçiliyində, ümumiyyətlə, ölkə həyatının bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin eetmişdir. Ölkəmizdə gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Eyni zamanda, Azərbaycan gəncliyi də bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır.



# İNKLÜZİV İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ SƏMƏRƏLİ İQTİSADİ İDARƏETMƏNİN ƏHƏMİYYƏTİ

**Salamova Ayan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Ölkənin inklüziv inkişafı və inklüziv cəmiyyət quruculuğu prosesinə təsir göstərən ən mühüm amillərdən biri səmərəli iqtisadiyyatın mövcudluğudur. Belə ki, adambaşına düşən ÜDM istehsalı ölkənin iqtisadi imkanlarını nümayiş etdirməklə yanaşı, inklüziv inkişafın səviyyəsini də müəyyən etməyə imkan verir. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında adambaşına düşən ÜDM (Ümumi daxili məhsul) 2003-cü ildən başlayaraq fasiləsiz olaraq artmışdır.

Dünya Bankının hesabatlarına görə, ölkədə adambaşına ÜDM son 13 ildə 3,5 dəfədən çox artıb. Dünya Bankı, BMT İnkişaf Proqramı və digər beynəlxalq inkişaf institutlarının bilgilərinin təhlili göstərir ki, Azərbaycan Respublikasında iqtisadi artım tempi dünyanın bir çox ölkələrindəkindən, o cümlədən "böyük iyirmiliyə" (G 20) daxil olan dövlətlərdəkindən sürətlidir. Dünya Bankının məlumatlarına görə, təhlilə cəlb olunan dövrdə göstərilən qrup ölkələrində qeyd edilən iqtisadi indikator 3 dəfədən artıq yalnız Çin Xalq Respublikasında artıb. Digər G 20 ölkələrində, həmçinin sabiq Sovetlər Birliyi respublikalarında iqtisadi artım dinamikası daha aşağı olub.

Diqqətdən qaçırmaq olmaz ki, iqtisadi və sosial inkişaf proseslərinin idarə edilməsinin müasir metodları və onların innovativ xarakteri sayəsində ölkə iqtisadiyyatında kəmiyyət göstəricilərinin artımı ilə yanaşı, inkişafın keyfiyyət göstəricilərində də nəzərə-

çarpacaq dəyişikliklər qeydə alınıb. Bu ilk növbədə davamlı inkişafın vacib göstəricilərindən olan enerji istifadəsi səmərəliliyinə aiddir.

Beynəlxalq standartlara uyğun olaraq, dünyanın fərqli ölkələrində enerji istifadəsi səmərəliliyinin qiymətləndirilməsi üçün iki indikatordan faydalanırlar. Onlardan biri ölkədə bir vahid enerjinin istifadəsi hesabına istehsal olunan ÜDM-in dəyərinin qiymətləndirilməsinə əsaslanır. İkinci metodika 1000 ABŞ dolları dəyərində ÜDM istehsalına xərclənən enerji miqdarının qiymətləndirilməsini nəzərdə tutur. Hər iki halda ÜDM-in dəyəri alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla ABŞ dolları ilə müəyyən edilir. Enerji vahidi ekvivalenti kimi onun 1 kiloqram neftdəki miqdarı götürülür. Enerji vahidi ekvivalenti kimi bu göstəricinin seçilməsi müəyyən zaman kəsiyində neftin qiymətinin bütün dünyada eyni olması ilə bağlıdır. Bu fərqli ölkələrdə enerji istifadəsi səmərəliliyinin müqayisəsi üçün imkan yaradır.

Dünya İqtisadi Forumunun 2018-ci ilin yanvarında açıqladığı hesabata görə, inklüziv inkişafa dair müqayisəli qiymətləndirməyə əsasən, Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında 4,69 indeksi ilə üçüncü yeri tutub. Azərbaycan keçid iqtisadiyyatına sahib ölkələrdən Litva və Macarıstandan sonrakı yerdə qərarlaşmaqla ciddi nəticə göstərib. Məlum olduğu kimi, Litva və Macarıstan Avropa İttifaqının üzvləridir. Qeyd edək ki, sirr deyildir ki, Azərbaycanın bu cür reytinqdə qabaqcıl yerdə qərarlaşması ölkədə aparılan iqtisadi və social sahədə həyata keçirilən islahatlar və səmərəli idarəetmə nəticəsində mümükün olmuşdur.

Əlbəttə ki, inklüziv inkişafın təmin edilməsi, bu istiqamətdə uğurlara nail olunması üçün iqtisadi imkanlar mühüm əhəmiyyətə malikdir. Iqtisadi imkanlar əhalinin layiqli həyat şəraitinin təmil edilməsində təməl amillərdəndir. Lakin sözsüz ki, mövcud resursların səmərəli idarə edilməsi inklüziv inkişafın əsas təminatçısıdır. Əgər



iqtisadi potensial düzgün şəkildə idarə edilməzsə, ölkənin inkişafından, cəmiyyətin həmin inkanlardan yararlanması qeyri-mümkündür. Beləliklə də bütün bu amillər səmərəli idarəetmənin vacibliyini bir daha ortaya qoyur.

Akademik U.Ələkbərov “İnklüziv İnkişaf İndeksi 2018” hesabatında ölkəmizin tutduğu mövqe ilə bağlı müqayisəli təhlil aparır və br sıra mühüm nəticələrə gəlir. O, göstərir ki, Litva iqtisadi imkanlarına görə keçid iqtisadiyyatına malik ölkələr qrupunda birincidir. Bu imkanlar Litva hökuməti tərəfindən düzgün qiymətləndirib və idarə edilib və nəticədə ölkə inklüziv inkişaf göstəricisinə görə lider olub. Macarıstan inklüziv inkişaf göstəricisinə görə bu qrupun ikincisidir. Onun iqtisadi imkanları isə dördüncü yerə uyğun gəlirdi. Lakin resursların səmərəli idarə edilməsi Macarıstanın ikinci yer tutmasına yol açıb. İqtisadi imkanları ikinci yerə uyğun gələn Polşa göstərilən qrupda inklüziv inkişaf indeksinə görə yalnız beşinci yer tuta bilib. Lakin Azərbaycan Respublikası inklüziv inkişaf məqsədlərinə nail olmaq naminə resursların optimal idarə edilməsi sahəsində daha yüksək səmərəlilik nümayiş etdirib. Müqayisəli təhlil göstərib ki, ölkənin iqtisadi imkanları 26-cı yerə uyğun gəlib. İqtisadi və sosial inkişaf proseslərinin düzgün planlaşdırılması və idarə edilməsi Azərbaycanın nisbətən məhdud iqtisadi imkanlarla keçid iqtisadiyyatına malik ölkələr arasında inklüziv inkişaf üzrə üçüncü yerə yüksəlməsinə səbəb olub. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi bəzi iqtisadi cəhətdən inkişaf etmiş ölkərinkindən də yüksəkdir.

“İnklüziv İnkişaf İndeksi 2018” hesabatında dövlət borcunun ÜDM-də payı yüksək qiymətləndirilib. Dövlət borcu ilə bağlı indikatorunun metodologiyasına görə, xalis borcun tərkibinə müxtəlif öhdəliklər daxildir. Bu öhdəliklərə depozitlər, istiqrazlar, ödəniləcək kreditlər, sığorta, pensiyalar və digər öhdəliklər dövlət borcunun tərkib

hissəsidir. Hesabatın qiymətləndirilməsi göstərir ki, Azərbaycan dövlət borcunun ÜDM-də payına görə MDB və regionun lider dövlətidir. Bundan əlavə, Azərbaycanın strateji valyuta ehtiyatları beynəlxalq iqtisadi qurumlar qarşısında rahat borc götürməyə imkan yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan beynəlxalq layihələr rentabelliyinə və gələcək perspektivlərinə görə aparıcı beynəlxalq iqtisadi təşkilatların, bankların və fondların hər zaman diqqətində olub. Bu səbəbdən Azərbaycan dövlət borclarının səmərəli icrasına görə hər zaman nüfuzlu beynəlxalq indekslər tərəfindən müsbət qiymətləndirilib.

Ölkədə inklüziv iqtisadi inkişafın hazırkı səviyyəsinə nail olunmasında Azərbaycanda sahibkarlığın və biznesin inkişafı ilə bağlı yaradılmış mühit, həyata keçirilən iqtisadi islahatlar mühüm rol oynayır. Bu isə özlüyündə belə bir fikri bir daha təsdiq edir ki, ölkədə sosial-iqtisadi inkişafla bağlı atılan addımlar strateji əhəmiyyətə malikdir və Azərbaycan iqtisadiyyatının bundan sonrakı mərhələdə də bütün əsas parametrlər üzrə inklüziv inkişafının təmini üçün zəmin vardır.

Ölkədə inklüziv iqtisadi inkişafın təmin edilməsində artıq dördüncüsünün icrasına başlanan regionların sosial-iqtisadi inkişafı proqramlarının böyül rolu vardır. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.



Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Göründüyü kimi, inklüziv iqtisadi inkişafın təmin olunması səmərəli idarəetmənin nəticəsində mümkündür. Belə ki, Azərbaycanda hazırda bu sahədə əldə olunmuş uğurlar həyata keçirilmiş məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edən islahatlar strategiyası, xüsusilə qeyri-neft sektorunun inkişafına yönəlmiş addımlar bu gün öz nəticəsini verməkdədir. Həmçinin regionların inkişafına verilən dəstək mühüm əhəmiyyətə malikdir. Bütün bunların nəticəsidir ki, ölkəmiz artıq inklüziv iqtisadi inkişaf istiqamətində xeyli yol qət edə bilmişdir. Bu isə hazırda müxtəlif nüfuzlu beynəlxalq hesabatlarda öz əksini tapır. Bu gün ölkə iqtisadiyyatının inklüziv xüsusiyyətləri qlobal səviyyədə etiraf olunur.

## DÖVLƏT İDARƏÇİLİYİ ÜZƏRİNDƏ NƏZARƏTİN PROSESSUAL FORMALARI VƏ METODLARI

**Sarıyeva Aynel**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Məlum olduğu kimi, həm idarəçilik münasibətləri, həm də onların üzərindəki nəzarət fəaliyyəti bütövlükdə və ya qismən hüquq normaları ilə əhatə oluna bilər. birinci halda nəzarət subyektləri arasındakı münasibətlər bütövlükdə və ya əsasən hüquq normaları ilə nizamlanır, tərəflərin hüquqları və vəzifələri qanunvericiliklə müəyyənləşdirilir. İkinci halda isə, nəzarət münasibətlərində qanunverici yalnız əsas prinsipləri və ümumi tələbləri əks etdirir. Tərəflərin konkret əlaqəsi, nəzarət prosedurunun özü isə onun tənzimlənməsindən kənarda qalır.

Nəzarət münasibətlərinin hüquqi tənzimlənməsi və ya formallığı dərəcəsi baxımından, həmin münasibətlər iki əsas forması da fərqləndirilə bilər:

1) prosessual;

2) operativ-təşkilati.

Nəzarət fəaliyyətinin prosessual formada həyata keçirilməsi – həmin fəaliyyətin qanunla müəyyən edilən mərhələlərdən ibarət prosedurlar çərçivəsində, qanunda göstərilən şərtlərlə və ardıcıl-lıqla həyata keçirilməsidir. Onun mahiyyəti nəzarət fəaliyyətinin bütün iştirakçılarının hərəkətlərinin yalnız qanunla orada göstərilmiş əsaslar və şərtlər olduqda orada müəyyən edilmiş dəqiq hüdudlar çərçivəsində həyata keçirilməsindən ibarətdir. Elmi ədəbiyyatda bu məsələ ilə bağlı



bütün mövqeləri ümumiləş-dirilməsi əsasında prosessual formanın aşağıdakı əsas xüsusiy-yətlərini qeyd etmək olar:

a) xüsusi subyekt - müstəqilliyi və qərəzsizliyinə dair xüsusi tələblər irəli sürülən dövlət orqanları (məhkəmələr, prokurorluq orqanları və ya insan hüquqlarının porulmasına dair mübahisələrə baxmaq səlahiyyətlərinə malik olan inzibati orqanlar);

b) xüsusi qanunvericilik qaydasında nizamlanma (məsələn, konstitusiya məhkəmələri haqqında qanunlarda, mülki-prosessual, inzibati-prosessual, cinayət-prosessual qanunvericilik vasitəsilə);

c) xüsusi qüvvəyə malik olan, formasına və məzmununa dair əlahiddə tələblər irəli sürülən hüquqi aktların qəbul edilməsi ilə nəticələnmə;

ç) bir qayda olaraq hüquq pozuntularının təqib olunması və pozuntuya yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə həyata keçirilməsi;

Nəzarət fəaliyyəti prosessual formada həyata keçirilməsi zamanı tərtib olunan sənədlər mahiyyəti etibarilə rəsmi hüquqi aktlar kimi konkret nəzarət fəaliyyətinin əsas məzmununu, məqsədini, yekununu ifadə etməklə, məlumatverici, kommuni-kativ, təsdiqedici, hüquqtətbiqedici, hüquqmüdafiəedici və tərbiyələndirici funksiyaları yerinə yetirirlər.

Ümumiyyətlə isə istər forması, istərsə də məzmunu baxı-mından çoxcəhətli olan dövlət idarəçiliyindəki nəzarət münasi-bətlərin məzmunu bütövlükdə və ya qismən hüquq normaları ilə əhatə olunur. Burada sadəcə təfsilatı ilə tənzimlənən və tənzim-lənməyən müxtəlif subyektləri və sahələri əhatə edən nəzarət münasibətlərini fərqləndirmək olar.

## AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI SƏNAYESİNƏ İNNOVATİV YANAŞMALAR

**Süleymanov Ozal**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Azərbaycanda kənd təsərrüfatı sənayesinə innovativ yanaşmaların araşdırılmasının aktuallığı bu cür yanaşmaların ölkə iqtisadiyyatı, ərzaq təhlükəsizliyi və davamlı inkişaf üçün daşıdığı transformasiya potensialındadır. Kənd təsərrüfatı tarixən Azərbaycan iqtisadiyyatının təməl daşı olub, məşğulluğa və ÜDM-ə əhəmiyyətli töhfə verib. Bununla belə, 21-ci əsrin çağırışlarına cavab vermək üçün, o cümlədən iqlim dəyişikliyi, əhalinin artımı və resursdan səmərəli istifadə ehtiyacı, kənd təsərrüfatı sektorunun canlandırılması və modernləşdirilməsinə ciddi ehtiyac var.

İnnovativ yanaşmalar qabaqcıl texnologiyaların, dəqiq əkinçilik texnikalarının, davamlı təcrübələrin və aqrar-sənaye innovasiyalarının qəbulu da daxil olmaqla geniş strategiya spektrini əhatə edir. Dəqiq kənd təsərrüfatı, ağıllı əkinçilik sistemləri və məlumat analitikası kimi müasir texnologiyaların inteqrasiyası ilə Azərbaycanın kənd təsərrüfatı sektoru məhsuldarlığı artıra, resurslardan istifadəni optimallaşdıra və ətraf mühitə təsiri azalda bilər. Ekoloji əkinçilik və aqroekologiya kimi davamlı əkinçilik təcrübələri təkcə ətraf mühitin mühafizəsinə töhfə vermir, həm də ekoloji cəhətdən təmiz və etik şəkildə istehsal olunan qidaya üstünlük verən qlobal istehlak meylləri ilə uyğunlaşır.

Bu mövzunun aktuallığı Azərbaycanın kənd təsərrüfatı sənayesinin üzləşdiyi əsas problemlərin, o cümlədən su qıtlığı, torpağın deqradasiyası və diversifikasiya ehtiyacının həlli potensialı ilə vurğulanır. Bundan əlavə, innovativ yanaşmalar kənd təsərrüfatını dinamik və texnologiyaya əsaslanan sektor kimi təqdim etməklə gənc nəsli cəlb edə və bu sahəyə cəlb edə bilər.

Xülasə, Azərbaycanda kənd təsərrüfatı sənayesinə innovativ yanaşmaların tədqiqi sektorun dayanıqlığını, rəqabət qabiliyyətini və davamlılığını təmin etmək üçün çox vacibdir. Texnoloji irəliləyişləri və davamlı təcrübələri mənimsəməklə, Azərbaycan kənd təsərrüfatı sektorunu uzunmüddətli uğur, daxili ərzaq tələbatını ödəmək, iqtisadi artıma töhfə vermək və qlobal davamlılıq məqsədlərinə uyğunlaşdırmaq üçün mövqeləndirə bilər. Bu tədqiqat Azərbaycanda kənd təsərrüfatının inkişafının yeni dövrünü açmaq üçün siyasətin formalaşdırılmasına, investisiya strategiyalarına və sənaye təcrübələrinə rəhbərlik etmək potensialına malikdir.



## DÖVLƏT QULLUĞUNUN İDARƏ OLUNMASINDA YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ

**Şeydayeva Gülşən**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Dövlət qulluğu dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Dövlət hakimiyyəti və idarəetmədə vacib rol oynamaqla dövlət qulluğu mühüm təsisat funksiyasına sahibdir.

Dövlət qulluğu dövlət, dövlət aparatı, dövlət idarəetməsi ilə qarşılıqlı əlaqədə olmaqla siyasi sistemdə özünəməxsus vəzifə icra edir.

Dövlət qulluğunun keyfiyyətli fəaliyyəti cəmiyyətdə dövlət və hakimiyyət haqqında təsəvvürlərin formalaşmasına böyük təsiri vardır. Bu mənada dövlət qulluğunun dövlətin məqsəd və funksiyalarının reallaşdırılmasındakı rolunun təkmilləşdirilməsi vacib əhəmiyyətə malikdir. Müasir dövrdə dövlət qulluğunun fəaliyyətinin həm təkmilləşdirilməsi, həm də bu sahədə yeniliklərin tətbiqi geniş vüsət almaqdadır. Dövlət qulluğu sahəsində tətbiq olunan yeniliklər bu sahənin cəmiyyətin müasir inkişaf ritmi ilə ayaqlaşmasını təmin etməklə, dövlət idarə-etməsinin səmərəliliyini və eyni zamanda vətəndaş məmnu-niyyətinə gətirib çıxarır.

Azərbaycanda dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulmasında bu sahədə həyata keçirilən islahatlar davamlı xarakteri ilə seçilir. İslahatlar dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulmasını, bu sahədə şəffaflığın təmin edilməsini və vətəndaş məmnuniyyətinə nail olunmasını hədəfləyir. Qarşıya qoyulan hədəflər isə dövlət qulluğunun müasir modelinin yaradılmasını zəruri edir. Bu isə sözügedən sahədə ciddi innovasiyaların tətbiqi ilə reallaşdırıla bilər. Odur ki, Azərbaycanda həyata keçirilən dövlət qulluğu sisteminin islahatları kifayət qədər innovativliyi ilə diqqəti cəlb edir. Dövlət qulluğu sahəsində normativ yeniliklərlə yanaşı, institusional və kadr potensialının inkişafına yönəlik ciddi innovasiyaların tətbiqi müşahidə olunur. Xüsusilə e-hökumətin inkişafı, ümumilikdə dövlət qulluğu sahəsində informasiya-kommunikasiya texnolo-giyalarının tətbiqi, dövlət qulluqçularının təhsili, kadrların peşəkarlığının artırılması istiqamətində atılan digər addımlar özünün müsbət nəticələrini verməkdədir.

Hazırda dövlət qulluğu sahəsində həyata keçirilmiş mühüm islahatlar sayəsində Azərbaycan Respublikasında özünəməxsus dövlət qulluğu sistemi formalaşmış və bu sistemdə qabaqcıl beynəlxalq təcrübədən də uğurla istifadə edilmişdir. Başqa sözlə, dövlət



qulluğunda xarici təcrübənin tətbiqi ölkədə dövlət qulluğunun innovativ inkişafının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Dövlət qulluğu sahəsində istər konkret ölkələrin nümunələrinin tətbiqi, istərsə də ayrı-ayrı beynəlxalq və regional qurumların dəstəyi ölkəmizdə dövlət qulluğunun innovativ əsasda inkişafına öz müsbət təsirini göstərmişdir.

Hazırkı dövrdə qloballaşma prosesləri və sürətlə inkişaf edən texnoloji yeniliklərin təsiri dövlət qurumlarını zamanın yeni çağırışları və tələblərinə uyğunlaşmağa sövq edir. Əlbəttə ki, bu, dövlət qurumlarının iş proseslərinə təsirsiz ötüşmür. Adətən ləng, bürokratik strukturlar hesab edilən dövlət sektoru aparılan islahatlar və xüsusən də informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi ilə artıq effektiv fəaliyyət göstərən təsisata çevrilməkdədirlər. İnnovativ tətbiqlərdən olan İKT-nin Azərbaycanda dövlət idarəetməsində, dövlət qulluğu sistemində tətbiqi prosesi hazırda dinamik xarakter kəsb etməkdədir. Bu istiqamətdə artıq bir sıra ciddi nailiyyətlər də əldə edilmişdir. Bütün bunlar Azərbaycanda dövlət qulluğunda yeni texnolo-giyaların tətbiqinin bu və ya digər məsələlərini elmi-nəzəri aspektdən araşdırmaq aktuallığını ortaya qoyur.

## YASAMAL RAYONU ÜZRƏ TƏHSİL VƏ MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏRİN TƏŞKİLİ

**Şıxcəfərli Cavid**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Yasamal rayonu Bakı şəhəri üzrə mərkəzi rayonlardan biri kimi – bir neçə nazirlik (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi; Azərbaycan Respublikası Müdafiə Sənayesi

Nazirliyi; Ekologiya və Təbii Sərvətlər Nazirliyi; Azərbaycan Respublikası Ədliyyə Nazirliyi; Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;) komitə (Dövlət Gömrük Komitəsi), baş idarə, elm ocaqlarının (AMEA), universitetlərin, kolleclərin (tibb), məktəb və liseylə yanaşı incəsənət gimnaziyasının yerləşdiyi ərazidir. Mədəniyyət mərkəzlərindən – Azərbaycan Dövlət Milli Akademik Dram Teatrı, Azərbaycanfilm kinostudiyası, Azərbaycan Uşaq Filarmoniyası və televiziya kanallarının (Azərbaycan televiziyası, İctimai TV, Real TV, İdman TV, Space TV) əksəriyyətinin məhz Yasamal rayonunda yerləşməsi bu ərazidə yaşayan və təhsil alan uşaqların mədəniyyətin inkişafında mühüm rol oynayır.

Yasamal rayonunda təhsil şöbələri və təhsil müəssisələri tərəfindən öncədən təqvim planına salınmış müəyyən tədbirlər keçirilir. Yerinə yetiriləcək işlərin təqvim planları üzrə seminar keçirilir, müəssisələr üzrə bölünərək sistemləşdirilmişdir.

- rayon icra hakimiyyəti sturukturuna həvalə olunmuş yerli məsələlərin icrasının səmərəliliyi;
- rayon icra hakimiyyəti ərazisində yaşayan əhalinin maraqlarının nəzərə alınması ilə təşkil olunacaq tədbirlər planı;
- rayon icra hakimiyyətinin tabeçiliyində olan kitab-xanalarda tədbirlərin istiqamət fəaliyyətinin artırılması;
- rayon icra hakimiyyətinin nəzdində olan məktəblərlə kitabxanaların əlaqələrinin genişlənilməsi məqsədi ilə tədbirlər planının inkişafı;
- rayon icra hakimiyyətinin nümayəndələrinin, keçirilmiş tədbirlərdə iştirakı və əhali ilə daima əlaqədə olması.

Bu il 2023-cü il tədbirlər planında ən mühüm hadisə Ulu Öndərin anadan olmasının 100 illik yubiley tədbirləri idi. Bütün ali təhsil və elm ocaqlarında məktəb və liseylərdə icra nümayən-dələrinin iştirakı ilə tədbirlər keçirilmişdir. Məktəb (21 saylı tam orta məktəb) və



kitabxanalar arasında Heydər Əliyevə həsr olunmuş şeir müsabiqələri keçirilmişdir. Məktəblərdə bu tədbirlərdə fəal iştirak edən şagirdlər Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən qiymətləndirilmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ HÜQUQİ İSLAHATLAR

**Tahirov Tahir**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
t.tahirov@ptx.gov.az

Dövlət idarəetməsinin ən mühüm institutlarından biri dövlət qulluğu sistemidir. Elmi ədəbiyyatda dövlət qulluğu sisteminin anlayışına dair vahid yanaşma mövcud olmasa da, buna dövlət qulluğu ilə bağlı ictimai münasibətlərin tənzimlənməsi və realizəsi proseslərinin məcmusu kimi baxmaq olar.

Dövlət qulluğu dövlət hakimiyyətini yerinə yetirən sosial-hüquqi və təşkilati institut olmaqla dövlət hakimiyyətinin digər institutlarının formalaşması, realizəsi və təkmilləşdirilməsi mexa-nizmi kimi çıxış edir.

Dövlət qulluğu institutunun əsas məqsədi ölkənin qanun-vericiliyinin tətbiqini təmin etmək, dövlət orqanlarının normal funksiya göstərməsi üçün əlverişli hüquqi, təşkilati və sosial-iqtisadi şərait yaratmaqdır.

Dövlət qulluğu həm də hüquqi institut olduğu üçün onun mahiyyətinin hüquqi aspektlərinin öyrənilməsi bu sahədə mövcud vəziyyətin təhlili, dövlət qulluğunun güclü və zəif cəhətlərinin, habelə inkişaf etdirilməsi ilə bağlı imkanların müəyyənləşdirilməsi

baxımından olduqca əhəmiyyətlidir. Məhz dövlət qulluğu ilə bağlı qəbul edilən hüquqi aktlar və baş verən dəyişikliklər dövlət qulluğu sahəsində münasibətlərin nizamlanmasını təmin edir və dövlət qulluğunun digər elementlərinin fəaliyyəti üçün zəmin yaradır.

Dövlət qulluğunun formalaşdırılması, təşkili, inkişafı, dövlət qulluqçularının statusu, hüquqları, vəzifələri və dövlət qulluğunun digər elementləri ilə bağlı məsələlər ilkin olaraq hüquq nor-ma-larında təsbit edilir və bundan sonra onların tətbiqi mümkün olur.

Azərbaycan Respublikasında dövlət qulluğu ilə bağlı institusional, eləcə də hərtərəfli hüquqi islahatların keçirilməsi müstəqilliyin əldə edilməsindən sonrakı dövrə təsadüf edir. Keçid dövründə aparılan radikal islahatlarda dövlət idarəetməsi sahəsində köklü dəyişikliklər, dövlət aparatının modernləşməsi, beynəlxalq standartlara uyğun dövlət qulluğu sisteminin təşkili prioritet istiqamət təşkil edirdi.

Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya tərəfindən hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referdumda) qəbul edilmiş və həmin ilin 27 noyabr tarixində qüvvəyə minmiş Azərbaycan Respublika-sının Konstitusiyasında dövlət qulluğunun konstitusion əsasları müəyyən olunmuşdur.

Ölkədə gedən hərtərəfli islahatlara adekvat olan effektiv dövlət qulluğu sisteminin yaradılmasının vacibliyini nəzərə alan ümummili lider Heydər Əliyev 1996-cı ildə "Hüquqi islahatlar komissiyasının yaradılması haqqında" müvafiq Sərəncam vermiş və bununla da ölkədə hüquqi islahatların aparılması istiqamətində işlərə başlanılmışdır.

Nəticə olaraq xarici ölkələrin mütərəqqi təcrübəsindən istifadə olunmaqla dövlət qulluğunun təşkilati, hüquqi və digər əsaslarını müəyyən edən çoxsaylı hüquqi aktlar qəbul edilmişdir.



Dövlət qulluğu sahəsində əsaslı islahatların təməli bu sahədə başqa qanunvericilik aktlarının hazırlanması üçün baza xarakteri daşıyan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minməsi ilə qoyulmuşdur.

Bu mövzu üzrə tədqiqatın aktuallığı dövlət qulluğunun əhəmiyyətinin getdikcə artması və vətəndaş məmnunluğunun təmin olunmasında bu institutun xüsusi rolu ilə bağlıdır.

Tədqiqat mövzusu işlənərkən müxtəlif tədqiqat metodla-rından, xüsusilə müqayisəli təhlil, analiz və sintezdən istifadə edilmiş, dövlət qulluğunun güclü tərəfləri ilə yanaşı zəif cəhətlərinə və bu sahədə olan problemlərə də toxunulmuşdur.

## Ədəbiyyat


1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu
2. Назаренко М.Ю. "Государственная служба Российской Федерации". М.Экзамен, 2007.
3. Rzayev Ə.H. "Dövlət qulluğunun hüquqi əsasları". Bakı, "Elm" 2011.
4. Hüquqi Aktların Dövlət Reyestri

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

**Vəliyev Samir**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*
samir.valiyev@gmail.com

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli 3494 nömrəli Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur.

Ümummilli lider 1969-1982-ci illərdə Azərbaycan SSR-ə və 1993-2003-cü illərdə artıq müstəqil Azərbaycana rəhbərlik etmişdir. Ulu öndərin Azərbaycana rəhbərlik etmədiyi dövrlərdə, ölkə gəncliyi cəmi siyasi proseslərdən kənarda qalmış və özlərinin potensialı kifayət qədər qiymətləndirilməmişdi. Gənclər siyasəti hər şeydən əvvəl unudulmuşdu. Həmin dövrdə, təhsil sisteminin iflic halları, ictimai-siyasi vəziyyətin təsiri altında qalan gəncliyin öz başına qoyulması, inam hissinin itirilməsinə səbəb oldu. Lakin, Heydər Əliyevin



hakimiyyətə qayıdışı ilə bu vəziyyət kökündən dəyişdi. Belə bir məqamda hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüşünü məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" sözləri hər kəsin həyat devizinə çevrildi.

Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə azərbaycanlı milli kadrların hazırlanması işinə də xüsusi diqqət yetirirdi. Məhz onun təşəbbüsünün nəticəsi idi ki, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər respublikaların nüfuzlu ali məktəblərində təhsil alaraq respublikaya qayıtmış, Azərbaycanın inkişafına dəyərli töhfələr vermişlər.

Ümummilli Lider Heydər Əliyev dövrünün ən nüfuzlu siyasətçilərindən biri kimi Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır.

Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Heç bir şübhə yoxdur ki, ölkəmizin hərtərəfli inkişafı üçün ümummilli liderimizin hazırladığı və dövlətimizin başçısı tərəfindən hazırda inamla inkişaf etdirilən strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın rifah səviyyəsinin daha da yüksəldilməsi işinə xidmət edəcək.

## DÖVLƏT QULLUQÇULARININ MOTİVASİYASI DÖVLƏT QULLUĞUNUN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI VASİTƏSİ KİMİ

**Yolçuyev Elşən**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

**Xülasə**

Tezisdə dövlət qulluğunda motivasiya tədbirləri təhlil edilmişdir. Dövlət qulluğunda motivasiya tədbirlərinin dövlət qulluqçularının fəaliyyət səmərəliliyinə müsbət təsirləri və nəticə yönümlü fəaliyyətin stimullaşdırılması göstərilmiş və praktik təkliflər irəli sürülmüşdür.

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət qulluqçusu, motivasiya, dövlət qulluğunda islahatlar, dövlət qulluqçularının sosial təmi-natı.*

Hər bir dövlətin iqtisadi inkişafının və vətəndaşlarının rifahının yaxşılaşdırılması o ölkədə əməyin düzgün təşkili və məhsuldarlığının artırılmasından aslıdır. Burada insan amili əmək məhsuldarlığının yüksəldilməsində və istənilən təşkilatın səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasında əsas elementdir. Hər bir dövlətin isə normal fəaliyyət göstərməsi üçün peşəkar kadrlardan formalaşmış dövlət aparatının olması zəruridir. Dövlət qulluqçuları isə dövlət aparatının təməlini təşkil edir. Məhz dövlət qulluqçularının xidməti vəzifələrini yüksək peşəkarlıqla yerinə yetirməsi dövlət orqanının səmərəli fəaliyyətinin əsas amillərindən biridir. Yerli və xarici təcrübə göstərir ki, dövlət qulluğunda motivasiya məsələləri düzgün təşkil edilməsə, o zaman cari və uzunmüddətli dövrlərdə effektiv fəaliyyətə arxalanmaq mənasızdır. İstənilən təşkilatda, istər kommersiya təşkilatı, istərsə də büdcə təşkilatı işçilərinin məhsuldarlığı üçün motivasiya vacib amillərdən biri sayılır [1]. İlk motivasiya nəzəriyyələrindən biri Teylorun nəzəriyyəsi hesab olunur. Onun nəzəriyyəsinə görə işçini əsas motivə edən əsas amil maddiyatdır. Ancaq bu fikirləri çox bəsit adlandırıb tənqid edən alimlər də olmuşdur [2]. Ümumiyyətlə işçilərin motivasiya mövzusuna bir çox Qərb alimləri Leblebici, Armstrong, Skinner (Burrhus Frederic Skinner), Pavlov, Edvard Torndaykın (Edward Thorndike) və digərləri müraciət etmişlər. Bu alimlər "mükafat və cəza", "nəticəyə görə davranış yanaşması", "təsir qanunları" kimi konsepsiyalarla motivasiyanı əsaslandırmağa çalışmışlar. Belə ki, Leblebici işçilərin motivasiyasının heç də maddi amillərlə bağlı olmadığını iddia etmiş, Armstronq mükafat və ya cəzanın işçinin performansı ilə birbaşa

əlaqələndirildiyi halda işçinin motivasiyası baxımından əhəmiyyətli olduğunu vurğulamış, Pavlov və Edvard Torndaykın isə motivasiyanı "Təsir Qanunu" vasitəsi ilə izah etməyə çalışmışlar. Onların iddialarına görə "Təsir Qanunu"na əsasən, insan ona zövq verəcək, nəticəsindən özünün məmnun qalacağı davranışları təkrar edəcək, ona zərər verəcək və nəticəsində əziyyət çəkəcəyi davranışlardan uzaq duracaq [3]. Digər bir alim Herzberq (Frederick Herzberg) isə işçinin motivasiyasının aşağı düşməsini iki faktorla, yarıtmaz iş mühiti və maaşla əlaqələndirir [4].

Motivasiya müəyyən bir məqsədə çatmaq üçün öz istək və istəklərinə uyğun hərəkət etməkdir. Motivasiya nəzəriyyələrinin ortaya çıxma səbəbi də fərqli ehtiyacların araşdırılmasının nəticəsidir. Motivasiya nəzəriyyələri, çalışan fərdlərin ehtiyaclarıyla əlaqələndirilən bir çox yanaşmanı nəzərdən keçirməkdədir. Bu nəzəriyyələr məzmun nəzəriyyələri və proses nəzəriyyələri altında incələnir. Məzmun nəzəriyyələri şəxslərin ehtiyacları olan motivlərə, yəni fərdin daxili aləmində olan faktorlara üstünlük verir. İdarəedicilər, çalışanları müəyyən bir istiqamətdə çalışmağa vadar edən səbəbləri anlaya bilərlərsə, bu faktorlara xitab edərək onları daha yaxşı şəkildə müəssisə məqsədləri istiqamətində idarə edə bilərlər. Məzmun nəzəriyyələrinə Maslounun tələbatlar iyerarxiyası, Hersberqin iki amil nəzəriyyəsi, MC Gregorun X və Y nəzəriyyəsi, McClellandın motivasiya ehtiyacı nəzəriyyəsi, Alderferin ERG nəzəriyyəsi daxildir. Maslou-Ehtiyaclar İyerarxiyası yanaşması nəzəriyyəsi 1960-cı illərdə insan davranışlarına aydınlıq gətirən model olaraq təkmilləşdirilmişdir və müşahidələrindən faydalanaraq müəyyən etmiş və vacibliyinə görə daxili tarazsızlıq, ehtiyaclar, istək və ya gözləntilər və bunlarla əlaqəli təxminlər, davranış və ya hərəkət motivasiyası və məqsəd, daxili vəziyyətdəki dəyişikliklər kimi sıralanmışdır.



Məsələn:

1.Fizioloji ehtiyaclar - havaya tələbat, qida və suya tələb, yuxu ehtiyacı və s.

2. Təhlükəsizlik ehtiyaclar - sağlam həyat, iş həyatı, texniki təhlükəsizlik, həyat təhlükəsizliyi, haqq-hüquqlar və s.

3. Aidolma ehtiyacı - ailə, ünsiyyət qurma ehtiyacı, aidolma tələbatı, dostluq münasibətlərinin qurulmasına tələb, sevgi, və s.

4. Hörmətə olan ehtiyac - özünə hörmət etmə, tanınma, uğur qazanmaya tələbat, özünə inam və s.

5. Özünü ifadəyə olan ehtiyac - şəxsi inkişafı həyata keçirmə, potensialını göstərmə, istedadından istifadə etmə, yaradıcılıq və s.

Motivasiyanın əsas komponentləri təşəbbüskarlıq, təşkilati məqsədlər və individual məqsədlərdir. Bütün bu komponentlərin yaranmasının kökündə təmin edilməmiş ehtiyaclar durur.

Təşkilati məqsədlər - müəssisələrdə əsas anlayış və təməl qavramları yerinə oturtmaq üçün təşkilati hədəflər müəyyənləş-dirilməlidir. Motivasiyanın müəssisənin xeyrinə və idarəetməyə faydasının olması işçinin sərf etdiyi enerjiyə bağlıdır. Motivə edilmiş işçinin qatqısı həm özü, həm də müəssisə məqsədlərinə xidmətdə öncül rola malikdir. Müəssisə üçün təşkilati hədəflər bütün personalın birlikdə qatqısı vasitəsilə mümkündür. Bir müəssisə üçün vizyon, missiya və hədəflər çox önəmlidir. Təməl ehtiyacların qarşılanması halında motivasiya yüksəlişi reallaşır. Motivasiyanın artması ilə də işçilər özlərinə verilən dəyər sayəsində işə daha həvəslə yanaşacaq və məhsuldarlıq artacaqdır. İş görərkən əmək sərf etmək, təşəbbüs göstərmək və bütün bunların nəticəsini əldə etmək çox önəmlidir. Bir iş üçün personalın göstərdiyi təşəbbüs nəticəsində onu motivasiya etmək, yeni dəyər olaraq geri qayıtmaqda, onu digər işlərin yerinə yetirilməsində həvəsləndirməkdədir.

## Ədəbiyyat


1. Zhigun L.A., Abramov R.A., Mukhaev R.T., Sokolov M. S. Formirovanie effektivnoi modeli gosudarstvennogo upravleniya v Rossiiskoi Federatsii – teoreticheskie i prikladnye aspekty: monografiya [Formation of an effective model of government in the Russian Federation – theoretical and applied aspects: Monograph]. M.: «ID Tret'yakov», 2016. 234 p.
2. Leblebici, D.N. (2008). "Yönetim Bilimi Açısından Klasik Dönemi Hatırlamaya İlişkin Bir Çalışma", Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, Ağustos, (21): 99-118.
3. Koçel, T. (2011). İşletme Yöneticiliği, 13. Baskı, İstanbul: Beta Yayınları.
4. Robbins, S.P. (2005). Organizational Behavior, 11th Edition, New Jersey: Pearson Prentice Hall.


## VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA DİNİ İCMALARIN ROLU


**Yoldaşov Samir**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

samiryoldashov1987@gmail.com


Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində yeni bir mərhələ başladı. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin



icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Azərbaycan xalqı öz milli və dini bayramlarını azad, sərbəst qeyt etmək hüququ əldə etdi, ölkə vətəndaşlarının müqəddəs yerlərə ziyarətinin təşkili üçün şərait yaradıldı. İllər boyu baxımsızlıqdan uçub dağılmış pir və ziyarətgahlar fəaliyyətini yenidən bərpa etdi, gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin daim təkmilləşdirilməsi, vətəndaşların dini etiqad və vicdan azad-lıqlarını mükəmməl şəkildə təmin edilməsi üçün onun həm qanunvericilik bazasının təkmilləşdirilməsi, həm də idarəedil-məsində ardıcıl addımlar atılmışdır. 2001-ci ildə iyunun 21-də Prezidentin fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılır. Bu hakimiyyət strukturunun vəzifələri sırasına vətəndaşların vicdan azadlıqlarının təmin edilməsinə dəstək vermək, müxtəlif dini icmalar, konfessiyalarla dövlət arasında münasibətləri nizamlı şəkildə həyata keçirmək, qəbul edilmiş qanunların, hüquqi aktların riayət olunmasına nəzarət etmək, dini qurumları qeydiyyata alaraq onlarların konstitusiya hüquqlarının təmin edilməsinə şərait yaratmaq olmuşdur. Müstəqil Azərbay-canın bütün tarixi dövründə dövlətin vətəndaşların dini hisslərinə, onların bu sahədə hüquq və ehtiyaclarına qayğısı həmişə hiss olunmuşdur. Ölkədə mövcud olan dinlərin, konfessiyaların bərabər hüququ təkcə kağız üzərində deyil, həm də real həyatda konkret məsələlərdə təmin edilmişdir.

Dünyada dini ayrı-seçkiliyin gücləndiyi və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Bu gün bütün dünyada demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər

boyu formalaşan və bir çoxlarına örnək olan xarakterik xüsusiyyətidir və bu, inkaredilməz həqiqətdir. Bu gün Azərbay-canda kilsə və sinaqoqlarla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi və onlara dövlət tərəfindən lazımi dəstək verilməsi də buna əyani sübutdur.

Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərsə də, islam dini üstün mövqe tutur. Əhalinin 95 faizindən çoxu islam dininə etiqad edir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər bir şəxs vicdan azadlığı hüququna malikdir. Konstitusiyanın 18-ci maddəsinin 1-3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır. Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Hazırda Azərbaycan Respublikası ərazisində 510 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 32-i qeyri-islam təmayüllü dini icmalardır.

Dini icmalar ölkə həyatında mühüm rol oynayırlar. Dini icmaların fəaliyyəti vətəndaş cəmiyyətinin formalaşmasına və inkişafına töhfə verir. Dini icmaların aktiv fəaliyyətinə ən mühüm misal kimi Vətən müharibəsi dövrünü göstərmək olar. Həmin dövrdə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ölkədə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman



dini konfessiya rəhbərləri ilə sıx əməkdaşlıq şəraitində birgə bəyanatlar qəbul edilib.

Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları tərəfindən rus və ingilis dillərində verilən bəyanatlarda erməni vandalizmi pislənilib, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirilib. Eyni zamanda müsəlman və qeyri-müsəlman dini icmalarının rəhbərləri tərəfindən xarici ölkələrin müxtəlif rəsmi şəxslərinə və qurumlarına, dini sahə ilə məşğul olan xarici və beynəlxalq təşkilatlara, dini mərkəzlərə xarici dillərdə müraciətlər ünvanlanıb.

Bütün bunlar dini icmaların cəmiyyət həyatındakı aktiv fəaliyyətindən xəbər verir və mövzunun aktuallığını ortaya qoyur.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

**Yusifov Hüseyn**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı*

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə

başladı. Bütün bunları bilən ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və



inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə “Gənclər ili” elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda çoxlu sayda Olimpiya İdman Komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır. Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz

nümunəsidir. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Bu gün tam əminliklə demək olar ki, Ulu Öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərlən-dirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf



Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiya-larından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. 2016-cı ilin aprelində təmas xəttində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi, gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir. Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti gənc nəslin hərərəfli inkişafı üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. Bu baxımdan 44 günlük Vətən müharibəsi Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmini bütün dünyaya nümayiş etdirdi. Müharibənin əsas ağırlığı Azərbaycan gəncinin üzərinə düşdü. Çünki amansız döyüşlərdə əldə silah düşmənin üzərinə gedən ilk növbədə gənclər oldular. Gənclərimizin fəallığı sayəsində bütün sosial media platfor-malarında düşmənə adekvat cavablar verildi. Müharibəyə yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdi. Onlar bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişən gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi. Müzəffər ordumuzun əfsanəvi qəhrəmanlığı və modern döyüş bacarığını nümayiş etdirməsi bütün dünyada heyrətlə qarşılandı. Hər biri öz igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı, zəfər dolu döyüş



yolu ilə dillərdə dastana döndü. Torpaqlarımızın azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti gənc insanlar idi. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində gənclərimizin göstərdiyi şücaət bir vətənpərvərlik məktəbidir. Bu məktəbi öyrənmək, şahidlərimizin xatirəsinə hörmətlə, qazilərimizə diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur.

Gənclər siyasəti ilə bağlı görülən işlər bir daha onu deməyə əsas verir ki, bu gün ölkəmizdə vətənpərvər, milli-mənəvi dəyərlərə, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq gənclik formalaşdırılır, bunun üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu isə gələcək inkişafımızın möhkəm əllərdə olacağına böyük əminlik yaradır. Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq.

## PRIORITIES OF STRENGTHENING THE HEALTH INSURANCE SYSTEM IN AZERBAIJAN

**Ahmedova Zeynab**
*Azerbaijan State Economic University, master student*
zeynabakhmedova17@mail.ru

Health insurance, being a form of social protection for the population, is a system that ensures the right of citizens to receive medical assistance. Health insurance is a form of social protection for the interests of citizens created for the purpose of compensation for damages caused to health for various reasons. Medical insurance is implemented in the form of coverage of medical expenses for the population. It should be noted that interest in health insurance in our country is at a very low level. Medical insurance is carried out in compulsory and voluntary forms. The law "On Medical Insurance" was adopted in 1999. Although the law states that health insurance is mandatory, this law is still not fully implemented across the country. Compulsory medical insurance is implemented as a pilot project in the Mingachevir, Agdash, and Yevlakh regions, and it is considered to be implemented gradually throughout the country by 2020. As a form of compulsory medical insurance, only "compulsory insurance against cases of loss of professional labor capacity as a result of accidents and occupational diseases" is carried out. Voluntary health insurance is not used by individuals but mainly by corporate clients.

It is difficult to say what percentage of the country's population is covered, as it is not clear how many people in the country use private health insurance. Indicators about health insurance premiums and



payments are given in general, that is, insurance premiums and insurance payments collected by individual insurance companies are not mentioned, therefore it is difficult to study which companies have the highest market share. The share of insurance companies is analyzed according to their position in the general insurance market, which does not allow to imagine the full real picture.

During the guarantee of providing medical assistance costs to the insured person, the insured person must cover the costs incurred in connection with the implementation of treatment and the restoration of working capacity. Thus, medical expenses insurance protects the general condition of the insured person from unexpected expenses, like loss insurance. During the insurance coverage of the loss of labor income, the insurance organization pays the financial loss to the insured person for the sick day. The amount of the paid funds and the period of their payment are determined in accordance with the insurance contract and also depend on the labor income actually received by the insured person and the day determined by the labor legislation. That is, the insurance of the loss of labor income is the insurance of the specific income amount of the insured person. If we look at the world experiences of KTS, we will see that there are mainly four models. Duplicate, complementary, primary, and supplementary health insurance models 1. Supporting model (duplicate): This model is used for areas not covered by the government or ITS (for example, dental health services) or for services whose costs are the same as ITS. (Balkanli, B., 2017: p. 45). 2. Complementary model (complementary) is a medical insurance model that provides for the insurance of risks that are not covered by ITS or a certain part of which is covered, and the costs of medical care remain on the insured. 3. Primary (primary) model is a model intended for 22 persons who cannot use the services of ITS. For example, immigrants who cannot use public health services

use this model. 4. Supplementary model- Citizens use this insurance model according to their wishes. This is a model where certain coverage is purchased to get or get some medical services sooner. The model is used for services that are not included in the ITS package. Different models are applied in each country. For example, there is a supporting model in Belgium, complementary and supportive in France, primary, complementary, and supportive in Germany, primary in the Netherlands, supportive in England, and complementary and supportive private (voluntary) health insurance models in Turkey.

In my opinion, the following should be followed to develop the health insurance market: Not all citizens of the country should be included in the scope of compulsory health insurance, but people whose income level is below a certain limit and vulnerable sections of the population (pensioners, students, disabled persons, persons under 18 years of age, pregnant women, and mothers with children up to 3 years of age). . For other people, give a chance to choose compulsory or voluntary health insurance. In this way, they will promote the development of private insurance; - Compulsory medical insurance should be implemented not by a specific institution, but by individual non-commercial enterprises created for this purpose (State Agency for Compulsory Medical Insurance) or by insurance companies, as in other types of compulsory insurance. - Medical institutions should be reformed in terms of finance and management and implement their own marketing policies; In the field of private insurance, as in the case of life insurance, certain tax and social benefits should be given to the insured; in the field of private health insurance, the number of individual health insurance programs should be increased and insurance rates should be lowered. Since decisions are made independently in the private sector, cooperation between private insurance companies and advanced state medical institutions in terms



of medical equipment and personnel is important for the implementation of the two proposals we mentioned.

## ГОСУДАРСТВЕННАЯ И ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА В НАХЧЫВАНСКИЙ ПЕРИОД

**Асадова Ханум**
*кандидат исторических наук,*
*Азербайджанский Государственный Аграрный Университет*

**Аннотация:** Общенациональный лидер Гейдар Алиев в июле 1990 года вернулся на родину, в Азербайджан, а точнее, - в Нахчыван, где он родился. 4 сентября 1991 года сессия Верховного меджлиса Нахчыванской АР избрала депутата Верховного Совета Азербайджана и Верховного меджлиса Нахчывана Гейдара Алирза оглы Алиева предсе-дателем Нахчыванского парламента.

***Ключевые слова:*** *Гейдар Алиев, Ени Азербайджан, Нахчыван.*

Народный фронт, стоявший на раннем этапе борьбы за независимость во главе национально-освободительного дви-жения, впоследствии вступил в сделку с властями и ослабил свои позиции. Властные структуры и НФА в середине мая 1990 года создали Консультационный совет, с согласия которого сессия Верховного Совета Азербайджана учредила 19 мая пост президента. В июле, на выборах в Верховный Совет Азербайджанской ССР, «демблок» получил всего 30 мандатов из 360. Движение нуждалось в новом лидере. И потому приезд Гейдара Алиева в Нахчыван, избрание его депутатом Верховного

Совета Азербайджана, председателем Верховного меджлиса Нахчыванской АР, его деятельность на этом посту были знаковыми событиями в борьбе за свободу и суверенитет Азербайджана. Состоявшаяся под его предсе-дательством сессия нахчыванского парламента 17 ноября 1990 года исключила из названия республики слова «совет-ская, социалистическая», заменила название «Верхов-ный Совет» на «Верховный меджлис» 191, объявила о принятии трехцветного флага Азербайджанской Демократической Республики (1918-1920) в качестве своего государственного флага. [2] Деятельность Гейдара Алиева в Нахчыване находилась в центре внимания азербайджанской и мировой печати, политических деятелей и народов зару-бежных стран. Они слушали его выступления на пресскон-ференциях, приезжали в Нахчыван, встречались с ним, интересовались его мнением о ситуации в Нахчыване и в Азербайджане, мыслями о будущем республики.

Осложнение политической ситуации в Азербайджане, некомпетентность республиканского руководства, рост внутренних распрей создали угрозу утраты независимости. 16 октября 1992 года группа азербайджанской интеллигенции обратилась к Гейдару Алиеву с просьбой о создании в Азербайджане политической партии «Ени Азербайджан» и его участии в этой партии. 24 октября Гейдар Алиев в ответ на это обращение заявил, что назрела необходимость в создании такой партии и, если она появится, он согласен вступить в нее. 5 ноября состоялось заседание организационного комитета «Ени Азербайджана», на котором Гейдар Алиев был избран председателем оргкомитета. [1] 21 ноября в Нахчыване прош-ла учредительная конференция партии. В ее работе приняли участие более 550 делегатов из всех регионов страны. Путем открытого



голосования председателем партии «Ени Азербай-джан» был избран Гейдар Алиев. Конференция также приняла программу и устав партии.

**Литература**


1. Указы и распоряжения Президента Азербайджанской Республики. Баку, 1995-1999.
2. F.Maqsudov. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, 1998.


## ВНЕШНЯЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА


**Асланов Эльгюн**

*Азербайджанский Государственный Аграрный Университет доцент,*



**Аннотация:** Одним из основных способов обеспечения национальных интересов, безопасности и общего развития любой страны считается продуманная внешняя политика. Гейдар Алиев, вернувшийся к власти летом 1993 года, применил вышеупомянутый взвешенный внешне-полити-ческий подход, что значительно помогло стране выйти из сложившегося кризиса.



***Ключевые слова:*** *внешняя политика, Гейдар Алиев, приоритет, отношение.*


Несмотря на сложную геополитическую ситуацию с связи с войной, которую Армения вела против нашего государства, крупные политико-идеологические, военные, экономические угрозы исходящие от других центров силы и многочисленные внутренние проблемы, внешняя политика Гейдара Алиева,

основанная на прагматизме и железной логике возвела нашу страну в статус достойного члена системы международных отношений. В качестве ключевых качеств внешней политики Гейдара Алиева можно также указать на дистанцированность от авантюризма и какого-либо политического риска, а также на его прагматизм и мудрость. Разумная, прагматичная внешняя политика зачастую решает ряд важнейших вопросов. К ним можно отнести следующие: история страны, численность населения, экономический потенциал, военный потенциал, география, геополитический статус и, конечно же, изменчивость мира. При учете всех этих факторов проводимую внешнюю политику можно считать рациональной или продуманной. Гейдар Алиев, блестящий политик, руководивший Азербайджаном с 1993 по 2003 год, претворил в жизнь свой внешнеполитический план, приняв во внимание все факторы, о которых мы говорили ранее.

К основным приоритеты и задачам внешней политики Г.Алиева, вернувшегося к власти в достаточно сложный и сложный для нашего народа период заключались к защите и укрепление нашей независимости, нейтрализации различных угроз, продвижении нашего государства и укрепление наших позиций в системе международных отношений путем интеграции его в эту систему, обеспечении нашей территориальной целостности и устранение армянской агрессии. Основными целями внешней политики Г. Алиева были установление дружественных отношений со всеми народами, особенно с региональными центрами силы, участие в международных интеграционных процессах, создание глобальной и региональной систем безопасности и одновременно решение глобальных проблем. Хотим подчеркнуть тот факт, что для защиты



интересов нашего народа и интересов нашего государства в системе международных отношений Гейдар Алиев с незаурядным мастерством использовал дипломатию, являющуюся одним из основных инструментов осуществле-ния внешней политики.

## Литература

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I – IV c., Bakı, 1998.
2. А.Исмаилов, Г.Алиев. Гейдар Алиев: философия национального достоинства. Баку, 1998.